Tədqiqat zamanı aparılan müalicənin- fiksə olunmuş üçlü kombinasiyanın effektivliyi də qiymətləndirilmişdir. Fiksə olunmuş üçlü kombinasiyalı Eksforj H (80/12,5/5 mq) preparatının təyini zamanı dinamikada AT-nin səviyyəsi, eləcə də qanda kreatinin, qalıq azot, sidik cövhərinin konsentrasiyası, LDH və KFK-MB fraksiyasının fəallığı öyrənilmişdir (şək.1). Müalicənin 15-ci günü SAT orta hesabla 100,5±7,8 mm.c.süt, DAT isə 70,3±1,2 mm.c.süt-na qədər azalmışdır. Bu zaman kreatininin konsentrasiyası 109,1±2,7 mkmol/l, qalıq azot 40,8±2,2 mmol/l, sidik cövhəri isə 15,4±2,7 mmol/l təşkil etmiş və statistik dürüst olmuşdur ($p<0,05$). Lizosomal fermentlərin fəallığı aparılan müalicə nəticəsində artaraq, LDH 291,6±9,7 U/l, KFK-MB fraksiyası isə - 371,9±3,1 U/l təşkil etmişdir.



Şək.1. Modeldə fiksə olunmuş üçlü kombinasiyalı Eksforj H preparatının qanda kreatinin, qalıq azot, sidik cövhərinin konsentrasiyası, LDH və KFK-MB fraksiyasının fəallığına təsiri

Müalicənin 1 ayında tədqiq olunan göstəricilərdə dəyişiklik qeyd olunsa da yenə statistik əhəmiyyətli nəticələr qanın biokimyəvi göstəricilərində müəyyən edilmişdir. Aparılan müalicə fonunda AT-nin 114/50 mm.c.süt-na qədər azalması halları qeyd olunmuşdur. Müalicədən 1 ay sonra qanda kreatininin konsentrasiyası 93,5±1,5 mkmol/l ($p<0,01$), qalıq azot - 31,9±0,5 mmol/l ($p<0,01$), sidik cövhəri - 11,0±0,3 mmol/l-ə ($p<0,01$) qədər azalmışdır. Artıq 1 ay aparılan müalicə nəticəsində lizosomal fermentlərin fəallığının yüksəlməsi qeyd edilmişdir. Bu zaman LDH-nin fəallığı 334,7±9,7 U/l, KFK-MB fraksiyası isə - 460,4±3,1 U/l təşkil etmişdir ki, bu da müalicədən əvvəlki səviyyədən statistik dürüstlüklə fərqlənmişdir ($p<0,01$).

Aparılan müalicə fonunda LDH fermentinin fəallığının dürüstlüklə artmasını AÇFİ-nin karbohidrat mübadiləsini tənzimləməsi ilə izah etmək olar. Məlumdur ki, KFK-MB fraksiyası makroergik fosfat birləşmələrinin "daşınması" rolunu daşıyır: o, enerjinin mitoxondriumdan hüceyrə sitoplazmasına daşınması prosesində xüsusi rol oynayır [1,3,6]. Müalicə nəticəsində KFK-MB fraksiyasının statistik dürüstlüklə artması müşahidə edilsə də, fermentin fəallığının normal səviyyəsi bərpa edilməmişdir. Metabolizmin enerji təminatının əsas fermentinin fəallığının artması göstərir ki, AÇFİ renin-angiotenzin sistemini blokada edərək, angiotenzin II-nin əmələ gəlməsini azaldaraq orqanizmdə mübadilə proseslərinin bərpa olunmasına səbəb olur [2,6].

Beləliklə, AH modeli zamanı qanda lizosom fermentlərin fəallığının dinamiki öyrənilməsi zamanı LDH və KFK-MB fraksiyasının azalması müşahidə edilir. Fiksə olunmuş üçlü antihipertenziv müalicə zamanı isə onların yüksəlməsi, bu kombinasiyanın komponentlərinin hüceyrə metabolizminə müxtəlif istiqamətlərdə təsirinə dəlalət edir.

ƏDƏBİYYAT

1. Дроздова Г.А., Румянцева Е.Г., Михеев М.С., Мустяца В.Ф. Клинические показатели и белковый спектр крови при артериальной вазоренальной гипертензии в эксперименте // Вестник РУДН, 2003, №2, с.12-18

2. Sattar M., Yusof A., Gan E. et. al Acute renal failure in 2K2C Goldblatt hypertensive rats during antihypertensive therapy: comparison of an angiotensin AT1 receptor antagonist and clonidine analogues // Journal of Autonomic Pharmacology, 2000, p.297-304

3. Yamamoto E., Kataoka K., Dong Y. et al. Calcium Channel Blockers, More than Diuretics, Enhance Vascular Protective Effects of Angiotensin Receptor Blockers in Salt-Loaded Hypertensive Rats // www.plosone.org June 2012, v 7, Issue 6, e. 391-62

4. Goldblatt H., Kahn J.R. Experimental hypertension: constriction of the aorta at various levels // JAMA, 1938, v.9, p.685.

5. Мустяц В.Ф. Функциональные и структурные особенности миокарда при применении гипотензивных перапаратов в условиях экспериментальной артериальной гипертензии: Автореф. дисс. ... доктора медицинский наук. М., 2005, с. 12-15

6. Азова М.М, Благонравов М.Л, Фролов В.А. Апоптоз кардиомиоцитов при вазоренальной артериальной гипертензии как следствие нарушения энергетического баланса клеток // Казанский медицинский журнал, 2013, №1, с. 68-70

7. Благонравов М.Л., Азова М.М., Фролов В.А. Биохимическое исследование апоптоза клеток миокарда при острой перегрузке левого желудочка в эксперименте // Вопр. биол. мед. и фарм. хим., 2010, №8, с.49-53

8. Мубарашкина О.А., Сомова М.Н. Современные подходы к использованию тройных комбинаций в лечении артериальной гипертензии // Consilium Medicum, 2017, №10, с.39-42

9. Miesel A., Müller-Fielitz H., Jöhren O. et. al Double blockade of angiotensin II (AT1)receptors and ACE does not improve weight gain and glucose homeostasis better than single-drug treatments in obese rats // British Journal of Pharmacology, 2012, 165, p.2721-2735

Резюме

Биохимические показатели крови и активность лизисомальных ферментов у моделей артериальной гипертензии в эксперименте и эффективность антигипертензивной терапии

Н.Р.Азаева

Целью исследования явилось изучение биохимических показателей крови, активность лизосомальных ферментов у моделей артериальной гипертензии (АГ) и оценка эффективности трехкомпонентного антигипертензивного лечения. В эксперимент были включены 23 кроликов с весом 2,5-3,0 кг породы Шиншиллы, у которых был создан модель АГ. Из них 8 кроликов, которые не получали антигипертензивную терапию (АГТ) составили контрольную группу. У 15 кроликов основной группы после 4 недели создания модели начинали АГТ в течении 1 месяца. В течении 8 недель у кроликов измеряли макисмальную (САД) и минимальную артериальную давлению (ДАД) с помощью ветеренарным электронным танометром. Наряду с этим определяли уровень креатинина, мочевины, остаточного азота в плазме крови, также активность ферменов лактатдегидрогеназа (ЛДГ) и МВ фракция креатининфосфокиназы (МВ КФК), проводили ЭКГ исследования. Всем кроликам основной группы назначали препарат Эксфорж Н (Валсартан/гидрохлортиазид/амлодипин 80/12,5/5 мг и 160/25/10 мг), подбирая индивидуальную дозу в зависимости АД 1 раз в сутки per os. Во время исследования наряду с увеличением АД, было выявлено повышения уровня креатинина, остаточного азота и мочивины в плазме крови при создании модели АГ, которое сопровождалось нарастанием в течении месяца. Отмечалось также снижение активности фермента ЛДГ и МВ-КФК. После провидимой терапии в течении 1-го месяца было обнаружено положительная динамика и уровня АД и показателей биохимического анализа. Так как, концентрация креатинина снизилась на 28,5%, остаточный азот-36%, мочевины - 40%, активность ЛДГ повышалась на 30%, МВ-КФК-на 40%. Таким образом, у моделей АГ наряду с повышением АД и показателей биохимического анализа, отмечается снижение активности лизосомальных ферментов. Повышение активности ферментов ЛДГ и МВ-КФК при проведении трехкомпонентного АГТ показывает, что компоненты этой комбинации влияет на различные звенья клеточного метаболизма.

Summary

Blood biochemical parameters and lysosomal enzyme activity in experimental models of arterial hypertension and the effectiveness of antihypertensive therapy

N.R.Azayeva

The aim of the study has been to study the biochemical parameters of blood, the activity of lysosomal enzymes in models of arterial hypertension (AH) and assess the effectiveness of three-component antihypertensive treatment. The experiment has included 23 rabbits of Chinchilla breed weighing 2.5-3.0 kg, which the AH model has been created in. Of these, 8 rabbits which have not received antihypertensive therapy (AHT) have made up the control group. After 4 weeks of model creation, AHT has been started in 15 rabbits of the main group within 1 month. Over the course of 8 weeks, maximal (SBP) and minimal arterial therapy (DBP) have been measured in rabbits using a veterinary electronic tanometer. Along with this, the level of creatinine, urea, residual nitrogen in the blood plasma, the activity of the enzymes lactate dehydrogenase (LDH) and the MV fraction of creatinine phosphokinase (MV KFK) have been determined, ECG studies have been performed. All rabbits have been prescribed Exforge H (valsartan/hidroxlortiazid/amlodipin 80/12.5/5 mg and 160/25/10 mg), choosing an individual dose depending on blood pressure once a day per os. During the study, along with an increase in blood pressure, an increase in the level of creatinine, residual nitrogen and urine in the blood plasma has been revealed when creating a model of hypertension, which has been accompanied by an increase during the month. A decrease in the activity of the enzyme LDH and MV-KFK has been also noted. After the therapy hold for 1 month, positive dynamics have been found both in the level of blood pressure and indicators of biochemical analysis. Since creatinine concentration has decreased by 28.5%, residual nitrogen – by 36%, urea – by 40%, LDH activity has increased by 30%, MV-KFK by 40%. Thus, along

with an increase in blood pressure and indicators of biochemical analysis, a decrease in the activity of lysosomal enzymes is noted in AH models. An increase in the activity of the enzymes LDH and MV-KFK during the three-component AHT shows that the components of this combination affect various parts of the cellular metabolism.

Daxil olub: 06.08.2019

Azərbaycan Respublikasının Muğan düzünə daxil olan rayonlarda malyariya xəstəliyinin eliminasiyadan əvvəl və eliminasiya dövründə qeydiyyatının dinamikası

N.M.Zeynalova
Azərbaycan Tibb Universiteti, Epidemiologiya kafedrası, Bakı

Açar sözlər: malyariya, eliminasiya, Muğan düzü
Ключевые слова: малярия, элиминация, Муганская равнина
Keywords: malaria, elimination, Mugan plain

Azərbaycan Respublikasında 2008-ci ildən başlayaraq Səhiyyə Nazirliyinin Milli Strategiyası çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində bütövlükdə malyariya ilə xəstələnmə minimuma endirilsə və malyariyanın eliminasiyasına nail olunsa da, malyariya problemi nəinki respublikamızda, eləcə də dünyanın əksər ölkələrində kifayət qədər aktualdır [6, 7]. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəsmi açıqlamasına əsasən hər il 200 milyondan artıq malyariya ilə yeni xəstələnmə halları qeydə alınır və hər 2 dəqiqəyə bir körpə dünyasını dəyişir. ÜST «2016-2030-cu illərdə malyariya ilə mübarizənin «Qlobal texniki strategiyası» 2020-ci ilə malyariya ilə xəstələnmə və ölümün 40% azaldılmasını hədəf kimi müəyyən etmişdir. 2017-ci ildə dünyanın 87 ölkəsində 219 milyon insan malyariya ilə xəstələnmişdir. 2017-ci ildə 435000 nəfər malyariyadan tələf olmuşdur [7]. Bu rəqəmlər onu göstərir ki, malyariya probleminə diqqəti azaltmaq olmaz.

Azərbaycan Respublikası ərazisində Muğan düzünə daxil olan rayonlar yüksək malyariogenliyi ilə digər bölgələrdən fərqlənir. Hələ keçən əsrin əvvəllərində P.F.Zdrodovski (1922) göstərmişdir ki, Muğanda malyariya xəstəliyindən 5 yaşa qədər uşaqlar arasında ölüm 1921-ci ildə 74,4% təşkil edirdi. Ərazinin təbii-iqlim və sosial-iqtisadi şəraiti malyariya xəstəliyinin keçiricilərinin artması, eləcə də xəstəliyin yayılması üçün çox əlverişlidir. Göstərmək kifayətdir ki, hazırda bu ərazidə anofelogen su durğunluqlarının sahəsi 2000 hektardan çoxdur. Bunun çox hissəsi Sabirabad (1083 ha), İmişli (229 ha) və Biləsuvar (119 ha) rayonlarının ərazisindədir. Digər səbəblərlə yanaşı, ərazinin yüksək malyariogenliyi olduğundan araşdırma apardığımız son 17 ildə Neftçala və Salyan rayonları müstəsna olmaqla, əraziyə daxil olan digər rayonlarda (İmişli, Sabirabad. Saatlı, Biləsuvar) demək olar ki, hər il malyariya xəstəliyi qeydə alınmışdır (cədvəl 1).

Rəsmi statistik məlumata əsasən Sabirabad rayonunda 1991-1993-cü illərdə, Saatlı rayonunda 1989-1993-cü illərdə malyariya xəstəliyi qeydə alınmamışdır. Lakin 1994-cü ildə Sabirabad rayonunun 11 yaşayış məntəqəsində 28, Saatlı rayonunun isə 6 yaşayış məntəqəsində 7 malyariyalı xəstə aşkar olunmuşdur. Aparılan epidemioloji təhlil və elmi araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, Sabirabad və Saatlı rayonlannda 1994-cü ildən əvvəlki illərdə əhali arasında epidemioloji nəzarət tədbirləri qeyri-qənaətbəxş təşkil edildiyindən malyariyalı xəstələr aşkar edilməmişdir.

Araşdırma apardığımız dövr ərzində 1992-ci il istisna olmaqla İmişli rayonunda hər il malyariyalı xəstə qeydə alınmışdır. Biləsuvar rayonunda isə 1987-1990-cı illərdə əhalinin malyariyaya görə laborator müayinəsinin məqsədyönlü aparılmadığı müəyyən edilmişdir. Belə ki, 1990-cı ildə Biləsuvar rayonunda 5910 qan preparatımn 68,1 % malyariya mövsümündə götürülməsinə baxmayaraq, cəmi 1 ocaqda (3060 nəfər əhalisi olan İsmətli kəndində) 2 xəstə aşkar edilmişdir. Lakin sonrakı il (1991) rayonda xəstəliyin epidemik alovlanması baş vermiş, 8 ocaqda 101 xəstə, o cümlədən İsmətli kəndində 64 xəstə qeydə alınmışdır. Digər səbəblərlə yanaşı, bu rayonlarda malyariyaya qarşı tədbirlərin aparılmasında arxayınçılığa yol verilmiş, ərazinin yüksək malyariogenliyi, qalıq malyariya ocaqlarının fəaliyyət göstərməsi, immun vəziyyəti zəif olan qaçqın və məcburi köçkünlərin bu ərazidə daha çox məskunlaşması nəzərə alınmamış, nəticədə 1996-cı ildə xəstəlik alovlanma vermişdir və respublika üzrə aşkar edilən (13135) malyariya hadisəsinin 66,1 % /8682/ Muğan düzünə daxil olan rayonların 186 yaşayış məntəqəsində qeydə alınmışdır. Aparılan əksepidemik tədbirlər nəticəsində malyariyanın

qeydiyyatı ərazidə 1996-cı ilə nisbətən 48,7 dəfə azalsa da, 2001-ci ilin 10 ayında respublikanın 48 rayonunda aşkar edilən xəstələrin 17,3% Muğan düzü rayonlarının payına düşmüşdür. Elmi araşdırmalar və epidemioloji təhlil göstərmişdir ki, Muğan düzünə daxil olan ərazilərdə malyariyanın davamlı ocaqları fəaliyyət göstərir və əgər profilaktik tədbirlər zəifləyərsə, alovlanma ehtimalı böyükdür.

Odur ki, bu rayonlarda malyariya xəstəliyinə qarşı mübarizə və profilaktika tədbirləri planlaşdırılarkən ərazinin yüksək malyariogenliyi və malyariya ocaqlarının hələ də fəal qalması faktı da nəzərə alınmalıdır [2].

Cədvəl 1

Azərbaycan Respublikasının Muğan düzünə daxil olan rayonlarında malyariya ocaqlarının və xəstəliyinin qeydiyyatının dinamikası (1985-2001-ci illər)

№	Rayonların adı	İllər üzrə ocaqların və xəstələrin qediyyatı								
		1985	1986	1987	1988	1989	1990	1991	1992	1993
1	Sabirabad	9	11	8	–	1	2	–	–	–
		22	23	13	–	1	3	–	–	–
2	Saatlı	4	1	6	1	–	–	–	–	–
		4	7	7	4	–	–	–	–	–
3	İmişli	4	13	8	4	7	3	5	–	2
		8	15	11	4	18	3	5	–	6
4	Biləsuvar	–	–	1	2	1	1	8	5	2
		–	–	1	2	1	2	101	23	2
5	Salyan	5	3	2	1	–	–	–	–	–
		13	4	4	2	–	–	–	–	–
6	Neftçala	–	–	–	–	–	–	–	–	–
		–	–	–	–	–	–	–	–	–
Cəmi		22	28	25	8	9	6	12	5	4
		47	49	36	12	20	8	106	23	8
Respublika üzrə		–	–	–	–	–	–	–	–	19
		334	183	78	60	61	19	112	27	213
Respublikaya nisbətən Muğanda faizlə		14,1	26,7	46,1	20,0	32,7	42,1	94,7	85,1	34,6

Qeyd. 1. Surətdə – ocaqlar, məxrəcdə – xəstəlik göstərilmişdir.2. 2001-ci il 10 ayın məlumatları

Cədvəl 1-in ardı

№	Rayonların adı	İllər üzrə ocaqların və xəstələrin qediyyatı							
		1994	1995	1996	1997	1998	1999	2000	2001
1	Sabirabad	11	38	48	73	–	–	–	–
		28	186	1689	1513	355	96	71	48
2	Saatlı	6	27	33	34	–	–	–	–
		7	330	1126	1125	277	79	53	33
3	İmişli	5	33	51	55	–	–	–	–
		77	249	2923	1889	755	126	37	30
4	Biləsuvar	3	19	27	28	–	–	–	–
		5	308	2870	728	66	50	22	7
5	Salyan	–	3	22	13	–	–	–	–
		–	15	67	31	18	107	48	55
6	Neftçala	–	–	5	6	–	–	–	–
		–	–	7	18	11	4	11	5
Cəmi		25	120	186	209	–	–	–	–
		117	1088	8682	5304	1482	462	242	178
Respublika üzrə		152	320	538	811	640	512	–	–
		667	2844	13135	9911	5175	2315	1526	1047
Respublikaya nisbətən Muğanda faizlə		17,5	37,1	66,1	53,5	28,6	15.8	15,8	17,3

Azərbaycanda malyariyanın sağlamlaşdırılmış digər ərazilərdən gətirilməsi ehtimalı da epidemioloji

nəzarət sistemində nəzərə alınmalıdır. Belə ki, respublikanın bir neçə endemik rayonlarında malyariya ocaqlarının fəallaşma riski və əhalinin miqrasiyasının intensivləşməsi buna lazımi şərait yaradır. Digər tərəfdən Azərbaycanın təbii-iqlim şəraiti malyariyanın keçiricisi olan Anopheles ağcaqanadları demək olar ki, respublikanın bütün ərazisində, xüsusilə Şirvan, Muğan, Lənkəran və aran Qarabağ bölgələrinə daxil olan ərazilərdə daha çox yayılmışdır. Odur ki, ərazilər üzrə malyarioloji vəziyyətin öyrənilməsi və epidemioloji cəhətdən qiymətləndirilməsi elmi və praktik əhəmiyyət kəsb edir. Bunu nəzərə alaraq respublikanın Muğan düzünə daxil olan 4 rayonunda (Sabirabad, Saatlı, İmişli, Biləsuvar) malyariyanın qeydiyyatı və həmin rayonlarda yoluxub, Bakı şəhərində aşkar edilən xəstələrin təhlili aparılmışdır.

Rəsmi statistik məlumatlar əsasında müəyyən edilmişdir ki, araşdırmalar apardığımız rayonlarda 1996-cı ilə nisbətən 2001-ci ildə malyariyanın qeydiyyatının 70,5 dəfə azalmasına baxmayaraq, həmin ərazilərdə yoluxan xəstələrin kənarda aşkar edilmə faizi artmışdır. Belə ki, əgər 1996-cı ildə həmin rayonlarda yoluxan xəstələrin yalnız Bakı şəhərində aşkar edilməsi 2,2% təşkil edirdisə, 2000-ci ildə 27,1%, 2001-ci ilin 10 ayında isə 29,0% olmuşdur (cədvəl 2).

Cədvəl 2

Muğan düzünə daxil olan bir neçə rayonda malyariya ilə xəstələnənlərin yoluxma yerindən kənarda aşkar edilmə vəziyyəti (1996-2001-ci illər)

İllər üzrə Rayonların adı	1996				2000				
	Malyariya	O cümlədən			Malyariya	O cümlədən			
		Rayonda qeydə alınıb	Bakıda aşkar edilib	Bakı (%)		Rayonda qeydə alınıb	Bakıda aşkar edilib	Bakı (%)	14 yaşa kimi uşaq
Sabirabad	1727	1689	38	2,2	108	71	37	34,2	2,4
Saatlı	1135	1126	9	0,7	68	53	15	22,0	20
İmişli	3037	2923	114	3,7	50	37	13	26,0	9
Biləsuvar	2907	2870	37	1,2	2,5	2,2	3	12,0	9
Cəmi	8806	8608	198	2,2	251	183	68	27,1	62
Ümüumi xəstələnməyə nisbətən. Uşaqlar faizlə	–	–	–	–	–	–	–	–	24,6
Respublika üzrə xəstə qeydə alınıb	13135	–	–	–	1526	–	–	–	
Respublikaya nisbətən ərazidə faizlə	67,0	–	–	–	16,4	–	–	–	

Qeyd: 1. 1996-cı ildə uşaqlar arasında malyariya ilə xəstələnmə barədə dəqiq məlumat olmadığına görə cədvəldə göstərilməmişdir.

2. 2001-ci ilin məlumatı 10 aylıqdır.

Cədvəl 2-in ardı

İllər üzrə Rayonların adı	2001				
	Malyariyaya yoluxub	O cümlədən			
		Rayonda qeydə alınıb	Bakıda aşkar edilib	Bakı (%)	14 yaşa kimi
Sabirabad	86	48	38	44,1	22
Saatlı	45	37	8	17,7	14
İmişli	34	30	4	11,7	10
Biləsuvar	7	7	-	-	4
Cəmi	172	122	50	29,0	50
Ümüumi xəstələnməyə nisbətən. Uşaqlar faizlə	–	–	–	–	29,0
Respublika üzrə xəstə qeydə alınıb	1047	–	–	–	–
Respublikaya nisbətən ərazidə faizlə	16,4	–	–	–	–

Belə vəziyyətin əmələgəlmə səbəblərini araşdırmaq məqsədilə həmin rayonlarda malyariyaya görə müalicə üçün qan preparatının götürülməsinin miqdarını, məqsədəuyğunluğunu, xəstələrin erkən aşkar edilməsi və müalicəsi məsələlərini, eləcə də həmin rayonlarda yoluxan xəstələrin Bakı şəhərində aşkar edilmə faizinin artma səbəbini təhlil etmişik. Müəyyən edilmişdir ki, 1996-98-ci illərə nisbətən əhalinin maiyariyaya görə laborator müayinəsi getdikcə azalır. Göstərmək kifayətdir ki, 1998-ci ildə Sabirabad rayonunda 42904 preparat müayinə edildiyi halda, 2000-ci ildə 20328, Saatlı rayonunda 1997-ci ildə 15392 preparata baxıldığı halda, 2002-ci ildə 7627 preparat müayinə edilmişdir. Əlbəttə, qan preparatı məqsədyönlü götürülərsə, preparatın çox götürülməsi vacib deyildir. Lakin araşdırmaların və epidemioloji təhlillərin nəticəsi göstərir ki, bəzi tibb idarələri tərəfindən əhalinin müayinəsi məqsədyönlü aparılmır, hətta bu göstərici bəzən 15%-dən artıq olmur [2]. Digər tərəfdən, uşaqlar arasında malyariya ilə xəstələnmə faizi yüksəkdir. Belə ki, bu rayonlarda uşaqlar arasmda xəstələnmə 2000-ci ildə 24,6% olduğu halda, 2001-ci ilin 10 ayında 29,0% təşkil edir. Ümumiyyətlə, rəsmi statistik məlumata əsasən, 1993-2001-ci illərdə respublikanın malyariyaya görə endemik bölgələrində 3301 malyariyaya yoluxma hadisəsi Bakı şəhərində aşkar edilmişdir ki, bu da həmin illərdə respublikada qeydə alınan xəstələrin 9,0%-ni təşkil edir [1, 2]. Beləliklə, aparılan elmi araşdırmaların və epidemioloji təhlilin nəticəsi, endemik ərazilərdə malyariyaya görə epidemioloji gərginliyin hələ də davam etdiyini və xəstələrin qeydiyyatının azalması ilə əlaqədar epidemioloji nəzarət tədbirlərinin lazımi səviyyədə aparılmadığını göstərir. Odur ki, malyariyaya görə epidemioloji gərginliyi nəzərə alaraq, tədbirlərin kompleks şəkildə aparılması və gücləndirilməsi, eləcə də diqqətin aşağıdakı məsələlərə yönəldilməsi vacibdir:

– yoluxma ehtimalı yüksək olan əhali qrupunun epidemioloji nəzarətə götürülməsi;

– qan preparatının məqsədyönlü götürülməsi və fəal malyariya ocaqlarında epidemioloji mövsümdə hər ay əhalinin 3,0-3,5%-nin müayinədən keçməsi;

– malyariyanın əhali arasında yayılmasının profilaktikasına aid səhiyyə maarifi işini gücləndirməklə, əhalinin malyariyaya qarşı fəal mübarizəyə cəlb edilməsinə nail olunması [3-5].

Eliminasiya dövründə (2003-2012-ci illər) Muğan düzünə daxil olan rayonlarda malyariya ilə xəstələnmə dinamikası 3 saylı cədvəldə əks olunmuşdur.

Cədvəl 3

Eliminasiya dövründə Muğan düzü rayonlarında malyariya ilə xəstələnmə dinamikası (2003-2012-ci illər)

Rayonlar	2003	2004	2005	2006	2007	2008	2009	2010	2011	2012
Sabirabad	14	7	9	9	9	7	3	–	–	–
Saatlı	14	10	8	2	7	4	9	8	–	–
İmişli	8	5	4	7	2	2	1	–	–	–
Biləsuvar	5	10	7	1	–	–	–	–	–	–
Salyan	5	13	5	5	5	5	3	4	1	–
Neftçala	4	1	2	–	2	1	1	3	–	–
Cəmi	50	46	35	24	25	19	17	15	1	–

3 saylı cədvəldən göründüyü kimi eliminasiya dövründə Muğan düzü rayonları arasında yalnız Biləsuvar rayonunda 2003-2006-cı illərdə az da olsa malyariya ilə xəstələnmə qeydə alınmış, sonrakı illərdə xəstələnmə olmamışdır. Digər rayonlardan daha çox Sabirabad rayonunda malyariya ilə xəstələnmə müəyyən edilmişdir (orta hesabla 8 hadisə). Malyariya ilə xəstələnmə halı daha az Neftçala rayonunda müşahidə olunmuşdur (orta hesabla 2 hadisə). Cədvəldən aydın olur ki, 2010-cu ildə 3 rayonda (Sabirabad, İmişli, Biləsuvar), 2011-ci ildə 5 rayonda (Sabirabad, Saatlı, İmişli, Biləsuvar, Neftçala) malyariya ilə xəstələnmə qeydə alınmamışdır. Yalnız 2012-ci ildə bütün rayonlarda malyariya hadisəsi müəyyən edilməmişdir. Ümumilikdə malyariya ilə xəstələnmə hallarının sayının dinamikasını izlədikdə görünür ki, xəstələnmə dinamikası ildən ilə azalmaya doğru meyllidir.

Eliminasiya dövründə respublikanın uzun illər malyariyaya görə potensial ocağı sayılan Muğan düzü rayonlarında aparılan əksepidemik və profilaktik tədbirlərin məntiqi yekunu kmi malyariya ilə xəstələnmə göstəricisi real olaraq azalmış və minimuma enmişdir. Bununla belə hətta sporadik olsa belə malyariya ilə xəstələnmə halı qeyd olunarsa, yenidən həmin ocaqlarda epidemik alovlanmanın baş vermə ehtimalını inkar etmək olmaz. Odur ki, eliminasiya dövründə də əvvəllər potensial fəal malyariya ocaqlarında malyariyaya qarşı əksepidemik və profilaktik tədbirlər davamlı şəkildə aparılmalıdır.

ƏDƏBİYYAT

1. Abdullayev X.İ., Hacıyev İ.A., Əliyev M.İ. və b. Azərbaycanda 1995-1996-cı illərdə malyariyanın baş vermiş epidemiyasının əmələgəlmə səbəbləri və onun epidemik xüsusiyyətləri / «XXI əsrdə klinik

mikrobiologiyanın aktual problemləri» mövzusunda respublika elmi konfr.mater., Bakı, 2001, s.6-10.

2. Hacıyev İ.A., Abdullayev X.İ., Əliyev M.İ. və b. Muğan bölgəsinə daxil olan rayonlarda mövcud malyarioloji vəziyyətin epidemioloji təhlili / Azərbaycan Respublikasının Dövlət müstəqilliyinin son 10 ili dövründə V.Axundov adına ET Tibbi Profilaktika institutunun elmi-təcrübi fəaliyyətinin yekunlarına həsr olunmuş elmi konfr. məcmuəsi. Bakı, 2004, s.144-149.

3. Hacıyev İ.A., Əliyev M.İ., Mahmudova Ş.A. və b. Azərbaycan Respublikasının malyariyadan sağlamlaşdırılmış ərazilərində aparılması vacib olan tədbirlər sistemi / V.Axundov adına Milli Elmi-Tədqiqat Tibbi Profilaktika institutunun elmi əsərləri, Bakı, 2012, s.88-93

4. Hacıyev İ.A., Əliyev M.İ., Əlili M.İ., Hüseynova F.H. Malyariyadan sağlamlaşdırılmış ərazilərdə xəstəliyin yenidən bərpasında və yayılmasında əhalinin miqrasiyası problem kimi / V.Axundov ad. Milli Elmi-Tədqiqat Tibbi Profilaktika institutunun elmi əsərləri. Bakı, 2015, s.75-80.

5. Hüseynova F.H. Azərbaycanda malyariyanın praktik ləğvindən sonrakı və eliminasiyası dövründə malyarioloji vəziyyətin kompleks qiymətləndirilməsi: T.ü.f.d. diss. işinin avtoreferatı. Bakı, 2018, 21 s.

6. 2008-2013-cü illər üçün Azərbaycan Respublikasında malyariyanın eliminasiyası üzrə Milli Strategiyası, Bakı, 2008, 100 s.

7. ВОЗ. Малярия (Информационный бюллетень), 2019, апрель

Резюме

Динамика регистрации заболеваемости малярией в районах муганской равнины азербайджанской республики до и в период элиминации

Н.М.Зейналова

В настоящей работе проанализирована динамика регистрации заболеваемости малярией в районах Муганской равнины Азербайджанской Республики до и в период элиминации. Для этой цели статистические данные о заболеваемости малярией за 1985-2001 гг. и 2003-2012 гг. в районах Муганской равнины были подвергнуты ретроспективному эпидемиологическому анализу. Установлено, что в период элиминации уровень заболеваемости малярией значительно снизился по сравнению с периодом до элиминации в районах Муганской равнины Азербайджанской Республики.

Суммарй

The dynamics of registration of malaria morbidity in the districts of mughan plain of azerbaijan republic before and in elimination period

N.M.Zeynalova

In present work the dynamics of registration of malaria morbidity in the districts of Mughan plain of Azerbaijan Republic before and in elimination period have been analysed. For this purpose the statistical datas about of malaria morbidity in the districts of Mughan plain during 1985-2001 and 2003-2012 years have been epidemiological analysed by retrospectively. It was determined that in elimination period the malaria morbidity level have been decreased significantly in comparison with preelimination period in the districts of Mughan plain of Azerbaijan Republic.

Daxil olub: 22.08.2019

Xronik tonzillitin törədicilərinin faqositozun mexanizmlərinə davamlılığının xarakteristikası

A.Ə.Əzizov
Azərbaycan Tibb Universiteti, Otorinolarinqologiya kafedrası, Bakı

Açar sözlər: Xronik tonzillit, faqositoz, törədicilər
Ключевые слова: хронический тонзиллит, фагоцитоз, возбудители
Key words: chronic tonsillitis, phagocytosis, pathogens

Limfadenoid boğaz halqasının badamcıqları arasında damaq badamcıqlarının xronik iltihabı ümumilikdə götürdükdə digərlərinə nisbətən xeyli çox rast gəlir, ona görə də, «xronik tonzillit» termini altında həmişə damaq badamcıqlarında olan xronik iltihab prosesi başa düşülür. Müxtəlif müəlliflərin məlumatlarına görə, böyük yaşlı əhali arasında xronik tonzillit 4-10 % hallarda, uşaqlar arasında isə 12-15 %-ə yaxın rast gəlir [1,2].

Ətraf və daxili mühitin əlverişsiz amillərinin təsiri altında orqanizmin müqavimət qabiliyyəti aşağı düşür, badamcıqların lakunalarında mikrofloranın virulentliyi və patogenliyi artır ki, bu da anginanın yaranmasına və badamcıqlarda xronik iltihabın inkişaf etməsinə gətirib çıxarır. Badamcıqlarda xronik tonzillit zamanı müxtəlif mikrobların 30-a yaxın assosiasiyaları aşkar edilmişdir, lakin lakunaların dərin şöbələrindəki mikroflora adətən böyük polimorfluğa malik deyildir: çox vaxt burada monoflora - streptokokkun (xüsusilə hemolitik), stafilokokkun müxtəlif formaları və s. aşkar edilir. Badamcıqlarda xronik tonzillit zamanı qeyri-patogen mikrobların assosiasiyaları rast gələ bilər. Uşaq yaşlarında kənar edilmiş badamcıqlarda bəzən adenoviruslar aşkar edilir ki, onlar xronik tonzillitin etiologiyasında və patologiyasında müəyyən rol oynaya bilərlər [3]. Beləliklə, xronik tonzilliti əksər hallarda autoinfeksiya ilə şərtlənmiş yoluxucu xəstəliklərə aid etmək lazımdır.

Xronik tonzillit daha çox anginadan sonra başlayır. Bu zaman badamcıqların toxumalarında kəskin iltihab tam geriyə inkişaf etmir, iltihab prosesi davam edir və xronik foramaya keçir. Nadir hallarda xronik tonzillit əvvəldə angina olmadan başlayır. Onun yaranmasına və inkişafına çox vaxt xronik infeksiya ocaqlarından (kariyesli dişlər, burun və burunətrafı boşluqlar nahiyəsində xronik iltihab və s.) daima autoinfeksiyalaşma, həmçinin bakterial və toxuma yerli və ümumi autoallergiya təkan verir [4,5].

Xronik tonzillitin (XT) müalicəsi problemi müasir təbabətdə aktual məsələ olaraq qalır ki, bu da həmin xəstəliyin geniş yayılması, həmçinin ürək-damar sisteminin, böyrəklərin və oynaqların ciddi ağırlaşmalarının və xronik xəstəliklərinin inkişaf etməsi ehtimalı, ənənəvi antibiotikoterapiyanın effektivliyinin kifayət qədər yüksək olmaması ilə müəyyən edilir. Törədicilərin növlərinin böyük müxtəlifliyini və daha tez-tez şərti-patogen mikroorqanizmlərin aşkar edilməsi meyli haqqında olan son məlumatları nəzərə alsaq, udlağın mikroflorasının və onun antibiotiklərə qarşı həssaslığının təyin edilməsi aktual məsələyə çevrilir. Xronik tonzillitli xəstələrin badamcıqlarının kriptlərində qrammüsbət mikroorqanizmlər üstünlük təşkil edir. XT ilə xəstələnmə səviyyəsi LOR-xəstəliklərin strukturunda ümumi xəstələnmədə 25%-ə çatır. Antibiotiklərin və müalicə müddətlərinin yanlış seçimi zamanı mənfi fəsadlar törədicilərin iltihab ocağında saxlanması və rezistent floranın meydana çıxması, sonradan prosesin xronikləşməsi ilə özünü büruzə verir [5, 6].

İnfeksion və infeksion-allergik xəstəliklərin (XT də bunlara aiddir) patogenezində ən mühüm həlqələrdən biri mikroorqanizmlərin leykositlərlə qarşılıqlı təsiri (faqositoz) hesab edilir. Bu zaman bakteriyalar komplementin fəallaşmasını, lizosimin, interferonunun aktivliyini ingibisiya edən amillər ifraz edirlər ki, bu da onların makroorqanizm şəraitində sağ qalması qabiliyyətinə və faqositoza davamlılığına təsir göstərir [4,6]. Ona görə də, immun sistemin vəziyyətinin dəyərləndirilməsi ilə yanaşı, törədicinin faqositoz mexanizmlərinə davamlılığının xarakteristikası mühüm əhəmiyyət kəsb edir.

Tədqiqatın məqsədi xronik tonzillitin əsas törədicilərinin persistensiyası amillərinin xüsusiyyətlərini öyrənməkdir.

Tədqiqatın material və metodları. İşdə 68 ştamdan istifadə edilmişdir: 34 ştam Staphylococcus aureus, 18-Streptococcus salivarius, 8-Streptococcus pyogenes, 8-Streptococcus pneumoniae aid olmuşdur. Tədqiq olunan materialdan bakteriyaların ayırd edilməsi və onların identifikasiyası ümumi qəbul edilmiş bakterioloji müayinə metodları ilə həyata keçirilmişdir.Bakteriyaların antilizosim aktivliyi (ALA) O.V. Buxarin metodu üzrə öyrənilmişdir. ALA səviyyəsinin qiymətləndirilməsi üçün aşağıdakı kriteriyalardan istifadə edilmişdir: aşağı səviyyə ALA – 1–2mkq\ml, orta – 3-5mkq\ml, yüksək – 5 mkq\ml-dən yuxarı. Bakteriyaların antikomplementar aktivliyi (AKA) və antiinterferon aktivliyi (AİA) O.V. Buxarin metodu üzrə öyrənilmişdir. Bakteriyaların ştamlarının katalaza aktivliyi yodometrik metodla təyin edilmişdir. Bakteriyaların katalazasının aktivliyi katalazanın kommersiya preparatından

(«Sigma», USA) istifadə etməklə əldə olunmuş dərəcələnmiş əyri üzrə qiymətləndirilmişdir. Staphylococcus aureus ştamlarının superoksiddismutaza aktivliyinin təyin edilməsi üçün adrenalinin avtooksidləşməsi zamanı adrenoxromun əmələ gəlməsinə əsaslanmış metoddan istifadə edilmişdir. Hüceyrədaxili killinqin effektivliyi S.L. Nielsen metodu üzrə təyin edilmişdir [1]. Antibiotiklərə həssaslıq disk-diffuz metodunun köməyilə standart üsulla təyin edilmişdir. Tədqiqat işinin məlumatları ümumi qəbul edilmiş statistik metodlarla işlənmişdir.

Nəticələr və onların müzakirəsi. İrinli-iltihabi xəstəliklərin inkişafında mikrob amilinin rolunun qiymətləndirilməsinə həmişə böyük diqqət ayrılır, belə ki, xəstəliyin gedişinin xüsusiyyətləri, ağırlaşmaların inkişaf riski və ağırlıq dərəcəsi infeksion prosesi törədən mikroorqanizmin növündən asılıdır. XT ilə xəstələrdə badamcıqların mikroflorasının müayinəsinin məlumatları göstərmişdir ki, 42,0% hallarda - S.aureus, 34,0% və 18,0% – qarışıq mikroflora, yəni müvafiq olaraq S.pyogenes və S.salivarius, S.aureus və S. pyogenes ilə birlikdə aşkar edilmişdir. Bundan başqa, qarışıq floranın tərkibində C.albicans (6,8%) rast gəlir. Göbələk florasının aşkar edilməsi disbiozun və badamcıqların lokal immunodefisit vəziyyətinin sübutu sayılır. XT ilə xəstələrdə aşkar edilmiş ştamlar arasında törədicilərin 58,0%-də (39 ştam) antibiotiklərə qarşı çoxsaylı rezistentlik müəyyən olunmuşdur, növ antibiotik rezistentliyinin müqayisəli müayinəsi zamanı ən çox sayda polirezistent ştamlar S.aureus-da aşkar edilmişdir-61,8 % (42 ştam).

Mikroorqanizmin spesifik müdafiə amillərinə antilizosim aktivliyi, yəni bakteriyaların sahibin lizosimini spesifik şəkildə inaktivasiya etmək və makroorqanizmdə törədicinin saxlanmasını təmin etmək qabiliyyəti aiddir. Antilizosim aktivliyin yüksəlməsi ona şərait yaradır ki, bakterial hüceyrə distansion təsirli əlavə vasitələr əldə edir ki, onlar da orqanizmin immunitetinin inaktivasiyasına və bunun nəticəsində mikrobiosenozda törədicinin sayının artmasına yönəldilmişdir. Antilizosim aktivliyə 68 tədqiq olunan ştamdan 66,2%-i (45 bakterial kulturalar) malik olmuşdur. Antilizosim aktivliyə malik ştamların ən böyük sayı Staphylococcus aureus-a aid kulturalar arasında aşkar edilmişdir – 82,3% (56 ştam). Əsnəkdən ayırd edilmiş az sayda Streptococcus pyogenes bakterial kulturaları – 63,2% (43 ştam) da həmçinin ALA-a malik olmuşlar. Streptococcus pneumoniae və Streptococcus salivarius ştamlarında antilizosim aktivlik aşkar edilməmişdir.

Mikrofloranın persistent potensialının yüksəlməsi Candida cinsi göbələklərinin metabolitlərinin təsiri altında da baş verə bilər – onlar qızılı stafilokokların antilizosim aktivliyini gücləndirməyə qadirdirlər. Bir fakt da diqqəti cəlb edir ki, hemolitik aktiv stafilokokların bütün ştamları yüksək və orta ALA-ya malik olmuşlar. Həmçinin dərman vasitələrinin və ya bakteriyaların toksinlərinin təsiri altında bakteriyaların persistent xüsusiyyətlərinin dəyişilməsi mümkündür. Əldə olunmuş məlumatlardan belə nəticəyə gəlmək olar ki, endotoksinlərin təsiri ilə şərtlənmiş disbakterioz şəraitində badamcıqlarda St.aureus-un antilizosim aktivliyinin yüksəlməsi və sayının artması baş verir. Mikrob hüceyrəsinin persistensiyasını təmin edən sekresiyaedici vasitələrə «antiinterferon» əlamətini də aid etmək lazımdır- o, insanın leykositar interferonunun antibakterial tərkib hissəsini bakteriyaların inaktivasiya etmək qabiliyyətini xarakterizə edir. Anti-interferon aktivlik (AİA) sahibin müdafiə mexanizmlərinin inaktivasiyasına yönəldilmiş faktorlara aid olub, biosenozda sabit antaqonistik effekti təmin edir. AİA-nin aktivliyinin bakteriyaların virulentliyi ilə düz korrelyasiya əlaqəsində olmasına dair məlumatları nəzərə alaraq, bizim tərəfimizdən persistensiyanın bu faktorunun aşkar edilməsi məqsədilə XT zamanı xəstələrdə aşkar edilmiş ştamların müayinəsi həyata keçirilmişdir. AİA aktivliyə 68 tədqiq olunmuş ştamdan 55,8%-i (38 bakterial kultura) malik olmuşdur. AİA aktivliyə malik ştamların ən çox sayı həmçinin Staphylococcus aureus-a aid kulturalar arasında aşkar edilmişdir - 72,1% (49 ştam). Streptococcus cinsinə aid ştamlar arasında AİA aşkar edilməmişdir.

İnterferondan başqa, mikroorqanizmlərin antikomplementar aktivliyi sayəsində komplement də bakterial deqradasiyaya məruz qalır. Xronik tonzillitin törədicilərinin persistensiyası faktorlarını (orqanizmin deqradasiyası mexanizmlərinə yönəldilmiş) tədqiq edərək, biz ilk növbədə AKA-nı öyrənmişik, çünki komplement sistemi təkcə mühüm qeyri-spesifik rezistentlik amili deyildir, o, makroorqanizmin homeostazının saxlanmasına yönəldilmiş müxtəlif humoral və hüceyrə reaksiyalarında iştirak edir. Antikomplementar aktivlik (AKA) S.aureus-un tədqiq olunmuş 33,8% ştamlarında aşkar edilmişdir (cədvəl 1).

Cədvəldə təqdim olunmuş məlumatlardan göründüyü kimi, piogen streptokokkun ştamları 30,9% halda AKA-ya malikdir. ALA-nın tədqiqində olduğu kimi, AKA-nın tədqiqi zamanı da ştamların əksəriyyəti orta aktivlik göstəricilərinə (25 vah/ml) malik olmuşdur.

Məlumdur ki, faqositlər tərəfindən ifraz edilən birincili bakterisid amillərə hidrogen peroksid və onun sərbəst radikallı parçalanma məhsulları, məsələn, hipoxlorit və hidroksil radikalları aid edilir. Patogen və

şərti-patogen bakteriyalar hidrogen peroksidin yüksək konsentrasiyası olan mühitdə oksidləşdirici zədələnməyə qarşı erkən cavab genlərinin induksiyası yolu ilə sağ qalmağa uyğunlaşmışlar.

Cədvəl 1
Xronik tonzillitli xəstələrin badamcıqlarında ayırd olunmuş ştamların aşkar edilməsi tezliyi və antikomplementar aktivliyin səviyyəsi

Ştam	Faqositozdan sonra sağ qalmış bakteriyaların % -i	AKA olan ştamların sayı	Müxtəlif AKA səviyyəsi olan ştamların sayı (vah\ml)		
			12,5	25	50
Staphylococcus aureus	15,5-17,5 %	33,8 % (23 ştam)	26,1% (6 ştam)	60,9% (14 ştam)	13,0% (3 ştam)
Streptococcus pyogenes	13,0-22,0 %	30,9 % (21ştam)	38,1 % (8 ştam)	61,9% (13 ştam)	-

Bu genlərin zülali məhsulları digərləri arasında katalaza fermentidir ki, o, hidrogen peroksidi neytral məhsullara: su və molekulyar oksigenə qədər parçalayır, həmçinin superoksiddismutaza (SOD) fermentidir ki, o, superoksid anion radikalını molekulyar oksigenə qədər parçalayır. SOD antioksidant müdafiənin ən mühüm fermentlərindən biri hesab edilir. Katalaza aktivliyi xronik tonzillit olan xəstələrin badamcıqlarında əkmələr zamanı ayırd edilmiş bütün ştamlarda aşkar edilmişdir. Bakteriyaların katalaza aktivliyinin kəmiyyətcə qiymətləndirilməsi zamanı aşkar edilmişdir ki, fermentin ən yüksək aktivliyi stafilokokların ştamlarında (4,3-5,7 vah\20mln) müşahidə edilmişdir, streptokokkların ştamları daha aşağı katalaza aktivliyinə (müvafiq olaraq 2,5-2,8 vah\20mln və 2,1-2,6 vah\20mln) malik olmuşdur ($p<0,05$).

Nəticə. Beləliklə, xəstələrdə XT-nin törədiciləri arasında antibiotikorezistenliklə birlikdə yüksək persistent potensiala malik qrammüsbət kokk florası daha çox rast gəlir. Xronik tonzillitlərin törədicilərinin aşkar edilmiş xüsusiyyətlərinin mövcud kompleksi anadangəlmə və qazanılmış immunitetə qarşı bakteriyaların müqavimət amillərinə təsir göstərən qeyri-antibakterial mənşəli preparatlar tətbiq etməklə yeni terapiya metodlarının axtarılması ehtiyacını yaradır.

ƏDƏBİYYAT

1. Солдатов И.Б. Руководство по оториноларингологии. М.: Медицина, 1996, 587 с.
2. Гнездилова Е.А. Алгоритмизация диагностики тонзиллита у детей / Интегративные процессы в медицине и образовании-2013: Материалы международной научно-практической конференции. М., 2013, с. 88-91
3. Лютенко И.В. Опыт использования комбинированного метода лечения келоидных рубцов // Вопросы медицинского обеспечения детей и подростков в образовательных учереждениях: Материалы научно-практической конференции с международным участием. Белгород: БелГУ, 2013, с.200-205
4. Borhan W.M., Dababo M.A., Thompson L.D. et al. Acute necrotizing herpetic tonsillitis: a report of two cases // Head Neck Pathol. 2015, v.9(1), p.119-122
5. McConoughey S.J., Howlin R, Granger J.F. Biofilms in periprosthetic orthopedic infections // Future Microbiol., 2014, v.9(8), p.987-1007
6. Tilahun A., Haddis S., Teshale A., Hadush T. Review on biofilm and microbial adhesion // Int J Microbiol Res., 2016, v.7(3), p.63-73

Резюме

Характеристика устойчивости возбудителей хронического тонзиллита к механизмам фагоцитоза

А.А.Азизов

Проведенными исследованиями установлено, сто у больных с хроническим тонзиллитом наиболее часто среди возбудителей заболевания выявляется кокковая грамположительная флора с наличием персистентного потенциала с высокой антибиотико- резистентностью. Антикомплементарная активность (АКА) была обнаружена у 33,8% выявленных штаммов Staphylococcus aureus. Штаммам Streptococcus pyogenes присуще АКА в 30,9% исследований. Как установлено в основном штаммы имели средние значения по активности (в пределах 25 ед\мл). При определении каталазной активности возбудителей выявлено, что наибольшая активность каталазы

присуща штаммам стафилококков. Они имели значения 4,3-5,7 ед\20млн. Для штаммов стрептококков характерна более низкая активность каталазы (от 2,5-2,8 ед\20млн до 2,1-2,6 ед\20млн, соответственно).

Summary

Characteristics of the stability of chemical tonsillitis agents to phagocytosis mechanisms

A.A.Azizov

Studies have established that in patients with chronic tonsillitis, cocci gram-positive flora is most often found among the causative agents of the disease, with persistent potential with high antibiotic resistance. Anti-complementary activity (AKA) was detected in 33.8% of the identified strains of Staphylococcus aureus. Strains of Streptococcus pyogenes are inherent in AKA in 30.9% of studies. As established, the strains had average values for activity (within 25 units / ml). When determining the catalase activity of pathogens, it was found that the highest catalase activity is inherent in staphylococcal strains. They had values of 4.3-5.7 units \ 20 million. Streptococcal strains are characterized by lower catalase activity (from 2.5-2.8 units / 20 mln to 2.1-2.6 units / 20 mln, respectively).

Daxil olub: 20.08.2019

Apikal periodontda iltihabı dəyişikliklərin xarakterindən asılı olaraq periodontitli xəstələrdə optimal müalicə metodunun tədbiqi

B.F. Əliyev, Q.İ.Qurbanəliyeva

Azərbaycan Tibb Universiteti, Terapevtik stomatologiya kafedrası, Bakı

Azərbaycan Tibb Universiteti, üz-çənə cərrahiyyəsi kafedrası, BAkı

Açar sözlər: apikal periodontit, müalicə üsulları seçim

Ключевые слова: апикальный периодонтит, методы лечения, выбор

Keywords: apical periodontitis, treatment the choice

Son vaxtlar apikal periodontit klinik praktikada tez-tez rast gəlinir və itirilmiş dişlər yeniyetmələrdə 5,5-8,0%, daha böyük yaşlarda isə 42,0%-78,0% təşkil edir [7,8]. Apikal periodontitin inkişafi və gedişi bir sira yerli və umumi amillərə müəyyən olunur [9]. Cox hallarda apikal periodontitin yaranmasina karies ve onun agirlaşmalari gətirib cıxarır. Apikal periodontit diş kökunun zirvə nahiyyəsində periodont və sümük toxumasinin iltihabi xəstəliyidir.Xəstəliyi törədən etioloji amillərdən, klinik gedişdən, orqanizmin müqavimətindən asili olaraq periapikal toxumalarda kəskin və xronik iltihab ocaqlari yaranir ki, bu da xəstələrin fiziki və mənəvi narahatligina səbəb olur [4,6]. Periapikal toxumalarda təzahür edən xəstəlik vəziyyətlərinin müalicəsinə yanaşmalarda səhflərə yol verilir və bunun nəticəsində çoxlu agirlaşmalar yaranir [1,2,3,5].

Tədqiqatın məqsədi Kəskin periodontitin müalicəsində baş verə biləcək agirlaşmalarin qarşisini almaq ücun optimal müalicə metodunun secilməsi.

Tədqiqatın material və metodları. Qarşiya qoyulan məqsədə nail olmaq ucun kəskin apikal periodontitin müxtəlif iltihab fazalari olan 120 xəstəni müainə etmişik.Kəskin periodontitin inkişaf fazaları nəzərə alınmaqla 3 qrup təşkil edilmişdir. Təşkil edilmiş qruplarda kəskin periodontitin müxtəlif xətəlik vəziyyətlərində fərqli müalicə üsullari həyata kecirilmişdir. Kəskin periodontitin intoksikasiya fazasi olan 35 nəfərdən ibarət xəstələrin I qrupunda periodontitin qapali müalicə üsulu, kəskin periodontitin eksudativ iltihab fazasi müşahidə olunan 50 nəfərdən ibarət ikinci qrupda periodontitin qapali və aciq müalicə üsullari və kəskin periodontitin agirlaşmiş fazalari rast gəlinən III qrupun (n+35) xəstələrində konservativ və cərrahi müalicə üsullari tətbiq edilmişdir.Tədqiqatlarin aparildigi müalicə qruplari 2 il müddətində müşahidəmiz altinda olmuşlar.Qruplar təşkil edilərkən xəstələrin secilməsi, müayinəsi zamani anamnestik məlumatlardan, klinik tədqiqat metodlarindan (baxəş, perkussiya, zondlama) və rentgenoloji tədqiqat metodlarindan (agəzdaxili kontakt rentgenoqrafiya, ortopantomoqrafiya, radiovizioqrafiya) istifadə olunmuşdur. Bütün qruplarda aparilmiş müalicənin nəticələri xəstələrdən anamnez toplamaqla, klinik tədqiqat metodlari ilə (baxış, zondlama, perkusssiya, palpasiya), rentgenoloji tədqiqat metodlari agizdaxili kontakt rentgenoqrafiya, ortopantomoqrafiya, radiovizioqrafiya və s.) qiymətləndirilmişdir. Qeyd olunan müayinə və tədqiqat metodlari müşahidəmiz

altinda olan qruplarda müalicədən əvvəl,dinamikada,müalicədən sonra aparilmiş və müalicənin nəticələrini qiymətləndirmək ücun istifadə edilmişdir. 2 il müddətində tədqiqat qruplarinda həyata kecirdiyimiz müxtəlif müalicə tədbirlərinin nəticələrini, yəni periapikal toxumalardaki dəyişiklikləri A.M.Solovyovun mudifikasiya edilmiş PAİ indeksindən istifadə edərək öyrənmişik.

Alınmış ədədi verilənlər müasir tələblər nəzərə alınmaqla statikstik metodla işlənmişdir. Qrup göstəriciləri ucun orta qiymətlər (M), onlarin standart xətasi (m), sıralarin minimal(min) və maksimal (mak) qiymətləri, həmcinin qruplarda keyfiyyət rastgəlmə tezliyi müəyyən edilmişdir. Qeyd edək ki,tədqiqat işi zamani alinan nəticələrin statistik işlənməsi statistika 7.0 tətbiqi kompyuter proqrami ilə aparılmışdır.

Tədqiqatin nəticələri və müzakirəsi. 2 il müddətində müşahidəmiz altinda olan qruplarda həyata kecirdiyimiz müalicə proflaktika tədbirlərinin nəticələrinin müqayisəli təhlili göstərmişdir ki, III qrupda kəskin periodontitin agirlaşmalari ilə olan xəstələrdə (kəskin periostit, kəskin ostiomielit və s.) periapikal toxumalarda destruksiya ocagI müalicədən əvvəl 97,1+2,82% xəstələrdə rast gəlinmişdir. Müalicədən 6 ay sonra bu göstərici 94,3+3,92% olmuşdur.Bu qrupda qeyd olunan göstərici 12 ay və 24 aydan sonra müvafiq olaraq 82,9+6,37% və 60,0+8,28% təşkil etmişdir.

Cədvəl 1

Periodontitli xəstələrdən təşkil edilmiş qruplarda aparılmış müalicədən əvvəl və sonraki müddətlərdə periapikal destruksiya ocağı olan periodontitli dişlər

Qruplar	Müalicədən avvəl	Müalicədən sonraki müddətlər		
		6 ay	12 ay	24 ay
I qrup n=35 Qapalı müalicə üsulu	35 (100%)	29*** (82,9±6,37%)	16* (45,7±8,42%)	4* (11,4±5,38%)
II qrupun 1-ci yarımqrupu n=30 Qapalı müalicə üsulu	28 (93,3±4,55%)	26 (86,7±6,21%)	19*** (63,3±8,80%)	13* (43,3±9,05%)
II qrupun 2-ci yarımqrup (n=20) Açıq müalicə üsulu	19 (95,0±4,87%)	17 (85,0±7,98%)	14 (70,0±10,25%)	8* (40,0±10,95%)
III Qrup (n=35) Acıq və qapalı müalicə üsulu	34 (97,1±2,82%)	33 (94,3±3,92%)	29 (82,9±6,37%)	21* (60,0±8,28%)

Qeyd: müalicəyə qədər fərqlər nisbətindəki statistik dürüstlük. *-p≤0,001, **-p≤0,01, ***-p≤0,05

Cədvəl 2-dən göründüyu kimi periodontitli xəstələrdə müalicədən sonra dişləmədə ağrı simptomu ən çox III qrupun xəstələrində, ən az I qrupun xəstələrində qeyd olunmuşdur. PAİ indeksinə görə (1,20±0,014 bal) təşkil etmiş və xəstələrin 11,4±5,38%-də (4 nəfər) qalmışdır. Bu qrupun xəstlərində selikli qişanın normal rəngdə olması və hiperemiyası müalicədən əvvəl müvafiq olaraq 34,3±8,2% və 65,7±8,2% təşkil etdiyi halda müalicədən 2 il sonra yuxarıda qyd olunan göstəricilər azalaraq müvafiq olaraq 80,0±6,76% və 20,0±6,76% olmuşdur.Yuxarıda qeyd olunan göstəricilər II və III qrupların analoji göstəriciləri ilə müqayisədə ən yaxşı göstəricilərdir və aparılmış müalicənin effektli oldigunu təsdiq edir. III qrupda PAİ indeksinin göstəriciləri xəstələrdə aşagidaki kimi dəyişmişdir: müalicədən əvvəl PAİ 2,57+0,125 bal, müalicədən 6 ay sonra 2,83+0,119 bal və müalicədən 12 ay və 24 ay sonra müvafiq olaraq 2,40+0,102 və 2,06+1,117 bal olmuşdur.

Cədvəl 2

Periodontitli xəstələrdə dinamikada PAİ indeksi üzrə göstəricilər

Qruplar	Müalicəyə qədər	Müalicədən sonraki müddətlər		
		6 ay	12 ay	24 ay
I qrup (n=35)	2,77±0,136	2,71±0,133	1,83±0,077*	1,20±0,114*
II qrupun 1-ci yarımqrupu (n=30)	2,50±0,133	2,67±0,130	2,03±0,102**	1,57±0,114*
II qrupun 2-ci yarımqrupun (n=20)	2,55±0,185	2,60±0,169	2,25±0,123	1,80±0,117**
III qrup (n=35)	2,57±0,125	2,83±0,119	2,40±0,102	2,06±0,117**

Qeyd: Müalicəyə qədər fərqlər nisbətindəki statistik dürüstlük. * -p≤001,**p≤0,01

Bu digər qrupların müvafiq dövrlərində olan göstəricilərdən xeyli coxdur. III qrupda diş ətinin və selikli qişanin müayinə olunmasi nəticəsində aydin olmuşdur ki, müalicədən əvvəl selikli qişanin normal vəziyyətdə olmasi 31,4+7,85% xəstələrdə rast gəlinsə də, müalicədən 6 ay sonra bu göstərici 48,6+8,45%, müalicədən 1 və 2 il sonra isə müvafiq olaraq 42,9+8,36% və 45,7+8,42% hesablanmişdir.(Cədvəl-3) II qrupun 1-ci yarimqrupunda selikli qişanin normal halda olmasi hallarına müalicədən qabaq 33,3+8,61% hallarda, müalicədən dərhal sonra, 6 ay və 1 il sonra isə uygun olaraq 10,0+8,94, 53,3+9,11 və

70,0+8,37% hallarda rast gəlinmişdir. Bu yarımqrupda selikli qişanin iltihabinin göstəricisi olan hiperemiya müalicədən əvvəl 66,7+861% müalicədən 6 ay sonra 60,0+8,94%, 1il sonra 46,7+9,11%, 2il sonra 8,37% hallarda rast gəlinmişdir. Qeyd olunan qrupda selikli qişanin hiperemiyalı olmasi müalicədən əvvəl 68,6+7,85%, müalicədən 6 ay, 1 il və 2 il müddətlərdə isə müvafiq olaraq 51,4+8,45%, 57,1+8,36% və 54,3+8,42% xəstələrdə qeyd olunmuşdur. I qrupda selikli qişanin normal halda olmasi müalicədən qabaq 34,3+8,02, müalicədən 6 ay sonra 62,9+8,17, 1 il və 2 il sonra müvafiq olaraq 71,4+7,64% və 80,0+6,76% hallarda rast gəlinmişdir.Bu qrupda selikli qişanin iltihabinin göstəricisi olan hiperemiya müalicədən əvvəl 65,7+8,02%, müalicədən 6 ay sonra 37,1+8,7%, 1 il sonra 28,6+7,64% və 2 il sonra 20,0+6,76% hallarda rast gəlinmişdir.

Cədvəl 3

Periodontitli xəstələrin müxtəlif qruplarında selikli qişasının vəziyyəti

III qrup	Xəstələrin sayı	Hiperemiya			Normal		
		Rəqəm	M	m	Rəqəm	M	m
Müalicədən əvvəl	35	24	68,6	7,85	11	31,4	7,85
Müalicədən dərhal sonra	35	18	51,4	8,45	17	48,6	8,45
Müalicədən 6 ay sonra	35	20	57,1	8,36	15	42,9	8,36
Müalicədən 12 ay sonra	35	19	54,3	8,42	16	45,7	8,42

II qrupun 2-ci yarımqrupunda kəskin periodontitin irinli iltihabi ilə olan xəstələrdə periodontun periapikal destruksiyasi 95,0+4,87% xəstələrdə aşkarlanmişdir. Bu qrupda müalicə aparildiqdan 6 ay sonra periapikal destruksiya ocagi 85,0+7,98% xəstələrdə müəyyən olunmuşdur. Müalicə aparildiqdan 1 il və 2 il sonra qeyd oluna göstərici müvafiq olaraq 70+10,24 və 40+10,95% olmuşdur.

2 il müddətində müşahidəmiz altinda olan II qrupun 1-ci və 2-ci yarimqrupları eyni xəstələrdən , yəni kəskin periodontitin irinli iltihabi ilə olan xəstələrdən təşkil olunmasina baxmayaraq 1-ci və 2-ci yarımquruplarda fərqli müalicə üsulları aparılmışdır. 2-ci yarımqurupda periodontitin aciq müalicə üsulu aparilsa da, 30 nəfərdən ibarət 1-ci yarimqurupda periodontitin qapali mualicə üsulu tətbiq olunmuşdur.Həmcinin I qrupun və II qrupun 1-ci yarimqrupunun xəstələrində eyni müalicə üsulu – periodontitin qapali müalicə üsulu tətbiq edilmişdir.

II qrupun 1-ci yarimqrupunda periodontal toxumalarin destruksiya ocagi müalicədən əvvəl 93,3+4,55% xəstələrlə aşkarlanmişdir.Bu qrupda aparilan müalicədən 6 ay sonra bu göstərici 86,7+6,21% şəxslərdə aşkarlanmişdir. Qeyd olunan göstərici 1 il və 2 il sonra müvafiq olaraq azalaraq 63,3+8,80% və 43.3+9,05% təşkil etmişdir ki, bu göstəricilər avvəlki qruplarla müqayisədə xeyli azdir. Müalicə prossesində dinamikada periapikal iltihab ocaqinin dəyişilməsini özündə əks etdirən PAİ indeksi bu qrupun xəstələrində aşagidaki kimi dəyişmişdir. Müalicədən əvvəl PAİ bu yarimqrupunda 2,50+0,133 bal,müalicədən 6 ay , 1 il və 2 il sonra müvafiq olaraq 2,67+0,130, 2,03+0,102 və 1,57+0,114 bal təşkil etmişdirki, bu göstəricilər yuxarıda xarakterizə etdiyimiz quruplarin eyni dövrləri ilə müqqayisədə aşagi göstəricilərdir.

Kəskin periodontitin ən yungul fazasi olan kəskin seriozlu periodontitli xəstələrdən təşkil olunmuş I qrupda periodontitin qapalı müalicə üsulu tətbiq olunmuşdur.Bu qrupda müalicədən əvvəl periodont toxumalarında destruksiya ocagi 100% xəstələrdə aşkarlanmişdir. Aparilan müalicə tədbirləri nəticəsində bu göstərici 6 ay sonra 82,9+6,37% şəxslərdə rast gəlinmişdir.Periapikal destruksiya ocagi müəyyən olunan xəstələr müalicədən 1 il sonra 45,7+8,42% və 2 il sonra 11,4+5,38% təşkil etmişdir. Aparılmış tədqiqatlar nəticəsində aydin olmuşdur ki, bütün qruplarda aparilmiş endodontik müalicə stabil klinik mənzərə və periapikal sümük toxumasinin rentgenoloji bərpa ilə müşaiyət olunmuşdur. Qruplar üzrə periodontitli xəstələrdə kök kanallarının plomblanmasından sonra inkişaf edən ağırlaşmalar içərisində dişləmədə ağrı simptomu xəstələri daha çox narahat etmişdir. Qeyd olunan dişləmədə ağrı simptomu kanalların plomblanmasımdan bir- iki gün sonra III qrupun xəstələrində 65,7±8,0% hallarda, II qrupun xəstələrində 25-30% hallarda, I qruun xəstələrində isə 36,7±8,8% hallarda rast gəlinmişdir (Cədvəl-4). Müalicədən 5 gün sonra bu simptom III qrupda 42,9±8,4% hallarda , II qrupda 10,0±5,5% hallarda, I qrupda isə 5,7±3,9% hallarda müşahidə olunmuşdur. Periodontitli xəstələrdə kanalların doldurulmasından 6-10 gün sonra yaranan cuzi ağrilar III qrupda 16 xəstədə(45,7±8,4%), II qrupda 2-3 xəstədə 10,0±6,7% və I qrupda 2 xəstədə 8,6±4,7% qalmışdır. Ağız boşluqundakı mikrobların kanala kecməsinin qarşısını almaq üçün diş boşluqu müvəqqəti plombla bağlanmışdır.

Bu qrupun xəstlərində yuxarida qeyd edilən müalicə tədbirlərinin həyata kecirilməsi tez bir zamanda geriyə çevrilərək periapikal nahiyədə məhdud sahədə olan iltihabın yayılmasının qarşısını almış və intoksikasiya fazasında olan iltihabın ləğv olunmasına gətirmişdir. Uzunmüddətli praktik təcrubəmiz və

apardığımız tədqiqatlarin nəticələri periapikal toxuamalarda dəyişikliklərin xarakterindən, periodontal toxumaların iltahaba tutulmasından, iltihabın davametmə müddətindən və ağırlaşmaların xarakterindən asılı olaraq tətbiq edilən kəskin periodontitin; acıq və qapalı; müalicə üsullarının, iltihabı dəyişikliklərin dönməz xarakter aldığı və ağırlaşmaların olduğu hallarda cərrahi müalicə metodlarının effektli, məqsədəuyğun olduğunu göstərmişdir.

Cədvəl 4

Periodontitli xəstələrdə dişləmədə ağrı simtomunun qruplar üzrə xarakteristkası

	I qrup-35		II qrupun 1-ci yarımqrupu-30		II qrupun 2-ci yarımqrupu		III qrup 35	
	müt.r	%	müt.r	%	müt.r	%	müt.r	%
Müalicədən 1-2 gün sonra dişləmədə xeyli ağrı	9	25,7±7,4	11	36,7±8,8	6	30,0±10,2	23	65,7±8,0
Müalicədən 5 gün sonra dişləmədə çox ağrı	2	5,7±3,9	3	10,0±5,5	1	5,0±4,9	15	42,9±8,4
Müalicədən 6-10 gün sonra dişləmədə cuzi ağrı	3	8,6±4,7	2	6,7±4,5	2	10,0±6,7	16	45,7±8,4

ƏDƏBİYYAT

1. Бармуцкая А.З., Шотт Е.В., Данилюк М.В., Антанович О.Н. Результаты лечения хронического апикального периодонтита по данным стоматологического отделения УЗ «5-я городская клиническая поликлиника» // Молодой ученый, 2018, №24, с. 275-277.
2. Железный П.А. Железная А.П., Самойлов К.О. Эффективность препаратов, обладающих антисептическими и остеостимулирующими свойствами, при лечении осложненного кариеса // Journal of Siberian Medical Sciences, 2015, № 1, с. 4-7
3. Иващенко В.А. Адамчик А.А. Клинико-лабораторная оценка временных паст при лечении хронического апикального периодонтита // Кубанский научный медицинский вестник, 2016, № 4 (159), с.49-52
4. Сирак С.В., Сирак Г., Копылова И.А., Бирагова А.К. Изучение морфологических изменений в пульпе зубов экспериментальных животных при лечении глубокого кариеса и острого очагового пульпита // Медицинский вестник Северного Кавказа, 2011, № 3, с.29-33
5. Dutra K.L., Haas L., Porporatti A.L. et al. Diagnostic accuracy of cone-beam computed tomography and conventional radiography on apical periodontitis: a systematic review and meta-analysis // J Endod., 2016, v.42, p.356-364.
6. Hernández Vigueras S., Donoso Zúñiga M., Jané-Salas E. et al. Viruses in pulp and periapical inflammation: a review // Odontology, 2016, v.104, p.184-191
7. Oginni A.O., Adeleke A.A., Chandler N.P. Root canal treatment and prevalence of apical periodontitis in a Nigerian adult subpopulation: a radiographic study // Oral Health Prev Dent., 2015, v.13, p.85-90
8. Ilic J., Vujaskovic M., Tihacek-Sojic L., Milic-Lemic A. Frequency and quality of root canal fillings in an adult Serbian population // Srp Arh Celok Lek., 2014, v.142, p.663-668
9. Sanchez-Dominguez B., Lopez-Lopez J., Jane-Salas E. et al. Glycated hemoglobin levels and prevalence of apical periodontitis in type 2 diabetic patients // J Endod., 2015, v.41, p.601-606

Резюме

Внедрение оптимального метода лечения пациентов с апикальным периодонтитом в зависимости от характера воспалительных изменений в периодонте

Б.Ф.Алиев, Г.И.Гурбаналиева

Целью исследований было выбор оптимальных методов лечения для профилактики возможных осложнений терапии острого апикального периодонтита. Для этого мы обследовали 120 больных с различными фазами острого апикального периодонтита. Для этого пациенты были разделены на три группы. Результаты исследований эффективности различных методов лечения, применяемых

в группах, доказали эффективность закрытого метода лечения острого периодонтита на начальной фазе, в фазе экссудаций острого апикального периодонтита – закрытого и открытого метода и эффективность хирургического метода и удаления зуба при развитии осложненных форм апикального периодонтита (периостита, острого остеомиелита, гнойная корневая киста).

Summary

Implementation of the optimal method of treatment of patients with apical periodontitis, depending on the nature of the inflammatory changes in the periodontal disease

B.F.Aliyev, G.I.Gurbanaliyeva

The aim of the research was the selection of optimal treatment methods for the prevention of possible complications of the treatment of acute apical periodontitis. For this, we examined 120 patients with various phases of acute apical periodontitis. For this, the patients were divided into three groups. The results of studies of the effectiveness of various treatment methods used in the groups proved the effectiveness of the closed method of treatment of acute periodontitis in the initial phase, in the exudation phase of acute apical periodontitis - the closed and open method and the effectiveness of the surgical method and tooth extraction during the development of complicated forms of apical periodontitis (periostitis, acute osteomyelitis, purulent root cyst).

Daxil olub: 03.09.2019

Baş beyin infarktı və kəskin miokard infarktının birgə gedişi zamanı diaqnostik tədbirlər

İ.S.Babaxanov

Azərbaycan Tibb Universiteti, epidemiologiya kafedrası, Bakı

Açar sözlər: insult, kəskin miokard infarktı, diaqnostika, kriteriyalar, proqnoz

Ключевые слова: инсульт, острый инфаркт миокарда, диагностика, критерии, прогноз

Keywords: stroke, acute myocardial infarction, diagnosis, criteria, prognosis

Hər bir həkimin, xüsusilə də terapevtin təcrübəsində hər gün elə pasiyentlər rast gəlir ki, onlarda bu və ya digər somatik patologiyanın olmasına baxmayaraq müxtəlif nevroloji simptomlar iştirak edir və bəzən kəskin nevroloji patologiyanın istisna edilməsi məqsədilə nevroloqun təcili məsləhətinə ehtiyac yaranır. Hüquq-mühafizə orqanlarının əməkdaşlarının xəstələnməsinin strukturunda ürək-damar sisteminin xəstəlikləri prioritet yer tutur [1,2,3]. Hüquq-mühafizə orqanlarının əməkdaşlarının yüksək psixoloji və fiziki işi bir çox hallarda stresslə induksiya olunmuş arterial hipertenziyanın (AH) əmələ gəlməsinə gətirib çıxarır ki, bu kifayət qədər qısa müddətdə xronik sabit AH-ya keçə bilər [4,5]. Hipertoniya xəstəliyi ciddi, xronik xəstəlik olub, arterial təzyiqin (AT) daima, öz inkişafının başlanğıc mərhələlərində isə dövri şəkildə artması ilə səciyyələnir. AT-nin 160 mm.c.süt. qədər yüksəlməsi ölüm riskini 1,63 dəfə artırır, lakin effektiv şəkildə müalicə olunan hipertoniya letallıq riskini azaldan amil hesab edilir [6,7].

Ağır insultlar zamanı nevroloji pozğunluqlar həmişə ekstraserebral ağırlaşmaların inkişaf etməsi ilə müşayiət olunur, onlar, bir qayda olaraq, əlamətlərin başlanmasından 4-10 sutka sonra bu xəstəliyin aqibətini müəyyən edirlər. Ona görə də, insultun müalicəsi təkcə nevroloji pozğunluqların terapiyası üzrə aparılan tədbirlərlə başa çatmamalıdır.

Tədqiqatın məqsədi kəskin miokard infarktının və baş beyin infarktının birgə gedişi zamanı diaqnostik tədbirlərin və proqnozunun kriteriyalarının öyrənilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Hüquq-mühafizə orqanlarının əməkdaşlarından işemik insult diaqnozu ilə 40 yaşdan 70 yaşa qədər 75 pasiyentin müayinəsinin məlumatları təhlil edilmişdir. Baş beynin KT-nin köməyilə insultun tipi verifikasiya edilmişdir. Kontrol qrupu anamnezində baş beyin qan dövranının kəskin pozulmaları olmayan 24 pasiyent təşkil etmişdir. Tədqiqatdan kənar edilmənin kriteriyası: pasiyentlərdə iltihabi proseslərin və onkoloji xəstəliklərin olmasıdır. Huşun vəziyyəti Qlazqo koma şkalası, nevroloji defisit -NIH, sosial dezadaptasiya Rankin şkalası üzrə üzrə qiymətləndirilmişdir.

Nəticələr və onların müzakirəsi. Nevroloqun təcili məsləhətini tələb edən qorxulu vəziyyətlərdən biri hipertoniya böhranları (krizləri) hesab edilir. Ağırlaşmış hipertoniya böhranı daha təhlükəlidir- o, arterial hipertenziya zamanı təxirəsalınmaz bütün vəziyyətlərin 3%-ni təşkil edir. O, sererbral, kardial və vegetativ klinika ilə birlikdə arterial təzyiqin yüksək qiymətləri ilə səciyyələnir. Hipertoniya böhranının

ağırlaşmalarının strukturunda hipertenziv ensefalopatiya 16,0±4,2% (12 pasiyent), kəskin miokard infarktı (KMİ) 26,6±5,1% (20 pasiyent), beyin qan dövranının kəskin pozulması (BQKP) (o cümlədən tranzitor işemik həmlə)-49,4±5,8% (37 pasiyent), ağciyərlərin ödemi tipi üzrə kəskin ürək çatışmazlığı (KÜÇ) – 8,0±3,1% (6 pasiyent) təşkil etmişdir (şək. 1).



Şək.1. Hipertonik böhranının ağırlaşmaları: 1-hipertenziv ensefalopatiya; 2-KMİ; 3-BQKP; 4-KÜÇ

Beləliklə, hipertoniya böhranının serebrovaskulyar ağırlaşmaları onların ümumi sayında 65,4±5,5% təşkil edir. İnkişaf tezliyinin, xəstələnmə və ölüm göstəricilərinin yüksək olması ilə əlaqədar olaraq serebral insult müasir dövrdə aktual tibbi və sosial problem hesab edilir.

Təcili həllini tələb edən digər mühüm problem - baş beyin infarktının və KMİ-nin birgə gedişi sayılır. KMİ serebral emboliyanın daha yaxşı məlum və mühüm səbəbi hesab edilir və onun ilk simptomu sayılır. İki damar pozğunluqlarının məhz bu sıx səbəb-nəticə əlaqəsi terapevtə xəstəliyin klinkasında üstünlük təşkil edən simptomatikanı və deməli, xəstənin profil üzrə hospitalizasiyasında və müalicəsində növbəti taktikanı təyin etməsində çətinliklər yaradır. KMİ zamanı klinik mənzərədə bəzən ümumi beyin simptomatikası – buraya baş gicəllənmə, yeridikdə səndələmə, gözlərdə qaralma, ətraflarda zəiflik daxildir - üstünlük təşkil edir. Bir sıra hallarda psixi pozğunluqlar oyanıqlıq şəklində – hərəki narahatlıq, məkan və zaman baxımından dezorientasiya ilə birlikdə huşun pozulması ilə barəbər meydana çıxır. Pasiyentlərin bir hissəsində ocaq simptomları– parezlər, nitqin pozulması, hemianopsiyalar, ümumi və ya fokal tipli epileptik tutmalar qeyd olunur. Bir qayda olaraq, nevroloji simptomlar keçici xarakter daşıyır, lakin 10% xəstədə ocaqlı simptomlar davamlı olurlar. Digər tərəfdən – ön plana beyin əlamətləri keçdikdə, KMİ ona xas olan subyektiv simptomlarsız (ağrılar, təngənəfəslik, ölüm qorxusu) və AT-nin aşağı düşməməsi ilə birgə inkişaf edir ki, bu da onun diaqnostikasını çətinləşdirir. Belə hallarda diaqnozun düzgün qoyulması üçün anamnez və elektrokardioqrafik müayinənin məlumatları böyük əhəmiyyət daşıyırlar.

Müasir təbabət pasiyentlərin əksər hissəsində qısa müddət ərzində həm KMİ, həm də baş beyin infarktını aşar etməyə imkan verən kifayət qədər böyük sayda yüksəktexnologi metodikalara malikdir (cədvəl 1).

Bu, qanunauyğun haldır ki, natamam diaqnostika farmakoterapiyada növbəti səhvlərə gətirib çıxarır – burada KMİ və insultun birgə gedişinin müalicəsində onsuz da bir sıra ziddiyyətlərin olmasını (məsələn, trombolizisin tətbiq ediməsi) da nəzərə almalıyıq. Lakin belə məlumatlar vardır ki, onlara görə işemik insult və miokard infarktı olan pasiyentlərdə bu prosedurun təcili şəkildə həyata keçirilməsi həm baş beyin infarktının, həm də KMİ-nin klinik gedişində yüksək müsbət dinamikanın əldə olunmasına gətirib çıxarır. İşemik insultun ekspress-diaqnostikası adlanan belə bir metodikanı (xəstəliyin başlanmasından 72 saat ərzində diaqnozu qoymuğa imkan verən) da yada salmaq lazımdır: bu müddət ərzində beyin toxumasının zədələnməsinin markerləri dinamikada müəyyən dəyişikliklərə uğrayırlar və onların öyrənilməsi insultun diaqnostikasında müasir mərhələ ola bilər.

Beləliklə, mövcud olan texniki və laborator imkanlara baxmayaraq, hospitalönü mərhələdə KMİ və baş beyin infarktının birgə gedişinin risk amillərinin, klinik əlamətlərinin qiymətləndirilməsinin klinik tövsiyələrə uyğun olan fənnarası metodologiyası, həmçinin lazımi diaqnostik tədbirlər və proqnozlaşdırılmasının kriteriyaları yoxdur [3]. Bu çatışmazlıqlar və getdikcə artan bu problemə lazımi

diqqət verilməməsi yuxarıda adları çəkilən xəstəliklərin qeyri-adekvat farmakoterapiyasına və qeyri-qənaətbəxş proqnozuna gətirib çıxarır.

Cədvəl 1
İnsult və KMİ-nin müasir diaqnostikasının imkanları

Baş beynin infarktı	KMİ
Huşun pozulması	Ağrı sindromu
Hemodinamikanın pozulması	Hemodinamikanın pozulması
Nevroloji simptomatika: piramidal sistem; beyincik sistemi; beyin kötüyünün funksiyaları; hissi sistem; çanaq orqanlarının funksiyası; görmə sistemi; ali qabıq funksiyaları	Elektrokardioqrafiya
Kompüter tomoqrafiya: zədələnmənin lokalizasiyası: zədələnmənin tipi; zədələnmənin həcmi	Exokardioqrafiya: atış fraksiyası; ağciyərin hipertenziyası; hipo- və akinez zonası; divarların hipertrofiyası və dilatasiyası
Nüvə-maqnit-rezonans tomoqrafiya	Ekspress – diaqnostika: T-troponiya; MV-kreatinfosfokinaza; Laktatatdehidrogenaza-1
Lyumbal punksiya	Miokardın ssintiqrafiyası: izotopun toplanması; izotopun xaric edilməsi sürəti
Ekspress- diaqnostika: zülal S-100-β; matriks metalloproteaza (MMR-9)	Koronaroqrafiya: repurfiziyanın imkanlarının qiymətləndirilməsi
Exoensefaloqrafiya	

Uğurla yerinə yetirilmiş trombolizis vəziyyətinin klinik nümunəsi qismində 69 yaşlı, «işemik insult» diaqnozu qoyulan A. xəstəsini misal gətirmək olar. Pasiyent ağır vəziyyəti ilə əlaqədar şikayət etməmişdir. Xəstəni müşayiət edən qohumlarının sözlərinə görə, pasiyentin vəziyyəti qəflətən pisləşmişdir: hospitalizasiyadan 1 neçə saat əvvəl birdən-birə sol ətraflarda zəiflik və nitqin pozulması meydana çıxmışdır. Xəstə uzun illərdir ki, hipertoniya xəstəliyindən, ürəyin işemiya xəstəliyindən, səyrici aritmiyanın daimi formasından, xronik obstruktiv bronxitdən əziyyət çəkir.

Müayinə anında qey edilir: şüuru – tutqun, başın və göz almalarının sağa doğru məcburi dönməsi, nitqi kobud dizartrikdir, sol burun-dodaq büküşünün hamarlanması sayəsində üzün asimmetriyası, dilin sola doğru deviasiyası, solda Marinesku-Rodoviç simptomu, əzələ tonusunun və reflekslərinin zəifləməsi ilə bərabər soltərəfli hemiplegiya, həmçinin solda Babinski simptomu. Kompüter tomoqrafiyasında beyin toxumasında sıxlığı dəyişilmiş ocaqlar aşkar edilməmişdir. Lakin sağda ümumi yuxu arteriyasının stenozu (68%), həmçinin sağda daxili yuxu arteriyasının kötüyünün okklyuziyası aşkar edilmişdir. Xəstənin klinikaya insultun inkişafından sonra ilk 3 saat ərzində daxil olmasını, xəstədə kəskin nevroloji defisit əlamətlərinin olmasını və əksgöstərişlərin olmamasını nəzərə alaraq pasiyentə sistem venadaxili trombolizis proseduru – 0,5 mq/kq dozada venadaxilinə damcı üsulu ilə tenekteplaza təyin edilmişdir. Lakin ağır komorbidliyi nəzərə alaraq, konsilium belə qərara gəlmişdir ki, trombolizis prosedurundan əvvəl xəstənin hazırlanması – metabolizmin korrektorunun (bunun üçün trimetazidin seçilmişdir) yeridilməsi lazımdır. Tenekteplazanın ümumi dozası 40 mq təşkil etmişdir. Preparatın 10%-ə qədəri venadaxilinə bolyusla 1 dəqiqə ərzində, qalan doza – 36 mq isə venadaxilinə damcı üsulu ilə 30 dəqiqə ərzində yeridilmişdir. Trombolitik terapiya zamanı həyati vacib göstəricilərin və nevroloji statusun göstəricilərinin NIHSS şkalası üzrə kontrolu həyata keçirilmişdir. Arterial təzyiqin səviyyəsi 170–140/80-90 mm c.süt. həddində olmuşdur. Tənəffüs sərbəstdir, tənəffüs tezliyi - dəqiqədə 17-20, p[O2]-95-97%, ÜYT-70-80 vurğu/dəq. təşkil etmişdir.

Prosedurun başlanmasından 15 dəqiqə sonra pasiyentin sol ayağında hərəkət meydana gəlmişdir. 1 saat sonra ümumi beyin simpomatikasının reqressiyası, başın və göz almalarının mərkəzə doğru yönlənməsi nəzərə çarpmışdır, sol əlində əzələ tonusu, sol əlin barmaqlarında ovuc bükücü hərəkətlər meydana çıxmış, sağ ətraflarda əzələ qüvvəsi artmış, dizartriyanın ifadə dərəcəsi azalmışdır. Kontrol kompüter tomoqrafiyasında beyin toxumasında sıxlığı dəyişilmiş ocaqlar görünməmişdir. Sağda ümumi və daxili yuxu arteriyasının keçiriciliyi bərpa olunmuşdur. Sağda daxili yuxu arteriyasının daralması 68%-dən 18%-ə qədər azalmışdır. Trombolitik terapiya başa çatdıqda terapiyanın trimetazidin ilə davam etdirilməsi qərara alınmışdır.

Beləliklə, əldə etdiyimiz məlumatlara görə, işemik insult olan ahıl komorbid pasiyentlərə tenekteplaza ilə trombolizis terapiyasından əvvəl metabolik terapiyanın təyin edilməsi məqsədəuyğundur. Çünki bu, əsas xəstəliyin təbii gedişini və onun aqibətini yaxşılaşdırır, həmçinin xəstələrin proqnozunun qənaətbəxş olmasına və onların tezliklə reabilitasiyasına imkan verir.

ƏDƏBİYYAT

1. Исакова Е.В., Рябцева А.А., Котов С.В. Состояние микроциркуляторного русла у больных, перенесших ишемический инсульт // РМЖ Актуальная проблема, 2015, №12, с. 680-682
2. Левин О.С., Бриль Е.В. Первичная и вторичная профилактика инсульта // Современная терапия в психиатрии и неврологии, 2016, №1, с.4-7
3. Стародубцева О.С., Бегичева С.В. Анализ заболеваемости инсультом с использованием информационных технологий // Фундаментальные исследования 2012, № 8 (часть 2), с. 424-427.
4. Фонякин А.В., Гераскина Л.А. Профилактика ишемического инсульта Рекомендации по антитромботической терапии / Под ред. З.А. Суслиной. М.: ИМА-ПРЕСС, 2014, 72 с.
5. Dyker A., Lees K. Duration of neuroprotective treatment for ischemic stroke // Stroke, 2015, v.29, p.535-542
6. Chimowitz M.I. The Feinberg award lecture 2013. Treatment of intracranial atherosclerosis: from the past and planning for the future // Stroke. 2013, v.44, p.2664-2669.
7. Lee S., Kim H., Bae H. et al. Clopidogrel and Aspirin versus Aspirin Alone for Prevention of Recurrent Ischemic Lesion in Acute Atherothrombotic Stroke: A Randomized, Double-Blind, Placebo-Controlled Trial // Stroke, 2014, v.45, p.334.

Резюме

Диагностические мероприятия при сочетании инфаркта головного мозга и острого инфаркта миокарда

И.С.Бабаханов

Проведенными исследованиями изучены диагностические мероприятия при сочетанном выявлении инфаркта головного мозга и острого инфаркта миокарда. Для гипертонического криза были характерны цереброваскулярные осложнения, составляющие 65,4±5,5% случаев от их общего количества. В структуре осложнений гипертонического криза преобладало острое нарушение мозгового кровообращения – 49,4±5,8% случаев (37 пациентов). Далее соответственно: инфаркт миокарда – 26,6±5,1% случаев (20 пациентов), гипертензивная энцефалопатия - 16,0±4,2% случаев (12 пациентов), острая сердечная недостаточность – 8,0±3,1% случаев (6 пациента). По результатам проведенных исследований были даны рекомендации о целесообразности проведения метаболической терапии коморбидным больным с диагнозом ишемический инсульт в пожилом возрасте, с целью улучшения течения и исходов заболевания, их реабилитации и благоприятному прогнозу основного заболевания.

Summary

Diagnostic measures in the combination of brain infarction and acute myocardial infarction

I.S.Babakhanov

Studies have studied diagnostic measures for the combined detection of cerebral infarction and acute myocardial infarction. Cerebrovascular complications were characteristic of a hypertensive crisis, making up 65.4±5.5% of the total number of cases. In the structure of complications of a hypertensive crisis, acute cerebral circulation predominated - 49.4±5.8% of cases (37 patients). Further, respectively: myocardial infarction - 26.6±5.1% of cases (20 patients), hypertensive encephalopathy - 16.0±4.2% of cases (12 patients), acute heart failure - 8.0±3.1% of cases (6 patients). According to the results of the research, recommendations were made on the advisability of carrying out metabolic therapy for comorbid patients with a diagnosis of ischemic stroke in old age, with the aim of improving the course and outcome of the disease, their rehabilitation and favorable prognosis of the underlying disease.

Daxil olub: 26.08.2019

Clinical case of Mastocytosis

F.R. Makhmudov, M.A. Obeidat, S.A.Mizher
Azerbaijan Medical University, Baku

Açar sözlər: mastositoz, makulyar eruptiv oersistə olunan tetelangiektaziya
Ключевые слова: мастоцитоз, телеангиэктазия макулярная эруптивная персистирующая
Keywords: mastocytosis, telangiectasia macularis eruptive prestans (TMEP)

Mastocytosis is a group of diseases caused by tissue infiltration and characterized by the release of biological active substances from mast cells during degranulation. The article presents data on the etiology, pathogenesis, clinical picture, clinical forms, diagnosis and differential diagnosis of mastocytosis, as well as its own clinical observations. The presented clinical case contains the features of a rare clinical form of mastocytosis - telangiectasia macularis eruptive prestans, which is often overlooked by clinicians, as a result of which the patient is not treated promptly. The presented clinical case reflects the relevance of the problem in medical practice. Timely diagnosis of the disease improves the prognosis of the disease.

The disease was first described by E. Nettleship and W. Tay in 1869 under the name “chronic urticaria”, which left post pigmentation in the form of brown spots. A. Sangster in 1878 proposed a name for such skin manifestations as “urticaria pigmentosa”. However, the nature of these lesions was established by P. Unna in 1887 as a result of histological studies. The term “mastocytosis” was introduced by R. Degos in 1953 [1,2].

Mastocytosis is a rare disease. Among skin diseases, for every 1000 patients, there is 0.2-1 cases of mastocytosis, that is, 2-3 patients per 10,000 [2]. Mastocytosis has no gender preference, and it occurs in all races [4]. In Europe, approximately 100,000 patients are registered, in the world - 1 million.

With regard to the etiology of mastocytosis, there is no single point of view, most authors suggest that the disease is a pathology of the reticulohistiocytic system. The presence of family cases, including in identical twins, indicates the possible role of genetic factors. It is not excluded autosomal dominant inheritance with variable penetrance, as well as autosomal recessive inheritance. Family cases are quite rare.

In the pathogenesis of mastocytosis, the main role belongs to histamine, heparin, neutral protease and acidic hydrolases [2,5]. The release of histamine, heparin, proteases and hydrolases occurs as a result of mast cell degranulation, when the granules from the center move to the periphery and then enter the extracellular space. Mastocyte degranulation occurs when mast cells are exposed to immune and non-immune activators. The mechanism of action of immune activators is associated with the presence of glycoprotein receptors in mast cells, which are sensitive to class E immunoglobulins. In their turn, non-immune activators are represented by drugs, physical factors, bacterial toxins, etc. [6].

Mastocytoma, nodular mastocytosis and urticaria pigmentosa develops in 55% of cases in the first two years of life [7]. For children, as a rule, pathology is limited to skin lesions and is rarely combined with systemic organ damage.

For adults, predominantly systemic mastocytosis occurs, in which in almost half of the patients the skin is not involved in the process. According to the International Classification of Diseases of the 10th revision (mastocytosis, code Q82.2) it is divided into 2 groups: cutaneous and systemic mastocytosis.Urticaria pigmentosa,, nodular mastocytosis, diffuse mastocytosis, mastocytoma, telangiectasia macularis eruptiva perstans belong to cutaneous mastocytosis. Systemic mastocytosis includes aggressive systemic mastocytosis, mast cell leukemia , mast cell sarcoma, extra cutaneous mastocytoma [1,5].

In 85% of cases, the skin is affected. Cutaneous mastocytosis can be localized (solitary mastocytoma), generalized, which manifests itself as multiple spots, papules and nodes, as well as telangiectasiamacula riseruptivaperstansor erythrodermic (diffuse) mastocytosis [2,5].

The most common is macular mastocytosis – urticaria pigmentosa. Occurs more often in children. Generalized skin lesions are found only in 1% of cases. The disease usually develops in the first 2 years of a child's life and ends with a spontaneous recovery in the puberty [7]. At the onset of the disease, itchy pink-red spots appear, which are subsequently transformed into blisters. Regression of the wheals leads to the formation of brown maculas, on the background of which papular elements further appear. In adults, the skin process begins immediately with the appearance of maculopapular elements. The maculas have rounded outlines with clear borders, up to 0.5 cm in diameter, a smooth surface with no signs of peeling, the color is from light gray to pinkish-brownish. Subjective symptoms are often absent, in 10-15% of

cases itching occurs [3]. Macular and maculapapular forms of mastocytosis must be differentiated from pigmented nevi, macular idiopathic pigmentation, drug toxicoderma [1,5].

Telangiectasia macularis eruptive perstansis a rare form of mastocytosis, occurring predominantly in adults [7]. It is clinically manifested by brownish or reddish maculas within which small telangiectasias are visible, 1-5 mm in size. On the body of the rash is always more than on the limbs.

Mastocytosis is characterized by Darier's signand urticarial dermographism [1,5]. This form is differentiated from Rotmund – Thomson congenital poikiloderma, Jacobi atrophic vascular poikiloderma, and Gouger – Blum purulent angiodermite [2,3].

In the diagnosis of mastocytosis, the characteristic clinical picture and the positive Darier's signare of primary importance. This sign is that with vigorous rubbing of any lesion, erythema and swelling of the rash appear.

Differential diagnostics is carried out with café-au-lait macules, Spitz or congenital melanocytic nevi, pseudolymphomas, and juvenile xanthogranulomas [1].

Clinical case. Patient N, born in 2002, came to the Department of Dermatovenereology of the Azerbaijan Medical University with complaints of a rash on the skin located on the back surface of both hands. According to the patient, the rash appeared in 2016. There are no subjective complaints. An objective examination revealed spotty elements with well-defined edges, round and oval in shape, with a diameter of 1.0-3.0 cm. Lichenificationis observed on some spots, and small plate peeling on the other spots. Dark brown spots. The patient turned to various clinics, where he was diagnosed, such as "contact allergic dermatitis", "erythema multiforme exudative". Positive dynamics during treatment was not observed.

When the patient applied to the Department of Dermatovenereology of the Medical University, the following studies were carried out: complete blood count, biochemical blood test, as well as determination of rheumatoid factors. As a result of laboratory tests, no pathology was identified.

To clarify the diagnosis, the patient was sent for histopathological examination. A biopsy was taken from the pathological focus of the posterior surface of the right hand, 6-7 mm in size on 10.11.18. As a result of histopathological research, the following changes were identified: in the epidermis - hyperparakeratosis, acanthosis, papillomatosis, marked spongiosis with the formation of intraepidermal blisters, hyperpigmentation of the basal layer; in the dermis - acute edema, lymphohistiocytic infiltration of inflammatory origin with perivascular scattered basocytemastocytoma in the papillary dermis, expansion of the superficial capillaries. In addition, fragments of hair follicles and eccrine glands were found in the preparation.

The found histopathological changes are characteristic oftelangiectasiamacularis eruptive prestans, which is a form of mastocytosis.

The treatment uses antihistamines and local glucocorticoids. Potent topical corticosteroids, especially under occlusion for 5 - 6 weeks, may eliminate pruritus and cutaneous whealing as well as reduce the number of lesional skin mast cells, but this can also lead to skin atrophy [1].

Thus, the presented clinical case reflects the urgency of the problem of mastocytosis, since this disease is rare and causes difficulties in the diagnosis.



REFERENCES

1. Jean L. Bologna, Julie V. Schaffer, Lorenzo Cerroni, forthedition. Elsevier Limited, 2018, 2672e p.
2. Пальцев М.А., Потекаев Н.Н., Казанцева И.А. и др. Клинико-морфологическая диагностика заболеваний кожи. М.: Медицина, 2005, 484 с.
3. Скрипкина Ю.К., Бутова Ю.С., Иванова О.Л. Дерматовенерология. Национальное руководство. М.: ГЭОТАР-Медиа, 2013, 896 с.
4. Лебедева Т.Ю., Федерякина О.Б., Дубенский В.В., Катунина О.Р. Мастоцитоз у детей // Тверской мед. ж., 2014, №1, с.48-61
5. Вульф К., Джонсон Р., Сюрмонд Д. ДерматологияпоТомасуФицпатрику. Атлас-справочник. Второе русское издание. Пер. с англ. М., «Практика», 2007, 1248 с.
6. Потекаев Н.С., Потекаев Н.Н. Мастоцитоз. В кн.: Клиническая дерматовенерология / Под ред. Ю.К. Скрипкина, Ю.С. Бутова. М.: ГЭОТАР-Медиа, 2009, Т. 2, с.535-544
7. Хегер П.Г. Детская дерматология / Пер. с нем. под ред. А.А. Кубановой, А.Н. Львова. М.: Издательство Панфилова; БИНОРМ. Лабораториязнаний, 2013, 648 с.
8. Brinster N.K., Vincent Liu, Hateez Diwan A., McKee P.H. Dermatopathology. Elsevier, 2011

Xülasə

Mastositoz haqqında klinik nümunə

F.R.Mahmudov, M.A.Obeydat, A.S.Mijer

Mastositoz toxuma infiltrasiyası nəticəsində baş verən xəstəliklər qrupu olub, deqranulyasiya zamanı tosqun hüceyrələrdən bioloji aktiv maddələrin ifraz olunması ilə xarakterizə olunur. Məqalədə mastositozun etiologiyası, patogenezi, klinik mənzərəsi, klinik formaları, diaqnostikası və differenesial diaqnositkası haqqında məlumatlar təqdim edilmişdir. Tədqim edilən klinik nümunədə mastositozun nadir klinik forması-persistə olunan makulyar eruptiv teleangiektaziya təqdim edilmişdir. Bu xəstəlik çox zaman klinisistlər tərəfindən diqqətsiz qalır. Ona görə də xəstəlik vaxtında müalicə edilmir. Təqdim edilən klinik nümunədə xəstəliyin tibbi parktikada aktuallığı göstərilmişdir. Xəstəliyin diaqnostikası vaxtında aparıldıqda onun proqnozunun yaxşılaşdırılması mümkündür.

Резюме

Клинический случай мастоцитоза

Ф.Р.Махмудов, М.А.Обейдат, С.А.Мижер

Мастоцитоз представляет собой группу заболеваний, вызванных инфильтрацией тканей и характеризующихся выделением биологически активных веществ из тучных клеток во время дегрануляции. В статье представлены данные об этиологии, патогенезе, клинической картине, клинических формах, диагностике и дифференциальной диагностике мастоцитоза, а также собственные клинические наблюдения. Представленный клинический случай содержит признаки редкой клинической формы мастоцитоза - телеангиэктазия макулярная эруптивная персистирующая, которая часто игнорируются клиницистами, в результате чего пациент не получает своевременного лечения. Представленный клинический случай отражает актуальность проблемы в медицинской практике. Своевременная диагностика заболевания улучшает прогноз заболевания.

Daxil olub: 22.08.2019

Atopik dermatit olan uşaqlarda sitokinlərin dinamik dəyişiklikləri

G.Ə.Cəfərova
Azərbaycan Tibb Universiteti, I uşaq xəstəlikləri kafedrası, Bakı

Açar sözlər: atopik dermatit, sitokinlər, İL-6, İL-8
Ключевые слова: атопический дерматит, цитокины, ИЛ-6, ИЛ-8
Keywords: Atopic dermatitis, cytokines, IL-6, IL-8

Müasir dövrdə atopik dermatit (AD) hələ də pediatriyanın ən aktual problemlərindən biri olaraq qalır. Bunun səbəbi həm xəstəliyin geniş yayılması, həm də belə xəstələrin 66 %-də 3 yaşa kimi bronxial astma və ya başqa allergik patologiyanın inkişafının mümkün olmasıdır [1,5,6].

Məlumdur ki, AD-in patogenezi patoloji immun reaksiyalarla bağlıdır ki, onların mediatorları olan sitokinlər dəridə iltihabı prosesin inkişafında və saxlanılmasında əsas rol oynayan maddələrdir [2,7].

Bir neçə tədqiqatlarda göstərilmişdir ki, AD zamanı T-limfositlərin funksional fəallığının tənzimlənməsinin pozulmaları qeyd edilir ki, bu prosesə həm proiltihabi, həm də iltihabəlehinə sitokinlər cəlb olunur. Bu xəstəliyin patogenezində əhəmiyyətli həlqələrdən biri sayılan IgE ifrat dərəcəli ifrazına səbəb olan Th1/Th2 sitokin profilinin Th2 reaksiyalara doğru yönəlməsidir [4,8].

Bəzi müəlliflərin məlumatlarına görə, hətta zahiri simptomların olmadığı dövrlərdə dəridə Th2 tip sitokinlər olan interleykinlərin (İL), məs, İL-4 və İL-13, yüksək istehsalı ilə müşayiət edilən T-limfositar infiltrasiya saxlanılır [9].

Th1/Th2 nisbətinin disbalansı ilk növbədə genetik amillərlə əlaqəlidir. Lakin bu sahədə helə də bir çox məqamlar tam aydın deyildir. Məsələn, AD inkişafında bəzi sitokinlərin (İL-6, İL-8 və s.) rolu və onların AD müxtəlif klinik formalarında və mərhələləridə qan zərdabında dəyişiklikləri haqqında dəqiq məlumat yoxdur. Ədəbiyyatda bu dəyişikliklərlə bağlı bir –birinə zidd olan fikirlər irəli sürülür [3,10]

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, AD olan uşaqlarda iltihabi prosesin fəallığını və ağırlaşmaların inkişaf riskini qiymətləndirmək məqsədilə proiltihabi interleykinlərin dəyişikliklərinin öyrənilməsi məqsədəuyğun sayıla bilər.

Tədqiqatın məqsədi AD uşaqlarda İL-6 və İL-8 səviyyəsinin dinamikada öyrənilməsi olmuşdur.

Tədqiqatın material və metodları. AD diaqnozlu 1-12 yaşlı 52 uşaq müayinə edilmişdir. Nəzarət qrupunu 12 sağlam uşaq təşkil etmişdir. SCORAD indeksindən asılı olaraq AD-li xəstələr 3 qrupa bölünmüşdür: I qrup (n=23) yüngül dərəcəli AD (SCORAD indeksi <30, orta bal 23,4±2,4), II qrup (n=16) orta ağır AD (SCORAD indeksi 30-50 ball arası, orta bal 37,6± 2,7), III qrup (n=13) ağır AD (SCORAD indeksi >50 bal, orta bal 64,7±6,8).

Xəstələrdə qan zərdabında İL-6 və İL-8 səviyyəsi immunoferment analiz üsulu vasitəsilə 2 dəfə (kəskinləşmə və remissiya dövrlərində) qiymətləndirilmişdir. AD olan xəstələrin göstəriciləri sağlam uşaqların göstəriciləri ilə müqayisə edilmişdir.

Alınmış nəticələrin statistik təhlili Statistica («Statsoft, Inc».) proqramı vasitəsilə qeyri-parametrik üsullarla aparılmışdır. Qruplar arasında fərq Manna-Uitni, Vilkokson kriterilərin hesablanması yolu ilə qiymətləndirilmişdir. Fərq $p<0,05$ olduqda dürüst sayılmışdır.

Nəticələr və müzakirə. İL səviyyəsinin təhlili göstərmişdir ki, müalicədən əvvəl proiltihabi sitokinlərin qan zərdabında səviyyəsində sağlam uşaqlarla müəyyən fərq qeyd olunmuşdur.

Belə ki, tədqiqatımızın nəticələrinə əsasən sağlam uşaqlarda İL-6 səviyyəsi 1,48±0,3 pg/l təşkil etmışdir. I qrupa daxil olan xəstələrdə İL-6 səviyyəsi nəzarət qrupu ilə müqayisədə 1,4 dəfə yüksək olaraq 2,25±0,4 pg/l təşkil etmişdir ($p>0,05$). Fərq dürüst olmasada, belə dəyişikliklər AD zamanı iltihab prosesinin mühüm rolunun təsdiqi kimi çıxış edə bilər.

II qrupda İL-6 səviyyəsində sağlam uşaqlar ilə muqayisədə aşkar fərq qeyd edilmişdir. Bu xəstələrdə İL-6 qan zərdabında miqdarı 6,2±1,9 pg/l təşkil edərək sağlam uşaqlarda alınmış nəticələrdən 3,9 dəfə ($p\square 0,05$) yüksək olmuşdur.

Hesab edirik ki, bunun səbəbi həmin qrupda iltihabi prosesin daha dərin olması ilə bağlıdır. Bu da proiltihabı təsirlı İL-6 səviyyəsinin yüngül formalar ilə müqayisədə daha yüksək olmasının əsasıdır. Həmçinin, nəzərə alsaq ki, bu qrupa daxil olan xəstələrdə bir çox hallarda AD bakterial fəsadlarla müşayiət edilir, həmin uşaqlarda İL-6 səviyyəsinin artması yüngül AD –lə müqayisədə daha aşkar şəkildə qeyd olunur.

III qrupa daxil olan xəstələrdə İL-6 səviyyəsi 12,21±4,7 pg/l təşkil edərək nəzarət qrupuna nisbətən 8,1 dəfə ($p\square 0,001$) daha yüksək olmuşdur. Ağır gedişli AD zamanı İL-6 bu dərəcədə yüksək olması yuxarıda qeyd etdiyimiz ehtimalı təsdiq edir. Həqiqətən, AD ağır gedişi dəri prosesinin geniş yayılması, əksər hallarda bakterial infeksiyanın qoşulması və müalicəyə az tabe olmasını nəzərə alsaq, aydındır ki, bunları iltihabi prosesin dərin və yayılmış olması ilə əlaqələndırmək olar.

Remissiya dövründə İL-6 təyini göstərmişdir ki, I qrupa daxil olan uşaqlarda bu göstərici azalaraq, sağlam uşaqların nəticələrinə yaxınlaşsa da, II və III qrupda belə dəyişikliklər qeyd edilməmişdir. Belə ki, remissiya dövründə İL-6 səviyyəsi qruplar üzrə müvafiq olaraq 1,66±0,2 pg/l, 5,78±0,3 pg/l və 8,35±0,12 pg/l təşkil etmişdir. Güman edə bilərik ki, belə nəticələri ilk növbədə ağır və orta ağır gedişli AD zamanı hətta remissiya dövründə belə iltihabi prosesin fəallığının saxlanılmasının sübutu kimi qəbul etmək olar.

İL-8 sitokininin sağlam uşaqlarda orta səviyyəsi 32,0±8,9 pg/l təşkil etmışdir. Tədqiqatımızda I qrupa daxil olan xəstələrdə İL-8 səviyyəsi nəzarət qrupu ilə müqayisədə 1,5 dəfə yüksək olaraq 53,7±7,3pg/l , II qrupda isə 77,8±9,6 pg/l təşkil edərək sağlam uşaqlarda alınmış nəticələrdən 2,5 dəfə (p□0,05) yüksək olmuşdur.

III qrupa daxil olan xəstələrdə İL-8 səviyyəsi 82,3±4,5 pg/l təşkil edərək nəzarət qrupuna nisbətən 2,7 dəfə (p□0,05) daha yüksək olmuşdur.

Məlumdur ki, İL-8 xemokinlərə aid olaraq orqanizmin neytrofillərlə bağlı olan qeyri-spesifik müdafiəsinin mərkəzi mediatoru sayılır. Məhz buna görə də, neytrofillərin produksiyası bakterial agentlərin təsiri altında çox tez bir zaman işə salınır [9,10]. İL-8 nəinki neytrofillərin, həmçinin limfositlərin, eozinofillərin, makrofaqların iltihab ocağına xemotaksisini təmin edir. Bizim fikrimizcə, AD yüngül formalarında bakterial ağırlaşmaların nisbətən az olması İL-8 bu xəstələrdə mülayım artması ilə müşayiət edilir. Lakin orta ağır və ağır gedişli AD zamanı bakterial infeksiyanın qoşulması və bundan irəli gələn müdafiə hüceyrələrinin prosesdə daha fəal iştirakı həmin qruplara daxil olan xəstələrdə bu sitokinin daha aşkar artımına səbəb olur.

Remissiya dövründə bütün qrup xəstələrdə İL-8 səviyyəsi enərək, sağlam uşaqların göstəricilərinə yaxınlaşması ilə səciyyələnir: I, II, və III qruplarda müvafiq olaraq 34,2±4,6 pg/l, 36,8±5,2 pg/l və 37,6±7,3 pg/l). Lakin bu iltihabi prosesin tam sönməsi ilə yox, daha çox bakterial ağırlaşmaların az təsadüf edilməsi ilə bağlı ola bilər.

Beləliklə, sitokinlərdə müşahisə edilən dəyişikliklərin təhlili göstərmişdir ki, İL-6 səviyyəsi həm kəskinləşmə, həm də remissiya dövründə sağlam uşaqlarla müqayisədə daha yüksək olmuşdur ki, bu da klinik mənzərədə nəzərə çarpacaq simptomlar olmadığı hallarda belə iltihabi prosesin davam etməsinin sübutu kimi çıxış edə bilər. Buna əsasən, demək olar ki, İL-6 yoxlanılması rutin klinik-paraklinik üsulların müəyyən etmədiyi iltihabı dəyişikliklərin fəallıq dərəcəsini aşkarlamağa, bundan irəli gələn müvafiq müalicə-profilaktik tədbirlərinin planlaşdırılmasına zəmanət yarada bilər.

İL-8 isə AD xəstələrdə sağlam uşaqlardan fərqli olsa da, xəstəliyin yalnız orta ağır və ağır klinik formalarında nəzərə çarpacaq dəyişikliklərlə müşayiət edilmişdir. Remissiya dövründə İL-8 azalması klinik simptomların azalması ilə müvafiq olmuşdur, bu da AD zamanı İL-8 İL-6 ilə müqayisədə gizli gedən iltihabın aşkarlanmasında daha az informativliyini göstərir.

Beləliklə, İL-6 və İL-8 müxtəlif ağırlıq dərəcəli AD-li xəstələrdə dinamikada dəyişiklikləri patoloji prosesin həm kəskinləşmə, həm remissiya dövründə kifayət gədər yüksək fəallığının və limfositlərin Th1 və Th2 subpopulyasiyaların disbalansının saxlanılması haqqında məlumat verir.

ƏDƏBİYYAT

1. Альбанова В.И., Пампура А.Н. Атопический дерматит. М.: ГЭОТАР-Медиа 2014, 160 с.
2. Варламов Е.Е., Пампура А.Н., Сухоруков В.С. Значение цитокинов в патогенезе атопического дерматита // Рос вестн перинатол и педиатр., 2018, №1, с.28-33
3. Виноградова Т.В., Чусляева А.А., Варламов Е.Е. и др. Современная оценка цитокинового статуса детей при атопическом дерматите // Рос вестн перинатол и педиатр., 2014, №1, с.82-87.
4. Елисютина О.Г., Феденко Е.С., Болдырева М.Н., Гудима Г.О. Особенности иммунного ответа и роль некоторых цитокинов при атопическом дерматите // Рос аллергол журн., 2015, №1, с.3-14.
5. Зайцева С.В. Некоторые аспекты патогенеза и терапии пищевой аллергии у детей // Трудный пациент., 2012, №8-9, с.29-34.
6. Eichenfield L.F., Ellis C.N., Mancini A.J. et al. Atopic dermatitis: epidemiology and pathogenesis update // Semin Cutan Med Surg., 2012, v.31(3), p.3-5.
7. Gürkan A., Yücel A.A., Sönmez C. et al. Serum Cytokine Profiles in Infants with Atopic Dermatitis // Acta Dermatovenerol Croat., 2016, v.24(4), p.268-273.
8. Harris V.R., Cooper A.J. Atopic dermatitis: the new frontier // Med J Aust., 2017, v.207, p.351-356
9. Lee J., Noh G., Lee S. et al. Atopic dermatitis and cytokines: recent patents in immunoregulatory and therapeutic implications of cytokines in atopic dermatitis--part I: cytokines in atopic dermatitis // Recent Pat Inflamm Allergy Drug Discov., 2012, v.6 (3), p.222-247.

10.Noh G., Lee J. Atopic dermatitis and cytokines: the immunoregulatory and therapeutic implications of cytokines in atopic dermatitis. part II: negative regulation and cytokine therapy in atopic dermatitis // Recent Pat Inflamm Allergy Drug Discov, 2012, v.6(3), p.248-261

Резюме

Динамика цитокинов при атопическом дерматите у детей

Г.А.Джафарова

Целью исследования явилось изучение динамических изменений İL-6 и İL-8 при атопическом дерматите (АД) у детей. Были обследованы 52 ребенка с АД в возрасте 1-12 лет. Контрольную группу составили 12 практически здоровых детей соответствующего возраста. На основании индекса SCORAD больные были разделены на 3 группы: I группа (n= 23) с легкой формой АД (SCORAD 23,4±2,4 балла), II группа (n=16) со среднетяжелой формой АД (SCORAD 37,6± 2,7 балла), III группу (n=13) с тяжелой формой АД (SCORAD 64,7±6,8 балла). Оценка уровня İL-6 и İL-8 методом иммуноферментного анализа проводилась дважды (в период обострения и в период ремиссии). Полученные показатели сравнивались с показателями здоровых детей. Данные обрабатывались статистически с помощью пакета программ Statistica («Statsoft, Inc».). В I группе уровень İL-6 в период обострения был выше , чем в группе сравнения в 1,4 раза (p>0,05), во II группе - в 3,9 раза (p□0,05), в III группе – в 8,1 раза (p□0,001). В период ремиссии во II и III группах уровень İL-6 оставался выше, чем у здоровых детей. Содержание İL-8 в сыворотке крови в период обострения составил по группам 53,7±7,3 пг/л, 77,8±9,6 пг/л и 82,3±4,5 пг/л, соответственно. В период ремиссии этот показатель снижался и приближался к контрольной группе. Таким образом, динамика İL-6 и İL-8 при различных степенях тяжести АД свидетельствует о высокой активности воспалительного процесса и дисбаланса Th1 и Th2 субпопуляций лимфоцитов как в период обострения, так и в период ремиссии.

Summary

The dynamics of cytokines in atopic dermatitis in children

G.A.Jafarova

Aim. The study of the dynamic changes of İL-6 and İL-8 in atopic dermatitis (AD) in children. 52 children with AD at the age of 1-12 years were examined. The control group consisted of 12 practically healthy children of the corresponding age. Based on the SCORAD index, patients were divided into 3 groups: group I (n=23) with a mild form of AD (SCORAD 23,4±2,4 points), group II (n=16) with a moderate form of AD (SCORAD 37,6±2,7 points), group III (n=13) with a severe form of AD (SCORAD 64,7±6,8 points). The levels of İL-6 and İL-8 were assessed by enzyme-linked immunosorbent assay methods twice (during exacerbation and in remission). The obtained data were compared with those of healthy children. The data were processed statistically using the Statistica software package ("Statsoft, Inc.") In group I, the level of İL-6 during the exacerbation period was higher than in the comparison group by 1.4 times (p>0.05), in group II-3,9 times (p□0.05), in group III-8,1 times (p□0.001). During remission in the II and III groups, the level of İL-6 remained higher than in healthy children. The content of İL-8 in the blood serum during the exacerbation period was 53,7±7,3 pg/l, 77,8±9,6 pg/l and 82,3±4,5 pg/l, respectively. During remission, this indicator decreased and approached the control group. Thus, the dynamics of İL-6 and İL-8 at various degrees of severity of AD indicates a high activity of the inflammatory process and an imbalance of Th1 and Th2 subpopulations of lymphocytes both during the period of exacerbation and during remission.

Daxil olub: 16.08.2019

Blastosistozun əhali arasında yayılması və epidemioloji xüsusiyyətləri

N.O.Məmmədova
V.Axundov adına E.T. Tibbi Profilaktika İnstitutu, Bakı

Açar sözlər: bağırsaq ibtidailəri, blastosistoz, epidemioloji xüsusiyyətlər, yaş qrupları, bölgələr
Ключевые слова: кишечные паразиты, бластоцистоз, эпидемиологические особенности, возрастные группы, регионы
Keywords: intestinal parasites, blastocystosis, epidemiological features, age groups, regions

Bağırsaq ibtidailəri arasında Blastosista hominis öz quruluşuna, sahiblərinin müxtəlifliyinə, insan patologiyalarında roluna və epidemioloji xüsusiyyətlərinin az öyrənilməsinə görə tədqiqatçıların diqqətində olan protozoozlardandır. Blastosistoz əsasən tropik və subtropik iqlimi olan ölkələrlə yanaşı, bir sıra Avropa ölkələrində də əhali arasında geniş yayılmışdır [1,2].

Blastosista hominis yoğun bağırsağın epiteli və mənfəzində yaşayan bir parazitdir. Blastosista spp. in 17 fərqli subtipi müəyyən olunmuşdur və bunların müxtəlif mexanizmlərlə canlı orqanizmlərə zərərli və faydalı ola biləcəyi düşünülür [3]. Blastosista spp. in molekulyar metodlarla 17 subtipi müəyyən olunsa da mikroskopla birbaşa müşahidə zamanı 4 forması görünür. Asanlıqla tanınan və nəcis nümunələrində daha çox görünən vakuolyar və qranulyar formalardan başqa, amöbvari və sist formaları da mövcuddur [4,5,6]. Həyat tsikli uzun müddət tam aydınlaşdırılmamışdır, ancaq daha çox qəbul olunmuş fikir budur ki, per os yoluxmuş sistlər yoğun bağırsaqda vakuolyar formalara çevrilir və burada 2-yə bölünüb çoxalaraq ya vakuolyar formada qalır, ya da qranulyar və ya amöbvari formalara çevrilir [7,8,9]. Aparılan araşdırmalar Blastosista spp. in anaerob mühitdə yaşamasını təmin edən 2 zarla örtülü mitoxondriyə bənzər orqanellalara (MLO) sahib olduğunu göstərmişdir [10,11,12].

Blastosista spp. in inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə nəcis nümunələrində ən çox görünən parazit olduğu bir çox məqalələrdə bildirilir [13,14].

Azərbaycan Respublikasının zəngin təbii iqlim şəraiti bir sıra parazitar xəstəliklərin, o cümlədən Blastosistozun yayılması üçün münbitdir və bu xəstəliklər ölkə patologiyasında mühüm rola malikdir. Ona görə də, onların müxtəlif aspektlərinin öyrənilməsi praktik səhiyyə idarələri üçün olduqca əhəmiyyətlidir.

Respublikada Blastosistoza dair müəyyən tədqiqat işləri 25-30 il əvvəl aparılmışıdr ki, onlar hazırki vəziyyəti əks etdirmir [1].

Bütün bunları nəzəri alaraq Blastosista hominisin əhali arasında yayılma səviyyəsini, risk qruplarını, əsas yoluxdurucu amilləri və s. aşkar etmək üçün müvafiq tədqiqat işləri aparılmışdır.

Tədqiqatın məqsədi Blastosistozun əhali arasındsa yayılma səviyyəsi və epidemioloji xüsusiyyətlərinin öyrənilməsindən ibarətdir.

Tədqiqatın material və metodları. V.Axundov adına ET Tibbi Profilaktika İnstitutunun Yoluxucu xəstəliklər və Parazitar xəstəliklər klinikasına 2018-ci il fevral ayından 2019-cu il iyun ayınadək müraciət edən 8002 xəstənin nəcisi adi yaxma üsulu ilə müayinə edilmişdir. Müayinə olunan şəxslər 1 yaşdan 78 yaşa kimi şəxslər olmuşdur. 8002 xəstədən 3825 nəfəri qadın, 4177 nəfəri isə kişilər olmuşdur.

Alınmış nəticələr və onların müzakirəsi. Müayinə edilən 8002 şəxsdən 2079 nəfərində (25,98±0,48%) Blastosistoz aşkar edilmişdir. Blastosistoz aşkar edilən xəstələrin 1060 qadın (50,99±1,10 %), 1019 nəfəri (49,01±1,10 %) isə kişilər təşkil edir (p>0,05). Xəstələrin yaş qruplarına görə rast gəlməsi cədvəl 1-də öz əksini tapmışdır.

Cədvəl 1
Blastosistozlu xəstələrin yaş qruplarına görə rast gəlməsi

Yaş qrupları	Blastosistozlu xəstələr	
	Mütləq	%
1-3	232	11, 16±0, 69
4-7	434	20, 88±0, 85
8-11	404	19, 43±0, 86
12-17	258	12, 41±0, 72
18-40	625	30, 06±1, 0
41-60	101	4, 86±0, 47
61 və yuxarı	25	1, 20±0, 24
Cəmi	2079	100%

Cədvəldən göründüyü kimi Blastosistozlu xəstələrin ən azını 61və yuxarı yaşlılar (1,20±0,24%) təşkil edir. Nisbətən çox 41-60 yaşlı xəstələrdir (4,86±0,47%). 1-3 yaşlı (11,16±0,69%) və 12-17 yaşlı xəstələr (12,471±0,72%) təqribən eyni sayda rast gəlir. Göstərilən yaşlara nisbətən 2 dəfə çox və təqribən bərabər 4-7 yaşlı (20,88±0,85%) və 8-11 yaşlı (19,43±0,86%) xəstələr təşkil edir.

Bütün yaş qrupları içərisində ən çox 18-40 yaşlı xəstələr (30,06±1,0 %) rast gəlir. Müayinə olunan şəxslərə yaş qruplarına görə düşən xəstələnmələr cədvəl 2-də öz əksini tapmışdır.

Cədvəl 2

Müxtəlif yaş qruplarının Blastosistozla yoluxması

Yaş qrupları	Müayinə olunanlar	Blastosistoz aşkar edilənlər	
		Mütləq	%
1-3	1096	232	21,17±1,23
4-7	1968	434	22,05±0,94
8-11	1512	404	26,72±1,14
12-17	817	258	31,58±1,63
18-40	1846	625	33,86±1,10
41-60	587	101	17,21 ±1,56
61 və yuxarı	176	25	14,21±2,63
Cəmi	8002	2079	25,98±0,49

Cədvəldən göründüyü kimi ən az yoluxma 61 yaşdan yuxarı (14,21±2,63 %) və 41-60 yaşlı (17,21±1,56%) şəxslər arasında rast gəlir. Nisbətən çox və bərabər miqdarda yoluxma 1-3 yaşlı (21,17±1,23 %) və 4-7 yaşlı (22,05±0,94%) uşaqlar arasında qeyd edilir. Məktəbəqədər uşaqlara nisbətən məktəb yaşlı uşaqlar arasında nisbətən çox yoluxma 8-11 yaşlı (26,72 ±1,14%) uşaqlarda aşkar edilir. Blastosistozla ən çox yoluxma 18-40 yaşlı şəxslər arasında (33,86±1,10%) qeyd edilir. Şəhər və kənd sakinlərinin Blastosistozla yoluxması da tərəfimizdən araşdırılmışdır. Müayinə edilən şəxslərin 1584 nəfəri kənd sakinləri, 6418 nəfəri isə şəhər sakinləri olmuşdur.

Müayinələrin nəticələri göstərir ki, kənd sakinlərinin blastosistozla yoluxması (31,88±1,17%), şəhər sakinlərinə nisbətən (24,52±0,54%, p<0, 001) xeyli çoxdur. Həmçinin, müayinə olunanlar arasında kişilərin üstünlük təşkil etməsinə baxmayaraq, blastosistoz aşkarlanan xəstələr arasında qadınlar çoxluq təşkil edir.

Bundan başqa Blastosistozun Azərbaycan Respublkasında bölgələr üzrı rast gəlməsini dəqiqləşdirmək üçün müayinə olunan şəxslər bögələr üzrə araşdırılmışdır. Tədqiqatın nəticələri cədvəl 3-də öz əksini tapmışdır.

Cədvəl 3

Blastosistzoun bölgələr üzrə rast gəlməsi

Bölgələr	Müayinə olunanlar	Blastosistozun aşkar edilməsi	
		Mütləq	%
Böyük Qafqazın cənub şərq vilayəti	6688	1752	26,2±0,54
Kiçik Qafqaz vilayəti	229	62	27,07±2,94
Kür dağarası çökəkliyi vilayəti	902	223	24,72±1,44
Lənkəran vilayəti	146	40	27,4±3, 69
Orta Araz vilayəti	37	2	5,41±3,72
Cəmi	8002		25,98±0,49

Cədvəldən göründüyü kimi müayinə olunanların 83,58 % -ni Böyük Qafqaz vilayətinin payına düşür və burada Blastosistoz 26,2±0,54% hallarda rast gəlir.

Müayinə olunanların sayına görə 2-ci yerdə Kür dağarası çökəklik vilayəti düşür. (902 nəfər) ki, onların 24,72±1,44 %-də blastosistoz aşkar edilmişdir.

Kiçik Qafqaz vilayətində 229 nəfər müayinə edilmişdir ki, onların 27,07±2,94%-də blastosistoz aşkar edilmişdir. Lənkəran vilayətində müyinə edilən 146 nəfərdən 27,4±3,69%-də blastosistoz aşkar edilmişdir. Orta Araz viayətidə cəmi 37 nəfər müayinə edilmişdir ki, onlardan 5,41±3,72%-də blastosistoz aşkar edilmişdir. Cədvəldən göründüyü kimi Respublikanın 4 bölgəsində əhali arasında blastosistoz təqribən eyni səviyyədə aşkar edilir. Orta Araz vilayətində isə ən az blastosistoz aşkar

edilmişdir. Lakin, bu bölgədə müayinə olunanların sayı kifayət qədər olmadığı üçün dəqiq fikir söyləmək çətindir.

Yekun. Aparılan tədqiqatın nəticələri Blastosistozun Respublikada əhali arasında kifayət qədər geniş yayıldığını göstərir. Bu xəstəlik ən çox 18-40 yaşlı şəxslər, sonra 4-7 və 8-14 yaşlı uşaqlar arasında rast gəlir. Ən az isə 61 və yuxarı yaşlı şəxslər arasında aşkar edilir. Kənd sakinləri şəhər sakinlərindən blastosistoza çox yoluxur. Blastosistozun Orta Araz vilayətindən başqa, digər regionlarda yayılmasında elə bir fərq müşahidə edilmir.

ƏDƏBİYYAT

1. Nourrisson C., Scanzi J., Pereira B. et al. Blastocystis is associated with decrease of fecal microbiota protective bacteria: comparative analysis between patients with irritable bowel syndrome and control subjects // PLoS One, 2014, v.9, e111868.
2. Alfellani M.A., Taner-Mulla D., Jacob A.S. et al. Genetic Diversity of Blastocystis in Livestock and Zoo Animals // Protist, 2013, v.164, p.497-509.
3. Tan K.S. New insights on classification, identification, and clinical relevance of Blastocystis spp // Clin Microbiol Rev., 2008, v.21, p.639-665.
4. Sohail M.R., Fischer P.R. Blastocystis hominis and travelers // Travel Med Infect Dis., 2005, v.3, p.33-38
5. Stensvold C.R., Lewis H.C., Hammerum A.M. et al. Blastocystis: unravelling potential risk factors and clinical significance of a common but neglected parasite // Epidemiol Infect., 2009, v.137, p.1655-1663.
6. Li L.H., Zhou X.N., Du Z.W. et al. Molecular epidemiology of human Blastocystis in a village in Yunnan province // China. Parasitol Int., 2007, v.56, p.281-286.
7. Abdulsalam A.M., Ithoi I., Al-Mekhlafi H.M. et al. Drinking water is a significant predictor of Blastocystis infection among rural Malaysian primary schoolchildren // Parasitology, 2012, v.139, p.1014-1020.
8. Yaicharoen R., Ngrenngarmlert W., Wongjindanon N. et al. Infection of Blastocystis hominis in primary schoolchildren from Nakhon Pathom province Thailand // Trop Biomed., 2006, v.23, p.117-122.
9. Ozcakir O., Gureser S., Erguven S. et al. Characteristics of Blastocystis hominis infection in a Turkish university hospital // Turkiye Parazitol Derg., 2007, v.31, p.277-282.
10. Dagci H., Kurt O., Demirel M. et al. Epidemiological and diagnostic features of Blastocystis infection in symptomatic patients in Izmir province Turkey // Iran J Parasitol., 2014, v.9, p.519-529.
11. Alver O., Tore O. The prevalence and distribution of intestinal parasites detected by the Uludag University Medical School // Turkiye Parazitol Derg., 2006, v.30, p.296-301
12. Lukes J. Are human infestinal eukaryotes beneficial or commensals // Plos. Pathog., 2015, v.11
13. Домбровская Д.А. Факторы риска заражения Blactocystis spp: Автореф. дис. .. канд.мед.наук. СПб, 2016, 21с.
14. Kaya S., Cetin E.S., Aridogan B.C. et al. Pathogenicity of Blastocystis hominis, a clinical re-evaluation // Turkiye Parazitol Derg., 2007, v.31, p.184-187.
15. Scanlan P.D., Stensvold C.R., Rajilić-Stojanović M. et al. The microbial eukaryote Blastocystis is aprevalent and diverse member of the healthy human gut microbiota // FEMS Microbiol Ecol., 2014, v.90, p.326-30.
16. Examination of subtypes and morphotypes in an unusual clinical manifestation // Acta Trop., 2015, v.148, p.156-61.
17. Gentekaki E., Curtis B.A., Stairs C.W. et al. Extreme genome diversity in the hyper- prevalent parasitic eukaryote Blastocystis // PLoS Biol., 2017, v.15, e2003769.
18. Сафаралиев Р.С. Социально-эпидемиологические значимость кишечних протозоозов усовершенствование их диагностики и химиопрофилактики: Автореф, дисс. ... докт. мед. наук., Баку, 1992, 43с.

Резюме

Распространенность и эпидемиологические особенности бластоцистоза у населения

Н.О.Мамедова

Целью данного исследования является изучение распространенности и эпидемиологических особенностей бластоцистоза среди населения. Исследование показывает, что бластоцистоз широко распространен среди нашей популяции. Это расстройство чаще всего встречается у людей в возрасте 18-40 лет, также у детей в возрасте 4-7 и 8-14 лет. Реже всего, он встречается среди людей в возрасте 61 года и старше. Также сельские жители более подвержены бластоцистозу, чем

городские жители. Нет различий в распространенности бластоцистоза в других регионах, кроме Центрально-Аразского региона.

Summary

Prevalance and epidemiological features of blastocystosis among the population

N.O.Mammedova

The aim of this reserach is to study the prevalance and epidemiological features of blastocystosis among the population. The study show that Blastocystosis is widespread among our population. This disorder is most common among people aged 18-40 years and then in children aged 4-7 and 8-14 years. At least it is found among people aged 61 and over. Rural residents are more susceptible to blastocystosis than urban residents. There is no difference in the prevalence of blastocystosis in other regions except the Central Araz region.

Daxil olub: 22.08.2019

Böyüklərdə sitomeqalovirus infeksiyasinin risk amilləri

Z.N.Hüseynova

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: sitomeqalovirus, risk amilləri, İFA-testi

Ключевые слова: цитомегаловирус, факторы риска, ИФА-тест

Key words: cytomegalovirus, risk factors, İFM test

Üçüncü minilliyin klinik təbabətində hamiləliyin gedişinə və nəticəsinə, dölün bətndaxili inkişafına böyük təsir göstərən, eləcə də xüsusilə son illərdə böyüklərdə müxtəlif somatik patologiyaların inkifaşında rol oynayan infeksiyalardan biri sitomeqalovirus infeksiyasıdır [1-6].

Sitomeqalovirus infeksiyasının (SMVİ) insan populyasiyasında rastgəlmə tezliyi bir sıra amillərlə – coğrafi yaş, sosial-iqtisadi, immun sistemin vəziyyəti və s. müəyyən edilir [8-12]. SMVİ ilə demək olar ki, əhalinin 90%-nin yoluxmasına baxmayaraq, o yüksək kontagiozluğu ilə fərqlənmir [5, 7]. Odur ki, bu infeksiyanın epidemiologiyasında mühüm əhəmiyyət kəsb edən risk amillərinin yaş qrupu, infeksiyanın giriş qapısı, yoluxma yolu, müxtəlif somatik və immun-kompetent vəziyyətlərin olması və s. müəyyən edilməsi çox vacibdir. Bu baxımdan hazırkı tədqiqat işinin məqsədi böyüklərdə sitomeqalovirus infeksiyasının baş verməsində mümkün rolu olan risk amillərinin müəyyən edilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqat obyekti kimi 2017-2018-ci illərdə Azərbaycan Tibb Universitetinin klinik epidemioloji laboratoriyasına «sitomeqalovirus infeksiyasına» görə müayinə üçün müraciət etmiş 128 nəfər böyük yaşlı pasiyent müayinə olunmuşdur. Müayinə olunanların 113 nəfəri qadın (88,3%), 15 nəfəri isə kişilər (11,7%) olmuşdur.

Müayinə olunan qadınların yaşı 17-64 yaş (orta yaş 34,3±1,4) kişilərin isə 26-48 yaş həddində olmuşdur (orta yaş 38,7±0,9).

Anamnestik sorğunun nəticələri əsasında 76 qadında (67,3%) iltihabi xarakterli genital patologiya müəyyən edilmişdir. SMVİ-nin seroloji identifikasiyası immunferment analiz üsulu ilə sitomeqalovirusa (SMV) qarşı spesifik anti-CMV IgM və anti-CMV IgG əkscismlərinin dinamikada titrinin təyini əsasında aparılmışdır. Nəticələrin qiymətləndirilməsi İFA test-sistemin təlimatı əsasında aparılmışdır (Acon, ABŞ).

Tədqiqatın nəticələrinin statistik işlənməsi zamanı STATISTIKA 6.0 kompyuter proqramından istifadə olunmuşdur. Alınan fərqlər $p<0,05$ intervalında statistik dürüst hesab edilmişdir.

Alınan nəticələr və onların müzakirəsi. SMVİ-yə görə müayinə olunan qadın pasiyentlərdə müxtəlif yaş qruplarında spesifik G və M sinif əkscismlərinin verifikasiyası nəticələri 1 saylı cədvəldə öz əksini tapmışdır.

1 saylı cədvəldən aydın olur ki, sitomeqalovirus infeksiyasına görə müayinə olunan qadınlarda anti-SMV IgG əkscismlərinin aşkar olunma tezliyi 87,6%, anti-SMV IgM əkscismlərinin aşkar olunma tezliyi isə 9,7% təşkil etmişdir. G sinif immunqlobulinləri daha çox 30-39 yaş qrupunda (87,1%), M sinif immunqlobulinləri isə 40-49 yaş qrupunda (16,7%) təyin edilmişdir.

Sitomeqalovirus infeksiyasına görə müayinə olunan kişi pasiyentlərdə müxtəlif yaş qrupları üzrə G və M sinif immunqlobulinlərinin təyin olunma nəticələri 2 saylı cədvəldə verilmişdir.

Cədvəl 1

SMVİ görə müayinə olunan qadınlarda seroloji verifikasiyanın nəticələri

Yaş qrupları	Müayinə olunmuşdur	Anti-SMV IgG (%)	Anti-SMV IgM (%)
30 yaşa qədər	71	61 (85,9%)	6(8,5%)
30-39 yaş	31	27 (87,1%)	4 (12,9%)
40-49 yaş	6	6 (100,0%)	1 (16,7%)
50 yaş və yuxarı	5	5 (100,0%)	–
Cəmi:	113	99 (87,6%)	11 (9,7%)

Cədvəl 2

SMVİ görə müayinə olunan kişilərdə seroloji verifikasiyanın nəticələri

Yaş qrupları	Müayinə olunmuşdur	Anti-SMV IgG (%)	Anti-SMV IgM (%)
30 yaşa qədər	3	2 (6,7%)	2 (6,7%)
30-39 yaş	6	5 (83,3%)	1 (16,7%)
40-49 yaş	6	5 (83,3%)	–
Cəmi:	15	12 (80,0%)	3 (20,0%)

2 saylı cədvəldən göründüyü kimi, SMVİ görə müayinə olunan kişi pasiyentlərdə 30 yaşa qədər G və M əkscismlərinin aşkar olunma tezliyi eyni olmuşdur – 6,7%. Anti-SMV JgG əkscismləri kişilərdə 30-39 və 40-49 yaş qrupunda demək olar ki, eyni təsadüfə qeydə alınmışdır (83,3%). Anti-SMV IgM əkscismləri isə 40-49 yaş qrupunda müəyyən edilməmiş, 30-39 yaş qrupunda isə onların aşkar olunması 16,7% civarında olmuşdur. Ümumilikdə spesifik anti-SMV IgG əkscismlərinin aşkar edilmə tezliyi 80,0%, spesifik anti-SMV IgM əkscismlərinin aşkar edilmə tezliyi 20,0% olmuşdur.

Müəyyən edilmişdir ki, qadınlarda eyni zamanda həm G, həm də M sinif əkscismləri 8 nəfərdə (7,1%), kişilərdə isə 2 nəfərdə (13,3%) təyin olunmuşdur.

SMVİ-yə görə müayinə aparılan böyük yaşlı kişi və qadınlarda humoral immunitetin vəziyyətinin təhlili göstərdi ki, 50 yaşdan yuxarı yaş qrupunda istər G, istərsə də M sinif immunqlobulinləri təyin edilməmişdir. Bu isə bir daha onu təsdiqləyir ki, böyüklərdə sitomeqalovirus infeksiyası əsas etibarilə 30-49 yaş qrupunda qeydə alınmaqla reproduktiv funksiyaya təsir göstərə bilər.

Aparılan seroloji monitorinqin nəticələrinə görə həm kişilər, həm də qadınlarda SMVİ-nin daha çox xronik (latent) formasının qeydə alınması diqqət çəkir. Kəskin (aktiv), yaxud residiv verən SMVİ-nin aşkar olunması qadlınlarda təxminən 9 dəfə, kişilərdə isə 4 dəfə azdır. Sitomeqalovirus infeksiyasına görə müayinə üçün müraciət etmiş böyük yaşlı pasiyentlərin sorğusu vasitəsilə toplanan epidemioloji anamnezdən məlum olmuşdur ki, təsdiq olunmuş sitomeqalovirus infeksiyası hansı klinik formada təzahür etməsindən asılı olmayaraq daha çox yaz və payız aylarında, viruslu respirator infeksiyaların fəallaşdığı mövsümlərdə təyin edilmişdir.

İl ərzində aylar üzrə pasiyentlərin daxil olma dinamikasının təhlili böyüklərdə sitomeqalovirus infeksiyasının mövsüm xarakterini müəyyən etməyə imkan verə bilər.

Apardığımız seroloji müayinələrin nəticələri və toplanmış epidemioloji anamnez böyüklərdə sitomeqalovirus infeksiyasının aşağıdakı risk amillərini müəyyən etməyə imkan vermişdir:

1. Qadınlarda sitomeqalovirus infeksiyası (kəskin, xronik, residivləşən) kişilərə nisbətən daha çox qeydə alınmışdır.
2. Kişilərdə eyni zamanda həm G, həm də M sinif immunqlobulinləri daha çox aşkar edilmişdir.
3. Qadınlarda və kişilərdə sitomeqalovirus infeksiyasının aşkar olunması 30-39 və 40-49 yaş qruplarında maksimal olmuşdur.
4. Qadınlarda və kişilərdə sitomeqalovirus infeksiyası yaz və payız mövsumiliyi nümayiş etdirmişdir.

Deyilənləri ümumiləşdirərək, böyüklərdə sitomeqalovirus infeksiyasının epidemioloji əhəmiyyət kəsb edən risk amilləri sırasında yaş, cins və mövsüm xüsusiyyətlərini ifadə edən amilləri göstərmək olar. Bu amillər yüksək risk qrupuna daxil olan pasiyentləri müəyyən etməyə və onların adekvat müayinə və müalicəsini təşkil etməyə imkan verir.

ƏDƏBİYYAT

1. Быстровская В.Б., Ряскина С.С., Смирнов В.Б. Проблемы цитомегаловирусной инфекции // Природа, 2013, № 4, с.28-29.

2. Короткова Н.А., Прилепская В.Н. Цитомегаловирусная инфекция и беременность // Акушерство и гинекология, 2016, № 3 (22), с.31-36.

3. Лебедева А.М., Албакова Р.М., Албакова Т.М. Цитомегаловирусная инфекция и

атеросклероз // Инфекционные болезни, 2017, № 6, с.72-78.

4. Петрова К.К. Причина и диагностика раннего невынашивания при цитомегаловирусной инфекции // Бюллетень, 2017, Вып.64, с.50-54.

5. Покровский В.И., Аитов К.А., Покровский В.В. Цитомегаловирусная инфекция у взрослых / Клинические рекомендации, М., 2014, 74 с.

6. Яцык Г.В., Одинаева Н.Д., Беляева И.А. Цитомегаловирусная инфекция // Журнал «Практика педиатра», 2009, № 3, с.5-12.

7. Bechtel M., Frout W. Sexually Transmitted Diseases // Clin. Obstetr. Gynecol., 2015, 58(1), p. 172-184.

8. Leruez-Ville M., Selier Y., Salomon L. et al. Prediction of fetal infection in cases with cytomegalovirus immunoglobulin M in the first trimestr of pregnancy: a retrospective cohort // Clin. Infect. Dis., 2013, 56(10), p.1428-1435.

9. Leruez-Ville M., Macny J., Couderc S. et al. Risc factors for congenital cytomegalovirus infection following primary and nonprimary maternal infection: a prospective neonatal screening study using polymerase shain reaction in saliva // Clin. Infect. Dis., 2017, 65 (30), p.398-404.

10. Lumley S., Patel M., Griffiths P. IgM antibodies and IgG antibodies of low avidity does not always indicate primary infection with cytomegalovirus // J. Med. Virol., 2014, 86(5), p.834-837

11. Murthy S., Hayward G., Wheclan S. et al. Detection of a single indentical cytomegalovirus strains in recently seroconverted young women // Plos One, 2011, 6, p.149-159.

12. Wizman S., Lamarre V., Coic L. et al. Awareness of cytomegalovirus and risk factors for susceptibility among pregnant women in Montreal, Canada // BMC. Pregnancy/Child birth, 2016, 16, p.54.

Резюме

Факторы риска при цитомегаловирусной инфекции у взрослых

З.Н.Гусейнова

Цель настоящего исследования сводилась к установлению факторов риска цитомегаловирусной инфекции у взрослых. С этой целью 128 пациента были обследованы на наличие цитомегаловирусной инфекции с использованием иммуноферментного анализа. Из обследованных 113 человек составляли женщины (88,3%) и 15 мужчин (11,7%). Средний возраст женщин равнялся 34,3±1,4 годам, мужчин – 38,7±0,9 лет. В результате проведенных исследований установлено, что у женщин цитомегаловирусная инфекция выявляется больше, чем у мужчин. Выявляемость цитомегаловирусной инфекции у женщин и у мужчин в основном приходилась на возрастные группы 30-39 и 40-49 лет. У мужчин и у женщин цитомегаловирусная инфекция характеризовалась весенней и осенней сезонностью.

Summary

The risk factors in cytomegalovirus in adults

Z.N.Huseynova

The aim of investigation was to determine of risk factors in cytomegalovirus infection in adults. For this purpose the 128 patients have been observed for cytomegalovirus infection by using of ELISA. From observing patients the women were 113 (88,3%) and the men – 15 (11,7%). The middle age of women consist 34,3±1,4 years old and of men equal to 38,7±0,9 years old. In the results of carrying out investigations determine that in women the cytomegalovirus infection have been appeared more than in men. The appearing of cytomegalovirus infection had to 30-39 and 40-49 age groups. The cytomegalovirus infection in women and in men have been characterized of spring and autumn seasonalities.

Daxil olub: 19.06.2019

İlanbaşı (*Dracocephalum* L.) bitkilərinin fitokimyəvi tədqiqi və tibbdə istifadəsi

G.S. Cəfərova, C.İ.İsayev
Azərbaycan Tibb Universiteti, Farmakoqnoziya kafedrası

***Açar sözlər*:** *Dracocephalum*, fitokimyavi analiz, flavonoidlər, efir yağları, iridoidlər, farmakoloji xassələr
Ключевые слова: *Dracocephalum*, фитохимический анализ, эфирные масла, иридоиды, фармакологические свойства
***Keywords*:** *Dracocephalum*, phytochemical analysis, flavonoids, essential oil, iridoids, pharmacological properties

Azərbaycan florasından olan yabanı bitki növlərinin farmakoqnostik tədqiqi, bu bitkilərdən müxtəlif qrup bioloji fəal birləşmələrin alınması və onların əsasında daha effektiv dərman vasitələrinin yaradılması əczaçılıq elminin, o cümlədən farmakoqnoziyanın qarşısında duran aktual məsələdir. Uzun illər ərzində müxtəlif mütəxəssislər tərəfindən bu istiqamətdə müəyyən elmi tədqiqat işləri aparılmış, yeni bitki xammalları aşkar edilmiş, ayrı-ayrı qruplara aid bioloji fəal birləşmələr alınmışdır. Buna baxmayaraq daha effektiv və az əlavə təsirlərə malik təbii dərman vasitələrinin yaradılması istiqamətində yeni tədqiqatların aparılması perspektivlidir. Bu baxımdan, Azərbaycanın müxtəlif bölgələrində yayılmış ilanbaşı - *Dracocephalum* L. cinsinə daxil olan bitki növlərinin farmakoqnostik tədqiqi aktualdır.

Dracocephalum cinsi Azərbaycan florasında növlərin sayına görə zəngin fəsilələrdən biri olan, lakin farmakoqnostik baxımdan çox az tədqiq olunan və farmakoloji xassələri haqqında az məlumat olan *Lamiaceae* fəsiləsinə aiddir. İlanbaşı cinsinin Asiya və Avropa ərazilərində 40-dan artıq, Qafqazda 6 və Azərbaycan florasında 4 növü: *D. austriacum* E. – avstriya ilanbaşı; *D. multicaule* Montbr. – çoxgövdəli ilanbaşı; *D. ruyschiana* L. – Ruyş ilanbaşı və *D. botryoides* Stev. – fırça ilanbaşı yayılmışdır. Bu bitki növlərinə Böyük Qafqaz və Kiçik Qafqaz dağlarının alp və subalp çəmənliklərində rast gəlinir. Respublikamızda yayılan bütün ilanbaşı növləri çoxillik ot bitkiləridir [1].

Dracocephalum cinsi 3 yarımcinsə bölünür: *Eudracephalum*, R*uyschiana* və *Fedczenkiella*. Azərbaycanda yayılmış *D. austriacum* və *D. ruyschiana* R*uyschiana* yarımcinsinə, *D. multicaule* və *D. botryoides* növləri isə *Eudracephalum* yarımcinsinə daxildir.

Azərbaycan florasında yayılmış ilanbaşı növləri haqqında aşağıda məlumat verilmişdir.

D. multicaule Montr. Et Auch. – 20-25 sm hündürlüyündə çoxillik ot bitkisidir. Əsasından düzqalxan, sadə, nazik və səthi qısa tükcüklərlə sıx örtülmüş, bənövşəyi rəngli, çoxsaylı sadə gövdələri vardır. Yarpaqları qısa saplaqlıdır, xətkeşvari-neştərşəkilli və ya neştərşəkillidir, tamkənarlıdır və ya kənarları bütöv və itiucludur, səthi qısa, sıx tükcüklərlə örtülüdür. Yarpaqların uzunluğu 1,5-2,5 sm, eni isə 1,5-4 mm-dir. Çiçəkləri 1-2 ədəd olmaqla gövdənin yuxarı hissəsindəki yarpaqların qoltuğunda uzunsov, lətli çiçək qrupunda yerləşir. Azərbaycanda Böyük Qafqaz dağlarında, Kiçik Qafqaz dağlarının Naxçıvan MR-da orta və yuxarı dağlıq ərazilərdə, quru çəmənliklərdə yayılmışdır. Şabran, Xızı, Quba, Qusar, Qubadlı, Laçın, Kəlbəcər və Naxçıvan MR-nın dağlıq ərazilərində rast gəlinir.

D. botryoides Stev. - fırça ilanbaşı 15-20 sm hündürlüyündə, boz rəngli, səthi tükcüklərlə sıx örtülmüş çoxillik ot bitkisidir. Bitkinin gövdələri əsasından çoxsaylıdır, çox vaxt əyri-üyrüdür, sadə və ya qollu-budaqlıdır. Yarpaqları xırdadır, saplaqlarla birlikdə uzunluğu 10-15 mm, eni isə 7-10 mm-dir. Yumurtavari-yumru və ya uzunsov-yumurtavari formadadır, əsasında pazşəkilli və ya ürəkvaridir, yarpaq ayasının kənarları lələkvari-qanaqlıdır və ya 5-7 küt uclu oval və uzunsov paylara lələkvari-bölünmüşdür, kənarları azca bükülmüşdür, hər iki səthi sıx tükcüklərlə örtülüdür. Çiçək topaları yumurtaşəkilli və ya uzunsov, başcıq çiçək qrupunda sıx yerləşmişdir. Bitki may-avqust aylarında çiçək açır, avqust-sentyabr aylarında meyvə əmələ gətirir. Azərbaycanda Böyük Qafqazda və Naxçıvan MR-nın dağlıq ərazilərində, alp çəmənliklərdə, daşlıq, çınqıllı yamaclarda yayılmışdır. Qusar, Quba, Qəbələ, və Naxçıvan MR-nın dağlıq ərazilərində rast gəlinir.

D. ruyschiana L. – Ruyş ilanbaşı 25-45 sm hündürlüyündə çoxillik ot bitkisidir, gövdələri tək və ya çoxsaylıdır, sadə və ya budaqlanmışdır, çılpaqdır və ya səthi qısa tükcüklərlə örtülmüşdür. Yarpaqları oturaqdır, neştərşəkilli-xətkeşşəkilli və ya xətkeşşəkillidir, küt ucludur, tam kənarlıdır, kənarları bükülmüşdür, demək olar ki, çılpaqdır, üst səthi tünd yaşıl, alt səthi isə açıq-yaşıl rənglidir, üzərində nöqtəvari vəziciklər müşahidə olunur. Uzunluğu 2-5 sm, eni isə 2-8 mm-dir. Azsaylı çiçək topaları gövdələrin uc hissəsində uzunsov çiçək qrupuna toplanmışdır. Çiçəkləri oturaqdır, çiçəkyanlığı yumurtavari-neştərşəkilli və ya neştərşəkillidir, iti uclu, tam kənarlıdır, kasacıqdan daha qısadır. Bitki iyun-avqust aylarında çiçək açır, avqustun sonunda isə meyvə əmələ gətirir. Azərbaycanda Böyük Qafqaz və Kiçik Qafqazın mərkəzi hissəsində orta və yüksək dağlıq ərazilərdə, dağ çəmənliklərində yayılmışdır. Quba, Qusar, İsmayıllı, Qubadlı, Zəngilan və Laçın rayonlarının ərazilərində rast gəlinir.

D. austriacum E. – avstriya ilanbaşı 20-50 sm hündürlüyündə çoxillik ot bitkisidir, gövdələri tək və ya çoxsaylı olub, səthi yumşaq tükcüklərlə örtülüdür, aşağı hissəsi bənövşəyi rənglidir. Yarpaqlar qısa saplaqlıdır, 3-7 sayda yarılmış və ya bölünmüş xətkeşvari küt hissələrdən ibarətdir, kənarları bükülmüşdür. Yan qısa budaqların üzərində yerləşən yarpaqlar üç bölümlüdür, bölümlər itiucludur və xətkeşvari formadadır. Topa şəklində yerləşən çiçəkləri azsaylıdır, gövdələrin uc hissəsində başcıq çiçək qrupuna toplanmışdır. Bitki iyun-iyul aylarında çiçək açır, avqust ayında isə meyvə əmələ gətirir. Azərbaycanda Böyük Qafqazın subalp çəmənliklərində yayılmışdır. Əsasən Quba, Qusar, Şabran, İsmayıllı, Qax, Zaqatala və Şəki rayonlarının ərazilərində rast gəlinir [1].

Ədəbiyyat məlumatlarına görə *Dracocephalum* cinsinə 70 bitki növü daxildir. Cinsə daxil olan 20-dən artıq növdə efir yağı aşkar edilmişdir. Müxtəlif ilanbaşı növlərindən alınan uçucu və qeyri-uçucu birləşmələr fitokimyəvi və farmokoloji tədqiqatlara cəlb edilmişdir. Belə ki, *D.kotschyi* bitkisindən alınmış rozmarin və qəhvə turşuları və lipofil flavonoidlərin sitotoksik aktivliyi, *D.komarovi* növündən alınmış monoterpen qlikozidlərin və diterpenlərin bioloji fəallığı, eləcə də efir yağlarının antiseptik xüsusiyyətləri aşkar edilmişdir [7-11, 16, 17, 21, 25, 26, 28-32, 34-36].

Tibb praktikasında, eləcə də müxtəlif ölkələrin xalq təbabətində bəzi ilanbaşı növləri istifadə olunur [ ]. Bu bitkilərdən daha çox tədqiq olunanı *D. moldavica* növüdür. Hal hazıra qədər bu bitkidən efir yağı, iridoidlər, aşı maddələri, flavonoidlər, oksidarçın turşuları, karbon turşuları və s. bioloji fəal birləşmələr alınmışdır. Bitkinin tərkibində iridoidlərdən harpagid və harpagid-asetat üstünlük təşkil edir. Efir yağının əsas komponentləri sitral-niral (10-63 %) və geraniol (16,5-51%) terpenoid birləşmələridir. *D. moldavica* bitkisinin sulu və spirtli çıxarışlarının sakitləşdirici və ağrıkəsici təsir göstərdiyi, həmçinin iştahanı artırması və həzm sistemi orqanlarının fəaliyyətini gücləndirməsi aşkar edilmişdir. Bitkinin otunun 1:10 nisbətində hazırlanmış dəmləməsinin neyrotrop fəallığı müəyyən edilmişdir ki, bu da imkan verir ki, bitkinin xammalı sedativ və sakitləşdirici bitki yığıntılarınını və çayların tərkibində istifadə edilsin [3-5].

D. moldavica bitkisindən lüteolin, lüteolin-7-O-qlikozidi, apigenin flavonoidləri alınmışdır. Həmçinin efir yağı, ursol və oleanol turşuları, oksidarçın turşularından qəhvə, ferul və rozmarin turşuları aşkar edilmişdir.

D. moldavica növündən rozmarin turşusu alınmış və onun antioksidant fəallığı tədqiqi edilmişdir.

D. moldovica növünün təmizlənmiş və hidroliz olunmuş ekstraktında *HPLC* analiz üsulu ilə antosianidlərdən delfinidin, sianidin və az miqdarda pelarqonidin birləşmələrinin olması aşkar edilmişdir.

D. moldovica və *D. ruyschiana* bitkilərinin ekstraktlarında (hidrolizdən əvvəl və sonra) GC-MS analiz vasitəsilə müxtəlif şəkərlər, şəkər spirtlər, flavonoidlər, alifatik və aromatik karbon turşuları, həmçinin efir yağlarının tərkib hissələri də daxil olmaqla 30-dan artıq yeni birləşmə identifikasiya olunmuşdur.

D. moldovica növünün erkən vegetasiya dövründə fenol birləşmələri: rozmarin turşusu (26,76mq/q), aşı maddələri (11,2%) və flavonoidlər (0,5%) birləşmələrinin üstünlük təşkil etdiyi təyin olunmuşdur. Bitkinin çiçəkləmə dövründə isə qəhvə turşusunun (0,5mq/q) və efir yağının (0,40-0,83%) yüksək miqdarda olması müəyyən edilmişdir. Bitkinin spirtli ekstraktında uçucu terponoidlərin əsas hissəsini geraniol birləşməsinin təşkil etdiyi aşkar edilmişdir [15,20,33,38].

Moldova ilanbaşı bitkisi yabanı halda Ukrayna, Krım və Qafqazda bitir. Keçmiş SSRİ-nin Avropa hissəsində efiryağlı bitki kimi becərilməklə yanaşı, həm də arılar üçün qiymətli bal verən bitki hesab olunur. Rusiyanın Qərbi Sibir ərazisində ilanbaşı yabanı halda rast gəlinir.

D. renat növündən alınan efir yağında GC və GC-MS üsulu vasitəsilə monoterpenlər: limonen, karvon, neral, geranial və linalilasetat, metilxavikol və seskviterpenlər: β-kariofillin və kariofillin-oksid aşkar olunmuşdur.

D. ruyschiana növünün efir yağının tərkibində pinokamfon, isopinokamfon və az miqdarda seskviterpenlər: β-kariofillin, kariofillin-oksid, β-kubenen, germakrin-D və elemol, həmçinin β-pinen, mirsen, limonen, p-simen və metilxavikol olması müəyyən edilmişdir [12,27].

D. grandiflorum bitkisinin efir yağında əsasən seskviterpenlər: aromadendren, β-kariofillin, kariofillin-oksid, β-kubenen və karvakrol, həmçinin az miqdarda β-azaron və metilxavikol tapılmışdır.

Müxtəlif ilanbaşı növlərində ursol və oleoanol turşuları aşkar edilmişdir və məlum olmuşdur ki, dodaqçiçəyikimilər fəsiləsinin digər cinsləri ilə müqayisədə bu cinsin bitkilərində adları qeyd olunan birləşmələr daha çoxdur. Həmçinin GC üsulu ilə *D.diversifolium* bitkisinin tərkibində müvafiq olaraq 0,25-0,81 % və *D. peregrinum* tərkibində isə 0,26-0,72 % ursol və oleoanol turşularının olması aşkar edilmişdir.

D. rupestre bitkisindən HPLC-ECD üsulu ilə naringeninin steroizomeri olan drakosefin A və regioizomeri olan dracosefin B alınmışdır [37].

XX əsrin 70-ci illərindən başlayaraq hal hazıra qədər İlanbaşı cinsinin nümayənlərində terpenoidlər, steoidlər, flavonoidlər, alkaloidlər, lignanlar, fenol birləşmələr, kumarinlər və sianogen qlikozidlər də

daxil olmaqla 246 sayda yeni komponent aşkarlanmışdır və bunların arasında terpenoidlər üstünlük təşkil edir.

D. rupestre növündə 16 flavoalkaloidlər aşkar edilmişdir ki, bunlar da drakosefinlər [4',5,7-trihidroksi-6-(5-okso-2-pirrilidinil) flavonon və 3,4',5,7-tetrahidroksi-6-(5-okso-2-pirrolidinil) flavonon] adlandırılmışdır. Flavoalkaloidlər və ya flavonoid alkaloidlərin strukturu aril-xromon və alkaloid: piridin, piperidin, və ya pirrolidin həlqəsindən ibarətdir.

D. palmatum bitkisindən boru xromatoqrafiyası (sorbent kimi gel, slikagel, poliamid isitfadə edilmişdir), HPLC və TLC üsulları vasitəsilə 22 bioloji fəal birləşmə: 6 fenilpropanoid (qəhvə turşusu, rozmarin turşusu və s.), 2 kumarin (umbelliferon və eskuletin), 13 flavonoid (apigenin, kosmoisin, luteolin və s.) və 2 triterpen birləşmə (ursol və oleanol turşusu) alınmışdır. MS, UV və NMR vasitəsilə alınmış birləşmələrin identifikasiyası həyata keçirilmişdir. Həmçinin, *D.integrifolium* növündə luteolin törəməsi, *D.peregrinum* növündə luteolin, naringenin və onların törəmələri, eriodiktiol, *D.rupestre* və *D.tanguticum* bitkilərində isə umbelliferon aşkar edilmişdir.

D. palmatum növündən alınan fenol birləşmələrinin miqdari təyini HPLC və HPLC-UV vasitəsilə aparılmış və flavonoidlərin üstünlüyü müəyyən edilmişdir (20,987mq/q). Flavonoid məcmuyunun əsas hissəsini flavonlar qrupu (20,844mq/q) təşkil edir: sinarosid (12,075mq/q) və kosmosiin (5,683mq/q). Flavonoid məcmuyunun 70%-i luteolin və törəmələri, 30%-i isə apigenin və onun törəmələridir. Qlikozidlər və monoqlikozidlər (19,420mq/q), biosidlər (rutinosid) isə ümumi flavonoid məcmusunun 3%-ni təşkil edir. Fenilpropanoidlərdən isə rozmarin turşusu (1,614mq/q) və salvianol turşusu (1,456mq/q) miqdarının çox olması ilə fərqlənir [19].

D. multicaule bitkisinin çiçəkləmə dövründə toplanan xammalından hidrodistillasiya üsulu ilə 0,28% efir yağı olması müəyyən edilmişdir. GC və GC-MS üsulu ilə efir yağının tərkibində 28 birləşmə identifikasiya olunmuşdur. Bu birləşmələrdən limonen (23,83%), α-pinen (2,73%), perilla aldehid (73,44%) və metil geraniat üstünlük təşkil edir. Bitkidən alınan efir yağı məcmuyunun antibakterial fəallığı *in vitro* yoxlanılmış və *Staphylococcus epidermidis, S.aureus*, *Escherichia coli* və *Pseudomonas aeruginosa* qarşı antibakterial təsiri sübut edilmişdir [2,6,13,14].

Digər bir tədqiqat işində bitkinin metanollu ekstraktının antioksidant və sərbəst radikal əleyhinə aktivliyi EC_{50} ilə 156,5mq/ml qeydə alınmışdır. Maserasiya üsulu ilə hazırlanmış bitki metanollu ekstraktının müxtəlif qatılıqlı nümunələrində antixolinesteraz effekti kolotimetrik üsulla, antioksidant aktivliyi isə DPPH vasitəsilə sübut edilmişdir. Bitkinin tərkibində flavonoidlərdən, xüsusən flavonlar qrupuna aid olan metoksiflavonlar: kirsimaritin və penduletin aşkar edilmişdir.

Hal hazıra kimi bitkilərin, eləcə də ilanbaşı bitkilərinin tərkibində olan metabolitlərin həm eynilik, həm də miqdari təyinatı üçün spektroskopiya, nazik təbəqədə xromatoqrafiya (TLC), nüvə maqnit rezonansı (NMR), qaz xromatoqrafiyası (GC), yüksək effektli maye xromatoqrafiyası (HPLC), kapilyar elektofarez (CE) və qaz xromatoqrafiyası-kütlə spektrometri, (GC-MS), maye xromatoqrafiyası-kütlə spektrometri (LC-MS), maye xromatoqrafiyası-tandem kütlə spektrometri (LC-MS-MS), qaz xromatoqrafiyası-elektron ionlaşdırıcı-kütlə spekrometri (GC-EI/MS), qaz xromatoqrafiyası-alov ionlaşma aşkarlayıcısı (GC-FID), YEMX-diod sıra aşkarlayıcısı (HPLC- DAD), HPLC-UV, HPLC-DAD- ESI-MSD, HPLC-DAD-ESI/ MS, UPLC-DAD /ESI-MS/MS, UHPLC-PDA-QTOF-MS kimi müasir fiziki-kimyəvi üsullar istifadə olunur.

Dracocephalum cinsinə aid bitkilər həm xalq təbabətində, həm də elmi təbabətdə geniş tətbiq olunur. İlanbaşı növlərinin antimikrob, iltihab əleyhinə, bəlğəmgətirici, diuretik, sedativ və digər farmakoloji xassələri müəyyən olunmuşdur.

Etnofarmakoloji mənbələrə əsasən *D. palmatum* Çinin şimal ərazisində diuretik, xoleretik, həmçinin həzm sistemi pozğunluğu və alkoqolizm əleyhinə vasitə kimi istifadə olunur. Tibet təbabətində *D. heterophyllum* bronxial astma və qastrit xəstəliklərində, *D.nutans* isə mədə və qaraciyər xəstəliklərində tətbiq edilir. Rusiyanın Buryatiya Respublikasının ərazisində yaşayan əhalinin xalq təbabətində *D. ruyschiana* və *D.argunense* bitkiləri xoleretik vasitə kimi istifadə olunur. Sonralar elmi tədqiqatlarla *D. palmatum* bitkisinin etanollu ekstraktının antioksidant aktivliyi *in vitro* üsulla təsdiq edilmişdir [18, 21, 22].

D.rupestre bitkisi soyuqdəymə, öskürək, laringit və digər yuxarı tənəffüs yolları xəstəlikləri zamanı tətbiq edilmişdir. Tərkibində olan flavoalkaloidlər onların iltihab əleyhinə və immunomodulyator effektini artırmışdır.

D.moldavica bitkisinə aid farmakoloji tədqiqatlarda onun sakitləşdirici, ağrıkəsici, neyrotrop fəallığı aşkar edilmişdir. Bitkinin antimikrob və antioksidant fəallığı da müəyyən edilmişdir ki, bu da onun stomatologiyada və digər sahələrdə istifadəsinə imkanlar açır. Qeyd etmək lazımdır ki, bu bitki ənənəvi Çin təbabətində ürək-damar sistemi xəstəliklərində kardiprotektor vasitə kimi, Meksika xalq təbabətində

isə sakitləşdirici kimi tətbiq edilir.

İlanbaşı növlərinin efir yağı parfyümeriya-kosmetika sənayesində müalicəvi sabunların, ətirlərin istehsalında, eləcə də qənnadı sənayesində qida dadvericisi kimi tətbiq olunur. Həmçinin müxtəlif ölkələrdə ədviyyat kimi istifadə edilir.

Dünyanın müxtəlif ölkələrində bir çox ilanbaşı növlərinin bioloji fəallıqları tədqiq edilmişdir. Cinsin əsas növlərindən biri olan *D. moldavica* Avropa ölkələrində təzyiq və ürək damar xəstəliklərində istifadə olunub. Baxmayaraq ki, ilanbaşı cinsinin nümayədələri uzun illər ərzində istifadə edilir, cəmi 16 növ barədə elmi araşdırmalar haqqında məlumat mövcuddur.

D. moldovica L növünün ekstraktının və efir yağının antioksidant təsirə malik olması bir çox məqalələrdə öz əksini tapmışdır. Həmçinin, bu bitkidən alınan polisaxaridlərin sərbəst radikallara göstərdiyi təsir də müəyyən edilmişdir.

D. argunense bitkisinin anti-allergik təsirə malik olması sübut edilmişdir. *D. kotschyi* bitkisinin əsas fəal komponenti olan kalisopterinin yüksək anti-allergik təsirə malik olması tədqiq edilmişdir [23, 24].

Aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, *D. kotschyii* bitkisinin yarpaqlarının spirtli ekstaktı siçanlarda şiş hüceyrələrinin yayılmasını azaldır. Daha sonra müəyyən edilmişdir ki, bu bitkinin tərkibində olan xantomikrol ilə əlaqədardır.

D. heterophyllum və *D. moldovica* növlərinin efir yağlarının yüksək antimikrob və antibakterial təsiri sübut edilmişdir.

Aparılan tədqiqatlar sübut etmişdir ki, *D. rupestre* və *D. moldovica* növləri ürək-damar xəstəliklərində, həmçinin, ürək qidalandırıcı kimi istifadə oluna bilər.

Beləliklə, ədəbiyyat məlumatlarının araşdırılması göstərdi ki, Azərbaycan ərazisində ilanbaşı cinsinin 4 növü yayılmışdır. Bu bitkilərdən ikisi: *D. multicaule* və *D. ruyschiana* fitokimyəvi tədqiqatlara cəlb edilmişdir. Lakin digər iki növ: *D. austriacum* və *D. botryiodes* ümumiyyətlə fitokimyəvi tədqiq edilməmişdir və onların kimyəvi tərkibinin öyrənilməsi, eləcə də onlardan alınacaq bioloji fəal birləşmələr əsasında effektli fitovasitələrin yaradılması baxımından perspektivlidir.

ƏDƏBİYYAT

1. Флора Азербайджана. Баку: Изд-во АН Аз ССР, в 8-х томах, т. 7, 1957, с. 273-277.

2. Abdollah Ghasemi Pirbaloutia, Sayed Hamed Neshatb, Ebrahim Rahimic, Behzad Hamedia & Fatemeh Malekpoora. Chemical Composition and Antibacterial Activity of Essential Oils of Iranian Herbs Against Staphylococcus Aureus Isolated from Milk. // International Journal of Food Properties International Journal of Food Properties, 2014, v.17, p. 2063-2071.

3. Alaei S., Khosh-Khui M., Kobraee S., Zaji B. Effect of different salinity levels on essential oil content andco mposition of Dracocephalum moldavica. // Agric. Commun. 2014, v.2, p. 42-46.

4. Alaei S., Mahna N. Comparison of essential oil composition in Dracocephalum moldavica in greenhouse and field. // J. Essent. Oil Bear. Plants, 2013, v.16, p. 346-351.

5. Ehsani1 A., Alizadeh O., Hashemi M. et al. Phytochemical, antioxidant and antibacterial properties of Melissa officinalis and Dracocephalum moldavica essential oils. // Veterinary Research Forum., 2017, v.8(3), p. 223-229.

6. Esmaeli M.A., Sonboli A., Mirjalili M.H. Oxidative stress protective effect of Dracocephalum multicaule essential oil against human cancer cell line // Nat. Prod. Res. 2014, v.28, p.848-852.

7. Fattahi M., Nazeri V., Torras-Claveria L. et al. Identification and quantification of leaf surface flavonoids in wild-growing populations of Dracocephalum kotschyi by LC-DAD-ESI-MS // Food Chem. 2013, v.141, p. 139-146.

8. Fattahi M., Nazeri V., Torras-Claveria L. A new biotechnological source of rosmarinic acid and surface flavonoids: Hairy root cultures of Dracocephalum kotschyiBoiss. // Ind Crops Prod, 2013, v.5, p. 256-263.

9. Fu P., Zhao C.C., Tang J. et al. New flavonoid glycosides and cyanogenic glycosides from Dracocephalum peregrinum. // Chem. Pharm. Bull. 2009, vol. 57, p. 207-210.

10. Goli S.A.H., Sahafi S.M., Rashidi B., Rahimmalek M. Novel oilseed of Dracocephalum kotschyi with high n-3 to n-6 polyunsaturated fatty acid ratio. // Ind. Crop. Prod. 2013, vol. 43, p. 188-193.

11. Khodaei M., Amanzadeh Y., Faramarzi M.A., Hamedani M.P. Chemical analysis and anti-bacterial effect of essential oils from three different species of *Dracocephalum* in Iran // American Journal of Essential Oils and Natural Products, 2018, v.6(3), p. 31-34.

12. Lazarevic P., Lazarevic M., Krivosej Z., Stevanovic V. On the distribution of Dracocephalum ruyschiana (Lamiaceae) in the Balkan Peninsula // Phytologia Balcanica, 2009, v.15 (2), p. 175-179.

13. Mandegary A., Soodi M., Sharififar F., Ahmadi S. Anticholinesterase, antioxidant, and neuroprotective effects of Tripleurospermum disciforme and Dracocephalum multicaule // Journal of

Ayurveda & Integrative Medicine, 2014, v.5, p. 162-166.

14. Mandegary A., Soodi M., Sharififar F., Ahmadi S. Anticholine sterase, antioxidant, and neuro protective effects of Tripleurospermumdisciforme and Dracocephalum multicaule. // J. Ayurveda Integr. Med., 2014, v.5, p. 162-166.

15. Martнnez-Vazqueza M., Estrada-Reyesb R., Martнnez-Laurrabaquiob A. et al. Neuropharmacological study of Dracocephalum moldavica L. (Lamiaceae) in mice: sedative effect and chemical analysis of an aqueous extract // Journal Etnopharmacology, 2012, v.141, p. 908-917.

16. Mirsane S.A., Oraei N. Mentha, Dracocephalum and Propolis effects on the health of Pancreas and Liver cells // International Electronic Journal of Medicine, 2016, v.5(3), p.9-10

17. Nezhadali A., Khazaeifar A., Akbarpour M., Masrournia M. Chemical composition of essential oil and antibacterial activity of Dracocephalum subcapitatum // J. Essent. Oil Bear. Plants, 2010, v.13, p.112-117.

18. Numonov S.R., Usmanova S.K., Aisa H.A. Chemical composition of *Dracocephalum heterophyllum* // Chemistry of Natural Compounds, 2013, v.49, №3, p. 511-513.

19. Olennikov D.N., Chirikova. N.K., Okhlopkova Z.M., Zulfugarov I.S. Chemical composition and antioxidant activity of Tánara Ótó (Dracocephalum palmatum Stephan), a medicinal plant used by the North-Yakutian Nomads. // Molecules, 2013, v.18(11), p.14105-21.

20. Popova O.I., Nikitina A.S., Markova O.M. Studies of iridoids from Dracocephalum moldavica cultivated in the Stavropol region // Pharm. Chem. J., 2008, v.42, p. 351-353.

21. Pouraboli I., Nazari S., Sabet N. et al. Antidiabetic, antioxidant, and antilipid peroxidative activities of Dracocephalum polychaetum shoot extract in streptozotocin-induced diabetic rats: In vivo and in vitro studies. // Pharm. Biol. 2016, v. 54, p. 272-278.

22. Raj X.J., Chaurasia O.P., Vajpayee P.K. et al. Antioxidative activity and phytochemical investigation on a high altitude medicinal plant Dracocephalum heterophyllum Benth. // Pharmacogn. J. 2010, v.2, p. 112-117.

23. Sadraei H., Asghari G., Kasiri F. Comparison of antispasmodic effects of Dracocephalum kotschyi essential oil, limonene and terpineol. // Res. Pharm. Sci. 2015, v.10, p.109-116.

24. Saeidnia S., Sepehrizadeh Z., Gohari A.R. et al. Hadjiakhoondi A. Monoterpene synthase from *Dracocephalum kotschyi* and SPMEGC-MS analysis of its aroma profile // Research Journal of Pharmacognosy, 2014, v.1(2), p. 11-21.

25. Salehi M., Hesamzadeh-Hejazi S.M., Tabaei Aghdaei S.R. Cytogenetic studies of two *Dracocephalum* (Lamiaceae) species and populations in Iran. // International Journal of Biosciences, 2014, v.4 (9), p.100-108.

26. Selenge E., Murata T., Tanaka S. et al Monoterpene glycosides,phenylpropanoids, and acacetin glycosides from Dracocephalum foetidum // Phytochemistry 2014, v.101, p.91-100.

27. Selenge E., Murata T., Kobayashi K. et al. Flavone tetraglycosides and benzyl alcohol glycosides from the Mongolian medicinal plant Dracocephalum ruyschiana. // J. Nat. Prod. 2013, v. 76, p.186-193.

28. Sharifi B., Goli S.A.H., Maghsoudlou Y. Antioxidant activity and chemical composition of the methanolic extract and related fractions of Dracocephalum kotschyi leaves using liquid chromatography–tandem mass spectrometry // Ind. Crop. Prod. 2017, v.104, p.111-119.

29. Sonboli A., Esmaeili M.A., Gholipour A., Kanani M.R. Composition, cytotoxicity and antioxidant activity of the essential oil of Dracocephalum surmandinum from Iran. // Nat. Prod. Commun. 2010, v.5, p.341-344.

30. Sonboli A., Gholipour A., Yousefzadi M. Antibacterial activity of the essential oil and main components of two Dracocephalum species from Iran. // Nat. Prod. Res. 2012, v.26, p. 2121-2125.

31. Sonboli A., Gholipour A., Mirjalili M.H., Amini Rad M. Antibacterial activity of the essential oil and main components of two *Dracocephalum* species from Iran // Nat. Prod. Re., 2012, v.26, p. 2121-2125.

32. Suleimen E.M., Myrzagalieva A.B., Ibataev Z.A. et al. Constituent composition and biological activity of essential oil from Dracocephalum peregrinum. // Chem. Nat. Compd., 2017, v.53, p.173-174.

33. Sultan A., Bahang H., Aisa H.A., Eshbakova K.A. Flavonoids from Dracocephalum moldavica // Chem Nat. Comp. 2008, v.44, p. 366-367.

34. Yanyan D., Juan H., WenjiaW. et al. Cytotoxic Terpenoids from the Roots of Dracocephalum taliense // Molecules 2017, v.23

35. Wang S.Q., Han X.Z., Li X. et al. Flavonoids from Dracocephalum tanguticum and their cardioprotective effects against doxorubicin-induced toxicity in H9c2 cells. // Bioorg. Med. Chem. Lett. 2010, v.20, p.6411-6415.

36. Zeng Q., Jin H.Z., Fu J.J. et al. Chemical constituents of plants from the genus Dracocephalum. // Chem. Biodivers. 2010, v.7, p.1911-1929.

37. Viktor I., András S., Anita P., Áron S. et al. Biomimetic synthesis and HPLC–ECD analysis of the isomers of dracocephins A and B // Beilstein J. Org. Chem. 2016, v.12, p. 2523-2534.

38. Weremczuk-Jezyna I, Grzegorczyk-Karolak I, Frydrycha B, Krolicka A, Wysokinska H. Hairy roots of Dracocephalum moldavica: rosmarinic acid and antioxidant potential // Acta Physiol. Plant, 2013, v.35, p. 2095-2103

Резюме

Фитохимическое изучение и применение в медицине растений рода Змееголовник (*Dracocephalum* L.)

Г.С. Джафарова, Дж.И.Исаев

Фармакогностическое изучение видов рода Змееголовник -Dracocephalum L., распространенных в различных регионах Азербайджана является актуальным. На территории Азии и Европы произрастает свыше 40 видов, Кавказа 6, в Азербайджана 4: *D. austriacum* E. - змееголовник австрийский; *D. multicaule* Montbr. - змееголовник многостебельный, *D. ruyschiana* L. - и *D. botryoides* Stev. - змееголовник кистевой. В различных странах мира из растений рода змееголовник получены флавоноиды, иридоиды, алкалоиды, эфирные масла и полисахариды.

Изучены фармакологические свойства некоторых видов змееголовника. Анализ литературных данных показал, что виды змееголовника, распространенные в Азербайджане не исследовались и их фармакогностическое изучение является перспективным.

Summary

Phytochemical study of Dragonhead (*Dracocephalum L.*) plants and use in medicine

G.S. Jafarova, J.I.Isayev

Pharmacognostic study of the species of the Dragonhead-*Dracocephalum L.* genus is relevant in various regions of Azerbaijan. More than 40 species of the genus is spread in Asia and Europe, 6 species in Caucasus and 4 species in Azerbaijan: *D. austriacum E., D. multicaule Montbr., D. ruyschiana L., D. botryoides Stev.* Flavonoids, iridoids, alkaloids, essential oils and polysaccharides have been obtained from this genus in different countries around the world. The pharmacological properties of some species have been studied. A review of the literature has shown that, Dracocephalum species from Azerbaijan have not been investigated. The pharmacognostic study of these species is promising.

Daxil olub: 29.07.2019

Состояние пародонта под влиянием препарата «Метеонат» у пациентов с гастроэзофагеальной рефлюксной болезнью

А.Ч. Пашаев, Р.Я.Гурбанов, К.Б. Шахбазов, М.Э .Кулиев, Р.С. Фараджев, Х.А.Алекперова

Азербайджанский Медицинский Университет, Баку

Ключевые слова: рефлюкс, пародонт, лечение, натуральный препарат.

Key words: reflux, periodontium, treatment, natural medicine.

Açar sözlər: reflüks, parodont, müalicə, təbii vasitə.

В современной стоматологии для диагностики основных стоматологических заболеваний очень часто во внимание принимаются результаты только клинических и рентгенологических исследований, но при этом ограниченное изучение только местных патогенетических факторов и изменений, недостаточно и не вполне обосновано [1,2]. Тяжелые формы патологических процессов в тканях пародонта воспалительного и деструктивного характера развиваются под влиянием, как местных причин, так и обще-организменных факторов - различных соматических патологий (заболевания сердечно-сосудистой и эндокринной системы, патологии органов желудочно-кишечного тракта), что обусловливается значительным ухудшением функционального состояния различных органов и систем организма, снижением качества жизни пациентов из-за наличия типичных симптомов и нетипичных стоматологических проявлений основного и фонового заболеваний [3,4]. Своевременная и правильная оценка стоматологического статуса у

больных, страдающих определенной соматической патологией, дифференцированный подход в выборе лечебно-профилактических средств и методов является актуальной и все еще нерешенной проблемой современной стоматологии [5-10].

Цель проведенного исследования заключалась в оптимизации диагностических критериев и лечебно-профилактических мероприятий при заболеваниях полости рта у лиц с рефлюксной болезнью.

Материал и методы исследования. Клинические исследования проводились на базах кафедры терапевтической стоматологии и кафедры внутренних болезней АМУ. У обследованных 150 больных с рефлюксной болезнью (ГЭРБ) определяли распространенность кариеса зубов, состояние слизистой оболочки ротовой полости. Была проведена лабораторная оценка эффективности различных лечебно-профилактических средств на фоне терапии воспалительных заболеваний пародонта у 50 пациентов с рефлюксной болезнью. Больные были разделены на три группы в зависимости от методов и средств проводимых лечебно-профилактических мероприятий. Состояние полости рта и действенность препарата «Метеонат» (жидкий экстракт цветков ромашки аптечной, плодов тмина и травы душицы, эфирные масла листьев мяты перечной, плодов укропа огородного, фенхеля и аниса, сахарный сироп, лимонная кислота, натрий-бензоат) изучались до и после лечения путем определения количества некоторых структурных показателей ротовой жидкости.

Стоматологическое обследование включало: пародонтальный индекс PI; гигиенический индекс ротовой полости Oral Hygiene Index по Грин-Вермильону; маргинально-альвеолярный индекс в модификации Parma. Влияние соматической патологии на условия ротовой полости было расценено и по результатам лабораторных исследований. Количественное содержание иммуноглобулинов проводили методом радиальной иммунодиффузии в геле. Взятый для микробиологических исследований материал незамедлительно размещали в транспортную среду Стюарта.

Результаты и обсуждение. При стоматологическом обследовании лиц с заболеваниями органов желудочно-кишечной системы был установлен более высокий уровень распространенности и интенсивности воспалительных болезней пародонта, чем в контрольной группе. В сравнительном аспекте были оценены величины OHI-S, PI и PMA индексов, полученных в процессе исследования у больных с заболеваниями пародонта и ГЭРБ, обусловленных общим состоянием организма.

Между группами обследованных в процессе проведенных нами клинических исследований отмечались проверенные отличия по результатам анализа индексов гигиенических условий ротовой полости с использованием индекса Грина-Вермильона. Согласно полученным результатам, в случае отсутствия или слабой степени развития патологического процесса в мягких тканях пародонта, величина индекса OHI-S составила в среднем 1,74±0,022, в случае же дальнейшего развития патологического процесса и его утяжелении величина индекса возрастала и в среднем составила 2,18±0,030, наибольшие значения по исследуемому пародонтальному индексу регистрировались в группе больных, страдающих рефлюксной болезнью - 2,63±0,052.

Помимо этого, у больных сравнительной группы мы также наблюдали достоверное увеличение величин индекса PMA, свидетельствующего о тяжелой степени имеющегося воспалительного процесса в пародонтальных тканях - 53,3±0,56%, что при сравнении с аналогичным показателем у лиц группы контроля группы (43,6±0,52%) были выше в среднем на 9,7%.

Величины пародонтального индекса PI у больных с пародонтитом и гастроэзофагеальной рефлюксной болезни (ГЭРБ) возрастали на фоне развития рефлюксной болезни и тяжелых степеней течения заболеваний тканей пародонта, в отличие от показателей вышеупомянутого индекса, полученных при обследовании ротовой полости у лиц контрольной группы или в присутствии катарального гингивита или легкой степени пародонтита, что доказывает выраженное развитие воспалительного процесса в мягких и твердых тканях пародонта при сочетании болезней пародонта и гастроэзофагеального рефлюкса, особенно у больных с более тяжелыми стадиями данного заболевания.

Проведенный статистический анализ полученных величин индекса пародонта у больных с воспалительными заболеваниями пародонта при одновременном диагностировании у больных, в частности, катаральной и эрозивной форм рефлюксной болезни, позволил выявить выраженную динамику роста значений этого показателя, которые в данной группе в среднем составили 3,64±0,027, что по сравнению с величинами индекса PI у больных без рефлюксной болезни и

наличием легкой степени заболеваний пародонта было выше, о чем свидетельствуют полученные результаты - 2,30±0,015.

Таким образом, полученные данные подтвердили максимальную степень развития и выраженности воспалительно-деструктивных процессов в околозубных тканях на фоне течения рефлюксной болезни.

Результаты изучения показателей локального иммунитета выявили различие этих показателей у больных с рефлюксной болезнью и их здоровых оппонентов, которое выражалось снижением содержания IgA и sIgA. Мы считаем, что это обусловлено формированием в полости рта состояния дисбиоза, характерного для заболеваний ЖКТ, а также наличием и усилением у микроорганизмов факторов патогенности. Так, у больных с ГЭРБ отмечалось снижение концентрации IgA – 0,097±0,007 мг/мл, против 0,116±0,007мг/мл в контрольной группе. Данное явление можно объяснить напряжением иммунных систем, свойственное данному контингенту больных. У больных с ГЭРБ установлено снижение концентрации sIgA. Феномен снижения количества sIgA у больных можно считать следствием угасания иммунных процессов, который наблюдается в ходе или развития заболеваний ЖКТ.

Структура микрофлоры ротовой жидкости оказалась достаточно изменчивой и многочисленной, как в качественном, так и в количественном отношении. Спектр выявленных бактерий был представлен 8 родами. Количество в полости рта у больных без ГЭРБ стрептококков, нейссерий, кандид и вейллонелл колебалось в пределах 6,4±0,06; 6,0±0,05; 6,1±0,02 и 3,7±0,05, соответственно.

У больных с ГЭРБ отмечалось учащение частоты встречаемости пептострептококков (86,7±8,8%), лактобацилл (66,7±12,2%) и стафилококков (86,7±8,8%), которые переходили очень часто в доминирующие виды. Количество этих микроорганизмов, т.е. в единицах посева - от 5,3±0,06 до 6,6±0,05 lgKOE/мл. С возрастом значительно увеличивалась частота высеваемости стрептококков и стрептококков при значительном росте их количества. В то же время повышалось количество лактобацилл и нейсерий и грибов рода Candida.

Выявленная структура микробного пейзажа в ротовой полости больных с ГЭРБ свидетельствует о наличии определенных характерных особенностей в биотопах. ГЭРБ накладывал отпечаток на качественные характеристики микрофлоры ротовой полости (зарегистрировано наличие грибов Candida и пептококков). Анализ структуры микробиоценоза ротовой полости обследуемых у больных свидетельствует о наличии нарушений, способствующих развитию и утяжелению воспалительных и деструктивных процессов в тканях пародонта.

При оценке эффективности примененного комплексного лечения болезней пародонта выявлено, что частота встречаемости частых рецидивов была достоверно выше у лиц группы контроля, которые применяли традиционную терапию для купирования клинических признаков воспаления, по сравнению с пациентами основной группы, которым проводилась альтернативная терапия с применением препарата «Метеонат».

Оценивая полученные показатели индекса гигиены ротовой полости у обследованных больных, следует отметить выраженную нормализацию этих показателей у обследованных обеих групп, но в большой степени после аппликации «Метеонат», что может указывать на улучшение гигиены ротовой полости и устранение зубного налета 2,45±0,038 до лечения и 1,39±0,027 после завершения терапии.

Примененная курсовая терапия болезней пародонта у пациентов на фоне ГЭРБ содействовала существенному улучшению значений вышеуказанных индексов, в отличие от обследованных контрольной группы, получавших традиционную терапию. Проводя анализ сравнения эффективности «Метеонат» и хлоргексидина по данным клинических исследований, необходимо отметить наличие статистически достоверных отличий в положительной динамике у пациентов обеих групп (PI в контрольной и основной группе: 3,45± 0,043 и 2,60±0,039 до лечения, 1,80±0,36 и 1,38±0,015 после лечения).

Сопоставление результатов, полученных после обследования у пациентов I и II групп, позволило выявить достоверное снижение величин показателей индекса PMA в ротовой полости у пациентов I (основной) группы, получавших альтернативную курсовую терапию. У пациентов II группы, использующих для лечения симптоматическую традиционную терапию, данные показатели в полости рта были на высоком уровне с присутствием незначительной тенденции к улучшению.

Выявление мягкого и твердого зубного налета, по нашему мнению, должны рассматриваться в качестве стоматологических маркеров отрицательного прогноза в динамике индивидуального

состояния общего организма в целом.

В процессе исследования выявлено, что при развитии ГЭРБ происходит заметное повышение кислотности полости рта, особенно в старших возрастных группах. И в большей степени этот факт проявляется со спецификой заболевания у больных с рефлюксной болезнью, что связано с забросом содержимого пищевода в ротовую полость. Минимальные показатели выявлены во второй группе больных, где после применения хлоргексидина pH составил 6,58±0,066 усл.ед., а максимальные - в группе сравнения - 6,78±0,029, что указывает на снижение закисления среды ротовой полости.

У больных с ГЭРБ встречалось более выраженное закисление жидкости ротовой полости, о чем свидетельствовало смещение величины pH в кислую сторону. В нашем исследовании было выявлено, что на фоне обострении заболеваний органов ЖКТ, особенно ГЭРБ, происходит значительный сдвиг pH полости рта в щелочную сторону после применения препарата «Метеонат». Во всех группах обследования показатель pH развития основного фонового заболевания значительно смещен в кислую сторону в сравнении с таковым в группе контроля.

Анализ скорости слюноотделения и активности различных ферментов и водородных ионов у больных с ГЭРБ выявил значительное снижение этих данных. Возможно, наличие хронической патологии в органах ЖКТ способствует истощению адаптационных возможностей организма, характеристиками которых являются количество слюны и активность ионов водорода (pH), как элемента системы регуляции кислотно-щелочного равновесия, непосредственно взаимосвязанного с экологическим состоянием полости рта. Оценка уровня pH ротовой жидкости у больных всех возрастов показывает, что наблюдается изменение активности водородных ионов в сторону закисления. Возможно, выявленная закономерность изменения активности ионов водорода в ротовой полости на фоне ГЭРБ отражает и наличие функциональных расстройств, сопутствующих рефлюксной болезни, и повышению кислотности, вызванного активацией патогенной флоры. Все вышеизложенное свидетельствует о высоком напряжении и значительном срыве в системе регуляции закисления или ощелачивании среды ротовой полости. Увеличение, например, активности лактатдегидрогеназы (ЛДГ) вызвано, скорее всего, увеличением скорости реакции и повышением её концентрации в полости рта из-за распада клеточных элементов пародонта и выхода этого компонента в ротовую жидкость. Помимо того, активность микробной флоры с последующим разрушением клеток микроорганизмов приводит к увеличению концентрации ЛДГ в смешанной слюне.

В результате проведенного нами исследования изменения активности ЛДГ в ротовой жидкости у больных с ГЭРБ основной и контрольной групп было установлено следующее. При применении аппликации «Метеонат» отмечался более выраженный эффект снижения концентрации ЛДГ в ротовой жидкости, потому что, являясь биологически активным препаратом, по всей видимости, он разрушает гидрофобные связи в ЛДГ, что несомненно приводит к снижению активности фермента. После окончания комплексной терапии болезней пародонта содержание ЛДГ в слюне значительно снизилось с 372,2±0,74 Ед/л до 352,2±1,60 Ед/л. При этом эта положительная динамика прослеживалась и в более отдаленные сроки исследований. Так, спустя 1 месяц после применения нового препарата его концентрация в слюне снизилась ещё больше и достигла уровня 311,8±1,37 Ед/л.

Выявлялось выраженное изменение активности ферментов ротовой жидкости у пациентов с ГЭРБ и после применения хлоргексидина. В результате проведенных нами исследований смешанной слюны у лиц с пародонтитом на фоне ГЭРБ установлено, что при поражении пародонта отмечается снижение концентрации амилазы ротовой жидкости на фоне резкого снижения их активности, что происходит в результате активизации агрессивной бактериальной микрофлоры их патогенности и разрушения тканей пародонта и снижением выхода в ротовую жидкость этих белков, ферментов из клеток соединительной ткани, которые участвуют в поддержании структуры зубочелюстной системы.

Установлено повышение уровня амилазы, что было обусловлено, по всей видимости, высокой иммунокорригирующей активностью компонентов, содержащихся в препарате «Метеонат». После его использования и непосредственно сразу после окончания курса базовой терапии концентрация амилазы в ротовой жидкости возросла с 13,2±0,04 Ед/л до 14,9±0,15 Ед/л. Указанная динамика наблюдалась и к концу наблюдений: 18,2±0,25 Ед/л и 27,5±0,62 Ед/л, соответственно.

Включение «Метеонат» в комплексное лечение сопровождалось повышением активности исследуемых компонентов уже в первые сутки после завершения терапии. Спустя 1 месяц и в отдаленные сроки после курса поддерживающей терапии оставалась повышенной активность

амилазы, что свидетельствует о ликвидации предпосылок к обострению воспалительного процесса в тканях пародонта на фоне ГЭРБ.

Применение нейтрального природного препарата в профилактике и лечении пародонтита может оказываеть благоприятное воздействие на течение всего реабилитационного периода, о чем свидетельствует снижение активности ЛДГ и повышение уровня амилазы в ротовой жидкости больных, страдающих рефлюксной болезнью.

Таким образом, на основании полученных результатов можно заключить, что больным с воспалительными заболеваниями пародонта на фоне гастроэзофагеальной рефлюксной болезни необходимо комплексное обследование и лечение.

ЛИТЕРАТУРА

1. Məmmədov R.M. Parodontun iltihabi xəstəliklərinin, helikobakterioz və qastritlə sosial-epidemioloji əlagəsi, onların diaqnostikası, müalicəsi və profilaktikasına müasir yanaşma: Avtoref. Tibb üzrə elm.dok. dis. ... Bakı, 2013, 45 s.

2. Ахмедханов И.А. Патогенетические механизмы саливации у пациентов с патологией пищеварения // Dental Forum, 2012, №3, с.15-16.

3. Барер Г.М., Денисов А.Б., Стурова Т.М. Вариабельность кристаллических агрегатов ротовой жидкости в норме // Российский стоматологический журнал, 2003, №1, с. 33-35.

4. Булкина Н.В., Еремин О.В., Козлова И.В, Осипова Ю.Л. Воспалительные заболевания пародонта у пациентов гастроэнтерологического профиля: монография. Саратов: Изд-во Сарат. гос. мед. ун-та, 2012, с.211.

5. Булкина Н.В., Осипова Ю.Л., Карпович А.В., Зеленова А.В. Тактика ведения больных пародонтологического профиля: Методич. рек. Саратов: Изд-во Сарат. гос. мед. ун-та, 2015, 68 с.

6. Ярова С.П., Алексеева В.С. Особенности распространения и течения воспалительно-дистрофических процессов в пародонте на фоне заболеваний желудочно-кишечного тракта // Журнал Український стоматологічний альманах, 2014, №2, с.130-133.

7. Corrêa M.C., Lerco M.M., Cunha Mde L., Henry M.A. Salivary parameters and teeth erosions in patients with gastroesophageal reflux disease // Arq Gastroenterol., 2012, v.49, No3, p.214-218.

8. Firouzei M.S., Khazaei S., Afghari P., Savabi A. et al. Gastroesophageal reflux disease and tooth erosion: SEPAHAN systematic review // Dent Res J., 2011, v.8, p.S9–S14.

9. Jun Young Song, Hyung Hun Kim, Eun Ju Cho, Tae Yun Kim. The Relationship between Gastroesophageal Reflux Disease and Chronic Periodontitis // Gut Liver., 2014, v.8, No1, p.35–40.

10.Marsh P.D. Microbiology of dental plaque biofilms and their role in oral health and caries // Dent Clin N Am., 2010, v.54, p.441-454

Xülasə

Qastroezofageal reflüks xəstəliyi olan xəstələrin parodontun vəziyyətinə "Meteonat" preparatın təsiri

A.Ç. Paşayev, R.Y. Qurbanov, K.B. Şahbazov, M.E. Quliyev, R.S. Fərəcov, X.A.Ələkbərova

Mədə-bağırsaq sistemi xəstəlikləri olan şəxslərin stomatoloji müayinəsi zamanı iltihablı periodontal xəstəliklərin daha yüksək yayılması və intensivliyi, nəzarət qrupuna baxaraq, müəyyən edilmişdir. Müqayisəli periodontal və qastroezofageal reflüks xəstəlikləri olan xəstələrdə OHI-S, PI və PMA indeksləri qiymətləndirilmişdir. Periodontitin profilaktika və müalicəsində neytral təbii dərman preparatının istifadəsi bütün reabilitasiya dövrünə faydalı təsir göstərə bilər. Gastroesophageal reflüks xəstəliyi fonunda iltihablı parodontal xəstəlikləri olan xəstələrin kompleks müayinə və müalicəyə ehtiyacı var.

Summary

The influence of "Meteonat" on periodontal condition in patients with gastroesophageal reflux disease

A.Ch. Pashayev, R.Y. Gurbanov, K.B. Shakhbazov, M.E. Guliyev, R.S. Faradzhev, Kh.A.Alakbarova

During the dental examination of persons with the gastrointestinal system diseases, there was established a higher level of prevalence and intensity of inflammatory periodontal diseases, than in the control group. The OHI-S, PI, and PMA indices obtained during the study in patients with periodontal and gastroesophageal reflux disease were estimated in a comparative aspect. The use of the neutral natural medicine in the prevention and treatment of periodontitis have a beneficial effect on the entire rehabilitation period. The patients with inflammatory periodontal diseases and gastroesophageal reflux need the comprehensive examination and treatment.

Daxil olub: 22.07.2019

Yuvenil artritlər və həyat keyfiyyəti anlayışı

Z.U.Məmmədova
Azərbaycan Tibb Universiteti, Bakı

"Sağlamlıq xəstəliklərin və fiziki qüsurların olmaması deyil.
Sağlamlıq – tam fiziki, əqli və sosial rifah halıdır."
Ümumdünya Səhiyyə Təşkilatı

Açar sözlər: həyat keyfiyyəti, revmatologiya, yuvenil revmatoid artrit, yuvenil artritlər
Ключевые слова: качество жизни, ревматология, ювенильный ревматоидный артрит, ювенильные артриты
Keywords: quality of life, rheumatology, juvenile rheumatoid arthritis, juvenile arthritis

Müasir cəmiyyətimizdə yeni dəyərlər səhiyyənin xəstə və xəstəlik anlayışına yeni yanaşma tərzini diktə edir. Artıq qarşıda duran əsas məsələ, insan kütləsinin deyil, konkret "şəxsin" sağlamlığıdır. Lakin, cəmiyyətin indiki maddi-mənəvi inkişaf səviyyəsində heç də hər kəs ünvanlı və əlçatan tibbi xidmət ala bilmir. Demək klinik effektiv və iqtisadi baxımdan qənaətbəxş müayinə və müalicə üçün artıq prosesə bilavasitə pasient və yaxınlarının müdaxiləsi qaçınılmazdır. Beləliklə, "sağlamlıq" anlayışına müasir baxış, "xəstəlik deyil, xəstə müalicə olunmalıdır" prinsipi yeni tibbi termin "həyat keyfiyyəti" anlayışını klinik təbabətə daxil etməyə imkan verdi .

Həyat keyfiyyəti (HK) – anlayışına iki konteksdə yanaşmaq mümkündür: "sosial" və "tibbi". Birləşmiş Millətlər Təşkilatı (BMT) – bu anlayış altında səkkiz "sosial indikator"u cəmləmişdir: sağlamlıq, iş yerinin keyfiyyəti, məhsul və məişət xidmətindən yararlanmaq, boş zamanın təşkili, sosial güvən duyğusu, şəxsi keyfiyyətlərin inkişaf şəraiti, ətraf mühitin keyfiyyəti, cəmiyyət həyatında iştirak imkanı. Tibbi termin kimi isə ilk dəfə 1966-cı ildə J. R. Elkinton tərəfindən "Tibb və həyat keyfiyyəti" məqaləsində tətbiq olunmuşdur [5, 6, 20].

Pediatrik revmatologiyanın indiki inkişaf səviyyəsində uşaqlarda oynaqların xronik iltihabi xəstəliklərinin erkən diaqnostikası, müayinə və müalicəsinin təkmilləşməsi, erkən və uzaq proqnozların verilməsi aktual problemlərdən hesab edilir. Bundan başqa, yuvenil artritlərin xronik gedişi zamanı nəticə kimi "sağalma" və ya "ölüm" anlayışları tətbiq olunmur. Belə hallarda yuvenil idiopatik artritlərdə olduğu kimi "outcome of JİA", yəni xəstəliyin debütündən ən azı 7-10 il sonra pasientin vəziyyəti qiymətləndirilir [12,13,15,17].

Həyat keyfiyyəti sağlamlığı iki prinsip əsasında dəyərləndirir:

– Xəstəlik nəinki fizioloji parametrlərə, həm də pasientin fiziki, psixoloji, emosional və sosial funksiyalarına mənfi təsir göstərir;

– Yuxarıda sadalanan amillərdə neqativ dəyişikliklər də HK təsir edir [1,2,3].

Xəstələnmə halı, ölüm, ağırlaşmalar – bunlar sağlamlıq və müalicənin nəticələrinin obyektiv göstəricisidir. Onlar pasientin, xüsusilə uşaq pasientlərin sağlamlığını subyektiv qiymətləndirməyə imkan vermir. Lakin məhz subyektiv göstəricilər xəstənin rifah halını, yəni HK-ni subyektiv qiymətləndirməyə imkan verir. İstənilən müalicə prosesində radikalizmlə yanaşı, müalicə sonrasında pasientin fəaliyyət sferasına adaptə imkanlarının maksimum bərpası diqqətə alınmalıdır.

Həyat keyfiyyətinin sorğu anketləri və ya şəxsi söhbətlər zamanı qiymətləndirirərkən aşağıdakı üç komponent nəzərə alınır:

– Funksional qabiliyyət (gündəlik fəaliyyət, sosial intelektual və emosional funksiyaların icrası, maddi təminat);

– Dərketmə (yuxarıda sadalanan komponentlərin əhəmiyyətinin dərk olunması, ümumi sağlamlıq və rifah halının dərk olunması)

– Simptomlar və onların nəticələri (onlar əsas və ya yanaşı gedən xəstəliyi müşayiət edərək, lazımi müdaxilə əsnasında aradan qalxır).

Pediatrik revmatologiyada tətbiqi uyğun görülən sorğu anketləri praktik, istifadədə rahat olmalı, valideyn və uşaq tərəfindən doldurulmasına qısa zamanın sərf olunmalı, fiziki vəziyyətlə yanaşı, psixoloji və sosial statusun, həmçinin ailə və məktəbdə münasibətləri nəzərə almalı, davranış xüsusiyyətləri və ağrının ölçülməsi daxil edilməlidir [6,7,8,9,10].

Həyat keyfiyyətinin ölçülməsində, xüsusilə peditrik təcrübədə tətbiq olunan J.W.Varni tərəfindən hazırlanmış *Pediatric quality of life questionnaire - PedsQL ™4.0 Generic Core Scales* (PedsQL) sorğu anketini göstərmək olar. *PedsQL™3.0 Rheumatology Module* isə revmatik xəstələlikləri olan uşaqların

həyat keyfiyyətini qiymətləndirmək üçün xüsusi adaptə olunmuş sorğudur. 5 bölmədə cəmləşdirilmiş 22 sualdan ibarətdir:

– " ağrı/səhər buxovlanması" – 4 sual
– "gündəlik fəaliyyət" – 5 sual
– "müalicə" – 7 sual
– "narahatlıq" – 3 sual
– "ünsiyyət" – 3 sual

Göründüyü kimi revmatoloji modelin sualları daha spesifik olub, əsas xəstəliyin aktivliyi ilə bağlı ağrı və səhər gərginliyinin intensivliyi, dərman preparatlarının daimi qəbulu, xəstəliyin gündəlik fəaliyyətə təsirini nəzərə alır.

Childhood Health Assesment Questionnaire (CHAQ) – xronik gedişə malik yuvenil artritlər zamanı uşaqların gündəlik həyat fəaliyyətinin funksionallığını qiymətləndirmək üçün spesifik alətdir. İlk orijinal versiya J.M.Landgraf və həmmüəlifləri tərəfindən hazılanmışdır. *The Child Healh Quesionnare (CHQ)* – gediş variantından asılı olmayaraq yuvenil artritlər (YRA, YİA və s.) fiziki və psixososial vəziyyəti qiymətləndirir. *Childhood Health Assesment Questionnaire (CHAQ)*- geyinmə, fərdi qulluq, ayağa qalxma, yemək yemək, gəzmək, şəxsi gigiyena, uzanma, tutma kimi hərəkətləri sərbəst yerinə yetiməyin mümükünlyü, kənar şəxslərin və ya hər hansı vasitələrin tətbiqinə ehtiyacın olub olmasını 4 səviyyədə qiymətləndirən birinci bölmə və ağrı şiddətinin qiymətləndirilməsi olan (15 sm-lik Visual Analog Scor (VAS) vasitəsilə) ikinci bölmədən ibarətdir. Alınan ballar toplanır və ikiyə bölünür. Nəticələr nə qədər yüksəkdirsə uşağın vəziyyəti bir o qədər ağır qiymətləndirilir [2,3,4,19].

Juvenile Arthritis Functional Assessment Scale (JAFAS), Juvenile Arthritis Functional Assessment Report (JAFAR) – dayaq-hərəkət aparatının funksionallığına yönəlmiş müayinə üsullarıdır. 7-16 yaş uşaqlar arasında tətbiq oluna bilər. Xəstəlik aktivliyi ilə nəticələr arasında müsbət korrelyasiya aşkar edilir. *Juvenile Arthritis Self-Report Index (JASI)* 8 yaşdan böyük uşaqlar arasında istifadə oluna bilən daha çox fizikal aktivliyi qiymətləndirən iki hissədən ibarət sorğudur. Alınan nəticələrin yüksək olması pozitiv göstəricidir.

CHAQ, JAFAR və JASI nəticələrinin etibarlılığı baxımından klinik və elmi araştırmalar zamanı tətbiq olunması tövsiyə olunandır [11,13,14,16,17].

İstifadə edilən digər HK sorğularına digər nümunə kimi *JAMAR (juvenile arthritis multidimensional assessment report)* sorğu anketini göstərmək olar. Bu zaman ağrı, fiziki funksiyaların vəziyyəti, həyat keyfiyyəti, müalicə və yan təsirlərlə yanaşı məktəblə bağlı problemlər də araşdırılır.

Childhood Arthritis Health Profile (CAHP) – daha əhatəli və kompleks sorğu olub, klinik praktikada tətbiqinin çətinliyi səbəbindən daha çox longitudinal çalışmalar üçün istifadə olunur.

Hal-hazırda 100-dən çox müxtəlif istiqamətli həyat keyfiyyətinin öyrənilmə metodikası və vəsaitləri vardır. Bəzi nümunələrin müqayisəsi aşağıdakı cədvəldə verilmişdir [18,19,20,23].

Cədvəl

Yuvenil artritli uşaqların həyat keyfiyyətinin ölçülməsində tətbiq olunan bəzi sorğularının müqayisəsi [23].

Tələblər	CHAQ	JAFAR	JASI	JAQQ
Etibarlılıq	Yüksək	Yüksək	Yüksək	Yüksək
Uyğunluq	Yüksək	Yüksək	Yüksək	Yüksək
Cavablandırma	Orta		Orta	Yüksək
Fərqləndirmə	Orta	Orta	Zəif	Yüksək
Tətbiq olunma				
Fiziki funksiyaların ölçülməsi	Orta	Orta	Çox yaxşı	Yaxşı
HK ölçülməsi				Yaxşı
Ağrının ölçülməsi	Orta	Orta		Yaxşı
Tətbiqinin rahat olması	Yaxşı	Yaxşı		Yaxşı

Həyat keyfiyyəti anlayışı klinik və sosial pediatriyada xarici mənbələrdə artıq uzun müddət tətbiq olunsa da, keçmiş MDB və o cümlədən ölkəmiz üçün nisbətən yeni anlayışdır. Həyat keyfiyyətinin ölçüməsi uşaqların hərtərəfli müayinəsinə imkan verməklə, konkret patolgiyalı, bu halda yuvenil artritli uşaqların sosial qruplardan, regional xüsusiyyətlər və s. asılı olaraq geniş öyrənilməsinə şərait yaradır.

ƏDƏBİYYAT

1. Duffy C.M., Lovell D.J. Assesment of health status, function and outcome / in Textbook of pediatric rheumatology. Edited by J.T. Cassidy, R.E. Petty. W.B.Saunders Company, 2001, p.178-187

2. Nikishina I., Ruperto N., Kuzmina N. et al. The Russian version of the Childhood Health Assessment Questionnaire (CHAQ) and the Child Health Questionnaire (CHQ) // Clin. Exp. Rheumatol., 2001, v.19 (suppl. XIII), p.131-135

3. Ruperto N., Ravelli A., Pistorio A. et al.: Cross-cultural adaptation and validation of the Childhood Health Assessment Questionnaire (CHAQ) and the Child Health Questionnaire (CHQ) in 32 countries. Review o f the general m ethodology // Clin. Exp. Rheumatol., 2001, v.19, (suppl. XIII), 1-9

4. Руперто Н., Шелепина Т.А., Салугина С.О. *Россий*ский адаптированный вариант опосников для оценки качества жизни и состояния здоровья детей с ювенильными хроническими артритами /Институт ревматологии РАМН, Москва, Поликлиника Св. Маттео, Павия, Италия.

5. Баранов А.А., Альбицкий В.Ю., Винярская И.В., Валиуллина С.А. Итоги, задачи и перспективы изучения качества жизни в отечественной педиатрии/Научный центр здоровья детей РАМН, Москва

6. Баранов А.А., Альбицкий В.Ю., Винярская И.В. Изучение качества жизни в медицине и педиатрии // Вопросы современной педиатрии, 2005, № 2, с.7-12.

7. Косенкова О.И., Макарова В.И. Проблема качества жизни в современной медицине / Экология человека 2007, 11, с.29

8. Лукьянова Е.М. Оценка качества жизни в педиатрии // Качественная клиническая практика, 2002, № 4, с.34-42.

9. Новик А.А., Ионова Т.И., Никитина Т.П. Исследование качества жизни в педиатрии // Вестник Межнационального центра исследования качества жизни, 2004, № 3-4, с. 92.

10. Строзенко Л.А., Гордеев В.В., Лобанов Ю.Ф., Винярская И.В. Гендерные особенности качества жизни и состояния здоровья подростков // Росс. педиатрический жур., 2013, №2, с.51-54

11. Калашникова О.В. Гендерные и возрастные особенности оценки качества жизни детей с хроническими артритами: Автореф. дисс канд. мед. наук. СПб, 2009, 21с.

12. Edibe Ünal, Gamze Arin, Nur Banu Karaca ve b. Romatizmalı hastalar için bir yaşam kalitesi ölçeğinin geliştirilmesi: madde havuzunun oluşturulması //Journal of Exercise Therapy and Rehabilitation, 2017, v.4(2), p.67-75

13. Pınar Borman Ankilozan Spondilitte Hastalık Aktivite ve İzlem Ölçekleri. Disease Activity and Follow-Up Indexes in Ankylosing Spondylitis // Turkiye Klinikleri J Immunol Rheumatol-Special Topics, 2011, v.4(1), p.32-8

14. Taciser Kaya, Altınay Göksel Karatepe, Rezzan Günaydın ve b. Romatoid Artritli Hastalarda Yaşam Kalitesi: Hastalık Aktivitesi, Fonksiyonel Durum ve Sağlık Durumu ile İlişkisi // Rheumatology, 2007, v.22, Issue 4

15. Cüre E., Mehmet Ş., Ibrahim E. et al. Romatoid artritli hastalarda psikiyatrik semptomlar ve yaşam kalitesinin değerlendirilmesi // MN Dahili Tıp Bilimleri., 2006, v.1(5), p.358-64.

16. Alessandro Consolaro, Gabriella Giancane, Benedetta Schiappapietra Clinical outcome measures in juvenile idiopathic arthritis // Pediatr Rheumatol Online J. 2016, v.14, p.23

17. Filocamo G., Consolaro A., Schiappapietra B. et al. A new approach to clinical care of juvenile idiopathic arthritis: the Juvenile Arthritis Multidimensional Assessment Report. // J Rheumatol., 2011, v.38(5), p.938-53

18. Philip Conaghan, Chris Denton, John Isaacs. Oxford Textbook of Rheumatology. p.280

19. Duffy C.M. Measurement of health status, functional status, and quality of life in children with juvenile idiopathic arthritis: clinical science for the pediatrician // Pediatr Clin North Am., 2005, v.52(2), p.359-72

20. Duffy C.M., Feldman B.M. Assessment of health status, function and quality of life outcomes (chapter 8). In: Cassidy P, Laxer L. editors // Textbook of pediatric rheumatology 6th. ed. Philadelphia: Saunders Elsevier, 2010

21. Shoop-Worrall S.J.W., Verstappen S.M.M., McDonagh J.E. et al. Long-Term Outcomes Following Achievement of Clinically Inactive Disease in Juvenile Idiopathic Arthritis: The Importance of Definition // Arthritis Rheumatol., 2018, v.70(9), p.1519-1529

22. Karaca B, Oflaz F.O., Bilgen Ş.A., Ünal E. Fibromiyalji, romatoid artrit ve ankilozan spondilit tanisi alan bireylerde bilişsel düzey, sağlik değerlendirmesi, anksiyete ve depresyon, yaşam kalitesi karşilaştirmasi: pilot çalişma // Cognitive level, health assessment, anxiety and depression, life quality comparison in individuals with fibromyalgia, rheumatoid arthritis and ankylosing spondylitis: pilot study

23. Sözeri B. Çocuk romatolojide tani ve tedavi ölçeklerinin kullanimi // https://docplayer.biz.tr/108076164-Cocuk-romatolojide-tani-ve-tedavi-olceklerinin-kullanimi-doc-dr-betul-sozeri.html

Резюме

Ювенильные артриты и качество жизни

З.У.Мамедова

Статья посвящена проблеме оценки качества жизни при ревматологических заболеваниях в целом и при ювенильных артритах в частности. Представлена информация об истории формирования понятия «качество жизни» и совершенствования методологии его оценки. Анализируются различные подходы к критериям оценивания, преимущества и недостатки современных шкал качества жизни. Рассматривается возможность использования представленных методов оценки применительно к пациентам детского возраста, что имеет несомненно важное значение поскольку качество жизни является критерием, характеризующим пациента как физически и психологически социально адаптированную личность. Учитывая, что ревматологические заболевания, особенно ювенильный артрит, часто сопровождаются болью, функциональными нарушениями и нетрудоспособностью, оценка качества жизни позволит выявить адаптивные возможности больного ребенка и контролировать эффективность терапии.

Summary

Juvenile arthritis and quality of life

Z.U.Mammadova

The article is devoted to the problem of assessing the quality of life in rheumatological diseases in general and in juvenile arthritis, in particular. Information of the history of the formation of the concept of "quality of life" and the improvement of the methodology for its assessment is provided. Various approaches to the evaluation criteria, the advantages and disadvantages of modern scales of quality of life are analyzed. The possibility of using the presented assessment methods in relation to pediatric patients is considered undoubtedly important, because the quality of life is a criterion that characterizes the patient as a physically and psychologically socially adapted person. Given that rheumatological diseases, especially juvenile arthritis, are often accompanied by pain, functional impairment and disability, an assessment of the quality of life will reveal the abilities of a sick child and monitor the effectiveness of therapy.

Daxil olub: 19.06.2019

Əhalinin virus əleyhinə dərman vasitələri haqqında informasiya təminatının öyrənilməsi

E.Z.Abdullayev

Azərbaycan Tibb Universiteti, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası, Bakı

Açar sözlər: virusəleyhinə preparatlar, informasiya dəstəyi, anket

Ключевые слова: противовирусные препараты, информационная поддержка, анкета

Keywords: antiviral drugs, information support, questionnaire

Son zamanlar dərman vasitələrinin çeşidi yüksək sürətlə artmaqdadır. Dərman istehsalçıları və satışını təşkil edən təşkilatlar satış həcminin artırılması ilə əlaqədar olaraq reklama çox müraciət edirlər.

Lakin istehlakçıların informasiya təminatı lazımi səviyyədə olarsa, onda aldadıcı reklamların qarşısı müəyyən qədər alınmış olar.

İstehlakçıların hüquqlarının qorunmasında onların məlumatlandırılmasının rolu qeyd olunur [3,4].

İnformasiya texnologiyalarının inkişafı dövründə dünyamızda demək olar ki, hər gün dəyişiklik və müxtəliflik göstərən mal və xidmət tələbindəki baş döndürücü inkişaf, istehlakçını seçimlərində böyük bir çətinliklə qarşı-qarşıya qoyur. İstehsal fəaliyyətinin sürətlənməsi, çeşidlənməsi və bunlar üçün bazar axtaran marketinq üsulları qarşısında, istehlakçılar özlərini qorumağa çalışmış və bunun nəticəsində də istehlakçının qorunması problemi ortaya çıxmışdır [1]. 1995-ci ildə istehlakçıların hüquqlarının müdafiəsi haqqında Azərbaycan Respublikasının qanunu qüvvəyə minmişdir [2].

Universal istehlakçı hüquqları 9 aprel 1985 -ci il tarixində Beynəlxalq İstehlakçılar Təşkilatının təklifi və təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının baş kabinetində "İstehakçının qorunması üzrə təməl əsasları" başlığı altında yekdilliklə qəbul edilmişdir [2].

Burada 2 bənd diqqəti daha çox cəlb edir.

1. Təhlükəsizlik və inam hüququ: Bu haqq istehlakçıya təqdim edilən mal və xidmətlərin istehlakçının həyatını və sağlamlığını normal şərtlər altında təhlükəyə atmayacaq şəkildə etibarlı və keyfiyyətli olmasını əldə etməkdədir.

2. Məlumat əldə etmə hüququ: İstehlakçılar, məhsul və xidmətləri almadan öncə, rasional seçim edə bilməlidirlər. Buna görə istehlakçılar malların qiymətləri, keyfiyyətləri, xüsusiyyətləri haqqında malları aldıqdan sonra isə istifadə təlimatı və digər vasitələrlə sağlamlıq və təhlükəsizliyin qorunması ilə birlikdə məqsədə uyğun istehlakının reallaşması üçün məlumatlandırılmalıdırlar.

Məqsədimiz bu tələbə uyğun olaraq aptek təşkilatlarında istehlakçılarln məlumatlandırılmasının zəruriliyini nəzərə alaraq həmin bu sahədə istehlakçıların aptek təşkilatlarına qarşı münasibətlərini və virus əleyhinə (DV) haqqında istehlakçıların (alıcıların) informasiya təminatını öyrənməkdir.

Məqsədə nail olmaq üçün əhali üçün anket tərtib etdik. Anketi 862 nəfər cavablandırdı. Onların içərisində tibb, hüquq, təhsil, tikinti, nəqliyyat, iqtisadiyyat işçiləri və sairələr vardı.

Anketin "Siz virus əleyhinə DV haqqında informasiyanın hansı formasına daha çox üstünlük verirsiniz?" sualına şifahini 841 nəfər (97,6%); yazılı 860 nəfər (99,8%); əyani formasını 801 nəfər (92,9%) qeyd etmişlər.

Göründüyü kimi informasiyanın digər formaları ilə yanaşı yazılı formasına daha çox üstünlük vermişlər.

"Siz virus əleyhinə DV-ni kimin göstərişi və məsləhəti ilə qəbul edirsiniz ?" sualına 560 nəfər (65,0%) həkim və əczaçının; 102 nəfər (11,8%) özü; 200 nəfəri (23,2%) tanış və dostlarının göstərişləri və məsləhətləri ilə cavab vermişlər.

"Virus əleyhinə DV-i haqqında məlumatı hansı mənbələrdən alırsınız?" sualına 862 nəfər (100,0%) aptek işçilərindən və informasiya vərəqindən, əlavə olaraq eyni zamanda 780 nəfəfri (90,5%) həkimdən, 230 nəfəri (26,7%) internetdən, 75 nəfəri (8,7%) televizizya reklamını qeyd etmişlər.

"Virus əleyhinə DV- i haqqında hansı məlumatları alırsınız ? "sualına 808 nəfər (93,7%) qiymət, 862 nəfəfr (100,0%) istifadəsinə göstəriş, 860 nəfər (99,8%) əks göstəriş, 858 nəfər (99,5%) yararlıq müddəti, 698 nəfəri (81%) saxlama şəraiti, 862 nəfər (100,0%) istifadə qaydası və dozası, 860 nəfər (99,8%) əlavə təsirləri, 402 nəfəri (46,6%) nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri, 398 nəfər (46,2%) istehsal ölkəsi və şirkəti haqqında daha çox məlumat almaq arzusundadırlar.

"Siz virus əleyhinə DV-i haqqında informasiyanı hansı mənbədən almaq istərdiniz ?" sualına 862 nəfəri (100,0%) aptekdən, 208 nəfəri (24,1%) internetdən, 862 nəfəri (100,0%) həkimdən, 82 nəfəri (9,5%) həkim və apteklə yanaşı televiziya reklamından və kütləvi informasiya vasitələrindən də informasiya almaq istəyirlər.

Göründüyü kimi respondentlərin hamısı həm aptekdən və həmçinin də həkimdən məlumat almaq istəyirlər.

"Virus əleyhinə DV haqqında aldığınız informasiya sizi qane edirmi? " sualına 678 nəfəri (78,7%) bəli, 102 nəfəri (11,8%) qismən, 82 nəfəri (9,5%) xeyr söyləmişlər.

"Virus əleyhinə DV-i haqqında informasiyanı əldə etmək üçün nə təklif edirsiniz?" sualına respondentlər aptek təşkilatlarının ticarət zalında "viruslardan necə qorunmalı" başlıqlı yazılar, DV-i haqqında bülletenlər, informasiya vərəqələri olmasını təklif etdilər.

Beləliklə, əgər virus əleyhinə DV haqqında informasiya əhalinin tələbatına uyğun və düzgün, inandırıcı təşkil edilsə, onda onların bu sahədə hüquqlarının müdafiəsinə yardımçı olardı

ƏDƏBİYYAT

1. Ağayeva N.Y. Müasir marketinqdə müştəri məmnuniyyətinə nail olunmasında istehlakçı hüquqlarının qorunması AZJESS // Azerbaijanian Journal of Economics and Social Studies, 2015, № 2 s.35-44

2. stehlakçıların hüquqlarının müdafiəsi haqqında. Azərbaycan Respublikasının qanunu, 1995 -ci il

3. Глембоцкая Г.Т., Кривошеев С.А., Денисова Т.В., Зверева Л.А., Бахарева А.В. Лекарственные препараты и педиатрической практике:мнение потребителей // Фармация, 2017, № 4, с.33-39

4. Рейтхман Т.В., Мошкова Л.В. Информационное обеспечение потребителей лекарственных средств на современном этапе // Фармация, 2016, №2, с.41-44

Резюме

Исследование информационного обеспечения населения по противовирусным препаратам

Э.З.Абудллаев

Статья посвящена изучению осведомленности населения об антивирусных препаратах. Исследования проводилось с помощью анкетирования. На вопросы опроса ответили 862 человека. Население предпочло все три формы опроса (устную, письменную и визуальную). Было отмечено, что предоставление информации, если оно организовано надлежащим и убедительным образом поможет защитить права населения.

Summary

Study of information provision of population on anti-viral drugs

E.Z. Abdullayev

The article is devoted to the study of public awareness of antiviral drugs. Research was conducted using questionnaires. 862 people answered the survey questions.The population preferred all three forms of the survey (oral, written and visual).It was noted that providing information, if properly and convincingly organized, would help protect the rights of the population.

Daxil olub: 18.08.2019

Ürəyin işemik xəstəliyinin müxtəlif formalarının klinik gedişinin ağırlaşmalarının və kəskinləşmələrinin əmələ gəlməsində meteoroloji amillərin və geomaqnit aktivliyin rolunun öyrənilməsi

N.K. Rüstəmova, E.Z.Ələkbərov

Akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu, Bakı

Açar sözlər: ürəyin işemik xəstəliyi, meteoroloji amillər, geomaqnit aktivliyi

Ключевые слова: ишемическая болезнь сердца, метеорологические факторы, геомагнитная активность

Keywords: coronary heart disease, meteorological factors, geomagnetic activity

Ümumdünya Səhiyyə Təşkilatının 2014-cü ildə verdiyi məlumatlara görə bütün dünya ölkələri üzrə baş vermiş 56 mln ölüm hadisəsindən 17.5 milyonu, yəni 46%-i ürək-damar xəstəliklərinin (ÜDX) payına düşür. Analoji göstərici Azərbaycan Respublikası üzrə 54% təşkil etmişdir. ÜDX səbəbindən baş verən ölümlərin əsas səbəbləri ürəyin işemik xəstəliyi (ÜİX) və insultdur [1,2].

ÜİX-in kəskinləşməsində havanın fəsli dəyişilmələrinin də mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq meteoroloji amillərin və geomaqnit aktivliyin insan orqanizminə mənfi təsiri (xüsusən ÜİX-in kəskinləşməsinə) hələ də lazımi qədər öyrənilməmişdir [3,4,5,6,7].

Meteohəssalıq – insan orqanizminin meteoroloji (hava) amillərin təsirinə verdiyi reaksiyadır və ya adaptasiya, immunitet mexanizmlərinin zəifləməsi yaxud xronik xəstəliklər nəticəsində havanın dəyişilmələrinə qarşı həssaslığın yüksəlməsidir. Yaxşı fəaliyyət göstərən adaptasiya mexanizmlərinə malik olan sağlam insanlar havaya qarşı heç bir reaksiya vermirlər. Digər tərəfdən isə faktik olaraq əhalinin 1/3 hissəsi bu cür dəyişilmələri hiss edir [3]. Metiohəssaslıq hallarına gündəlik fiziki fəallıqla məşğul olmayan, təmiz havada az olan, hipodinamiyalı insanlarda daha çox rast gəlinir. ÜDX ilə olan xəstələrin demək olar ki, yarısı ha-vanın dəyişməsini hiss edir. Havanın dəyişməsi həm də vegetativ sinir sisteminin pozulmasına səbəb olur (simpatik və parasimpatik fəallığın pozulması, bulimiya yaxud anoreksiya). Havanın dəyişməsi stenokardiya tutmalarını artırır, havanın rütubətliliyi 80-95% olanda isə ÜİX kəskinləşir.

İnsan orqanizminə mənfi təsir göstərən hava amillərinə atmosfer təzyiqinin düşməsi, havanın kəskin dəyişilmələri, rütubətliliyi, hərəkət surəti (külək), Günəş şüalanması və Yerin elektromaqnit sahələri aid edilir.

Meteofaktor dedikdə barometrik dəyişikliklər, temperatur və rütubət tərəddüdləri, həmçinin günəş partlayışları zamanı yerə gəlib çatan radiasiyalar nəzərdə tutulur ki çox vaxt bu maqnit fırtınaları adlanır.

Bu faktorlar birlikdə və ya ayrılıqda orqanizmə təsir edərək onun adaptasiya qabilliyətinin gərginləşməsi və bəzən isə, hətta pozulmasına belə gətirib çıxarır.

Havanın rütubətliliyi oksigenin atmosfer havasında sıxlığının saxlanmasında mühüm rol oynayır, isitilik mübadiləsinə və tər ifrazına təsir göstərir. Yüksək rütubətliliyə hipertoniyası və aterosklerozu olan xəstələr xüsusilə həssasdırlar. Əksər hallarda nisbi rütubət yüksək olduqda (80-95%) ürək-damar sistemi xəstəliklərinin kəskinləşməsi halları baş verir [8,9,10].

Havada temperaturun kəskin tərəddüdləri: temperaturun istər yuksəlməsi və istərsə də soyuması orqanizmdə termorequlyasiyanı pozmaq dərəcəsinə çatdıqda isə, özünü bu və ya digər patologiya şəklində biruzə verir. İstər isti, istərsə də soyuq havada temperatur dəyişmələri zamanı rütubətliliyin çox yüksək olması termorequlyasiyanın daha tez pozulmasına səbəb olur. Ona görə həm isti, həm də soyuq havada yüksək rütubət orqanizmə mənfi təsir göstərir. Soyuq hava və rütubət səthi damarların spazmı, ürəkdöyünmə, qanın qatılığının artmasına gətirib çıxarır ki, bu da həm HX, həm də ÜİX olanlarda kəskinləşmələr və müxtəlif ağırlaşmaları təmin edən faktorlar hesab olunur.

Son illər günəş aktivliyinin dəyişmələri və bu zaman qalaktikaya plazma selinin-radiasiyanın yayılması, canlı orqanizmlərə, o cümlədən insanlara, xüsusən xroniki xəstələrə ağır təsir etməsinə dair bir sıra tədqiqat işləri aparılmışdır. Maqnit fırtınaları dedikdə atmosferdə olan geomaqnit dəyişiklikləri nəzərdə tutulur ki, dəyişiklik isə günəşin plazma selinin yerin maqnit təbəqəsinə çatıb onun sıxılmasına və dəyişiklikliyə məruz qoyur.

Tədqiqatın məqsədi. Ürəyin işemik xəstəliyinin müxtəlif formalarının klinik gedişinin xüsusiyyətləri, ağırlaşmalarının və kəskinləşmələrinin əmələ gəlməsini tədqiq etmək, həmçinin hava dəyişikliklərinin və geomaqnit aktivliyin təsiri ilə əlaqəli kəskinləşməsinin müalcəsinə müxtəlif yanaşmaların effektivliyini öyrənmək.

Tədqiqatın bu mərhələsində Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına (TTTYS) müraciət etmiş və müraciət sonrası hospitalizasiya olunmuş xəstələrdə havanın fəsli dəyişikliklərindən asılı olaraq ÜİX-nin kəskinləşmələritezliyinin klinik gediş xüsusiyyətlərinin öyrənilməsi qarşıya məqsəd qoyulmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqatda Bakı şəhər TTTYS-na bir ildə ürək-damar şikayətlərinə görə müraciət etmiş 146237 nəfər və müraciət sonrası hospitalizasiya olunmuş 12042 xəstə araşdırılmışdır. 24 ay ərzində ürək-damar şikayətlərinə görə müraciətlər Bakı şəhər TTTYS-na ümumi müraciətlərin 672845, (21.7%) ürək-damar şikayətlərinə görə müraciət sonrası hospitalizasiya olunmuş xəstələrin sayı isə Bakı şəhər TTTYS-na ümumi müraciətlərdən sonra hospitalizasiya olunmuş xəstələrin (63755) 9.5 %-ni təşkil etmişdir. Alınan məlumatlar C.Abdullayev adına Elmi Tədqiqat Kardiologiya İnstitutunda araşdırılmışdır. Əlavə olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun press-relizi və məlumatlarına istinad edilmiş, bir ildə maqnit fırtınalı, ən soyuq, ən isti günlərdə baş verən ümumi müraciətlər və ÜDX adi günlərdəkilərlə müqayisəli şəkildə təhlil olunmuşdur.

Cədvəl 1

İlin 12 ayında TTTYS-na müraciətlər

Aylar	Ümumi müraciətlər (N=672845)	Ürək-damar şikayətləri (N=146232)	ÜİX kəskinləşmələri: Kəskin STQ Mİ+ Stenokardiya+ Kəskin koronar sindrom və STQOMİ (N=11980)	Kəskin ST qalxması olan miokard infarktı (STQ Mİ) (N=874)
I	63448(9.4)	15038(10.2)	1619(13)	86(9.8)
II	49958 (7.4)	12636(8.6)	1452(11.6)	92(1.5)
III	57410(8.5)	13393(9.4)	1470(12.6)	77(8.8)
IV	55384(8.3)	12763(8,7)	1313(11)	74(9.7)
V	56314(8.4)	12358(8.5)	1212(10.4)	67(8)
VI	53746(8.3)	10794(7.4)	1095(7.8)	70(7,8)
VII	59181(8.6)	11404(7.7)	1149(9.9)	69(4.9)
VIII	60506(8.7)	11573(7.8)	1175(10.1)	43(6,6)
IX	563768.4 ()	11173(7.1)	1108(9.5)	58(6.6)
X	54238(8.2)	10380(7)	1199(10)	60(5.8)
XI	51630(8)	12640(8.6)	1240(10.6)	68(7.7)
XII	54660(8,3)	12080(8,1)	1367(11.4)	110(12,5)

Cədvəl 1-in ardı

Aylar	Stenokardiya (N=12782)	Kəskin koronar sindrom və ST qalxması olmayan miokard infarktı (KKS və STQOMİ) (N=1774)
I	1363 (10,7)	170(9,5)
II	1190(9,3)	170(9,5)
III	1246(9,6)	177(10)
IV	1087(8,5)	152(8,5)
V	984(7,6)	161(9)
VI	876(7,3)	149(8,3)
VII	938(7,4)	142(8,1)
VIII	1029(82)	104(5.7)
IX	932(7,2)	118(6.0)
X	1005(9,6)	134(7,5)
XI	1022(7,8)	150(8,5)
XII	1110(8,7)	147(8,4)

Alınmış nəticələr. Bakı şəhər TTTYS-na ÜD şikayətlərinə görə 1 il ərzində 15038 (10.3%), fevral ayında 126 36 (8.7%), mart ayında 133 93 (9.1%), aprel ayında 12763 (8.7%), may ayında 12358 (8.5%), iyun ayında 10794 (7.4%), iyul ayında 11404 (7.8%), avqust ayında 11573 (7.9%), sentyabr ayında 11173 (7.6%), oktyabr ayında 10380 (7.1%), noyabr ayında 12640 (8.6%), dekabr ayında 1280 (8.2%) cəmi 146232 müraciət olmuşdur (Cədvəl 1).

Həmin bir ildə olan bu müraciətlərdən ÜİX kəskinləşmələri (Kəskin ST qalxması olan miokard infarktı (STQ Mİ)+ Stenokardiya+ Kəskin koronar sindrom (KKS) və ST qalxması olmayan miokard infarktı (STQOMİ)) 11980 olmuşdur ki, bu da ümumi ürək-damar şikayətlərinin 8.1%-ni təşkil edir. ÜİX kəskinləşmələri ilə olan müraciətlərdən kəskin STQ Mİ 874 (1,5%), stenokardiya 12782 (8,7%), KKS və STQOMİ 1774 (2,2%) təşkil etmişdir.

Bakı şəhər TTTYS-na ÜİX kəskinləşmələrinə görə yanvar ayında 347 (9.0%), fevral ayında 315 (8,1%), mart ayında 322 (8,3%), aprel ayında 312 (8,1%), may ayında 296 (7,6%), iyun ayında 301 (7,8%), iyul ayında 329 (8,5%), avqust ayında 319 (8,2%), sentyabr ayında 324 (8,4%), oktyabr ayında 319 (8,2%), noyabr ayında

344 (8,9%), dekabr ayında 341 (8,8%) müraciət sonrası hospitalizasiya halları olmuşdur (cədvəl 3). Bunlardan STQ Mİ-yə görə yanvar ayında 103 (10,5%), fevral ayında 72 (7,3%), mart ayında 70 (7,1%), aprel ayında 73 (7,4%), may ayında

68(6,9%), iyun ayında 67 (6,8%), iyul ayında 74 (7,5%), avqust ayında 83(8,5%), sentyabr ayında 89 (9.1%), oktyabr ayında 94 (9,6%), noyabr ayında 96 (9,8%), dekabr ayında 92(9,4%), stenokardiyaya görə yanvar ayında 80 (7,9%), fevral ayında 89 (8,8%), mart ayında 94 (9,3%), aprel ayında 83 (8,2%), may ayında 79 (7,8%), iyun ayında 81 (8,0%), iyul ayında 88(8,7%), avqust ayında 74 (7,3%), sentyabr ayında 84 (8.3%), oktyabr ayında 79 (7,8%), noyabr ayında 92 (9,1%), dekabr ayında

88 (8,7%), KKS və STQOMİ-na görə yanvar ayında 164 (8,7%), fevral ayında 154 (8,2%), mart ayında 158 (8,4%), aprel ayında 156 (8,3%), may ayında 149 (7,9%), iyun ayında 153 (8,1%), iyul ayında 153 (8.1%), avqust ayında 162 (8,6%), sentyabr ayında 151 (8,0%), oktyabr ayında 146 (7,8%), noyabr ayında 156 (8.3%), dekabr ayında 161 (8,6%) müraciət sonrası hospitalizasiya halları olmuşdur. ÜDX ilə

hospitalizasiya hallarının 39,9%-ni ÜİX kəskinləşmələri (kəskin STQ Mİ 25,4%, stenokardiya 26.2%, KKS və STQOMİ 48,3%) təşkil etmişdir.

İlin 12 ayında TTTYS-na müraciətlərin fəsli təhlilinə əsasən qış aylarında ÜD şikayətləri, ÜİX kəskinləşmələri və stenokardiya tutmaları daha çox rast gəlinir (cədvəl 2). Yay aylarında isə əksinə onların azalması müşahidə olunur. Bu da qış aylarında havaların kəskin soyuması və yanaşı xronik xəstəliklərin fəallaşması ilə əlaqəli ola bilər. Lakin STQ Mİ məntiqi olaraq 18-35 yaşında olanlarda daha az halda rast gəlsə də, 35-70 yaşda olanlarda ümumi müraciətlərlə müqayisədə xeyli azalmış (83,3%-ə qarşı 51,2%), əksinə 70 yaşdan yuxarı olanlarda isə kifayət qədər çox yüksəlmişdir (0,7%-ə qarşı 44,3%). STQO Mİ və stenokardiya isə daha çox 35-70 yaşında olanlarda baş vermişdir (müvafiq olaraq 77,8% və 95%) və 70 yaşdan yuxarı olanlarda bu göstəricilər xeyli azalmışdır (müvafiq olaraq 13,2% və 2,8%).

Cədvəl 2

Bir ildə havanın ən soyuq və ən isti günlərində gündüz və gecə saatlarında TTTYS-nda müraciət sonrası hospitalizasiyalar

Aylar: gündüz/gecə t^0	STQ Mİ+ KKS+STQOMİ+ Stenokardiya	STQ Mİ	Stenokardiya	KKS+ STQOMİ	ÜÇ	Ritm pozul-ması
1.Yanvar:						
Gündüz						
8.01. +5	68	6	51	11	14	3
9.01. +3	65	8	48	9	11	2
25.01. +6	52	5	39	8	10	1
Gecə						
8.01. -5	26	5	11	10	11	2
9.01. -3	22	6	9	7	9	1
25.01. -2	18	4	6	8	8	1
2. Avqust:						
Gündüz						
4.08. +40	52	4	39	9	19	2
5.08. +41	48	2	37	9	15	1
15.08 +36	43	3	32	8	17	2
Gecə						
4.08. +24	15	3	7	5	11	1
5.08. +24	13	0	7	6	9	0
15.08 +28	12	3	3	6	12	1
Manna-Uitni meyarı ilə STQ Mİ+ KKS+STQOMİ+Stenokardiya Yanvar gündüz+gecəyə qarşı Avqust gündüz+gecə p=0.20054 STQ Mİ Yanvar gündüz+gecəyə qarşı Avqust gündüz+gecə p=0.00652 Stenokardiya Yanvar gündüz+gecəyə qarşı Avqust gündüz+gecə p=0.17384 KKS+STQOMİ Yanvar gündüz+gecəyə qarşı Avqust gündüz+gecə p=0.17384 ÜÇ Yanvar gündüz+gecəyə qarşı Avqust gündüz+gecə p=0.1096 Ritm pozulması Yanvar gündüz+gecəyə qarşı avqust gündüz+gecə p=0.42372						

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun press-relizi və məlumatlarına görə yanvar ayında ən soyuq günlər 8, 9 və 25 (-5/+6), avqust ayında ən isit günlər isə 4,5 və 15-ində (+24/41) olmuşdur. Manna-Uitni meyarı ilə statistik təhlil əsasında göstəricilər ilin ən isti və soyuq aylarında ÜİX ilə olan xəstələrdə

xəstəliyin kəskinləşməsi göstəriciləri (STQ Mİ+ KKS+STQOMİ+Stenokardiya, stenokardiya, STOMİ, KKS, ritm pozulması müqayisədə əsasən bir-birindən dürüst olaraq fərqlənməmişlər (müvafiq olaraq p=0.2; 0.2; 0.2; 0.1; 0.4). Yalnız STQ Mİ qışın ən soyuq günlərində yaya nisbətən dürüst olaraq daha çox baş vermişdir (p=0.007).

Cədvəl 3

Bir ildə adi və maqnit fırtınaları olan qış və yay günlərində daxil olmuş ÜDX müraciətlərinin təhlili

Fəsillər	Aylar	Günlər								p	
		Maqnit fırtınası				Adi günlər					
Qış	I	2.01	3.01	4.01	5.01	10.01	11.01	12.01	13.01	0.22628	0.01208
		2114	1976	1831	1806	1788	1742	1781	1796		
	II	15.02	16.02	17.02	18.02	20.02	21.02	22.02	23.02		
		1719	1747	1737	1764	1597	1581	1541	1550		
Yay	VII	3.07	4.07	5.07	11.07	7.07	8.07	9.07	10.07	0.57548	
		1728	1711	1728	1749	1638	1661	1648	1662		
	VIII	2.08	3.08	4.08	24.08	7.08	8.08	9.08	10.08		
		1803	1847	1811	1821	1789	1768	1794	1788		

Bir ildə adi və maqnit fırtınaları olan qış və yay günlərində daxil olmuş ÜDX müraciətlərinin təhlili göstərmişdir ki, adi günlərlə müqayisədə maqnit fırtınaları olan günlərdə ÜDX müraciətləri dürüst olaraq daha çox halda baş verir (müvafiq olaraq p=0.00016 və p=0.012) (cədvəl 3).

Beləliklə, aparılan araşdırmalar nəticəsində aşkar olmuşdur: Aylar üzrə aparılan təhlil göstərmişdir ki, ürək-damar şikayətləri yay aylarına nisbətən qış aylarında daha çoxdur. İsti yay aylarında ürək-damar şikayətlərinin, ürək-damar xəstəliklərinin və stenokardiya hallarının azalmasına baxmayaraq kəskin koronar sindrom+ST seqmentinin qalxması olmayan miokard infarktı halları soyuq qış aylarında olduğu kimi təkrarən yüksəlir. Lakin 2017-ci ildə ST seqmentinin qalxması olan miokard infarktı dürüst olaraq qışda 55.4% daha çox halda təsadüf edilmişdir (p=0.007). Arterial hipertaniya və ürək çatmamazlığı olan xəstələrdə isə yaya nisbətən, qışda soyuq hava və maqnit fırtınası olan günlərdə, klinik ağırlaşma və qospitalizasiya daha çox olmuşdur. Yay aylarında ürək çatmamazlığı hallarına görə təcili yardıma müraciət qış aylarına nisbətən az olmuşdur. Buna isə qışda respirator xəstəliklərin artması səbəbdir.

ƏDƏBİYYAT

1. World Health Organization - Noncommunicable Diseases (NCD) Country Profiles, 2014. http://www.who.int/nmh/countries/en/

2. World Health Organization - Noncommunicable Diseases (NCD) Country Profiles, 2014. http://www.who.int/nmh/countries/aze_en.pdf?ua=1.Cardiol 105 (3), 288-293.

3. Yamazaki F. Heat stress and human baroreflex function // JUOEN 2010: 329-340.

IL-10 является иммуносупрессивным цитокином. Продукция интерлейкина осуществляется макрофагами, дендритными клетками, разными субпопуляциями B- и T- лимфоцитов: что особенно важно, Treq-клетками. Ген, кодирующий IL-10 расположен на хромосоме 1 (1q31-1q32). Охарактеризован ряд полиморфизмов 5-промоторного региона гена IL-10. Они включают полиморфизмы микросателлитных повторов и несколько точковых мутаций (G-1082A, C-819T, C-592A), реализация которых происходит через усиление транскрипции мРНК.

Имеющиеся данные позволяют говорить о тесной ассоциации рассмотренных ОНП с разнообразной аутоиммунной патологией (в т.ч. центральной нервной системы); а с учетом оговоренных патогенетических особенностей ДЦП, они могут претендовать на роль маркеров в диагностике этого заболевания.

Детский церебральный паралич- яркий представитель мультифакториальный патологии, требующий комплексного и индивидуального подхода на всех этапах диагностики. Выявление генов – кандидатов, формирующих предрасположенность к нему, представляет одну из приоритетных задач для специалистов неврологического профиля. Трактовка механизмов реализации описанных мутаций трудна и не всегда имеет прямые клинические и биохимические маркеры, их выявление представляет большую практическую ценность для рядового невролога значительно влияет на процесс дифференциальной диагностики. Идентификация генов-кандидатов, генных сетей, отслеживание вариантов их фенотипической реализации у каждого конкретного больного становится отправной точкой для подбора персонализированной, нередко рецептор-ориентированной терапии.

ЛИТЕРАТУРА

1. Физическая реабилитация инвалидов с поражением опорно-двигательной системы / Под ред. С.П.Евсеева, С,Ф,Курдыбайло. М.: Советский спорт, 2010, 488с. Часть II. Физическая реабилитация детей, страдающих детским церебральным параличом. Глава 4. Клинико-функциональная характеристика детского церебрального паралича.

2. Баранов А.А., Намазова-Баранова Л.С., Куренков А.Л. и др. Комплексная оценка двигательных функций у пациентов с детским церебральным параличом: учеб.-метод. пособие. М.: ПедиатрЪ, 2014, 84 с.

3. Клочкова О.А., Куренков А.Л., Намазова-Баранова Л.С. и др. Общее моторное развитие и формирование функции рук у пациентов со спастическими формами детского церебрального паралича на фоне ботулинотерапии и комплексной реабилитации // Вест. РАМН, 2013,Т.11,с.38-48.

4. Куренков, А.Л., Батышева, Т.Т., Виноградов, А.В., Зюзяева, Е.К. Спастичность при детском церебральном параличе: диагностика и стратегии лечения // Журнал неврологии и психиатрии, 2012, №2, с.24-28.

5. Клочкова О.А., Куренков А.Л., Каримова Х.М. и др. Многоуровневые инъекции ботулинического токсина типа А (Абоботулотоксина) при лечении спастических форм детского церебрального паралича: ретроспективное исследование опыта 8 российских центров // Педиатрическая фармакология, 2016, v.13(3), с.259-269.

6. Куренков А.Л., Клочкова О.А., Змановская В.А. и др. Первый Российский консенсус по применению многоуровневых инъекций Abobotulinumtoxin A при лечении спастических форм детского церебрального паралича // Журнал неврологии и психиатрии, 2016, №11(116), с.98- 107.

7. Delgado M.R., Hirtz D., Aisen M. et al. Quality Standards Subcommittee of the American Academy of Neurology and the Practice Committee of the Child Neurology Society. Practice parameter: pharmacologic treatment of spasticity in children and adolescents with cerebral palsy (an evidence-based review) // Neurology, 2010, v.74(4), p.336-43.

8. Heinen F., Desloovere K., Schroeder A.S. et al. The updated European Consensus 2009 on the use of Botulinum toxin for children with cerebral palsy // Eur J Paediatr Neurol., 2010, v.14, p.45-66

9. Kapitanovic Vidak H., Catela Ivkovic T., Jokie M. et al. The association between inherited proinflammatory cytokine polymorphisms and cerebral palsy in very preterm infants // Cytokine, 2012, v.58, p.57-64.

10.Abousamra O., Rogers K.J., Bayhan I.A., Church C. et al. Longterm Outcome of Internal tibial Derotation Osteotomies in Children with Cerebral Palsy // J.Pediatr Orthop., 2015, v.21

11.Dan B., Mayston M., Paneth N. Rosenbloom L. Cerebral palsy. Sciene and clinical practice. London. Mac Keith Press, 2014, 1692 p.

12.Novak I., Mclntyre S., Morgan C. et al. systematic review of interventions for children with cerebral palsy ;state of the evidence // Dev.Med.Child Neurol., 2013, v.55(10), p.885-910

13.Wu D., Zou Y.F., xu X.Y. et al.The association of genetic polymorphisms with cerebral palsy. A meta-analysis // Dev.Med.Child. Neurol., 2011, v.53, p.217-25

14.Heinen F., Desloovere K., Schroeder A.S. et al. The updated European Consensus 2009 on the use of Botulinum toxin for children with cerebral palsy // Eur J Paediatr Neurol., 2010, v.14, p.45-66

15.Клочкова О.А., Куренков А.Л., Намазова-Баранова Л.С. и др. Общее моторное развитие и формирование функции рук у пациентов со спастическими формами детского церебрального паралича на фоне ботулинотерапии и комплексной реабилитации // Вестн РАМН., 2013, №11,с.38-48

16.Баранов А.А., Намазова-Баранова Л.С., Куренков А.Л. и др. Комплексная оценка двигательных функций у пациентов с детским церебральным параличом: учеб.-метод. пособие. М.: Педиатр, 2014, 84 с.

17. Кохен М.Э., Даффнер П. Детская неврология / пер. с англ. Т.И. Хайбуллина / под ред. А.С. Петрухина. М.: ГЭОТАР-Медиа, 2010, 352с

18.Neurotropic viruses and cerebral palsy: population based case-control study / Gibson C.S., MacLennan A H., Goldwater P.N. et al. South Australian Cerebral Palsy Research Group // BMJ, 2006, v.332, p.76-80

19.Hashimoto K. Correlation between neuroimaging and neurological outcome in periventricular leukomalacia: diagnostic criteria // Pediatr. Int., 2011, v.43, №3, p.240-245.

Xülasə

Uşaq Serebral iflicə genetik meyl

E.M. Ağayeva, C.X. Talıbova, M.S. Novruzova, S.F.Qurbanova

Məqalədə uşaq serebral iflic xəstəliyinə genetik meyllilik haqqında bəhs edir. Uşaq serebral iflic polietioloji sindromlar toplusundan ibarət xəstəlikdir. O, mərkəzi sinir sisteminin müxtəlif faktorların perinatal dövründə təsiri nəticəsində meydana gəlir. Ayrı-ayrı genlərin polimorf variantları xəstəliyin əmələ gəlməsinə şərait yarada bilər.

Summary

Genetic predisposition to cerebral palsy.

E.M.Agayeva, J.K. Talıbova, M.S. Novruzova, S.F.Qurbanova

This review is concentrated on examination of genetic predisposition to cerebral palsy. Cerebral palsy is a complex system at the perinatal period. The polymorphic variants of particular genes may play the role of risk factors for cerebral palsy.

Daxil olub: 19.06.2019

Sümük şişlərinin maqnit-rezonans tomoqrafik semiotikası

A.R. Hüseynova

Naxçıvan Muxtar Respublika Xəstəxanası, şüa diaqnostikası şöbəsi, Naxçıvan

Açar sözlər: sümük şişləri, maqnit-rezonans tomoqrafiya

Ключевые слова: опухоли костей, магнитно-резонансная томография

Keywords: bone tumors, magnetic resonance imaging

Şişlərin ümumi strukturunda birincili sümük şişlərinin payı aşağı rəqəmlərlə xarakterizə edilib, cəmi 1,5-2% təşkil edir. Bununla yanaşı, son illər bu patologiyaların sayında artmağa doğru meyllilik müşahidə edilir. Bədxassəli şişlər arasında sümük sarkomalarının xüsusi çəkisi 1-2% təşkil edir. Sümüklərin birincili bədxassəli şişləri ilə xəstələnmə hər 100.000 nəfərə orta hesabla kişilərdə - 1,0, qadınlarda - 0,6-0,7 təşkil edir [1,2]. Azərbaycanda da sümük sarkomaları ilə xəstələnmə səviyyəsi nisbətən aşağıdır [3,4]. Sümük şişlərinə nisbətən az rast gəlinsə də, bu patologiyalar diaqnostika nöqteyi-nəzərdən klinik onkologiyanın mühüm və çətin sahələrindəndir və xəstəliyin başlanğıc mərhələsində 60-85% hallarda diaqnostik səhvə yol verilir. Bu vəziyyəti şərtləndirən səbəblərdən biri sümük şişlərinin klinik, rentgenoloji və morfoloji əlamətlərinin çoxmüxtəlifliyidir [1,2]. Bununla əlaqədar sümük şişlərinin diaqnostikası böyük aktuallıq kəsb edən məsələdir.

Sümük şişlərinin diaqnostikasında şüa diaqnostikası üsullarından geniş istifadə edildiyindən, bu istiqamət prioritet istiqamət kimi diqqət mərkəzindədir. Aparılan tədqiqatlar MRT müayinəsinin osteogen sarkomanın diaqnostikasında müvafiq əlamətləri təsvir etməyə imkan verdiyini göstərmişdir [5,6].

Tədqiqatın məqsədi. Hazırkı tədqiqatın məqsədi sümük şişlərinin bəzi histoloji tiplərinin maqnit-rezonans tomoqrafik semiotikasının tədqiqindən ibarət olmuşdur.

Tədqiqatın material və metodları. Hazırkı tədqiqata Azərbaycan Tibb Universitetinin Onkoloji klinikasında və Naxçıvan Muxtar Respublika Xəstəxanasının şüa diaqnostikası şöbəsində diaqnostikasında şüa diaqnostikası metodları tətbiq edilən osteogen sarkoma və parostal osteosarkomalı 23 xəstə, nəhənghüceyrəli şiş olan 16 xəstə və sümük iliyinin bədxassəli şişləri (Yuinq sarkoması, PNET, sümüyün bədxassəli limfoması) olan 14 xəstə daxil edilmişdir. Tədqiqat həm retrospektiv, həm də prospektiv aparılmışdır.

MRT müayinələri "Philips Achieva 1,5 Tesla" və "Philips İngenia 1,5 Tesla" cihazları ilə həyata keçirilmişdir. MRT müayinəsində şişin yerləşdiyi lokalizasiyanın aksial, koronal, sagittal T1, T2, STIR, PD rejimləri kontrastlı və kontrastsız tətbiq edilmişdir.

Statistik təhlil χ^2-Pirsonun tetraxorik və polixorik əlaqə göstəricilərinin analizi ilə aparılmışdır [7]. Hesablamalar MS EXCEL-2013 elektron cədvəlində və SPSS-20 proqram paketində aparılmışdır.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Tədqiqata osteogen sarkoma və parostal osteosarkoma aşkarlanan 23 xəstə daxil edilmişdir. Onlardan 13-ü (56,5%) kişi, 10-u (43,5%) qadın olmuşdur. Xəstələrin yaşı 6 ilə 56 arasında tərəddüd etmiş, orta yaş göstəricisi 26,8±2,9 olmuşdur.

Şiş sagital səthə münasibətə görə 12 xəstədə (52,2±10,4%) sağda, 10 xəstədə (43,5±10,3%) solda, 1 xəstədə (4,3±4,3%) ortada yerləşmişdir.

Törəmə əksərən borulu sümüklərdə (95,7±4,3%), xüsusən bud sümüyündə (47,8±10,4%) lokalizə olunmuşdur.

Xəstələrin 7-də MRT (30,4±9,6%) aparılmış, lakin heç birində kontrastlı müayinə aparılmamışdır.

Ocaqlar xəstələrin hamısında təksaylı, kələ-kötür konturlu və qeyri-düzgün formada olmuşdur. Lakin, dəqiq və qeyri-dəqiq olaraq bölgü apardıqda fərq izlənilmişdir. Belə ki, törəmənin konturu 42,9% halda qeyri-dəqiq olmuşdur. Törəmənin strukturunun xəstələrin 85,7%-də heterogen olduğu müşahidə

edilmişdir. MRT müayinəsinin müxtəlif rejimlərində siqnal intensivliyi aşağıdakı kimi olmuşdur: T1 rejimində 6 xəstədə (85,7%) hipo-, 1 xəstədə (14,3%) izointens olmaqla, T2 və proton sıxlıqlı piy saturasiyalı rejimdə xəstələrin hamısında (7 xəstə- 100%) hiperintens siqnal əldə edilmişdir.

Xəstələrin 42,9%-də kortikal qatın; 57,1%-də sümük iliyinin dəyişikliksiz olduğu aşkarlanmışdır. Bədxassəliliyin əlamətlərindən olan periostal reaksiya bütün xəstələrdə izlənilmişdir. Bu nəticə MRT-nin periostal reksiyaları aşkarlanmasındakı həssaslığının yüksək olduğunu göstərir. Xəstələrin bir qismində patoloji sınığa rast gəlinmişdir (28,6%), həmçinin törəmənin qonşu oynağa (28,6%), damar sinir dəstəsinə (14,3%) invaziyası və regionar limfa düyünlərinin prosesə cəlb edilmə dərəcəsi (14,3%) təyin edilmişdir.

Tədqiqata daxil edilən nəhənghüceyrəli şişli xəstələrin sayı 16 nəfər təşkil etmişdir. Onlardan 9-u (56,3%) kişi, 7-si (43,8%) qadın olmuşdur. Xəstələrin yaşı 16 ilə 66 arasında tərəddüd etmiş, orta yaş göstəricisi 34,6 ± 4,5 olmuşdur.

Şişin sol tərəfdə yerləşməsi (62,5±12,1%) sağa (37,5±12,1%) nisbətən üstünlük təşkil etmişdir.

Törəmə əksərən borulu sümüklərdə (93,8±6,1%), xüsusən bud sümüyündə (43,8±12,4%) lokalizə olunmuşdur.

Xəstələrdən 9-da MRT (56,3±12,4%) aparılmış və bunlardan 2-də (22,2%) kontrastlı müayinə (1-də homogen (11,1±10,5%), 1-də isə heterogen (11,1±10,5%) kontrastlaşma) aparılmışdır.

Ocaqlar xəstələrdən hamısında təksaylı, 7-də (77,8±13,9%) kələ-kötür və 6-da (66,7±15,7%) dəqiq konturlu, 6-da (66,7±15,7%) qeyri-düzgün formada olmuşdur. Homogen və heterogen struktura rast gəlmə tezliyinə görə əhəmiyyətli fərq izlənilməmişdir (homogen – 55,6±16,6%, heterogen 44,4±16,6%). MRT müayinəsinin müxtəlif rejimlərində siqnal intensivliyi aşağıdakı kimi olmuşdur: T1 rejimində 9 xəstədə (100%) hipointens olmaqla, T2 və proton sıxlıqlı piy saturasiyalı rejimdə 2-də (22,2±13,9%) hipo-, 7-də (77,8±13,9%) hiperintens siqnal əldə edilmişdir.

Nəhənghüceyrəli şişlərin əksəriyyəti (68,8±11,6%) yukstokortikal, qalanı isə (31,3±11,6%) mərkəzi inkişaf xüsusiyyətinə malik olmuşdur ($p_{ost.s}$>0,01).

Xəstələrin 22,2±13,9%-də kortikal qatın; 55,6±16,6%-də sümük iliyinin dəyişikliksiz olduğu aşkarlanmışdır. Bədxassəliliyin əlamətlərindən olan periostal reaksiya heç bir xəstədə aşkar edilməmişdir. Xəstələrin yalnız 1-də patoloji sınığa rast gəlinmişdir (11,1±10,5%), həmçinin törəmənin qonşu oynağa invaziyasının 44,4±16,6% olduğu təyin edilmiş, damar-sinir dəstəsinə sirayət (22,2±13,9%) və regionar limfa düyünlərinin prosesə cəlb edilməsi (11,1±10,5%) az hallarda izlənilmişdir.

Tədqiqata daxil edilən sümük iliyinin bədxassəli şişləri (Yuinq sarkoması, PNET, sümüyün bədxassəli limfoması) aşkarlanan xəstələrin sayı 14 nəfər təşkil etmişdir. Onlardan 9-u (64,3%) kişi, 5-i (35,7%) qadın olmuşdur. Xəstələrin yaşı 5 ilə 49 arasında tərəddüd etmiş, orta yaş göstəricisi 21,2±3,5 olmuşdur. Orta yaş göstəricisinə görə nəhənghüceyrəli şiş ilə sümük iliyi şişləri arasında 38,6% statistik dürüst fərq izlənilmişdir (t=2,295, p<0,05).

Şişin sağ tərəfdə yerləşməsi (57,1±13,2%) sola (35,7±12,8%) nisbətən üstünlük təşkil etmiş, 1 xəstədə isə (7,1±6,9%) patoloji proses ortada aşkar edilmişdir.

Törəmə əksərən borulu sümüklərdə (64,3±12,8%) lokalizasiya olunmuşdur. Yerləşdiyi sümüyə görə bölgü aşağıdakı kimi olmuşdur:

5 xəstədə (35,7±12,8%) bud sümüyündə, 3 xəstədə (21,4±11%) çanaq sümüyündə, 3 xəstədə (21,4±11%) qamış sümüyündə, 1 xəstədə (7,1±6,9%) bazu sümüyündə, 1 xəstədə (7,1±6,9%) kürək sümüyündə, 1 xəstədə (7,1±6,9%) isə fəqərədə.

Törəmənin inkişaf mənbəyinə görə bölgüsündə mərkəzi şişlər kəskin üstünlük (92,9±6,9%) təşkil etmişdir. Bu xüsusiyyətinə görə sümük iliyi şişləri həm osteogen sarkomalarda (p<0,05), həm də nəhənghüceyrəli şişlərdən (p<0,001) fərqlənmişdir.

Xəstələrin 4-də MRT (28,6±12,1%) aparılmış, lakin heç birində kontrastlı müayinə aparılmamışdır.

Ocaqlar xəstələrin 3-də (75±21,7%) təksaylı, hamısında kələ-kötür və qeyri-dəqiq konturlu, qeyri-düzgün formada olmuşdur. Törəmənin strukturunun xəstələrin 75±21,7%-də heterogen olduğu müşahidə edilmişdir. MRT müayinəsinin müxtəlif rejimlərində siqnal intensivliyi aşağıdakı kimi olmuşdur:

Xəstələrin hamısında T1 rejimində hipo-, T2 və proton sıxlıqlı rejimlərdə hiperintens siqnal əldə edilmişdir. MRT-də xüsusən yağ saturasiyalı T2 rejimində kütlənin sümük iliyi boşluğuna və ətraf yumşaq toxumaya uzanması görünmüşdür.

Xəstələrin 75±21,7%-də kortikal qatda; 50±25%-də sümük iliyində dəyişiklik, 50±25%-də patoloji sınıq izlənilmişdir. Bədxassəliliyin əlamətlərindən olan periostal reaksiya bütün xəstələrdə izlənilmişdir (bunlardan 2-də laylanan periostit, 2-də isə Kodman üçbucağı). Bu əlamətə görə nəhənghüceyrəli şiş ilə həm osteogen sarkoma (p<0,001), həm də sümük iliyi şişləri (p<0,01) arasında statistik dürüst fərq

müşahidə olunmuşdur. Xəstələrin 75±21,7%-də regionar limfa düyünlərinin prosesə cəlb edilməsi aşkarlanmışdır (cədvəl 1 və şəkil 1).

Cədvəl 1
Sümüyün mütəlif histoloji formalı bədxassəli şişlərinin MRT semiotikasının müqayisəli xarakteristikası

Əlamətlərin xarakteristikası		Əlamətlərin aşkarlanma tezliyi (mütləq say və faizlə)			
		Osteogen sarkoma və parostal osteosarkoma	Nəhəng hüceyrəli şiş	Sümük iliyinin bədxassəli şişləri	χ2; p
Şiş ocaqların sayı	Təksaylı	7(100%)	9(100%)	3(75%)	χ2=4,211 p=0,122
	Çoxsaylı	-	-	1(25%)	
Şişin forması	Oval və ya girdə	-	3(33,3%)	-	χ2=4,314 p=0,116
	Qeyri-düzgün	7 100%	6(66,7%)	4(100%)	
Şişin konturu	Hamar	-	2(22,2%	-	χ2=2,716 p=0,257
	Kələ-kötür	7(100%)	7(77,8%)	4(100%)	
Şişin sərhəddi	Dəqiq	4(57,1%)	3(33,3%)	-	χ2=3,673 p=0,159
	Qeyri-dəqiq	3(42,9%)	6(66,7%)	4(100%)	
Şişin strukturu (T2 Siqnal İntensivliyi)	Homogen	1(14,3%)	5(55,6%)	1(25%)	χ2=3,168 p=0,205
	Heterogen	6(85,7%)	4(44,4%)	3(75%)	
Kortikal qatda dəyişiklik		4(57,1%)	7(77,8%)	3(75%)	χ2=14,48 p=0,070
Sümük iliyində dəyişiklik		3(42,9%)	4(44,4%)	2(50%)	χ2=0,055 p=0,973
Periostal reaksiya		7(100%)	-	4(100%)	χ2=20,0 p<0,001
Patoloji sınıq		2(28,6%)	1(11,1%)	2(50%)	χ2=2,307 p=0,316
Qonşu oynağa invaziya		2(28,6%)	4(44,4%)	-	χ2=2,615 p=0,271
Damar-sinir dəstəsinin kompressiyası		1(14,3%)	2(22,2%)	-	χ2=1,077 p=0,584
Regionar limfa düyünlərinin böyüməsi		1(14,3%)	1(11,1%)	3(75%)	χ2=6,688 p=0,035

Aşağıda tədqiqata daxil edilən və diaqnostikasında MRT tətbiq edilən sümük sarkoması aşkarlanmış xəstə nümunələri təqdim edilmişdir.

Xəstə M.E., 25 yaşlı, kişi cinsli xəstə, cüzi xarakterli, gecələr artan, hərəkətdə baş verən ağrı və əllənən şiş şikayəti ilə klinikaya müraciət etmişdir. Müayinə zamanı 130 mm ölçülü, bərk konsistensiyalı, nahamar səthli, qeyri-aydın konturlu, hərəkətsiz, ağrısız şiş müəyyən edilmişdir.

MRT müayinəsində koronal STIR, aksial T2 və saggital T1, PdFs rejimlərində bir sıra şəkillər əldə edilmişdir. Sol bazu nahiyəsinin MRT müayinəsi zamanı aşağıdakı mənzərə aşkar edilmişdir (şəkil 2):

Sol bazu sümüyün diafizinin orta, proksimal $^1/_3$-hissəsində, metadiafizdə yerləşərək, cüzi dərəcədə epifizə yayılan, postkontrast kəsiklər də aktiv heterogen kontrast tutan, proksimal diafiz nahiyəsində mülayim dərəcədə yerdəyişməyə səbəb patoloji sınığı olan, ətraf əzələlərə və yumşaq toxumalara yayılan, patoloji yumşaq toxuma komponentləri ilə patoloji törəmə izlənilmişdir. T2-frontal-səthdə törəmənin ölçüləri 14,9x7,9sm olaraq təyin edilmişdir. Bazu sümüyünün proksimal və orta $^1/_3$ hissələrində sümük iliyində patoloji kontrastlaşma izlənilmişdir.



Şək. 1. Sümüyün mütəlif histoloji formalı bədxassəli şişlərinin MRT semiotikasının müqayisəli xarakteristikası



Şək 2. Xəstə M.E. Müxtəlif rejimlərdə MRT şəkli: a) T2 koronal kəsik; b) T1koronal kəsik; c) T2 aksial kəsik; d) T1 aksial kəsik

Xəstə N.M., 22 yaşlı, kişi cinsli xəstə, sağ dizində ağrı şikayəti ilə klinikaya müraciət etmişdir. Xəstə 1 il əvvəl ön xaçabənzər bağın rekonstruksiya əməliyyatı keçirdiyini bildirmişdir.

Qoltuqaltı magistral damarlar törəməyə söykənmiş, lakin invaziya görünməmişdir. Qoltuqaltı nahiyədə ən böyüyün 1,4sm olan limfa düyünü, həmçinin patoloji kütlədən medialda, bazunun medial damar-sinir dəstəsinin qonşuluğunda kiçik ölçülü patoloji bir neçə ədəd izlənmişdir. Bazunun proksimal orta və az dərəcədə distal $^{1}/_{3}$-nin əzələlərarası sahələrində ödemi sahələr, bazu oynağı daxilində mülayim dərəcədə effuziya artışı təyin edilmişdir. MRT mənzərəyə əsasən sol bazu sümüyün osteosarkoması diaqnozu ehtimal edilmişdir.

Histoloji olaraq sağ bud sümüyünün osteogen sarkoması diaqnozu qoyulmuşdur.

MRT müayinəsində koronal T1 və STIR, aksial T2, T1 STIR, sagittal T1, STIR rejimlərində bir sıra şəkillər əldə edilmişdir. Sağ diz oynağının MRT müayinəsi zamanı aşağıdakı mənzərə aşkar edilmişdir (şəkil 3): T1 rejimində hipointens törəmə, şişin sümük daxilinə və xaricinə doğru böyüməsi, kortikal qatın dağılması izlənilmişdirir. Yağ saturasiyalı T2 rejimində koronal kəsikdə sümük iliyi boşluğunda və yumşaq toxuma kütləsində heterogen, hiperintens kütlə görünmüş, aksial kəsikdə isə intramedulyar törəmə və kortikal qata uzanan kütlə müşahidə olunmuşdur. Histoloji olaraq Yuinq sarkoması diaqnozu qoyulmuşdur.



a) b) c)

Şək.3. Xəstə N.M.Sağ diz oynağının müxtəlif rejimlərdə MRT şəkilləri: a) T1 rejimi koronal kəsikdə; b) koronal kəsikdə yağ saturasiyalı T2 rejimində; c) aksial kəsikdə yağ saturasiyalı T2 rejimində



a) b)

Şək.4. Xəstə N.N.Sol diz oynağının müxtəlif rejimlərdə MRT şəkilləri: a) koronal kəsikdə T1 rejimində; b) koronal kəsikdə T2 rejimində

Xəstə N.N., 43 yaşlı, kişi cinsli xəstə, sol dizində hərəkət etdikdə artan və lokal ağrı və yerli şişkinlik şikayəti ilə klinikaya müraciət etmişdir. Sol diz oynağının MRT müayinəsində T1 rejimində aşağı və orta

siqnal intensivlikli, T2 rejimində yüksək siqnal intensivlikli törəmə izlənilmişdir (şək. 4). Histoloji olaraq nəhənghüceyrəli şiş diaqnozu qoyulmuşdur.

ƏDƏBİYYAT

1. 1Əmiraslanov Ə.T., Qazıyev A.Y. Sümük şişləri. Bakı, "Təbib", "Azərbaycan Ensiklopediyası" NPB, 1997, 480 səh.
2. 5Зацепин С.Т. Костная патология взрослых: Рук-во для врачей. М.:Медицина, 2001,640 с.
3. 2Qazıyev A.Y. Azərbaycanda bədxassəli şişlərin epidemiologiyası, tibbi, demoqrafik və sosial-iqtisadi aspektləri: Tibb elmləri dokt.... dissertasiya, Bakı, 2005, 412 s.
4. 6Зейналлы Д.А. Саркомы костей и мягких тканей в Азербайджанской Республике в 2018 году // Azərbaycan Onkologiya Jurnalı, 2019, №1, s.140-142
5. 3Hüseynova A.R., Qazıyev A.Y. Osteogen sarkomanın kompleks şüa diaqnostikasında maqnit-rezonans tomoqrafiyanın tətbiqi / Bakı Dövlət Universiteti nəzdnində tibb fakultəsinin yaradılmasının 100illik yubileyinə həsr edilmiş "Təbabətin aktual problemləri 2019" beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 18-19 aprel, 2019, s. 93
6. 4Гуницева Н.В., Ахадов Т.А, Шубкин В.Н. Магнитно-резонансная томография в диагностике остеогенной саркомы у подростков / Вопросы Современной педиатрии, 2008, Т.7, №2, с.146-147
7. 7Петри А., Сэбин К. Наглядная статистика в медицине / Пер. с анг. В.П. Леонова. М.: ГЭОТАР-МЕД, 2009, 168 с.

Резюме

Магнитно-резонансно томографическая семиотика опухолей костей

А.Р. Гусейнова

Целью настоящего исследования явилось изучение МРТ семиотики некоторых нозологических форм костных опухолей. В исследование были включены 23 больных с остеогенной саркомой и паростальной остеосаркомой, 16 больных с гигантоклеточной опухолью и 14 больных с костномозговыми опухолями (саркома Юинга, ПНЭТ, злокачественная лимфома кости), в диагностике которых применялись лучевые методы диагностики. У 7-и (30,4±9,6%) больных с остеогенной саркомой и паростальной остеосаркомой, у 9-ти (56,3±12,4%) больных с гигантоклеточной опухолью и у 4 (28,6±12,1%) больных со злокачественными опухолями костного мозга было проведено МРТ исследование. При МРТ исследовании изучены такие признаки как количество опухолевых очагов, форма, контуры, структура (по интенсивности Т2 сигнала) опухоли, изменения в кортикальном слое, изменения в костном мозге, периостальная реакция, патологический перелом, инвазия в соседний сустав, компрессия сосудисто-нервного пучка, увеличение регионарных лимфатических узлов, а также дана характеристика частоты выявления указанных признаков.

Summary

Magnetic resonance imaging semioticson bone tumors

A.R. Huseynova

The purpose of the present study was to investigate the magnetic resonance semiotics of nosological forms of bone tumors. The study included 23 patients with osteogenic sarcoma and parostal osteosarcoma, 16 patients with giantcell tumors, and 14 patients üith bone marrow malignant tumors (Ewing's sarcoma, PNET, bone marrow lymphoma) where all of patients investigated with radiologic diagnostic methods In 7 (30,4±9,6%) patients with osteogenic sarcoma and parostal osteosarcoma, 9 (56,3±12,4%) of patients with giantcell tumors and 4 of patients with malignant tumors of bone marrow (28,6±12,1%) MRI examination was performed. The study examined the number of tumor sites with MRT examination, tumor shape, contour, border, tumor structure (T2 signal intensity), cortical changes, bone marrow change, periostal reaction, pathological fracture, invasion to the neighborn joint, vascular-nervous set compression, regional lymph node growth symptoms and the frequency of detection of these symptoms is given.

Daxil olub: 12.06.2019

Şəkərli diabet xəstəliyi zamanı miokardda, ürəyin sinir aparatında və tac damarlarda meydana çıxan patomorfoloji dəyişikliklər

M.B. Əliyev, R.P. Həsənov, T.N. Mirzəyeva, E.Ç.Əkbərov
Azərbaycan Tibb Universiteti, Patoloji anatomiya kafedrası, Bakı

Açar sözlər: II tip şəkərli diabet, mikro-və makroangiopatiya, neyropatiya
Ключевые слова: сахарный диабет II типа, микро-и макроангиопатия, нейропатия
Keywords: type II diabetes mellitus, micro-and macroangiopathy, neuropathy

XXI əsrdə artan sürətlə inkişaf edən xəstəliklərdən biri də yüksək ölüm faizinə və ağırlaşma tezliyinə malik olan II tip şəkərli diabetdir. II tip şəkırli diabet bu nazoloji qrupun 80-90%-ni təşkil edir [1]. Orqanizmdə karbohidrat, piy və zülal mübadiləsinin pozulması ilə müşayiət olunan bu xəstəlik deməkolar ki, bütün orqan və toxumalarda dərin morfofunksional dəyişikliklər törədir. Mikro-və makroangiopatik ağırlaşmalar xəstələrin erkən əlilliyinə və ölümünə səbəb olur [2,3].

II tip şəkıərli diabet xəstəliyi olan şəxslərin 60%-dən çoxunun yaşam müddəti ürəyin işçemik xəstəliyinin (ÜİX) erkən inkişafı ilə əlaqədar olaraq qısalır [4].

Şəkərli diabet xəstələrinin sayının durmadan artması və onların əksəriyyətinin bu xəstəliyin ağırlaşmalarından – xüsusilə də tac damarların aterosklerozundan dünyasını dəyişməsi şəkərli diabeti ictimai səhiyyənin aktual problərindən biri etmişdir [5,6].

Beləliklə, II tip şəkıərli diabet zamanı miokardın, tac damarlarının və ürəyin keçirici sisteminin morfo-funksional vəziyyətinin, histo-və ultrastruktur xüsusiyyətlərinin öyrənilməsi ürək-damar xəstəliklərinin risk faktorlarının qiymətləndirilməsi, proqnozu və vaxtında diaqnostikası üçün mühüm əhəmiyyət kəsb edir.

Tədqiqatın məqsədi II tip şəkərli diabet zamanı meydana çıxan dəyişikliklərin öyrənilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqat obyekti kimi II tip şəkərli diabet xəstəliyindən ölmüş 15 nəfərin (50-70 yaş) ürək əzələsi və tac damarlarından götürülmüş materiallardan istifadə olmuşdur. Bu materiallar 12%-li neytral formalin məhlulunda fiksasiya edilmiş və bloklar hazırlanmışdır. Bloklardan kəsiklər hazırlanaraq bir qismi Bilşovski-Qross, digər qismi isə hematoksillin-eozin, Van-Gizon metodu ilə pikrofuksinlə boyanmışdır.

Histokimyəvi müayinə üçün materiallar 2 saat müddətində şəkərli diabetdən ölmüş şəxslər autopsiya edilərək götürülmüşdür. Falk-Ovman metodu ilə 2%-li qlioksil turşusundan istifadə etməklə adrenergik sinirlər, Kornovski-Ruts metodu ilə xolinergik sinirləş aşkar edilmişdir.

Əldə edilmiş nəticələr və onların müzakirəsi. Hematoksillin və eozinlə boyanmış preparatların mikroskopik müayinəsi zamanı ürəyin tac damarları və onların şaxələrində ateroskleroz prosesinin olduğu aşkar edilir. Tac arteriyaların köndələn kəsiklərində sklerotik düyünlərin damar mənfəzini daha çox tutduğu müəyyən edilir. Damar ətrafında və əzələlərarası sahələrdə az miqdarda birləşdiricin toxuma elementlərinin meydana çıxması pikrofuksinlə boyanmış preparatlarda daha aydın nəzərə çarpır. Ürəkdə birləşdirici toxumanın əmələgəlmə intensivliyi tac damarlarda aterosklerotik prosesin inkişafına müvafiq gəlir. Tac damarlar aterosklerotik prosesə daha çox cəlb olnduqda buna müvafiq olaraq aterosklerotik kardioskleroz daha geniş sahəni əhatə edir. Sklerotik ocaqlar daha çox sol mədəciyin divarında müşahidə edildiyi üçün funksional yarıtmazlığı aradan qaldırmaq sol mədəcik miokardının hipertrofiyası bir müddət orqanın qan dövranı çatışmazlığını kompensasiya edir.

Diabetli xəstələrdə tac arteriyaların aterosklerozu nəticəsində meydana çıxan miokardın infarktı digər mənşəli infarktlara nisbətən daha çox olub, yüksək ölüm faiz təşkil edir. Qeyd etmək lazımdır ki, I və II tip diabet xəstəliyinin patogenezi fərqli olsa da, qan damarlarında, daxili orqanlarda və sinir sistemində törətdiyi morfoloji dəyişikliklər eyni şəkildə özünü göstərir.

Şəkərli diabet xəstəliyinin ən çox morfoloji dəyişikliklər törətdiyi sistemlərdən biri də mikrosirkulyator damar sistemidir. Dəyişikliklər özünü kiçik diametrli damarların bazal membranının diffuz qalınlaşması şəklində büruzə verir.

Diabetik mikroangiopatiyanın nəticəsi olaraq, ürəyin kapillyar sistemində dəyişikliklər baş verir ki, bu da öz növbəsində ürək əzələsinin qidalanmasının pozulması ilə nəticələnir. Mikrosirkulyator damarlar ürəkdə yerləşən mikroqanqlionları və sinir dəstələrini lazımi səviyyədə qidalandıra bilmədiyi üçün, ürəyin keçirici sistemində də pozğunluqlar meydana çıxır.

Ürəyin sinir aparatında baş verən distrofik dəyişikliklər çox vaxt sinir toxumasının regenerasiyası ilə müşayiət olunur. Bu zaman sinir hüceyrələrinin çıxıntılarının sayı artır və çıxıntıların üzərində çoxlu miqdarda sinaptik uclar inkişaf edir. Eyni zamanda sinir kələfləri daxilində çoxnüvəli sinir hüceyrələrinin sayı artır. Ürəkdə olan qanqlionlarda ikinüvəli sinir hüceyrələri olsa da onların bölünməsi halına təsadüf

edilmir. Sinir liflərində regenerasiya prosesini özündə əks etdirən əlamət kimi, bu liflərin ikiyə bölünərək son hissələrində kürəşəkilli və kolbasaşəkilli qalınlaşmaları göstərmək olar.

Qeyd etmək lazımdır ki, ürəyin uzun müddət funksional gərginlik vəziyyətində olan sinir elementlərində distrofik dəyişikliklər olur. Şəkərli diabet xəstəliyi zamanı bu dəyişikliklərin neyrohistoloji metodun köməyi ilə öyrənilməsi sinir hüceyrələrində və liflərində də distrofiya əlamətlərinin olduğunu göstərir (şək.1). Eyni prosesin histokimyəvi metodla tədqiqi isə bəzi preparatlarda neyromediatorların artdığını (şək.2,3), digər preparatlarda isə azaldığını göstərir.



Şək.1. Miokardda hiperargentofil çoxçıxıntılı qanqlioz sinir hüceyrəsi (digər neyronlar distrofiyaya uğramışdır). Şəkərli diabet xəstəliyi. Bilşovski-Qross üsulu. Böyütmə x400.

Sinir hüceyrələrində və liflərində baş verən biokimyəvi dəyişikliklər əksər hallarda geridönən prosesdir. Ürəyin sinir aparatında mübadilə prosesləri nəticəsində meydana çıxan distrofik dəyişikliklər, onu törədən səbəb aradan qaldırıldıqda geri dönür. Bu növ distrofik dəyişikliyə sinir hüceyrələrinin argentofiliyası, mielin qişasının hissəvi zədələnməsi, sinaptik ucların müxtəlif dəyişiklikləri aiddir. Distrofik dəyişikliyin sonuncu fazası sinir hüceyrələrində nekrobiotik və nekrotik dəyişiklikləri xarakterizə edən morfoloji əlamətlərlə özünü büruzə verir. Nüvədə piknoz, reksis və lizis əlamətləri meydana çıxır. Neyronların çıxıntılarında qalınlaşma, homogenləşmə və fraqmentasiya nəzərə çarpır.



Şək.2. Kardiomiositlər arası sahələrdə xolinergik sinir liflərində asetilxolinesteraza fermenti aktivliyinin artması. Şəkərli diabet xəstəliyi. Kornovski-Ruts üsulu, ob.20, ok.10.



Şək.3. Şəkərli diabet xəstəliyi zamanı ürək əzələsi lifləri arasında adrenergic sinir liflərinin yüksək lüminesensiyası. 2%-li qlioksil turşusu ilə inkubasiya. Ob.40, ok. qomel 3.

Ürək əzələsində bir çox sinir elementləri aşkar edilir ki, bunlara sinir qanqlionları, mielinsiz adrenergik və xolinergik sinir lifləri aiddir. Sinir lifləri daha sıx ürəyin sağ qulaqcığı və keçirici sistemində mövcuddur. Ürək əzələ toxuması arasında yerləşən mikroqanqlionlar içərisində xüsusi hüceyrələrə - intensiv flüorosensiya edən kiçik hüceyrələrə rast gəlinir. Bu hüceyrələrdə adrenergik və xolinergik sinir ucları aşkar edilir. Qanqlionlar yerləşən bu hüceyrələr hazırladıqları neyromediatorları ürəkdə olan qan damarlarına ötürür (şək.4).

Şək.4. Şəkərli diabet xəstəliyi zamanı ürək toxumasında intensiv liminesensiya edən adrenergik sinir hüceyrəsi. 2%-li qlioksil turşusu ilə inkubasiya. Ob.40, ok.qomel 3

Şəkərli diabet xəstəliyi zamanı apardığımız morfoloji tədqiqat belə nəticəyə gəlməyə əsas verir ki, miokardda makro-və mikroangiopatiyalar nəticəsində kardiosklerotik ocaqlar meydana çıxır. Intakt kardiomiositlər kompensator olaraq hipertrofiyaya uğrayır və funksional çatmamazlığı bir müddət kompensasiya edir.

Ürəyin sinir kələflərinin, qanqlionlarının və sinir dəstələrinin normal morfoloji strkturlarından kənara çıxmış mikrosirkulyator damarlarla keyfiyyətsiz qidalandırılması urəyin funksional pozğunluğu ilə nəticələnir. Ürəyin adrenergik və xolinergik sinir aparatında neyromediatorların səviyyəsi patoloji prosesin gedişindən asılı olaraq dəyişir.

ƏDƏBİYYAT

1. Dedov I.I. et al. Type 2 diabetes and metabolic syndrome: identification of the molecular mechanisms, key signaling pathways and transcription factors aimed to reveal new therapeutical targets //J. Diabetes Mellitus, 2018**,** том 21, № 5, с. 364-375

2. Соколов Е.И.Диабетическое сердце. М.: Медицина, 2002, 416 с.

3. Dimitropoulos G., Tahrani A.A., Stevens M.J. Cardiac autonomic neuropathy in patients with diabetes mellitus // World J. Diabetes, 2014, v.5, p.17-39.

4. Обрезан А.Г., Бицадзе Р.М. Структура сердечно-сосудистых заболеваний у больных сахарным диабетом 2 типа, диабетическая кардиомиопатия как особое состояние миокарда // Вестник Санкт-Петербургского Университета, 2008, серия 11, выпуск 2, с.47-53.

5. Голухова Е.З., Мустафаева А.З. Влияние сахарного диабета II типа на диастолическую функцию миокарда левого желудочка у больных с ишемической болезнью сердца // Креативная кардиология, 2013, №7(2), с.46-52.

6. Ворожцова И.Н., Будникова О.В., Афанасьев С.А., Кондратьева Д.С. Влияние сахарного диабета 2-го типа на миокард пациентов с ишемической болезнью сердца // Сибирский медицинский журнал. 2018, №33(1), с.14-20

Резюме

Патоморфологические изменения, возникающие в миокарде, нервном аппарате сердца и венечных сосудах при сахарном диабете

М.Б. Алиев, Р.П. Гасанов, Т.Н. Мирзоева, Э.Ч.Акбаров

Объектом исследования были материалы, взятые из сердечной мышцы и венечных сосудов полученные от трупов 15 лиц (50-70 лет), умерших от различных осложнений сахарного диабета. Эти материалы были фиксированы в 12% растворе нейтрального формалина и изготовлены блоки, из которых получены срезы и окрашены методом Бильшовского-Гросса, гематоксиллином-эозином и методом Ван-Гизона-пикрофуксином. Гистохимически адренергические нервы были выявлены с использованием 2% глиоксильовой кислоты методом Falk-Ovman, холинергические нервы методом Корновского-Рутс. В сердце происходит более обширные очаги кардиосклероза в связи с диабетическими макро-и микроангиопатиями. Нейропатия, возникающая в нервном аппарате сердца, также влияет на его проводящую систему, морфологическим эквивалентом этого является изменения уровня нейромедиаторов.

Summary

Pathomorphological changes occurring in the myocardium, nervous system of the heart and coronary vessels in diabetes mellitus

M.B. Aliyev, R.P. Qasanov, T.N. Mirzayeva, E.Ch.Akbarov

The object of the investigation were materials taken from the heart muscle and coronary vessels obtained from the corpses of 15 persons (50-70 years) who died from various complications of diabetes mellitus. These materials were fixed in 12% neutral formalin solution and made the blocks from which received section and stained by the Bilshovsky-Gross method, hematoxylin and eosin and pikrofuksin by Van Giezon method. Histochemically, adrenergic nerves were detected using 2% glyoxylic acid by the method of Falk-Ovman, cholinergic nerves by Karnovsky-Roots method. There are more extensive foci of cardiosclerosis in the heart due to diabetic macro-and microangiopathies. Neuropathy that occurs in the nervous apparatus of the heart also affects its conductive system, morphological equivalent of which is the quantitative changes in the level of neurotransmitters.

Daxil olub: 27.06.2019

Mebel istehsalında əmək şəraitinin işçilərin həyat keyfiyyətinə və sağlamlıq vəziyyətinə təsiri

M.Y.Nəbiyeva, C.Y.Salihova
Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: əmək şəraiti, mebel istehsalı, anket sorğusu
Ключевые слова: условия труда, мебельное производство, анкетный опрос
Keywords: labor condition, funrniture production, questionnaire

Xalq təsərrüfatının istənilən müəssisənin müvəffəqiyyəti işçilərin sağlamlığı ilə birbaşa əlaqədardır. Ona görə də, ayrı-ayrı istehsalat sahələrində müxtəlif fiziki, kimyəvi və bioloji amillərlə, əmək prosesi ilə təmasda olan işçilərdə əmələ gələn xəstəliklərin qarşısının alınması və aradan qaldırılması gigiyenistlərin qarşısında duran mühüm problemlərdən biridir. Belə istehsalat sahələrindən biri olan mebel istehsalında çalışan işçilərin sağlamlığının qorunub saxlanılması bu gün də aktual olaraq qalmaqdadır.

Ölkəmizdə müasir mebel istehsalında yeni avadanlıqlarla yanaşı, köhnə avadanlıqlardan da istifadə olunur. Beləliklə də, ənənəvi texniki təminat və əməyin təşkili formaları hələ də saxlanılır. Yüksək istehsala malik olan maşın və dəzgahlar fiziki əməyi xeyli yüngülləşdirməsinə baxmayaraq, qeyd etmək lazımdır ki, hətta müasir avadanlıqların özləri də bəzi istehsalat amillərinin işçi orqanizminə təsirinə səbəb olur [1-4]. Bunlarla əlaqədar olaraq, bir çox tədqiqatlar mebel istehsalında kompleks işlərin əsas mərhələlərində işçilərin əmək şəraitinin gigiyenik tələblərə uyğun gəlmədiyini qeyd edirlər [5-7]. Bu da öz növbəsində xəstəliklərin artmasına, iş qabiliyyətinin azalmasına, istehsalat yorulmasının tez inkişaf etməsinə gətirib çıxarır [8,9].

Tədqiqatın məqsədi mebel istehsalında çalışan fəhlə və peşə sahiblərinin risk amillərini nəzərə alaraq anket sorğusu ilə həyat keyfiyyətinin və sağlamlıq vəziyyətinin öyrənilməsindən ibarətdir.

Tədqiqatın material və metodları. Müayinələr Sumqayıt şəhərində mebel istehsalı işçilərinin sağlamlıq vəziyyətini öyrənmək üçün anket sorğu üsulundan istifadə etməklə, 133 müxtəlif peşə sahiblərinə və 30 nəfər nəzarət qrupuna anket vərəqi paylanmışdır.

Tədqiqatın nəticələri və müzakirələr. Tədqiqat apardığımız mebel istehsalında çalışan peşə sahiblərinin iş şəraiti zərərli (intensiv səs-küy, vibrasiya, elektrostatik sahə, toz, şüalanma – konveyeksiya tipli qızdırıcı mikroiqlim, zəif işıqlanma, kimyəvi maddələrin yüksək konsentrasiyası ilə müştərək ağır fiziki iş və s.) və təhlükəli (mexaniki və elektrik vurma) amillərin təsirilə müşayiət olunur. Texnoloji proseslərin düzgün təşkil edilməməsi, müxtəlif istehsal sahəsinin (cilalama, bəzək vurma, laklama, yığma, frezerçi və s.) bir otaqda əlverişsiz yerləşdirilməsi səs-küyün, vibrasiyanın, toz, toksiki və təhlükəli zəhərli qazların və digər zərəli istehsalat mühiti amillərinin artmasına səbəb olur.

Cədvəl 1

Anket sorğusuna görə mebel istehsalında işçilərin sağlamlığının subyektiv qiymətləndirilməsi (%)

Suallar	Cavablar	Aparıcı peşələr				
		Bəzək vuran operatorlar n=23	Frezerçilər n=30	Lak çəkənlər n=27	Cilalayıcılar n=35	Yığıcılar n=18
Sağlamlıq vəziyyətinin qiymətləndirilməsi	yaxşı	29,5±2,14	38,3±3,8	39,4±3,2	32,2±3,5	45,7±4,1
	qənaətbəxş	48,5±5,6	35,3±2,5	34,4±2,8	43,2±4,6	35,7±3,1
	pis	19,8±1,5	24,2±1,9	27,3±2,4	25,6±2,4	18,9±1,6
İl ərzində xəstələnmələrin sayı	yox	63,8±3,9	66,1±3,2	62,3±4,1	63,5±3,4	70,2±3,8
	bəzən (1-2 dəfə)	24,5±3,1	21,8±2,9	27,5±3,2	26,1±2,3	20,0±3,3
	tez-tez (3 dəfədən çox)	12,0±2,5	13,1±2,6	11,2±2,0	12,4±1,8	9,5±2,3
Daha çox sağlamlığa təsir edir	ətraf mühit	49,2±4,5	52,6±14,7	50,1±3,8	46,3±3,5	48,6±3,7
	həyat tərzi	38,3±3,9	35,4±3,3,	36,5±4,0	39,7±3,8	34,2±2,5
	irsiyyət	13,5±2,7	15,3±2,1	14,4±3,5	13,3±2,4	16,2±4,0
Sağlamlıqlarına qulluq	rejim	11,6±2,1	16,8±3,0	18,8±3,2	14,8±2,5	12,6±2,4
	aktiv istirahət	13,4±2,6	20,6±3,5	25,3±3,7	29,5±3,6	24,2±3,2
	zərərli vərdişlərdən imtina etmək	70,0±4,3	64,6±3,8	56,9±4,6	57,7±4,5	59,4±4,6

Mebel istehsalında çalışan 20-50 yaş arasında olan 133 nəfər əsas peşə sahibləri və 30 nəfər inzibati təsərüffat işçisi (nəzarət qrupu) anket sorğusuna cəlb edilmişdir. Bu sorğunun nəticəsindən aydın oldu ki, peşə sahiblərinin 78%-i, nəzarət qrupunun 17%-i əmək şəraitinin qeyri-kafi olduğunu bildirir. İstehsalat amilləri içərisində 70% fəhlə havanın temperaturunun yüksək olduğunu, 68% rütubətin çox olduğunu, 75% intensiv səs-küyü, 57% isə işıqlanmanın zəif olduğunu qeyd edir. Bunlarla yanaşı, göstərilən aparıcı peşə sahiblərinin 70%-i işin eyni formada yüksək diqqət və görmə ilə əlaqədar hərəkətlərlə yerinə yetirildiyini bildirir. İşçilərin 90%-i növbəarası istirahətin və əməyin təşkilinin pis olmasını bildirir.

Anket sorğusunun (cədvəl1.) təhlili göstərir ki, sorğu edilən peşə sahibləri ümumi sağlamlıq vəziyyətini ortalama 37,22±3,4% yaxşı, 39,52±3,72% qənaətbəxş, 23,26±1,96% pis qiymətləndirir.

Cədvəldən göründüyü kimi sağlamlığına qulluq edənlərdən rejim gözləyənlər ən az ortalama 14,68±2,64%, aktiv istirahət keçirənlər 22,91±3,32%, zərərli vərdişlərdəm imtina edənlər 61,63±4,36% təşkil edir.

Düzgün rejimin gözlənilməməsi, aktiv istirahət etmədikdə, eyni zamanda mebel istehsalının digər zərərli amillərinin kompleks təsiri, əmək prorsesi və iş mühiti amilləri peşə sahiblərinin sağlamlığına təsir edərək tez yorulmaya və bir sıra xəstəliklərin yaranmasına zəmin yaradır.

Mebel istehsalında anket sorğusu əsasında apardığımız tədqiqatlar göstərir ki, işçilərin həyat keyfiyyəti və onların sağlamlıq vəziyyəti maddi təminatdan (39,5% yüksək məvacibin olması), yaxşı yaşayış şəraitindən, əmək şəraitindən, düzgün əmək və istirahət rejiminin təşkilindən asılıdır.

Anket sorğusunun təhlili (cədvəl 2.) göstərir ki, mebel istehsalatının işçilərinin 40%-dən çoxu həyat keyfiyyətini yaxşı qiymətləndirir və maliyyə vəziyyətini həyat keyfiyyətinin səviyyəsinin yaxşılaşmasına təsir göstərdiyini hesab edirlər. Maliyyə vəziyyəti sağlamlığın yaxşılaşmasına, istirahət rejiminə, səmərəli qidaya və s. böyük təkan verir. Bütün bu məsələlərə riayyət etmədikdə xroniki yorğunluğun yaranmasına şərait yaratmış olur. Peşə sahiblərinin ortalama 23,7±2,0 faizi əmək haqqının aşağı olduğunu və mənzil şəraitinin yaxşılaşdırılmasını qeyd edirlər. Tədqiq edilən istehsalatın işçilərinin əksəriyyəti istirahət günlərində boş vaxtlarını idman məşqləri və oyunları, dostlarla görüş, televizora baxmaq. İnternetdən istifadə etmək və s. keçirirlər.

Cədvəl 2

Anket sorğusuna görə mebel istehsalında işçilərin sağlamlığının subyektiv qiymətləndirilməsi, %

Suallar	Cavablar	Aparıcı peşələr				
		Bəzək vuran operatorlar n=23	Frezerçilər n=30	Lak çəkənlər n=27	Cilalayıcı-lar n=35	Yığıcılar n=18
Həyat keyfiyyətini necə qiymətləndirirsiniz?	yaxşı	45,7±3,6	43,9±3,0	46,4±2,5	44,5±2,7	41,1±2,2
	pis	30,6±2,9	23,5±2,1	25,3±2,8	82,0±4,9	34,8±3,0
	çox pis	13,7±1,8	22,6±1,9	29,3±3,0	20,5±2,0	22,5±1,8
Sağlamlığınızdan razısınızmı?	qənaətbəxş	52,6±3,8	57,8±4,0	61,0±3,5	63,0±3,6	65,0±3,4
	kafi	29,3±2,6	27,6±2,1	28,5±2,3	20,8±2,7	12,9±1,2
	qeyri - qənaətbəxş	14,1±1,7	16,6±1,8	10,0±1,4	8,7±1,1	11,5±1,8
Pul ehtiyaclarınızdan razısınız?	bəli	50,7±3,5	56,1±4,1	53,2±3,1	56,8±4,0	54,3±3,0
	kafi	28,1±2,4	23,9±2,0	22,6±1,9	20,0±1,5	21,1±1,9
	qeyri - qənaətbəxş	22,1±2,0	20,0±1,8	15,2±1,4	24,2±2,3	24,6±2,0
Yaşayış şərtlərindən razısınızmı?	bəli	48,4±3,2	45,1±3,0	43,7±2,8	47,0±3,0	40,0±2,5
	kafi	31,6±2,8	40,9±2,3	44,8±3,0	32,0±2,8	41,9±2,6
	qeyri - qənaətbəxş	20,0±1,7	12,0±3,6	13,0±1,9	16,2±2,1	10,0±2,0
İstirahət üçün fürsətiniz var?	bəli	46,5±3,4	50,3±2,7	48,2±3,5	41,7±3,0	45,3±3,2
	hərdən	39,7±2,7	41,6±2,7	40,6±2,6	42,2±3,1	33,7±2,5
	yox	13,8±1,3	9,1±1,1	10,2±1,0	16,1±1,5	21,1±2,2

Mebel istehsalı işçiləri tez-tez xroniki xəstəliklərin kəskinləşməsini qeyd edirlər. Bunlardan ürək-damar sisteminin (hipertoniya, ürəyin işemiya xəstəliyi), tənəffüs orqanlarının (kəskin respirator virus infeksiyası, kəskin respirator xəstəlik və s.), həzm orqanlarının (xora xəstəliyi, duodenitlər, qastrit və s.), sümük əzələ sisteminin xəstəlikləri (radikulitlər, artritlər və s.), dəri xəstəlikləri üstünlük təşkil edir.

Mebel istehsalında işləyənlərin sağlamlıq vəziyyətinin anket sorğusunun təhlili göstərir ki, soruşulanların yarıdan çoxu səhhətində nevroloji xarakterli subyektiv pozğunluqlardan, görmə üzvlərindən və tez-tez soyuqdəymə xəstəliyindən şikayət edirlər. Eyni zamanda 50%-ə yaxın fəhlələr hərəki-dayaq aparatı sahəsində, həzm orqanlarında, ürək nahiyyəsində ağrıların, 13% dəri örtüklərində dəyişikliklərin olduğunu bildirirlər.

Anket sorğusunun məlumatlarına görə, ilin soyuq dövrlərində fəhlələrin 90%-i tez-tez qrip və kəskin resperator xəstəliklərinə tutulduqlarını bildirirlər. İlin isti dövrlərində onların 80%-i zəiflikdən, baş ağrısından, başgicəllənməsindən, ağızda quruluqdan və yanğın hissindən şikayət edirlər. Topladlğımız məlumatlara əsasən peşə sahibləri arasında xəstələnmələrin xüsusi çəkisində müvəqqəti əmək qabiliyyətini itirməklə ən yüksək səviyyədə kəskin respirator xəstəlikləri və qrip durur (19%). İkinci yerdə hadisələrin tezliyinə görə işiyaz, nevralgiya və nevritin başqa formaları (11,8%), üçüncü yerdə isə sümük-əzələ sistemi (7,7%) xəstəlikləri durur. Fəhlələr arasında bu xəstəliklərin xüsusi çəkisi nəzarət qrupuna nisbətən 1,8 – 2,1 dəfə çoxdur (p□ 0,05).

Bronxial astma lakla rəngləmə sexində digər sexlərə nisbətən 2-3 dəfə artıq müşahidə olunur, bu da görünür ki, burada işləyən fəhlələrin işçi yerlərinin hava mühitində formaldehidin birdəfəlik maksimal konsentrasiyasının yüksək olması ilə əlaqədardır. Bəzək vurma və cilalamaq sahəsində işləyən xüsusilə də iş staji çox olan işçilər arasında isə sümük-əzələ sistemi xəstəlikləri daha geniş yayılmışdır.

Təcrübə aparılan əmək şəraitində işçi orqanizmi gərginləşməsi yorulması və kompensator mexanizmlərin zəifləməsi müəyyən əhəmiyyət kəsb edir, bu da tez-tez sağlamlıq vəziyyətində meydana çıxan şikayətlərlə: özünü pis hiss etmə, tez yorulma, baş ağrıları, yuxarı və aşağı ətraflarda daimi ağrılarla xarakterizə olunur.

Nəticə: 1. Sosioloji tədqiqat göstərir ki, mebel istehsalında işçilər işi yerinə yetirərkən, əmək fəaliyyəti əlverilsiz istehsalat amillərinin kompleks təsirinə məruz qalırlar, o cümlədən işçilər uzun müddət məcburi vəziyyətdə ayaqüstə, sinir emosional gərginliyin fiziki əməklə birgə olması da işçilərin sağlamlığına təsir edir. 2.Mebel istehsalında xəstələnmələrin xüsusi çəkisində ən yüksək səviyyədə kıəskin respirator xəstəlikləri və qrip, ikinci yerdə hadisələrin tezliyinə görə işiyaz, nevralgiya və nevritin başqa formaları durur. Eyni zamanda xroniki xəstəliklərin tez-tez kəskinləşməsi də müşahidə edilir.

Yuxarıda qeyd olunanlarla mebel istehsalında kompleks profilaktik tədbirlərin işlənib, hazırlanması zərurətini yaradır.

ƏDƏBİYYAT

1. Бедерова А.Б., Кульбовская Н.К. Профессиональный риск // Охрана труда и соц.страхование, 2008, №11, с.15

2. Денисов Э.И. Методические особенности оценки риска в медицине труда. Медицина труда. Введение в профессию / Под.ред. Н.Ф. Измерова, А.А.Каспарова, М.Медицина, 2002, с.127-151

3. Black N., Dilwor th M., Summers N. Occupational Exposure to Wood Dust in the British Woodworking Industry in 1999/2000 // Ann Hyg., 2007, v.51, p.249-260

4. Osman E., Pala K. Occupational exposure to wood dust and health effects on the respiratory system in a minor industrial estate in Bursa urkey // Int j.Occup.Med Environ Health, 2009, v.22, №1, p.43-50

5. Алтухова С.В., Механтьев И.И. Вопросы медицины труда в современном мебельном производстве // Медицина труда и пром.экология, 2002, №7, с. 31-32

6. Полежай М.Н. Гигиеническая оценка условий труда и профессионального риска на современных мебельных предприятиях. Автореф.дисс.канд.мед.наук, СПБ, 2010, 24 с.

7. Poeniak M., Kowalska J., Makhniashvili Y. Exposure to hazardous chemical substances in furniture industry // Med.pr., 2005, v.56, p.461-465

8. Nəbiyeva M.Y. Mebel ishehsalında iş yerlərinin mikroiqliminin xarakteristikası və işçilərin sağlamlıq vəziyyətinə təsiri // Azərbaycan Təbabətinin müasir nailiyyətləri, 2017, №3, s.201

9. Jakobsen Q., Schlunssen V., Schaumburq et al. Lonqitudimal lunq function decline and wood dust exposure in the furniture industry // Eur Respirj-Feb.2008, v.31, №2, p.334-342

Резюме

Условия труда в мебельном производстве и их влияние на качество жизни и состояние здоровья работающих

М.Е.Набиева, Д.Я.Салихова

Согласно анкетному опросу были изучены состояние здоровья, заболеваемость и качество жизни профессиональных работников, занятых в мебельном производстве. Было выявлено, что при выполнении работ на мебельном производстве работники подвергаются комплексному воздействию неблагоприятных производственных факторов, также находятся долгое время в вынужденной рабочей позе «стоя», физический труд в сочетании с нервно-эмоциональным

напряжением отрицательно воздействует на здоровье работающих. Острые респираторные заболевания и грипп на самом высоком уровне по удельному весу заболеваемости, на втором месте по частоте случаев невралгии и различные формы неврита, также наблюдается частое ухудшение хронических заболеваний. Таким образом, улучшение условий труда требует неизбежной подготовки комплекса профилактических мероприятий.

Summary

The impact of working conditions on furniture production on the quality of life and health of employees.

M.E.Nabiyeva, J.Y.Salikhova

According to the survey questionnaire, health status, illness and quality of life of occupational workers working in furniture production were studied. It has been discovered that in the manufacture of furniture workers were exposed to the complex effects of unfavorable production factors, while labor activity is a long-standing condition, and nervous emotional tension is associated with physical labor, which affects the health of employees. The highest incidence were on acute respiratory diseases and flu, the second most frequent were disease, were neuralgia and other forms of neuritis, and frequent chronic illnesses are also reported. Thus, improvement of working conditions necessitates complex preventive measures.

Daxil olub: 18.06.2019

Naftalan nefti və bitki ekstraktı əsasında iltihabəleyhinə məlhəmin hazırlanma texnologiyası

S.C. Mehralıyeva, E.A. Quliyeva, R.Ə.Atakişiyeva

Azırbyacan Tibb Universiteti, Bakı

Açar sözlər: naftalan nefti, gülümbahar-lavanda ekstraktı, iltihabəleyhinə effekt, məlhəm

Ключевые слова: масло нафталана, экстракт календулы-лаванды, противовоспалительное действие, мазь

Keywords: naphtalan oil, extract calendula-lavender, anti-inflammatory effect, ointment

Müasir dövrdə respublikamızın təbii mənşəli xammalları əsasında yumşaq dərman formalarının hazırlanması və tibb təcrübəsində müxtəlif etiologiyalı dermatoloji xəstəliklərin müalicəsində tətbiq edilməsi aktual məsələlərdən biri hesab edilir. Belə təbii mənbələrdən biri də tərkibi tsiklik doymuş və aromatik karbohidrogenlər, naften turşuları, azot əsasları, piqmentlər, kükürd birləşmələri, mikroelementlər (sink, bor, manqan, yod, brom, litium, kobalt, mis, rubidium, molibden, bor, və s.), fəal qətranlar və mineral yağlarla zəngin olan Naftalan neftidir [1,2,5].

Son iki onillik ərzində xora xəstəliyinin rast gəlmə tezliyində azalmanın olmasına baxmayaraq, həzm traktının üst hissəsindən olan qeyri-varikoz qanaxmaların əsas səbəbi kimi (25%-67% hallarda) xora mənşəli qastroduodenal qanaxmalar olaraq qalmaqdadır. Qərbi Avropa ölkələrində aparılmış tədqiqatlar göstərmişdir ki, xora mənşəli qanaxamalar hər 100 000 əhaliyə 20-60 xəstə düşməklə, yaş artdıqca bu göstərici daha yüksək rəqəmlərə qalxır. Yaşlı şəxslərdə qastroduodenal qanaxma səbəbindən letallıq yüksək faiz göstəricisinə malik olmaqla 7-14% arasında dəyişir [1,2]. ABŞ-da hər 100000 əhaliyə 78 qastroduodenal qanaxmalı xəstə düşür və hər il bu diaqnozla 400 000 xəstə hospitalizasiya olunur. Qanaxmalı xəstələrin stasionar müalicəsi üçün çəkilən illik məsrəf 2 milyard dollardan çoxdur [3,4]. Rusiya Federasiyasında mədə və 12bb-ın xora xəstəliyinin qanaxması olan şəxslərin sayı hər 100 00 əhaliyə 90-160 nəfər təşkil etməklə, son illərin statistik məlumatlarına əsasən artmağa doğru meyllidir [5,6].

Xoradan qanaxmanın səbəbləri və patogenezi çox müxtəlifdir. Əsas faktorlar arasında xora xəstəliyinin kəskinləşməsi, xora ətrafında iltihabi proseslərin aktivləşməsi, xora dibində nekrobiotik sahələrin yaranması və damar divarına sirayət etməsi ilə əlaqələndirilir. Xora ətrafında iltihabi proseslərin nəticəsi olaraq makrofaqların izafi miqdarda toplanması lizis proseslərini sürətləndirir. Bu səbəbdən xoranın dibindən qanaxma bir böyük damarın arroziv zədələnməsi və ya bir neçə xırda kapilyarlara fibrionoid nekrozun təsiri nəticəsində yarana bilir [7,8]. Mədə divarının müəyyən bir hissəsinin qan təchizatının azalması, selikli qişanın trofikasının pozulması nəticəsində müdafiə mexanizmlərinin aşağı düşməsi, həmin nahiyyələrdə kəskin xoraların əmələ gəlməsi ilə əlaqəlidir. Yaşlı şəxslərdə qanaxmanın rast gəlmə tezliyinin yüksək olması səbəbləri arasında selikli qişanın trofikasının pozulması öncül mövqelərdən birini tutur [10,11].

Qanaxmaların patogenetik əsasları arasında qanın koaqulyasiya və fibrinolitik aktivlikləri arasında həssas balansın pozulması da mühüm yer tutur. Qanda tripsininin, fibrinolizinin konsentrasiyasının artması, kinin-kallikrein sistemində olan dəyişikliklər laxtalanma prosesinə aktiv təsir göstərərək damar daxilində tromb əmələ gəlmənin tormozlayır, qanaxmanın davam etməsi üçün əlverişli şərait yaradır [9]. Yaşlı şəxslərdə damarların endotel qişasında gedən aterosklerotik dəyişikliklər və damar elastikliyinin azalması kimi patoloji dəyişikliklər də qanaxmanın davamli olmasinda önəmli faktorlardır.

Keçmiş Soverlər ölkəsində qastroduodenal qanaxmaların müxtəlif klassifikasiyaları təklif edilmişdir [12,13,14]. Son 20 ildə dünyada və bizim respublikada qanaxmaların endoskopik mənzərəsini özündə əks etdirən, 1987-ci ildə J.Forrest tərəfindən təklif edilmiş klassifikasiyadan istifadə edilir [15,16].

Xora mənşəli qastroduodenal qanaxmalar xüsusi özünəməxsus kliniki əlamətləri və qanitirmə ilə əlaqədar orqanizm səviyyəsində gedən pozğunluqlar üçün xarakter meydana çıxan simptomokompleks ilə özünü biruzə verir. Qanaxmadan bilavasitə qısa zaman sonra xəstələrdə arterial təzyiqin enməsi, nəbzin sürətlənməsi, ağızda quruluq kimi şikayətlər meydana çıxır [17,18,19]. Hipovolemiya, qanın osmotik təzyiqinin enməsi və mikrosirkulyasiyanın zəifləməsi qlomerulyar filtrasiyanın azalmasına böyrək və qaraciyər çatmamazlığına səbəb olur. Qanda yaranmış metabolik asidoz miokardın fəaliyyətini tormozlayır və ürək çatmamazlığına yol açır. Proqressivləşən multiorqan çatmamazlıq isə xora mənşəli qastroduodenal qanaxmaları olan xəstələrdə 10-12% hallarda letal nəticə ilə sonlanır [20,21].

Xora xəstəliyi olan şəxslərdə hətta uğurlu aparılmış konservativ cərrahi müalicədən sonra belə xoranın yenidən əmələ gəlməsi şansı yüksəkdir. Xoranın residiv verməsi ilə yanaşı, xora olan şəxslərdə qanaxma residivlərinin tez-tez təkrarlanması bu xəstələrin müalicə və reabilitasiyasını çətinləşdirir. Əgər 50 yaşdan cavan xora xəstəliyi olan şəxslərdə qanaxmanın baş verməsi riski 11-13% təşkil edirsə, yaşlı şəxslərdə bu rəqəm 24% və daha çoxdur. Statistik araşdırmalara əsasən, əgər qanaxma xora xəstəliyinin ilk əlaməti kimi özünü biruzə vermişdirsə, o hallarda qanaxmanın ilk 10 il ərzində təkrarlanması kişilər üçün 64-75%, qadınlar üçün isə 30-52% hallarda müşahidə edilir [22,23].

Qastroduodenal qanaxmaların müxtəlif müalicə üsullarının geniş tətbiq edilməsinə baxmyaraq xora mənşəli qanaxmalar cərrahiyyənin öz həllini tam tapmamış aktual problemi olaraq qalmaqdadır. Müxtəlif hemostaz üsullarının müqayisəli xarakteristikasına dair son illərin nəşrlərində toplanmış məlumatların qısa xarakteristikası maraqlı faktları üzə çıxarır.

Xora mənşəli qanaxmaların farmakoterapiyasının (Proton pompa inhibitorlarının – PPİ; Histamin-2 blokatorları) əsas istiqaməti mədənin turş mühitini qələviyə doğru dəyişdirməkdən ibarətdir. Mədə daxilində PH ≤6 olduqda, turş mühit pepsinogeni pepsinə çevirir, bu isə qanaxan xoranın üzərinə toplanmış trombosit aqreqatlarını və tromb kütlələrini parçalayır, nəticədə qanaxmanı dayandərmaq olmur və ya yenidən qanaxma təkrarlanır [24,25]. Traneksamin turşusu plazminin təsirini inhibə etməklə trombun əmələ gəlməsini sürətləndirir. Bəzi müəlliflər kəskin qanaxmalar zamanı bu preparatın effektivliyini sübut edən dəlillər gətirirlər. Digərləri isə bu preparatın yalnız PPİ ilə birlikdə istifadə edildikdə hemostatik effektinin olmasını göstərir. Traneksamin turşusunun rutin və monoterapiya şəklində xora mənşəli qanaxmalar zamanı istifadəsi ümumi tibbi praktikada qəbul edilməmişdir [26,27,28].

Farmakoterapiyanın əldə etdiyi yüksək nailiyyətlərə baxmayaraq xora mənşəli qanaxmaların sırf dərman preparatlarının intravenoz qəbulu ilə dayandırılması və uzun müddətli effektə nail olunması hələ də gələcəyin işi olaraq qalmaqdadır. Hazırda qanaxmaların diaqnostikası və müalicəsində endoskopik üsul ön sıraya çıxmışdır. Endoskopik hemostaz üsullarına elektrokoaqulyasiya, neon-arqon plazma koaqulyasiyasını, hemostatik kleyin aplikasiyasnıı, sklerozlaşdırıcı dərman preparatlarının inyeksiyasını və s. aid etmək olar [29,30].

Avropa Qastrointestinal Endoskopistlər Assosasiyasının (ESGE - European Society of Gastrointestinal Endo**scopy) 2015-**ci ildə qəbul edilmiş protokollarına əsasən xora mənşəli qanaxma diaqnozu qoyulmuş şəxslərdə ilk növbədə hemodinamika pozğunluqları korreksiya edilməli, kristalloid məhlullar və Hb – nin miqdarından asılı olaraq eritrositar kütlə köçürülməlidir. Sonra endoskopik proseduralara başlanmalıdır. Forest 1a, 1b və 2a qanaxmaları endoskopik hemostaz üsullarına məruz qalmalıdır, çünki bu tip qanaxmalar davamlı olmaları və residiv vermələri ilə xarakterikdir. Forest 2b zamanı, yəni xoranın üzəri laxta ilə örtülüdürsə, laxtanın xaric edilməsi tövsiyyə edilir. Əgər laxta götürüldükdən sonra qanaxma olarsa endoskopik hemostaz icra edilməlidir. Forest 2c zamanı, yəni xoranın üzəri yastı hematin piqmenti ilə örtülüdürsə və Forest 3 zamanı endoskopik hemostaz məsləhət görülmür. Epinefrin inyeksiyası endoskopik monoterapiya kimi isitfadə edilə bilməz. Əgər bu artıq olunmuşsa onda ikinci baxış endoskopiya (second look – ingiliscə) zamanı əlavə hemostaz üsulları ilə gücləndirilməlidir. Bütün endoskopik hemostaza məruz qalmış xəstələr və üzəri laxta örtülü xorası olanlar endoskopiyadan 72 saat sonra venadaxili saatda 8mg olmaqla PPİ infuziyaları almalıdırlar [31].

Lakin 2017-ci ildə beynəlxalq tərkibli tədqiqatçılar tərəfindən aparılmış geniş "double-blind" randomizə olunmuş tədqiqat göstərmişdir ki, bu protokolların müəyyən işlənməyə ehtiyacı vardır. Belə ki, xora mənşəli qanaxması olan xəstələrdə endoskopik hemostazdan sonra 72 saat ərzində esomepazolun yüksək dozası ilə müalicə aparılmış və "placebo" qrupu ilə müqayisə edilmişdir. Məlum olmuşdur ki, damcı şəklində qanaxması (Forest 1b) olan xəstələrdə residiv qanaxama faizi esomeprazol və "placebo" qruplarında eynidir. Halbuki, digər qruplarda (Forest 1a və Forest 2a) esomepezaol qanaxmanın residivinin qarşısının alınmasında effektli olmuşdur. Müəlliflər belə qərara gəlmişlər ki, uğurlu endoskopik hemostazdan sonra Forest 1b qrupunda olan xəstələr üçün PPİ infuziyalarının aparılmasına ciddi lüzum yoxdur və protokollara bir də baxılmasına ehtiyac var [32].

Fransız mütəxəssislər tərəfindən 36 kliniki mərkəzin oral antikoaqulyant qəbul edən ahıl və yaşlı şəxslərdə xora mənşəli qanaxmaların endoskopik müalicəsinin nəticələri dərc olunmuşdur. Endoskopik müalicədən sonra PPİ müalicəsi alanlar ilə müalicə olmayanlar arasında residiv qanaxmaların rast gəlmə tezliyində statistik dürüst fərq vardır. Hb- nin səviyyəsinin ilkin olaraq aşağı olması sərbəst risk faktoru kimi dəyərləndirilmiş, xəstəxanadaxili ilk 30 gün ərzində ölüm faizi 11,8% olmuşdur. Bu isə bir daha onu deməyə imkan verir ki, ahıl və qoca yaşlı şəxslərdə xora mənşəli qanaxmaların müalicəsi aktual və diskutabel olaraq qalır, yeni yanaşmaların işlənib hazırlanması və praktikada tətbiq olunmasına ehtiyac vardır [23].

Qanaxma ilə müraciət etmiş xəstələrin 5-10% - də davam edən massiv qanaxamanın olması səbəbindən endoskopik yolla hemostaz əldə etmək olmur. Əvvəllər bu xəstələri birbaşa cərrahi əməliyyata götürürdülər. Lakin, son iki onillik ərzində lazımi avadanlıqlar ilə təchiz edilmiş klinikalarda qanaxan damarın transkateter arterial embolizasiyası (TAE) icra edilir. TAE icra olunmuş xəstələrdə ağırlaşma və letallıq faizinin aşağı olması bu proseduranın qanaxmanın müalicəsində 1-ci sıra üsul kimi icra edilməsi təklif olunmuşdur [33].

Bəzi müəlliflər, hətta uğurla aparılmış endoskopik hemostazdan sonra residiv qanaxmanın profilaktikası məqsədilə TAE – nin aparılmasını tövsiyyə etmişlər. Endoskopik hemostazdan sonra residiv qanaxma riski yüksək olanlarda qastro-duodenal arteriyanın TAE edilməsi residiv və letallıq faizini azaltmışdır [34]. Müəyyən qrup müəlliflər TAE-nin endoskopiya ilə hemostaz əldə edilmədikdə 2 – ci sıra müalicə üsulu kimi, digərləri isə TAE-nin effektivliyini çox yüksək qiymətləndirərək onu cərrahi əməliyyatlara alternativ olmasını, bəziləri isə ümumiyyətlə cərrahi üsuldan da irəli çəkmişlər [35,36,37].

Birincili aparılmış TAE qanaxmanın dayandırılması istiqamətində effektivliyi 51% ilə 97% arasında dəyişir. Hemostaz əldə edilmiş xəstələrin 10-20%-də residiv qanaxmanın olması TAE-nin təkrar aparılmasını və ya cərahi müalicə üsullarının seçilməsini tələb edir. Bəzi müəlliflər isə TAE-nin profuz qanaxması olan xəstələrdə cərrahi əməliyyat üçün bir "körpü" kimi istfadə olunmasını təklif etmişlər [38].

Uzun müddət ərzində TAE – nin və ya cərrahi əməliyyat üsulunun profuz qanaxmaların müalicəsində hansının daha effektiv olmasına dair müzakirələr aparılmışdır. Fransız tədqiqatçısı Loffroy R. 2019 – cu ildə bütün diskusiyalara son qoymuşdur. TAE – nin cərrahi üsul ilə müqayisədə daha effektiv olmasını sübuta yetirməyə "boş vaxt sərf etmək" olduğunu, hansı üsulun xəstə üçün daha yaxşı olmasını seçməyin vacibliyini söyləmişdir. O sübut etmişdir ki, real həyatda xora mənşəli profuz qastroduodenal qanaxmanın müalicəsində, kliniki yaxşı nəticələrə sahib olmaq istənildiyi halda TAE cərrahi üsula alternativ sayıla bilməz [39].

Endoskopik və farmakoterapevtik hemostaz üsullarının istifadə edilməsinə baxmayaraq, təkrarlanan qanaxmalar zamanı ən effektivi cərrahi əməliyyat üsuludur. Bizim respublikada uzun illər boyu keçmiş SSRİ-nin xora mənşəli qanaxmaların cərrahi müalicəsində qəbul etdiyi direktivlər dominantlıq təşkil etmişdir

Qanaxma ilə müraciət edən yüksək riskli xəstələrdə (bura aiddir ahıl və yaşlı şəxslər, dekompensasiya mərhələsində yanaşı xəstəlikləri olanlar) adətən az travmatik cərrahi əməliyyatlar: kötük vaqotomiyası, qastro- və ya duodenotomiya ilə xoranın tikilməsi, bəzi hallarda seqmentar rezeksiya və piloroplastika ilə əməliyyat sonlanır. Kompensasiya mərhələsində və Hb > 90 q/l. olan xəstələrdə mədənin qastrin ifraz edən vəziləri olan mədə cismini götürməklə 2/3 hissəsinin rezeksiyası icra edilir. Duodenal xoraların müalicəsində xoranın kəsilib götürülməsi və tikilməsi piloroplastika ilə birlikdə; Piloroduodenal stenoz olduğu hallarda antrumektomiya vaqotomiya ilə birlikdə (xəstənin vəziyyəti imkan verərsə); Mədənin 2/3 hissəsinin rezeksiyası kimi əməliyyatlar icra edilir.

Sovet cərrahiyyəsi məktəbinin davamçıları xora mənşəli qastroduodenal qanaxmalar zamanı minimal cərrahi əməliyyatın aparılmasının tərəfindədirlər. Belə qəbul edilmişdir ki, qanaxmalar zamanı xoranın və ya qanaxan damarın tikilməsi qanaxmalar zamanı seçim cərrahi əməliyyat üsuludur. Tikiş zamanı piloroduodenal keçiddə daralma qeyd olunduğu hallarda müxtəlif üsullarla piloroplastikanın aparılması ilə əməliyyat sona çatdırılmalıdır [40,41,42].

Xarici ölkələrin klinikalarında cərrahi əməliyyatlar yalnız təcili qaydada, qanaxmanın zirvəsində digər müalicə üsulları köməksiz olduğu hallarda icra edilir. Minimal əməliyyatlar qanaxan xoranın tikilməsi və piloroplastika üsulları ilə yekunlaşır [43]. Chereau N. və həmm. duodenal xoradan qanaxmalar zamanı təcili qaydada antroduodenoektomiya və qastroduodenoanastomoz aparılmasını məqsədə uyğun hesab etmişlər. Müəlliflərin rəyinə əsasən, 70-dən yuxarı yaş, 3 və daha yanaşı xəstəlik və ASA score 2 -dən çox müalicənin nəticələrinə təsir göstərir [44].

Trunkal vaqotomiya+piloplastika və sadə tikiş qoyulması ilə hemostaz əldə olunmuş xəstələrin əməliyyatdan sonra uzaq nəticələrini müqayisəsi göstərmişdir ki, I qrupda uzaq dövrdə işemik insult, ürəyin işemik xəstəliyi, şəkərli diabet və qaraciyər sirrozu əhəmiyyətli dərəcədə az rast gəlinir. Müəlliflər qanaxma ilə fəsadlaşmış xora xəstəliyinin müalicəsində qanaxmanın tikiş ilə dayandırılması ilə yanaşı trunkal vaqotomiya+piloplastikanın aparılmasını tövsiyyə edirlər [45].

Vaqotomiyanın ilk icra edildiyi vaxtdan bu günə qədər dəfələrlə təkmilləşdirilmiş, selektiv və çox selektiv növləri cərrahi praktikada istifadə edilmişdir. Yaxın və uzaq nəticələr göstərmişdir ki, vaqotomiyanı tək halda yalnız məhdud göstərişlər əsasında icra etmək olar. Vaqotomiyadan sonra xoranın residiv verməsi yüksək rəqəmlərdə qalmaqdadır. Vaqotomiya ilə birlikdə mədənin parsiyal rezeksiyasının icrası ağırlaşmalarının yüksək faizlə rast gəlməsi və əlavə yan təsirləri ilə yadda qalmışdır. Trunkal vaqotomiya və piloroplastikanın laparoskopik yolla icrası isə təhlükəsiz və effektiv müalicə üsulu kimi bu gün də geniş tətbiq imkanları qazanmışdır. Vaqotomiya ilə birlikdə Ru üsulu qastroyeyunostomiya əməliyyatlarının aparılması farmakoterapevtik müalicəyə dirənc göstərən mədə və 12bb.-ın xora xəstəliyinin müxtəlif ağırlaşmaları zamanı istifadə edilə bilər. Proton pompa inhibitorlarına allergiyası olan şəxslərdə laparoskopik trunkal vaqotomiyanın icrası effektli cərrahi üsul kimi qəbul edilmişdir [46].

Qastroduodenal qanaxma səbəbindən aparılmış müxtəlif cərrahi əməliyyatların: loal tikişlərlə hemostaz; vaqotomiya+mədə drenləşdirici əməliyyat və vaqotomiya+mədə rezeksiyasının yaxın nəticələri öyrənilmişdir. Lokal tikiş qoyulmuş xəstələr ilə müqayisədə vaqotomiya+mədə rezeksiyası olmuş xəstələrdə ağırlaşma və letallıq faizi yüksək olmuşdur. Yerli tikişlə hemostaz olunduqdan sonra vaqotomiya+mədə drenləşdirici əməliyyat olunan xəstələrdə isə təkcə yerli tikiş qoyulması qanaxması dayandırılmış xəstələr ilə müqayisədə letallıq göstəricisinin dürüst şəkildə aşağı olması öz təsdiqini tapmışdır [47].

Çinli mütəxəssislər tərəfindən Bilrot II üsulu ilə mədə rezeksiyası əməliyyatına məruz qalmış 6425 xəstə ilə xora xəstəliyi olan lakin əməliyyat olunmamış 25 602 xəstənin müalicəsinin uzaq nəticələrini 14 il ərzində izlədikdən sonra müqayisə etmişlər. Bilrot II üsulu ilə mədə rezeksiyası əməliyyatına məruz qalmış xəstələrdə işemik insult riski və yanaşı xəstəliklərin inkişafı ehtimalı əməliyyat olunmamış xəstələr ilə müqayisədə daha aşağıdır. Bilrot II əməliyyatın protektiv təsiri kişilərdə və xüsusən də yaşı 65 – dən çox olan şəxslərdə özünü daha aydın biruzə vermişdir [48].

Almaniyada aparılmış statistik araşdırmalar göstərmişdir ki, 1989-1998 – ci illər ilə müqayisədə 1999-2008-ci illər ərzində xora mənşəli qastroduodenal qanaxmalar daha çox rast gəlinmişdir. Bu səbəbdən təcili cərrahi əməliyyatların sayı 70%-dən 87%-ə artmış, əksinə planlı cərrahi əməliyyatlar isə 21%-dən 7% -ə enmişdir. Aparılan cərrahi əməliyyatlar içərisində 59% olmaqla, xoranın kəsilib götürülməsi və tikilməsi üstünlük təşkil etmişdir. Mədə turşuluğunu azaldan əməliyyatların (vaqotomiyalar) sayında isə əksinə azalma qeyd olunmuşdur [49].

Mədə-bağırsaq qanaxmaları içərisində ən çox qeyd edilən xora xəstəliyinin ağırlaşması şəklində rasr gəlinən qanaxmalardır. Həzm traktının yuxarı şöbələrindən olan bütün qanaxmaların təxminən 21,3% - ni mədə xoralarından, 22,3%-ni isə 12bb. xoralarından olan qanaxmalar təşkil edir. Cavan şəxslərdə xoranın qanaxma ilə fəsadlaşmasının səbəbləri arasında Hp infeksiyasının disseminasiyası və turşu faktoru əsasdır. Ahıl və qoca yaşlı xəstələrdə qeyd edilən qanaxmaların etiologiyasında isə mədənin selikli qişasının trofikasının pozulması, yaş ilə əlaqədar olaraq yanaşı patologiyalar səbəbindən uzun müddət müxtəlif dərman preparatalarının (Asetilsalisil turşusu, qeyri-steroid iltihab əleyhinə dərmanlar və s.) qəbulu hesab edilir. Bu xəstələrdə qanaxmanın riski cavan yaşlı xəstələr ilə müqayisədə daha yüksək, ağırlaşmaların və letal nəticələrinin rast gəlmə tezliyi isə daha çoxdur [50].

Bü günə qədər xora mənşəli qastroduodenal qanaxmaların diaqnostikası və klinikası kifayət qədər öyrənilmişdir. Müalicəsində əsas 3 istiqamət geniş tətbiq edilməkdədir. Bunlardan ilk sırada endoskopik hemostaz üsullarıdır. Nəticələrin gücləndirilməsi üçün endoskopik hemostazdan sonra mütləq antasidlər istifadə edilməlidir. Lakin, yüksək riskli profuz qanaxmalar zamanı qanaxmanı endoskopik yolla dayandırılması mümkün olmayan hallarda, eləcə də yanaşı olaraq xəstələrdə endoskopun duodenuma keçməsinə maneə yaradan piloroduodenal stenoz olduğu hallarda təcili cərrahi əməliyyat üçün göstəriş yaranır. Qanaxmalar zamanı palliativ və ya radikal cərrahi əməliyyatlara qərarın verilməsi bu gün cərrahiyyənin aktual problemi olaraq qalmaqdadır. Bu problem yanaşı xəstəlikləri olan ahıl və yaşlı xəstələrdə xüsusi ciddiyətlə qabarıq şəkildə gündəmə gəlir.

Ədəbiyyatda bu problem ilə əlaqədar olan ziddiyətli fikirlər və eləcə də gündəlik praktikada qanaxma ilə yanaşı digər ağırlaşmalar ilə müşahidə olunan yaşlı kontingentli xəstələrin müalicəsində rast gəlinən taktiki və texniki problemlər qeyd edilən istiqamətdə yeni yanaşmaların işlənib hazırlanmasını tələb edir.

ƏDƏBİYYAT

1. Biecker E. Diagnosis and therapy of non-variceal upper-gastrointestinal bleeding // World J. Gastrointest. Pharmacol. Ther., 2015, v.6, p.172-82

2. Lu M., Sun G., Zhang X.M. et al. Peptic Ulcer Is the Most Common Cause of Non-Variceal Upper-Gastrointestinal Bleeding (NVUGIB) in China // Med Sci Monit., 2018, v.24, p.7119-7129

3. Tielleman T., Bujanda D., Cryer B. Epidemiology and risk factors for upper gastrointestinal bleeding // Gastrointest. Endosc. Clin. N. Amer., 2015, v.25, p.415-428.

4. Saleem S., Thomas AL. Management of Upper Gastrointestinal Bleeding by an Internist // Cureus. 2018, v.10(6), e2878.

5. Басиева М.А., Макиев Г.Г., Садыгова К.Х. Статистический анализ распространённости осложнений язвенной болезни желудка и двенадцатиперстной кишки на основе архивных данных / Научный форум: Медицина, биология и химия: сб. ст. по материалам XIX междунар. науч.-практ. конф. 2019, № 1(19). М., Изд. «МЦНО», С. 47-51.

6. Габбасова Л.В., Волевач Л.В., Палтусов А.И. и др. Язвенная болезнь двенадцатиперстной кишки у лиц молодого возраста: / Монография. БГМУ Минздрава России. Тамбов: ООО ≪Консалтинговая компания Юком., 2017, 48 с.

7. Липницкий Е.М., Алекберзаде А.В., Гасанов М.Р. Причины рецидива язвенного гастродуоденального кровотечения // Хирургия, 2017, №3,с.4-10.

8. Poddar U. Diagnostic and therapeutic approach to upper gastrointestinal bleeding // Paediatr Int Child Health., 2019, v.39(1), p.18-22.

9. Cook D., Guyatt G. Prophylaxis against upper gastrointestinal bleeding in hospitalized patients // N Engl J Med. 2018, v.378(26), p.2506-2516.

10. Чернеховская Н.Е., Поваляев А.В., Ляшенко Г.А. Этиопатогенез эрозивно-язвенных процессов в пищеводе, желудке и двенадцати-перстной кишке у больных пожилого и старческого возраста // Экспер. и Клиническая Гастроэнтерология. 2015, вып 116, №4, с.48-52.

11. Butler E., Møller MH., Cook O. et al. Corticosteroids and risk of gastrointestinal bleeding in critically ill adults: Protocol for a systematic review //Acta Anaesthesiol Scand. 2018, v.62(9), p.1321-1326.

12. Ağayev B.A. Cərrahi xəstəliklər. Bakı, 2007, s.257-261

13. Волкова Н.И., Джериева И.С. Гастроэнтерология: учебное пособие: ГБОУ ВПО РостГМУ Минздрава России. Ростов н/Д: Изд-во РостГМУ, 2016, 161 с.

14. Ботезату А.А., Райляну Р.И., Паскалов Ю.С. Острые кровотечения из верхних отделов желудочно-кишечного тракта // Вестник экспериментальной и клинической хирургии, 2014, Приложение 1, с.17.

15. Jensen DM., Eklund S., Persson T. et al. Reassessment of rebleeding risk of Forrest Ib (oozing) peptic ulcer bleeding in a large international randomized trial // Am J Gastroenterol. 2017, v.112(3), p. 441-446.

16. Ağayev B.A., Kazımov İ.L., Rüstəmov E.A. və başq. Kəskin mədə-bağırsaq qanaxmalarının diaqnostika və müalicəsi üzrə klinik protokol. Bakı, 2009, 32s.

17. Лебедев Н.В., Климов А.Е., Бархударов А.А. Гастродуоденальные язвенные кровотечения. Хирургия, 2014, №5, с.23-27.

18. Saleem S., Thomas A.L. Management of upper gastrointestinal bleeding by an internist // Cureus. 2018, v.10(6), e2878

19. Tielleman T., Bujanda D., Cryer B. Epidemiology and risk factors for upper gastrointestinal bleeding // Gastrointest Endosc Clin N Am, 2015, v.25, p.415-428.

20. Siddiqui F., Ahmed M., Abbasi S. et al. Gastrointestinal bleeding in patients with acute respiratory distress syndrome: a national database analysis // J Clin Med Res. 2019, v.11, p.42-48.

21. Moledina S.M., Komba E. Risk factors for mortality among patients admitted with upper gastrointestinal bleeding at a tertiary hospital: a prospective cohort study // BMC Gastroenterology, 2017, v.17, p.165-176.

22. Jafar W., Jafar AJN., Sharma A. Upper gastrointestinal haemorrhage: an update // Frontline Gastroenterol., 2016, v.7(1), p.32-40.

23. Deutsch D., Romegoux P., Boustière C. et al. Clinical and endoscopic features of severe acute gastrointestinal bleeding in elderly patients treated with direct oral anticoagulants: a multicentre study // Therap. Adv. Gastroenterol. 2019. eCollection 2019.

24. Lam K.L., Wong J.C., Lau J.Y. Pharmacological treatment in upper gastrointestinal bleeding // Curr Treat Options Gastroent., 2015, v.13, p.369-376.

25. Shim Y.K., Kim N. The Effect of H2 Receptor Antagonist in Acid Inhibition and Its Clinical Efficacy // Korean J Gastroenterol., 2017, v.70(1), p.4-12.

26. Bennett C., Klingenberg S.L., Langholz E., Gluud L.L. Tranexamic acid for upper gastrointestinal bleeding // Cochrane Database Syst Rev, 2014, v.11, CD006640.;

27. Fortinsky K.J., Bardou M., Barkun A.N. Role of medical therapy for nonvariceal upper gastrointestinal bleeding // Gastrointest Endosc Clin N Am., 2015, v.25, p.463-478

28. Roberts I., Coats T., Edwards P. et al. HALT-IT: tranexamic acid for the treatment of gastrointestinal bleeding: study protocol for a randomised controlled trial // Trials, 2014, v.15, p.450

29. Troland D., Stanley A. Endotherapy of Peptic Ulcer Bleeding // Gastrointest Endosc Clin N Am., 2018, v.28(3), p. 277-289.

30. Jung K., Moon W. Role of endoscopy in acute gastrointestinal bleeding in real clinical practice: An evidence-based review // World J Gastrointest Endosc. 2019, v.11(2), p.68-83.

31. Gralnek IM., Dumonceau JM., Kuipers EJ. et al. Diagnosis and management of nonvariceal upper gastrointestinal hemorrhage: European Society of Gastrointestinal Endoscopy (ESGE) Guideline // Endoscopy. 2015, v.47(10), p.a1-46.

32. Jensen D.M., Eklund S., Persson T. et al. Reassessment of Rebleeding Risk of Forrest IB (Oozing) Peptic Ulcer Bleeding in a Large International Randomized Trial // Am J Gastroenterol., 2017, v.112(3), p. 441-446.

33. Laursen S.B., Jakobsen M., Nielsen M.M. et al. Transcatheter arterial embolization is the first-line therapy of choice in peptic ulcer bleeding not responding to endoscopic therapy // Scand J Gastroenterol., 2015, v.50(3), p.264-271.

34. Mille M., Huber J., Wlasak R. et al. Prophylactic Transcatheter Arterial Embolization After Successful Endoscopic Hemostasis in the Management of Bleeding Duodenal Ulcer // J Clin. Gastroenterol. 2015, v.49(9), p.738-745.

35. Širvinskas A., Smolskas E., Mikelis K. et al. Transcatheter arterial embolization for upper gastrointestinal tract bleeding // Wideochir Inne Tech Maloinwazyjne. 2017, v.12(4), p. 385-393.

36. Spiliopoulos S., Inchingolo R., Lucatelli P. et al. Transcatheter Arterial Embolization for Bleeding Peptic Ulcers: A Multicenter Study // Cardiovasc Intervent Radiol., 2018, v.41(9), p.1333-1339.

37. Orron DE., Bloom AI., Neeman Z. The Role of Transcatheter Arterial Embolization in the Management of Nonvariceal Upper Gastrointestinal Bleeding // Gastrointest Endosc Clin N Am., 2018, v.28(3), p. 331-349.

38. Zandrino F., Tettoni SM., Gallesio I., Summa M. Emergency arterial embolization of upper gastrointestinal and jejunal tumors: An analysis of 12 patients with severe bleeding // Diagn Interv Imaging. 2017, v.98(1), p.51-56

39. Loffroy R., Comby PO., Falvo N. et al. Transcatheter arterial embolization versus surgery for uncontrolled peptic ulcer bleeding: game is over // Quant Imaging Med Surg 2019, v.9(2), p.144-145

40. Язвенные Гастродуоденальные Кровотечения / Нац. Клин. рекомендации. Российское общество хирургов. Москва-Воронеж. 2014,. 9с.

41. Лупальцов В.И. К вопросу о хирургическом лечении неосложненной гастродуоденальной язвы // Хірургія України. 2016, № 3, с. 10-14

42. Girdaladze A.M, Mosidze B.A., Elisabedashvili G.V., Dzhorbenadze T.A. Tactics of surgical treatment of patients with complicated peptic ulcer disease // Georgian Med News. 2010, v.188, p.7-15

43. Ajao O.G., Ugwu B.T. The evolution of surgical procedures in the management of duodenal and gastric ulcers // West Afr J Med., 2013, v.32(3), p.159-162

44. Chereau N., Chandeze M.M., Tantardini C. et al. Antroduodenectomy with gastroduodenal anastomosis: salvage emergency surgery for complicated peptic ulcer disease--results of a double institution study of 35 patients // J Gastrointest Surg., 2016, v.20(3), p.539-545.

45. Fang C.W., Tseng C.H., Wu S.C. et al. Association of Vagotomy and Decreased Risk of Subsequent Ischemic Stroke in Complicated Peptic Ulcer Patients: an Asian Population Study // World J Surg., 2017, v.41(12), p.3171-3179.

46. Lagoo J., Pappas T.N., Perez A. A relic or still relevant: the narrowing role for vagotomy in the treatment of peptic ulcer disease // Am J Surg. 2014, v.207(1), p.120-126

47. Schroder VT., Pappas TN., Vaslef SN., De La Fuente SG., Scarborough JE. Vagotomy/drainage is superior to local oversew in patients who require emergency surgery for bleeding peptic ulcers // Ann Surg. 2014, v.259(6), p.1111-1118

48. Chen C.H., Lin C.L., Kao C.H. Subtotal gastrectomy with Billroth II anastomosis is associated with a low risk of ischemic stroke in peptic ulcer disease patients: A Nationwide Population-Based Study // Medicine (Baltimore). 2016, v.95(16), e3481

49. Eisner F., Hermann D., Bajaeifer K. et al. Gastric ulcer complications after the introduction of proton pump inhibitors into clinical routine: 20-Year Experience // Visc Med. 2017, v .33(3):p.221-226.

50. Quan S., Frolkis A., Milne K. et al. Upper-gastrointestinal bleeding secondary to peptic ulcer disease: Incidence and outcomes // World J Gastroenterol., 2014, v.20(46), p.17568-17577

Резюме

Особенности современной диагностики и лечения язвенных гастродуоденальных кровотечений

И.Л. Кязимов, Э.А. Искандаров, М.С.Эфендиев

Кровотечение является грозным осложнением язв желудка и двенадцатиперстной кишки, диагностика и лечение которого остаётся актуальной проблемой хирургии. Различные методы лечения не всегда дают требующего эффекта. Данный обзор литературы освещает мнение различных авторов о диагностике и лечении язвенных гастродуоденальных кровотечений. Показание к паллиативной и радикальной операции зависит от конкретного состояния больных. Изучение литературы показывает потребность в рациональной схеме лечения у больных старческого возраста с кровотечением при наличий сопутствующих болезней.

Summary

Peculiarities modern diagnostics and treatment of gastroduodenal ulcer bleeding

I.L. Kazimov, E.A. Iskandarov, M.S.Efendiyev

Bleeding is a seriously complication of ulcers of the stomach and duodenum, the diagnosis and treatment of which remains an urgent problem of surgery. Various treatment methods do not always give

the required effect. This literature review highlights the opinions of various authors on the diagnosis and treatment of gastroduodenal ulcer bleeding. Indication for palliative and radical surgery depends on the current condition of the patients. A study of the literature shows the need for a rational treatment tactics for elderly patients with bleeding in the presence of concomitant diseases.

Daxil olub: 20.08.2019

Eksudativ orta otit müalicəsində şuntlamanin effektivliyi

N.Ə.Muradova, V.M.Pənahian

Leyla Şıxlinskaya klinikası, Lor hospital; Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: eksudativ orta otit, müalicə, şuntlama.

Ключевые слова: экссудативный средний отит, лечение, шунтирование.

Key words: otitis media with effusion,treatment, tube insertion.

Eksudativ orta otit (otitis media exudative) – kəskin infeksiya simptomları olmadan orta qulaq boşluğuna maye toplanması ilə xarakterizə olunan, orta qulağın xəstəliyidir. Xəstəlik təbil boşluğunda qeyri-iltihabi və gecikmiş hallarda qatı möhtəviyyatın yığılması ilə xarakterizə olunur. Möhtəviyyat seroz, mukoid və ya irinli ola bilər [5,19]. Məhz bu səbəbdən ekssudativ otitə "yapışqan qulaq" "glue ear" adı verilmişdir. Bu patologiyanın klinik əsasları ilk dəfə 1862-ci ildə Politzer və 1906-cı ildə Bezold tərəfindən qoyulmuşdur [1]. 1801 ci ildə Cooper eksudativ orta otit zamanı eşitmənin düzəlmə ehtimalını irəli sürmüşdür və 1954cü ildə Armstrong ventilyasiya tüpü (şuntlama əməliyyatı) taxmaqla bu ehtimalı doğrulamışdır [7]. Eksudativ otit eşitmə borusunun drenaj və havalanma funksiyalarının pozulması fonunda formalaşır və təbil boşluğuna selikli-seroz ifrazatın dolması ilə, təbil pərdəsində defektlərin yaranması ilə xarakterizə olunur ki, bu da öz növbəsində konduktiv tip ağıreşitmə ilə nəticələnir [6,27,11[.

Eksudativ orta otitin epidemialogiyası. Eksudativ orta otit inkişaf etmiş ölkələrdə ən çox ağıreşitmə səbəbidir və 2 ilə 5 yaş uşaqlar arasında rastgəlmə tezliyi pik həddədir [3,5,7]. Şəxsi təcrübəmizdə 2019cu il ərzində klinikamızda 150 xəstəyə eksudativ orta otit diaqnozu qoyulmuşdur. Bu xəstələrdən 32 uşağa şuntlama əməliyyatı tətbiq olunmuşdur və 28 xəstədə tam sağalma izlənmişdir. 2 uşaqda şuntun vaxtından öncə xaric olması, 1 uşaqda şuntun tıxanması müşahidə olunmuşdur. 1 uşaq isə əməliyyat sonrası kontrola gəlməmişdir. Uşaqların 90%-inin 10 yaşına qədər ən az bir dəfə eksudativ orta otit keçirdiyi iddia edilir [40]. İlk kəskin orta otit nə qədər kiçik yaşda keçirilərsə eksudativ orta otit və xroniki orta otit inkişaf etmə ehtimalı da bir o qədər artır [7,40].

Xəstəliyin etiologiyasında orta qulaqda havalanmanın pozulması,uşaqlarda burun-udlağın fərqli xüsusiyyətləri(Yevstax borusunun diametri dardır, istmus dardır, orta qulaqda çox vaxt negativ təyziq olur, nazofarenksdə çox vaxt pozitiv təyziq olur, adenoid vegetasiyası, qığırdaq,mukoza,əzələ və yağ toxuması inkişafı tamamlanmamışdır, Mukosiliar Klirens tez tez pozulur), infeksiya, kəskin orta otitlərin qeyri-adekvat müalicəsi,barotravma,burun udlağın yenitörəmələri,genetik faktorlar mühüm yer tutur [7, 40,10].

Bundan əlavə eksudativ orta otit üçün bəzi risk faktorları vardır. Bunlar: Adenoid vegetasiyası, tez-tez kəskin orta otit keçirilməsi, yarımçıqdoğulma,siqaret tüstüsü,uyğunsuz antibiotik istifadəsi, kraniofasial anomaliyalar, Daun sindromu, ananın A qan qrupu olmas, Immotil silia sindromu, ana südü ilə qidalanmama, yaş,cins,çevrə faktorları, gigiyena qaydalarına əməl etməmək /3/.

Eksudativ orta otit patogenezi ilk olaraq eşitmə borusunun funksiyasının pozulması ilə başlayır [13]. Bu problem təbil boşluğunda ventilyasiyanın pozulmasına gətirir və hava dekompresiyyasını yaradır [32].

Yaranmış vəziyyət isə təbil boşluğunda aseptik mühitə səbəb ola bilər. Orta qulaqda yaranmış qapalı boşluq selikli qişanın transudasiya və ekssudasiya prosesinə təkan verir [1,32].

Eksudativ orta otit klinik olaraq özünü bir və ya ikitərəfli flyuktuasiya xarakterli eşitmənin azalması ilə göstərir [26,25]. Eşitmənin azalması qulaqda tutqunluq hissi ilə xarakterizə edilir [1,22]. Çox vaxt xəstələr başını çevirən zaman qulaqda maye axıntısını hiss edirlər ki, bu da öz növbəsində eksudativ orta otitin əsas klinik simptomu hesab edilir [21,23,24]. Əksər hallarda göstərilən şikayətlərlə yanaşı xəstələri qulaqlarda olan küy də narahat edir [4].

İltihabi prosesin dinamikasını və patomorfoloji dəyişiklikləri nəzərə alaraq eksudativ otitin 3 mərhələsi ayırd edilir [1,31]:

1. *Tubar mərhələsi.* Qısa müddətli olur. Təbil boşluğunun ventilyasiyasının pozulması fonunda transudasiya əmələ gəlir. Neytrofillərin və leykositlərin miqrasiyası müşahidə edilir və sekretor elementlər selik ifraz etməyə hazır olur. Məhz bu zaman xəstələr qulaqda tutqunluq hiss edirlər, yüngül autofoniyadan və eşitmənin azalmasından şikayət edirlər. Bu xəstələrdə otoskopiya zamanı təbil pərdəsi boz rəngdə, çəkic ətrafında isə kapillyarların genişlənməsi və hava kisələri görünür.
2. *Sekretor mərhələ.* Təbil boşluğunda seliyin ifrazı və yığılması, selikli qişanın hiperplaziyası və maye yığıntısı (səviyyəsi) müşahidə edilir. Subyektiv olaraq isə qulaqda təzyiqin artması ilə hiss olunur. Qulaqda küy və konduktiv ağıreşitmə artır. Otoskopiya zamanı təbil pərdəsinin içəriyə doğru çəkilməsi görünür. Pərdənin rəngi tündləşir və arxasında mayenin səviyyəsi aydın görünür. Bəzən mayenin səviyyəsi başı çevirəndə dəyişilir [27].
3. *Fibrozlaşma mərhələsi*. Təbil boşluğunun ventilyasiyası bərpa olunduqda sağalma baş verə bilər. Lakin tubar funksiyasının davamlı pozulması zamanı ekssudativ otit xroniki gedişata keçir. Bu, fibroz mərhələdə təbil boşluğunda çapıq prosesi inkişaf etdirir və adheziv otitin formalaşmasına zəmin yaradır.

Eksudativ orta otit diaqnostikası otoskopiya, mikrootoskopiya, endoskopiya, eşitmə borusunun funksiyasının tədqiqatı, kamertonal sınaqlar, impedansometriya, audiometriya və kompyuter tomoqrafiya müayinələrindən ibarətdir [1,13]. Bu müayinələrdən otoskopiya, mikrootoskopiya və endoskopiya müayinələri təbil boşluğundakı eksudativ prosesin dərəcəsini müəyyən etmək üçün istifadə olunur [12,11]. Timpanometriya və akustik reflekslər isə bu müayinələrin davamı olaraq bizə orta qulaqda təzyiq haqqında və rast gəlinə biləcək patalogiyalar haqqında məlumat verir [2,14,11].



Eksudativ orta otitin müalicəsi. 3 həftə və daha qısa zamanda xəstəlik özünü göstərirsə buna kəskin orta otit, 3 aydan daha uzun bir vaxt davam edərsə bu xroniki eksudativ orta otit olaraq sinifləndirilir [7,39]. Kəskin mərhələdə konservativ müalicə aparılır [10,33]. Konservativ terapiya antibakterial [28,21,9], desensibilizasiya terapiya, buruna damar büzücü damcılar, lokal steroidlər, fizioterapevtik prosedurlar, eşitmə borusunun üfürülməsi və kataterizasiyası, təbil pərdəsinin pnevmomassajı tətbiq edilir [1,37,36]. Böyüklərdə intratimpanik steroid müalicəsi də eksudativ orta otit müalicəsində öz yerini tapmış metodlar sırasındadır [6,36,15].

Konservativ müalicə effekt vermədiyi halda cərrahi müdaxilənin gecikdirilməməsi məsləhətdir.Cərrahi müdaxiləyə göstərişlər [3,35,34]:

1. Timpan zarının daxilə retraksiyası
2. 40dB artıq eşitmə azlığı
3. Əlavə olaraq sensonevral eşitmə azlğı varsa
4. Uşaqlarada danışma gecikirsə [3].

Cərrahi müalicə dedikdə təbil pərdəsinin parasentezi, son zamanlar daha çox tətbiq olunan təbil boşluğunun uzunmüddətli drenajı məqsədi ilə şuntlama əməliyyatı nəzərdə tutulur [38]. Şuntlar (tüp) müxtəlif cür olur və xəstəyə və xəstəliyə uyğun olaraq fərdi seçilir [9]. Shepart (6-10 ay) və ya Paparella 1 (12-14ay) qısamüddətli tüplərdir. Leopold və McCobe uzun polietilen və Shepart şuntlarının ən az 6 ay qalmasını tapmış və təsdiqləmişdirlər./8/ Paparella 2 (16-18ay) uzunmüddətli tüplərdəndir [19,20].

Hər əməliyyatda olduğu kimi eksudativ orta otit zamanı təbil pərdəsinin parasentezinə göstərişlər olmalıdır [24,23]. Bunlar: Çox şiddətli otalgiya, ağır xəstəlik seyri, toksik görünüm, antimikrob müalicəyə cavabın olmaması, antimikrob müalicə alan uşaqlarada kəskin orta otit simptomlarının ortaya çıxması, yenidoğulan, immun yetməzlik [3,12].

Eksudativ orta otit zamanı təbil pərdəsinin şuntlamasına göstərişlər aşağıdakılardır:

1. Xroniki eksudativ otitis media
2. Təkrarlayan otitis media
3. Timpan zarının atelektaziyaları

4. Rezolusyası olmayan hemotimpanum [3,12].

Eksudativ orta otit zamanı şuntlamanın ağırlaşmaları: Otoreya, perforasiya, xolesteatom, sümükcük zədələnməsi, Jugulyar bulbus və ya karotis zədələnməsi, sensonevral eşitmə azlığı, timpanoskleroz, polip və ya qranulyasiya inkişafı, şuntun atılması və ya tıxanması şəklində rast gəlinir [3, 11].

Eksudativ orta otit zamanı şuntlama(tüp taxılması) əməliyyatının mənfi və müsbət tərəflərini aşağıda göstərildiyi kimi qruplaşdırmaq olar:

Müsbət tərəfləri: Eksudat xaric edilir, orta qulaq havalanır, mukoza düzəlir, eşitmə düzəlir. Neel və həmkarları şuntlama ilə orta qulaqda stabilləşən təyziqin mukozal sağalmaya və orta qulaq-mastoid hava hüceyrələri sisteminin havalanmasına müsbət təsirini iddia edirlər [7,17,18].

Mənfi tərəfləri: Miringoskleroz və ya timpanoskleroz əmələ gəlmə riski normaldan 5 dəfə artır, timpan zarında atrofik ocaqlar və retraksiya əmələ gəlmə riski normaldan 2 dəfə artır, şunt çevrəsində qranulyasiya (5%), şuntda tıxanma (7%), tez atılma (3.9%) və medial deplasman ilə orta qulağa düşmə (0.5%) ola bilir, orta qulağın "hava yastığı" təsirinin ortadan götürülməsinə səbəb olur və bu da otitis media ataklarını təkrarlamasına gətirib çıxara bilir, şunt yeri dəliyi qalıcı(2.2%) qala bilir, xolesteatom inkişaf edə bilir (0.7%) [7].

Son olaraq qeyd etmək lazımdır ki, eşitmə itkisi və bilateral eksudativ orta otiti olan uşaqlarad konservativ və cərrahi müalicə effektsiz qaldığı və tətbiq oluna bilmədiyi hallarda eşitmə cihazı istifadəsi dəyərləndirilməlidir [8,30,29].

ƏDƏBİYYAT

1. V.M Pənahian, N.M Hüseynov Kəskin orta otitlər dərs vəsaiti. Bakı, 2015, 120 s.
2. Palçun V.T., Maqomedov M.M., Talışinskiy Ə.M. və b. Otorinolarinqologiya. Dərslik (azərb dilində). M., 2018, s.18-165.
3. Qasımov C.L. Qulaq, burun, boğaz xəstəlikləri fənnindən test və situasion məsələlər. Dərs vəsaiti. Bakı, 2015, 222 s.
4. Hüseynov N.M., Əfəndiyev A.Z., Əhmədli T.A. Orucova L. Kəskin otitlərin diaqnostikası və müalicə üzrə klinik protokol. Bakı,2009, 28 s.
5. Ağalar S.A. Xroniki orta otitin və müxtəlif cərrahi müalicələrinin həyat keyfiyyətinə təsirinin müqayisələ qiymətləndirilməsi. T.ü.f.d. diss. Bakı, 2015, 171 s.
6. Erol Belgin, A.Sanem Şahlı Temel Odyolojı-2017, s. 123-135
7. Metin Önerci T., Alpin Güner E. Kulak burun boğaz baş boyun cerrahisi-otoloji. Ankara,2016, s. 180-220
8. Koç C. Kulak burun boğaz hastaliklari ve baş-boyun cerrahisi. 2004, s.153-68
9. Чигиринова Е.В. Совершенствование методов лечения острого среднего отита: Автореф. дисс. ... к. м. н. М., 2011, 41 с.
10. Тавартkиладзе Г.А., Ясинская А.А. Врожденные и перинатальные нарушения слуха / «Неонатология / Национальное руководство – краткое издание. М.: Геотар, 2013,Гл.30, с.804-816.
11. Тавартkиладзе Г.А. Клиническая аудиология. М., Медицина, 2013, 674 с.
12. Косяков С.Я. Избранные вопросы практической отохирургии. М.:МЦФЭР, 2012, 224 с.
13. Карнеева О.В. Хирургическая реабилитация детей с хронической воспалительной патологией среднего уха: Автореф. дисс. ... докт. мед. наук. М., 2012, 41.с.
14. Бобошко М.Ю. Речевая аудиометрия: учебное пособие. СПб: Изд-во СПбГМУ, 2012, 64 с.

15.Антогоева И.Б., Пискунов Г.З. Лекарственные средства в практике оториноларинголога. М.: МИА, 2012, с.144-174.

16.Bailey B.J., Johnson J.T. Baş Boyun Cerrahisi-Otolarengoloji. 2011, s.1265-1274

17.Nadol J.N., McKenna M.J. Kulak ve temporal kemik cerrahisi / çeviri editörü Nazım Korkut). 2011. s.257-269

18.Alper, Myers, Eibling Kulak. Burun Boğazda semptomdan Tanıya Tanıdan Tedaviye Algoritmik Yaklaşım, 2004, s. 34-39

19.Bellenger'in Otorinolaringoloji ve Baş Boyun Cerrahisi El kitabı. 2005, s.34-45

20.Takahashi H. The middle ear. The role of ventilation in disease and surgery. Berlin: Springer-Verlag, 2001, p.3-91.

21.Rob Ch., Smith R. Operative surgery. Eyes and ENT. Second edition. London, 1969, p.106-119.

22.American Academy of Pediatrics, Joint Committee on Infant Hearing Year 2007 position statement: Principles and guidelines for early hearing detection and intervention programs // Pediatrics, 2007, v.120, p.898-921.

23.Behrbom H., Kaschke O., Nawka T., Swift A. Ear, Nose and Throat Diseases with Head and Neck Surgery. 3rd edition. Thieme Stuttgart and New York, 2012, p. 17-173.

24.Brackmann D., Shelton C., Arriaga M. Otologic Surgery. Philadelphia: Saunders, 2010, 243 s.

25.Christensen, L., Smith-Olinde, L., Kimberlain, J., et al. Comparison of traditional bone-conduction hearing aids with the BAHA system// J Am Acad Audiol., 2010, v.21, p.267- 273.

26.Clinical practice guideline: sudden hearing loss// Otolaryngol Head Neck Surg., 2012, v.146(3), Suppl), p.1-35

27.Jahnke K. Middle ear surgery. Recent advances and future directions. Georg ThiemeVerlag, 2004: 73-93

28.Rob Ch., Smith R. Operative surgery. Eyes and ENT. Second edition. London, 1969, p.106-119.

29.Teagle H.F., Roush P.A., Woodard J.S. et al. Cochlear implantation in children with auditory neuropathy spectrum disorder// Ear Hear, 2010, v.31, p.325-335.

30.Sampaio A.L., Araujo M.F., Oliveira C.A. New criteria of indication and selection of patients to cochlear implant // International journal of otolaryngology, 2011, v.2011, p.573968.

31.Wilkins M., Hall-Stoodley L., Allan R.N., Faust S.N. New approaches to the treatment of biofilm-related infections // J Infect., 2014, v.69, S47-52

32. Miura M.S., Mascaro M., Rosenfeld R.M. Association between otitis media and gastroesophageal reflux: a systematic review // Otolaryngol Head Neck Surg., 2012, v.146, p.345-52

33.Mair E.A., Moss J.R., Dohar J.E. et al. Randomized Clinical Trial of a Sustained-Exposure Ciprofloxacin for Intratympanic Injection During Tympanostomy Tube Surgery // Ann Otol Rhinol Laryngol., 2015, v.20.

34.. Barclay L. Postop Tympanostomy Tube Obstruction Common. Medscape Medical News. Jul 11 2014. [Full Text]. 36.

35. Conrad D.E., Levi J.R., Theroux Z.A., et al. Risk Factors Associated With Postoperative Tympanostomy Tube Obstruction // JAMA Otolaryngol Head Neck Surg., 2014, v.10.

36.Amer H.S,. El-Anwar M.W., Elfeky A.E. The effiacy of adjuvan intratymanic steroid treatmen for ootitis media with effusion in children // Int Arch Otorhinolaryngol., 2016, v.20(3), p.244-7

37.Griffin G., Flynn C.A. Antihistamines and/or decongestants for otitis media with effusion (OME) in children // Cochrane Database Syst Rev., 2011, v.9

38.Williamson I., Vennik J., Harnden A. et al. Effect of nasal balloon autoinflation in children with otitis media with effusion in primary care: an open randomized controlled trial // CMAJ, 2015, v.187, p.961-9

39.Rosenfeld RM, Shin JJ, Schwartz SR, et al. Clinical practice guideline: otitis media with effusion (update) // Otolaryngol Head Neck Surg., 2016, v.154(1 Suppl), S1-S41.

40.Frellick M. Otitis Media: New Guideline Includes Screening At-Risk Kids. Medscape Medical News. 2016, Feb 4

Резюме

Эффективность шунтирование в лечении ексудативного средного отита

Н.А.Мурадова, В.М.Панахиан

Экссудативный средний отит это невосполительное заболевание среднего ухо. В основном в этиологии этой заболевании играет роль дисфункция евстахивой трубы. Это одно из распростроненных заболеваний среди детей во всем мире. Лечение экссудативного среднего отита

консервативное и хирургическое. В статье предстовлены современные хирургические методы и их преимущество и недостатки.

Summary

The effectiveness of shunting in the treatment of exudative otitis media

N.A.Muradova, V.M.Panahian

Exudative otitis media is a non-inflammatory disease of the middle ear. In the etiology of this disease, basically plays a role dysfunction of the Eustachian tube. This is one of the common diseases among children around the world. Treatment of exudative otitis media is conservative and surgical. The article presents modern surgical methods and their advantages and disadvantages.

Daxil olub: 10.07.2019

Пробиотические средства в комплексном лечении воспалительных заболеваний пародонта

Садыгова Н.Н., Мамедов Ф.Ю., В.М.Гасанов

Азербайджанский медицинкий университет, г. Баку

Açar sözlər: parodontit, indekslər, simbiotik, müalicə

Ключевые слова: пародонтит, индексы, симбиотик, лечение

Keywords: periodontitis, indexes, symbiotics, treatment

Воспалительные заболевания в тканях пародонта, которыми, по некоторым данным, поражаются, в среднем, 91-97 % взрослого, приводят к потере зубов, появлению в полости рта очагов хронической одонтогенной инфекции, снижению реактивности на местном и общеорганизменном уровнях, микробной сенсибилизации [1,2,3].

Пародонтопатии, как правило, являются и строго ограниченной локальной патологией, а также могут представлять с собой клинические проявления серьезных системных заболеваний. При этом, страдает общее состояние здоровья человека, качество его жизни, то есть ролевое и физическое функционирование в обществе. Все вышеизложенное предопределяет превращение проблемы высокого уровня распространенности и интенсивности воспалительных заболеваний пародонта в значимую социальную и общемедицинскую проблему [4,5].

Существует много теорий возникновения и развития заболеваний пародонта воспалительного генеза, но ни у кого не вызывает сомнений, что их развитие напрямую связано с активностью нормальной и патогенной микрофлоры полости рта или зубной бляшки [6,7]. Имеющиеся сегодня в арсенале врачей лекарственные средства для улучшения стоматологического здоровья населения чрезвычайно многочисленны [8,9,10,11]. Известна эффективность некоторых эндогенных средств, витаминов, минералов и пробиотических средств для нормализации функции определенных органов и систем организма и в том числе повышения защитных свойств тканей полости рта [12,13,14]. В этой связи одним из перспективных научных направлений современной практической стоматологии является оценка эффективности применения пробиотиков в качестве дополнительной поддерживающей терапии в традиционном комплексном лечении, базирующемся на профессиональной гигиене полости рта [15].

Таким образом, наиболее эффективным и перспективным методом лечения и профилактики развития стоматологических заболеваний являются все средства и методы, но при условии их максимально щадящего воздействия, обеспечивающего сохранение полноценного биоценоза полости рта.

Цель исследования повышение эффективности лечения и профилактики воспалительных заболеваний пародонта путём включения в комплекс терапевтических мероприятий пробиотических средств.

Материалы и методы исследования. В исследовании также участвовало и 30 врачей-стоматологов в возрасте от 35 до 55 лет, среди которых было проведено анкетирование для выявления наиболее часто используемых антибиотиков и других терапевтических средств, в частности, пробиотиков, синбиотика и т.д. Стаж работы врачей в среднем от 8 до 25 лет. Согласно Международной статистической классификации болезней и проблем, связанных со здоровьем, 10-

ого пересмотра, принятой в 1999 году Всемирной Ассамблеей Здравоохранения (МКБ-10) у всех пациентов, отобранных для углублённого клинического обследования и лечения, был диагностирован пародонтит лёгкой и средней степени тяжести. Всем пациентам проводили гигиеническое обучение.

При осмотре внимание обращали на оклюзионные нарушения, состояние зубных рядов, имеющие определенное значение в развитии воспалительных заболеваниях пародонта. В начале исследования все пациенты были обучены технике чистки зубов, при наличии твердых зубных отложений осуществлялась профессиональная гигиена полости рта, которая включала санацию полости рта, удаление наддесневых и под-десневых зубных отложений мануально и с помощью ультразвукового аппарата с последующим полированием поверхностей зубов с помощью циркулярных головок и полировочной пасты.

Пациенты (38) с пародонтитом легкой степени были разделены на 3 группы наблюдения. контрольная группа-12, в которой лечение ограничивалось только гигиеническим обучением и проведением профессиональной гигиены. Группа сравнения (13 человек) получала лечение по общепринятой стандартной схеме и зубную пасту Curasept ADS в составе индивидуальной гигиены полости рта. Основная группа (13 человек) получала стандартную терапию и зубную пасту Curasept ADS и синбиотик Максилак (пробиотик + пребиотик). Динамические наблюдения проводили в сроки: 1,3,6 месяцев. В дальнейшем участникам исследования рекомендовали чистить зубы дважды в день не менее трех минут. Продолжительность исследования составила 6 месяцев. В ходе контрольных стоматологических осмотров оценивали количество и локализацию зубного налета – по индексу эффективности гигиены полости рта PHP (Podshalley, Haley, 1968); степень воспаления десны – по индексу гингивита GI (Loe, Silness, 1963); кровоточивость десны – с помощью упрощенного индекса кровоточивости десневой борозды SBI (Muhlemann, 1971).

Pasientlərin tüpürcəyində kortizolun səviyyəsi vəhəyəcanlılığın müxtəlif səviyyələri bizim tərəfimizdən aşkar edilmişdir.Bizim tərəfimizdən müəyyən olunmuşdur ki 1-ci qruppda həyəcanlılıqın aşağı səviyyəsi ilə (5-8 bal) kortizol miqdarı 19.8±1.4 nmol/l. 2-ci qruppda orta həyəcanlılıqla (9-11 bal), kortizolun səviyyəsi həmçinin artması müşahidə olunmuşdur 62.3±6.5 nmol/l. 3-cü qrupp xəstələrdəyüksək həyacanlılıqla (12-17 bal) kortizolun artımı qeyd olunmuşdur və orta hesabla 81.5±12.7 nmol/l təşkil edirdi. 4-cü qrupp xəstələrdəhəyacanlıqın çox yüksək göstəricisi ilə (18-20 bal) kortizolun ən yüksək səviyyəsi aşkar olunmuşdur – 278.4±15.1 nmol/l. Bizim tərəfimizdən tüpürcəkdə kortizolun dəişmə konsentrasiyası və həyacanlıq səviyyəsi arasında korrelasion qarşılıqlı əlaqə quraşdırılmışdır. Korrelasiya əmsalı r=0.78 təşkil edirdi. Tüpürcəkdə kortizolun konsentrasiyası daha çoxhəyacanlılıqın çox yüksək göstəricisi ilə olan xəstələrdə aşkar edilmişdir.

Bizim tərəfimizdən Spilberqer-Xanin şkalasına görə həyacanlılıqın müxtəlif dərəcəsi ilə parodontitli xəstələrdə ağız suyunda ümumi zülalın miqdar xüsusiyyətləri aşkar edilmişdir. Bildiyiniz kimi, ağız suyunda zülalların miqdarı azdır, onun konsentrasiyası xeyli azdır, nəinki qanın plazmasında. Təsdiq edilmişdir ki, ümumi zülalın konsentrasiyası orta hesabla 500 mq-dan 4 q/l qədər təşkil edir. Bizim müayinələrimizdə praktik sağlam insanlar olan qruppda ümumi zülalın səviyyəsi orta hesabla 1.14±0.1q/l, albuminlərin – 0.54±0.05 q/l, qlobulinlərin – 0.6±0.06 q/l, a/q əlaqəsi – 0.93±0.08, İL-1β – 42.2±6.4 pq/ml təşkil edirdi.

Pasientlərin həyacanlıq səviyyələrin müxtəlif qrupplar üzrə bölünməsi onların tüpürcəklərində olan zülalların dəyişməsi ilə qanunda uyğunluq yaradır. Ağız suyunda iltihab zülalların səviyyələrini müayinə zamanı təyin olunmuşdur ki, 1-ci qruppda həyacanlıqın aşağı səviyyəsi ilə ümumi zülalın səviyyəsi orta hesabla 1.3±0.1 q/l, albuminlərin 0.8±0.06 q/l, qlobulinlərin 0.5±0.09 q/l, a/q əlaqəsi – 1.74±0.3, İL-1B – 49.9 pq/ml. 2-ci qruppda həyacanlıqın orta həyəcanlıq səviyyəsi ilə ümumi zülalın səviyyəsi orta hesabla 1.5±0.1 q/l, albuminlərin 0.9±0.07 q/l, qlobulinlərin 0.5±0.07 q/l, a/q əlaqəsi – 2.1±0.3, İL-1β – 51.1±56 pq/ml. 3-ci qruppdaağız suyunda zülalların səviyyəsində eyni tendensiya qeyd edilmişdir. Ümumi zülalın artımı – 1.8±0.1q/l, albuminlərin – 1.38±0.1 q/l, İL-1β – 59.4±6.9 pq/ml, a/q səviyyəsi – 3.9±0.9 və qlobulinlərin azalması – 0.44±0.1 q/l qədər praktik sağlam insanların göstəriciləri ilə olan qruppda maqaisədə. 4-cü qruppda pasientlərdə ümumi zülalın, albuminlərin, və İL-1β göstəriciləri statistik olaraq daha mənalı olmuşdular. Ümumi zülalın səviyyəsi - 1.7, albuminlər - 2.6, İL-1β - 1.5 dəfə artmışdılar və qlobulinlərin səviyyəsi – 1.5 dəfə azalmışdır ($p<0.05$) kontrol qruppda olan rəqəmlərə nisbətən.

Ümumi zülalın artırılmış rəqəmləri nəzərə alaraq, onları parodont toxumalarında olan zülal quruluşun parçalanması ilə bağlamaq olar, həmçinin hematosalivator çəpərin nüfuzu ilə bağlıdır ki, qanın zərdabından olan zülallar ağız suyuna düşür.

Korrelasion analiz düz müsbət qarşılıqlı əlaqələrini ümümi zülal və həyacanlılıq göstəricilər arasında Spilberqer-Xanin şkalası üzrə (r=0.3), albuminləırin səviyyələrin (r=0.33), İL-1β (r=0.4) və qlobulinlərin səviyyəsi ilə mənfi qarşılıqlı əlaqənin (r=-0.3) mövcudluqunu göstərdi.

Beləliklə ümumi zülalın, albuminlərin, İL-1β doğru ən yüksək göstəriciləri və doğru qlobulinlərin aşağı göstəriciləripasientlərin yüksək və çox yüksək həyacanlıq səviyyəsi ilə bizim tərəfimizdən aşkar edilmişdir. Korrelasion analiz ümumi zülalın, albuminlərin və İL-1β səviyyələrini, Spilberqer-Xanin şkalası üzrə həyacanlılıq səviyyəsini təsdiq edir. Ağız suyunun biokimyavi müayinələri (ümumi zülal, albuminlər, İL-1β) parodontitin kəskinləşmiş mərhələsində olan göstəricilər həyacanlıq xəstələrdə də öz əksini tapa bilərlər.

Apardığımız müayinələr göstərdi ki, yüksək və çox yüksək həyacanlıqı ilə olan xəstələrdə kortizolun miqdarı aşağı və orta həyanlıqı ilə olan xəstələrə nisbətən bir neçə dəfə (4-14dəfə) artmışdır.Bunu nəzərə

alaraq demək olar ki, parodontitli xəstələrdə tüpürcəkdə kortizolun olması qorxu pozuntuların ağırlıq dərəcəsini göstərir.

ƏDƏBİYYAT

1. Белая Ж.Е., Рожинская Л.Я., Мельниченко Г.А., Дедов И.И. Современный взгляд на скрининг и диагностику эндогенногогиперкортицизма // Журнал Проблемы эндокринологии Выпуск, 2012, №4

2. Вавилова Т.П., Янушевич О.О., Островская И.Г. Слюна, Аналитические возможности и перспектива, М., Издательство БИНОМ, 2014, 312с.

3. Гажва С.И., Горячева Т.П. Психоэмоциональный статус пациентов до и после стоматологического вмешательства // Современ. проблемы науки и образования, 2014, №4, с.21-24.

4. Подколзин А.А., Большаков Г.В., Шаныгина Д.В., Гуревич К.Г. Выделение кортизола со слюной у больных артериальной гипертензий при стоматологическом стрессе: индивидуальные особенности // Биомед. журн., 2001, №2, Ст. 41, с.209-211.

5. Трухачева Н.В. Математическая статистика в медико-биологических исследованиях с применением пакета statistica. М.: ГЭОТАР- Медиа, 2012, 384с.

Резюме

Изучение в слюне гормона кортизола и воспалительных белков в слюне у больных с пародонтитом и различным уровнем тревожно-фобических расстройств

Р.Н.Солтанов, А.Р.Алиев, Г.К.Гаджиева

Обследовано 22 больных с пародонтитом легкой и средней степенью тяжести. Созданы 4 группы больных по шкале Спилбергер-Ханина. В слюне у больных определяли: кортизол, общий белок, альбумины, глобулины, IL-1β. Содержание кортизола у больных с высоким и очень высоким уровнем тревожности было повышено в несколько раз (4-14 раз)относительно больных с низким и средним уровнем тревожности. Повышенный уровень кортизола сочетался с повышением концентрации общего белка, альбуминов, IL-1β, в слюне и максимальное повышение белков определялось у больных с высоким и очень высоким уровнями тревожности.

Summary

Research of cortisol hormon and inflammatory proteins in saliva among the patients with periodontitis and varuous level ofanxiety-phobic disorders

R.N. Soltanov, A.R. Aliyev, G.K.Gajiyeva

We checked up 22 patients with periodontitis of mild and moderate severity.Created 4 groups by Spilberqer-Khanin scale. Cortisol, general protein, albumins, globulins and IL-1β indicators were calculated in saliva of patients. Content of cortisol among the patients with high and highest level of anxiety were increased into the several times (4-14 times) compared with patients of low and medium level of anxiety. Increased level of cortisol combined with increase of general protein, albumins, globulins, IL-1β concentration in saliva and maximal increase of proteins determined among the patients with high andhighest levels of anxiety.

Daxil olub:30.07.2019

Tiroid düyünlərinin diaqnostiksında elastoqrafiya və Doppler sonoqrafiya müayinələrinin müqayisəli təhlili

L.Z.Ağabəyli
Azərbaycan Tibb Universitetei, Bakı

Açar sözlər: tiroid düyünləri, elastoqrafiya, Doppler sonoqrafiya
Ключевые слова: узлы щитовидной железы, эластография, Допплер соногрaфия
Key words: thyroid nodules, elastography, Doppler sonography

Ultrasəs cihazlarının diaqnostik imkanları çərçivəsində tiroid düyünlərinin sərtliyini və qan təhcizatı xüsusiyyətlərini tədqiq etmək üçün istifadə olunan elastoqrafiya və Doppler sonoqrafiya müayinələri (DSM), düyünlərin proqnozlaşmasında və xəstənin kliniki aparılmasında böyük rol oynayır [1]. Son illərin ədəbiyyat məlumatına görə xoşxassəli və bədxassəli düyünlərin qan təhcizatı bir sıra parametrlərinə görə bir-birindən fərqlənir[2]. Müxtəlif müəlliflərin bu mövzuda fikirləri bəzi hallarda üst-üstə düşmür [3-4]. Həmçinin, daha yeni metod olan elastoqrafiya haqqında olan fikirlər də bir mənalı olmayıb, tədqiqat üçün açıq mövzudur[5-9]. Elastoqrafiya müayinəsi zamanı toxuma sərtliyi yarımavtomatik olaraq ölçülərək iki parametrlə qiymətləndirilir. İlkin olaraq, düyünün rəngi vizual olaraq qiymətləndirilərək, 4 ballıq sistemlə təsnif olunur [10]. Bu parametr elastiklik skoru (ES) adlanır. İkincisi isə tədqiqatçını maraqlandıran sahə (düyün) və ətraf sağlam vəz toxuması seçilərək elastiklik nisbəti (Strain Ratio-SR) hesablanır. SR normal toxuma deformasıyasının düyün deformasiyasına nisbətini göstərərək, cihaz vasitəsi ilə avtomatik hesablanır. Sərt toxumalarda SR yüksək qiymətlərə malik olub, bədxassəlilik göstəricisi olaraq qiymətləndirilir[11-13].

Tədqiqatın **məqsədi** tiroid düyünlərinin diaqnostikasında elastoqrafiya və Doppler sonoqrafiya metodlarının müqayisəli təhlilini aparmaqdır.

Tədqiqatın material və metodları. Tədqiqata tiroid vəzində bir və ya bir neçə düyünü olan 168 xəstə daxil edilib. Xəstələrdən kişi 23-ü kişi (14%), 143-ü qadın (86%) olmuşdur. Kişilərin yaşı 38-61, qadınların yaşı 13-73, orta yaş 47,1±1,11 olmuşdur.

Bütün xəstələrə Doppler sonoqrafiya, elastoqrafiya müayinələri və diaqnozun verifikasiyası üçün İİAB aparılmışdır. Hər iki instrumental müayinə HİTACİ AVİUS Hİ VİSİON ultrasəs cihazında, 8-12MHs tezliyə malik xətti transdyuser vasitəsi ilə aparılmışdır. EQ müayinəsində iki parametr qiymətləndirilmişdir: elastiklik göstəricisi (elasticiti score-ES) və gərginlik nisbəti (starin ratio-SR). ES görə düyünlər 4 tipdə ayrılır: I tip-yaşıl rəngə boyanan düyünlər, yumşaq düyün olaraq qiymətləndirilmişdir; II tip -əsasən yaşıl rəngə boyanmış, strukturunda mavi sahələr olan düyünlər, yarım-yumşaq düyün olaraq qiymətləndirilmişdir; III tip-əsasən mavi rəngə boyanmış, strukturunda yaşıl sahələr olan düyünlər, yarım-sərt olaraq qiymətləndirilmişdir; IV tip-mavi rəngə boyanan düyünlər, sərt olaraq qiymətləndirilmişdir. Sağlam vəzi toxuması da yaşıl boyanmışdır. SR düyün və vəzi toxuması seçilərək, cihaz tərəfindən avtomatik olaraq hesablanmışdır. Tədqiqat çərçivəsində SR kəmiyyəti 0,6-5,0 arasında dəyişmişdir.

DSM-də düyünlər qan təhcizatının xüsusiyyətlərinə görə qiymətləndirilmişdir. Qan təhcizatının intensivliyi dəyərləndirilərkən: damarlardan 5-6-ya qədər rəngli siqnallar zəif, 6-10 rəngli siqnal orta, 10-dan çox siqnal isə qüvvətli qan təhcizatı - hipervaskulyar olaraq, heç bir siqnal alınmaması isə avaskulyarlıq kimi qiymətləndirilmişdir [3]. Düyünlərin qan təhcizatının növlərinə görə DSM -də düyünlər avaskulyar, mərkəzi, periferik və qarışıq tipdə xarakterizə olunaraq təhlil edilmişdir [4].

Xəstələr 3 qrupa bölünərək təhlil edilmişdir. I qrupa (n_I=126) Bethesda təsnifatına görə xoşxassəli kimi qiymətləndirilən və nondiaqnostik düyünlər daxil edilmişdir. I qrup "xoşxassəli" qrup kimi qiymətləndirilmişdir. II qrupa(n_{II}=23) sitoloji cavabı qeyri-müəyyən atipiya və neoplaziya olan xəstələr daxil edilərək, qrup "şübhəli" olaraq qiymətləndirilmişdir. III qrupa(n_{III}=29) sitoloji rəydə bədxassəlilik şübhəsi və bədxassəli olan xəstələr daxil edilərək "bədxassəli" olaraq dəyərləndirilmişdir.

Tədqiqat nəticəsində əldə olunmuş materialların statistik işlənməsi zamanı parametrik üsul tətbiq edilmişdir. Hesablamalar EXCEL elektron cədvəllərində və SPSS 19.0 proqramında aparılmışıdır. Müayinələrin informativliyini yoxlamaq üçün aparılan hesablamalara ancaq Bethesda təsnifatına görə II (xoşxassəli n=116), V (bədxassəli şübhəsi, n=7) və VI (bədxassəli, n=16) kateqoriyaya daxil olan xəstələr aid edilmişdir. Bu hesablamalarda elastoqrafik və Doppler sonoqrafik parametrlərin həssaslığı, spesifikliyi, dəqiqliyi, müsbət və mənfi proqnostik göstəriciləri hesablanmışdır.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Qruplar arasında aparılan müqayisəli təhlil zamanı qan təhcizatının intensivliyinə görə hipervaskulyar olan düyünlər statistik cəhətdən etibarlı dərəcədə III qrupda (bədxassəli) izlənmişdir ($p<0,001$). Eyni müqayisə qan təhcizatının tipinə görə aparılmışdır.

Nəticədə mərkəzi və qarışıq tip qan təhcizatına malik düyünlərin bədxassəli törəmələr (III qrup) üçün səciyyəvi olduğu aşkarlanmışdır (p<0,001).

Elastoqrafik müayinənin nəticələri əsasında qruplar arasında müqayisə zamanı, yüksək SR indeksinə və IV tip ES malik düyünlərin bədxassəli törəmələr üçün daha xarakterik olduğu izlənmişdir (p<0,05).

Tədqiq olunan xəstələr arasında düyünlərin sərtlik göstəricilərinə dair elastoqrfiya müayinəsinin, qan təhcizatının xüsusiyyətlərinə görə DSM-nin parametrlərinin informativliyi haqqında məlumat cədvəldə verilmişdir.

Cədvəl

Elastoqrafiya və Doppler sonoqrafiya müayinələrinin diaqnostik informativlik göstəriciləri

Parametrlər	Həssaslıq %	Spesifiklik %	Dəqiqlik %	PPV %	NPV %
Elastiklik skoru	82,6	67,2	69,8	33,3	95,1
Gərginlik nisbəti	72,7	82,6	81,2	40,0	95,0
Hipervaskulyar düyünlər	17,4	98,4	85,9	66,7	86,7
Mərkəzi və qarışıq tip vaskulyar düyünlər	43,5	81,7	75,8	30,3	91,2

Cədvəldən göründüyü kimi bədxassəli törəmələrin diaqnostikasında EQ müayinəsinin həssaslığı kifayət qədər yüksəkdir. Elastiklik skori(ES) parametrinə görə düyünlü uru olan xəstələr arasında bədxassəli düyünlərin aşkarlanmasının diaqnostik həssaslığı (82,6%), gərginlik nisbəti(SR) parametrinin həssaslığına nisbətən daha yüksəkdir (72,7%). EQ müayinə nəticəsində ES parametrinə görə bədxassəliliyə meylliliyin inkar olunması, yəni spesifiklik, 67,2% olmuşdur. Bəd və xoşxassəli düyünləri ayırd etmə qabiliyyəti, dəqiqlik 69,8% olmuşdur. ES parametrinə görə elastoqrafik müayinənin sərt düyün göstərdiyi hallarda bədxassəlilik ehtimalı, mənfi proqnostik göstərici (PPV) 33,3%, yumşaq düyün göstərdiyi hallarda xoşxassəlilik ehtimalı, müsbət proqnostik göstərici (NPV) 95,1% olmuşdur.

Eyni hesablamalar elastoqrafik müayinənin gərginlik nisbəti (SR) parametrinə görə də aparılmışdır. Müayinənin spesifikliyi və dəqiqliyi müvafiq olaraq 82,6%, 81,2% olmuşdur. Elastoqrafik müayinənin SR parametrinə görə sərt düyün göstərdiyi hallarda bədxassəlilik ehtimalı, mənfi proqnostik göstərici (PPV) 40%, yumşaq düyün göstərdiyi hallarda xoşxassəlilik ehtimalı, müsbət proqnostik göstərici (NPV) 95,0% olmuşdur.

Hipervaskulyarlıq parametrinə görə DSM həssaslığı bədxassəli törəmələrin diaqnostikasında və proqnozlaşdırılmasında 17,4% olmuşdur. Hipervaskulyar düyünün izlənmədiyi hallarda düyünün xoşxassəli olma ehtimalı, yəni hipervaskulyarlıq parametrinin spesifikliyi 98,4% olmuşdur. Parametrin dəqiqliyi, xəstələri sağlamlardan seçmə bacarığı 85,9% təşkil etmişdir. Hipervaskulyar düyün müşahidə edilən zaman bədxassəlilik ehtimalı, pozitiv proqnostik göstərici (PPV) 66,7%, hipervaskulyar düyün izlənməyən hallarda xoşxassəlilik ehtimalı, neqativ proqnostik göstərici (NPV) 86,7% təşkil etmişdir. Düyünlərin qan təhcizatının növünə görə aparılan təhlil zamanı mərkəzi və qarışıq tip vaskulyarlıq bədxassəliliyə, periferik tip qanlanma və avaskulyarlıq xoşxassəliliyə dair əlamət kimi qəbul edilmişdir [4]. II qrup(şübhəli düyünlər) bu hesablamalara daxil edilməmişdir. Mərkəzi və qarışıq tip vaskulyarlıq parametrinin həssaslığı, bədxassəli düyünləri təyin etmə bacarığı 43,5%, spesifikliyi – xoşxassəli düyünləri seçmə qabiliyyəti 81,7% olmuşdur. Xəstələri sağlamlardan ayırma xüsusiyyəti, dəqiqlik əmsalı 75,8% təşkil etmişdir. Adı keçən parametrin müsbət olduğu hallarda bədxasəlilik ehtimalı, pozitiv proqnostik göstərici (PPV) – 30,3%, mənfi olduğu hallarda xoşxassəlilik ehtimalı neqativ proqnostik göstərici (NPV) – 91,2% olmuşdur.

Nəticə. Beləliklə, qalxanvari vəzin bədxassəli şişlərinin proqnozlaşdırılmasında elastoqrafiya müayinəsinin həssaslığı, Doppler sonoqrafiya müayinəsinin isə spesifikliyi yüksək göstəricilərə malikdir. Doppler sonoqrafik müayinə zamanı aşkarlanan düyünlərin hipervaskulyar və eyni zamanda qan təhcizatının mərkəzi və qarışıq tipinə malik olması, elastoqrfik müayinədə isə yuxarı sərtlik göstəriciləri qalxanabənzər vəzi düyünlərinin bədxassəlilik şübhəsini əhəmiyyətli dərəcədə artırır və bu xüsusiyyətlərə malik düyünlərin mütləq olaraq incə iynə aspirasion biopsiya müayinəsi aparılması tövsiyyə edilir. Beləliklə, hər iki metod tiroid düyünlərinin xüsusiyyətləri haqqında diaqnostik daha dəqiq məlumat əldə etməyə imkan verir və bir-birini tamamlayır.

ƏDƏBİYYAT

1. Haugen B.R., Alexander E.K., Bible K.C. et al. 2015 American Thyroid Association Management Guidelines for Adult Patients with Thyroid Nodules and Differentiated Thyroid Cancer: The American Thyroid Association Guidelines Task Force on Thyroid Nodules and Differentiated Thyroid Cancer // Journal Thyroid., 2016, v.26, p.1-133.

2. Ma J.J., Ding H., Xu B.H. et al .Diagnostic performances of various gray-scale, color doppler, and contrast-enhanced ultrasonography findings in predicting malignant thyroid nodules // Journal Thyroid., 2014, v.24 No. 2, p.355-363.

3. Posario P.W., Silvia A.L., Borqes M.A. et al. Is Doppler ultrasound of additional value to gray-scale ultrasound in differentiating malignant and benign thyroid nodules? // Archives of Journal Endocrinology and Metabolism, 2015, v.59, p.79-83.

4. Moon H.J., Kwak J.Y., Kim M.J. et.al .Can vascularity at power Doppler us help predict thyroid malignancy? // Journal Radiology, 2010, v.255, p.260-269.

5. Kobayashi K., Hirokawa M., Yabuta T. et al. Tumor protrusion with intensive blood signals on ultrasonography is a strongly suggestive finding of follicular thyroid carcinoma // Journal Medical Ultrasonoghraphy, 2016, v.18, p.25-29.

6. Максимова Н.А., Кит О.И., Ильченко М.Г., Арзамасцева М.А. Ультразвуковая диагностика новообразований щитовидной железы с применением эластографии // Современные проблемы науки и образования, 2016, № 3, с.24-30.

7. Colakoglu B., Yildirim D., Alis D. et al. Elastography in Distinguishing Benign from Malignant Thyroid Nodules // J Clin Imaging Sci., 2016, v.6, p.51-60

8. Zhang F.J., Han R.L., Zhao X.M. The value of virtual touch tissue image (VTI) and virtual touch tissue quantification(VTQ) in the differential diagnosis of thyroid nodules // European Journal of Radiology, 2014, v.83, p. 2033-2040.

9. Kagoya R., Monobe H., Tojima H. Utility of elastography for differential diagnosis of benign and malignant thyroid nodules // Otolaryngol Head Neck Surg. 2010, p.230-234

10. Gu J., Du L., Bai M. et al. Preliminary Study on the diagnostic value of acoustic radiation force impulse technology for differentiating between benign and malignant thyroid nodules // J Ultrasound Med, 2012, v.31, p.763-771.

11.Friedrich-Rust M., Romenski O., Meyer G. Acoustic Radiation Force Impulse-Imaging for the evaluation of the thyroid gland: A limited patient feasibility study // Ultrasonics 2012, v.52, p. 69-74.

12.Зыкин Б. И., Постнова Н. А., Медведев М. Е. Эластография: анатомия метода // Променева діагностика, променева терапія. 2012. № 2–3. С. 107–113.

13.Azizi G., Keller J., Lewis M. et al. Performance of elastography for the evaluation of thyroid nodules: a prospective study // Thyroid., 2013, v.23(6), p.734-740

Резюме

Сравнительной анализ результатов Допплер сонографии и эластографии в диагностики узлов щитовидный железы

Л.З.Агабекли

Целью работы явилось сравнение анализ результатов Допплер сонографии и эластографии в диагностики узлов щитовидный железы В исследование включены 166 больных (23 мужчин (14%), 143 (86%) –женщин) с узлами щитовидной железы (всего 178 узлов).Средний возраст больных 47,1±1,11 лет. Больным были проведены Допплер сонографическое исследование, эластография и тонкоигольная аспирационная биопсия. Пациенты были разделены на 3 группы: I группа-«доброкачественная» (узлы I и II категории по классификации Bethesda, n_I=126), II группа “подозрительные” (категории III и IV по Bethesda, n_{II}=23) и III группа “злокачественные” (категории V и VI по Bethesda, n_{III}=29). При диагностике узлов щитовидной железы эластография обладает высокой степенью чувствительности, а допплерография - высокой степенью специфичности.

Summary

Comparative analysis of the results of Doppler sonography and elastography in the diagnosis of thyroid nodules

L.Z. Aghabayli

The aim of the investigation was compare analysis of Doppler sonography and elastography results in the diagnosis of thyroid nodules. The study involved 168 patients with thyroid nodules, among them there were 23 (14%) male and 143 (86%) female patients; mean age being 47.1±1.11 years. All the patients underwent standard diagnostic procedures: Doppler sonography, elastography, fine-needle aspiration biopsy of nodules followed by cytological analysis. Patients were consisting of three groups: I group – benign (I and II categories according to Bethesda classification, n=126); II group – suspicious (Bethesda III and IV, n=29); and III group – malign (Bethesda V and VI, n=23). In the diagnosis of thyroid nodules, elastography has a high degree of sensitivity and Doppler sonography has a high degree of specificity.

Daxil olub:29.07.2019

Brusellozun bəzi infeksion və qeyri-infeksion xəstəliklərdə differensial diaqnozu haqqında

Ə.H.Vəliyev, İ.P.Bayramov, V.N.Cavadzadə, Ü.M.Məcidova, N.O.Məmmədova
Azərbaycan Tibb Universitet, Bakı

Açar sözlər: bruselloz, differensial diaqnostika
Ключевые слов: бруцельез, дифференциальная диагностика
Key words: brucellosis, differential diagnosis

Əksər infeksion xəstəliklərə nisbətən son illər brusellyozla xəstələnmə xeyli az rast gəlir. Məhz buna görə praktik həkimlərin brusellozun erkən diaqnozuna sayıqlığı azalmış, onun əsas xüsusiyyətlərinin unudulmasına gətirmişdir. Odur ki, brusellozun səhv diaqnozuna daha tez-tez rast gəlinir. Əksər hallarda bir sıra infeksion və qeyri-infeksion xəstələr buna heç bir göstəriş olmadan bruselloz diaqnozu ilə müalicə olunurlar. Belə səhv diaqnoz və müalicə taktikası disbakterioz, allergik və toksiki dəyişikliklər törətməklə yanaşı, hamiləlik və döl üçün də xüsusi təhlükə təşkil edir [1,2,3,4,5].

Tədqiqatın material və metodları. Biz bruselloz diaqnozu ilə stasionara göndərilmiş 86 xəstə müşahidə etmişik. Onların 64-ü qadın, 22-si – kişi idi. Xəstələrin 23 nəfəri 30 yaşa gədər, 47 nəfəri – 30-40 yaş, 16 nəfəri – 40-45 yaş arasında olmuşdur. 57 nəfərə bruselloz diaqnozu ilk dəfə, 29-na təkrarən təyin edilmişdir. Təkrarən bruselloz müəyyən edilən xəstələrin 17-si 6 ay, 8-i – bir il, 4-ü – 3 il ərzində vaxtaşırı "bruselloza" görə başqa müalicə vasitələri ilə yanaşı antibiotiklər almışlar. Klinik-epidemioloji məlumatları, periferik qanın morfoloji tərkibini, qanın biokimyəvi göstəricilərini, seroloji və immunoloji reaksiyaların nəticələrini və xəstələr üzərində dinamik müşahidə məlumatlarını təhlil edərək 86 xəstədən ancaq 15 nəfərində (18,6%) brusellozun yarımkəskin və xroniki formaları təstiq olunmuşdur. Qalan 71 xəstədə aşağıdakı diaqnozlar müəyyən edilmişdir: xroniki pielonefrit və sistit 11 nəfər, xroniki daşlı ya daşsız xolesistoxolangit – 10, endometrit və salpingit – 3, revmatik qızdırma – 7, revmatoid artrit – 5, tireotoksikoz – 5, şiş xəstəlikləri – 7, septiki endokardit – 2, sepsis – 5, infeksion mononukleoz – 7, xroniki toksoplazmoz – 2, qeyri-spesifik poliartrit – 4, səbəbi məlum olmayan subfebrillitet – 6 nəfər.

Bruselloz təstiq olunmayan xəstələrin diaqnozlarını dəqiqləşdirmək üçün əlavə olaraq USM və rentgenoloji müayinə, kompyuter tomoqrafiyası, onkoloji markerlərin və hormonların təyini, müvafiq mütəxəssislərin məsləhətlərindən də istifadə olunmuşdur.

İnfeksion xəstəliklər arasında uzunmüddətli qızdırmanın çoxlu tərləmə ilə getməsi, limfadenopatiya, hepatolienal sindrom təzahürlərinə görə infeksion mononukleoz və toksoplazmoz bruselloza oxşaya bilər. Xəstəliyin ilin soyuq ayları, gənc oğlanlar arasında çox rast gəlməsi, bu qrup əhalinin daha çox mal-qara təsərrüfatında, ət emalında işə cəlb edilməsi epidemioloji anamnezdə bəzi çətinliklər yarada bilər. Lakin brusellozdan fərqli olaraq infeksion mononukleoz tədricən başlayır, təkrar üşütmələr, oyanıqlıq əlamətləri, həyacan, yuxusuzluq vermir, çox vaxt angina ilə müşayiət olunur, cinsiyyət üzvlərini zədələmir. Bununla yanaşı infeksion mononukleozun çox tutarlı hematoloji göstəriciləri olur. Adətən xəstəlik yüksək leykositoz, limfo-monositoz, periferik qanda atipik, iri protoplazmalı, çətin diferensə olunan mononuklearlarla təzahür edir. Xəstəliyin etiotrop müalicəsinin olmaması da nəzərə alınmalıdır. Xəstəlik çox müxtəlif kliniki formalarla təzahür etsə də periferik qanın göstəriciləri infeksion mononukleozun bütün kliniki formaları üçün sabit əlamət olur. 24 yaşlı xəstədə kataral əlamətlər – burun seliyinin çoxalması, asqırma, öskürək başlamış, iştahası itmiş, ürəkbulanma, sağ qabırğa altında ağrı narahat etmişdir. Qanda xarakter dəyişikliklərə baxmayaraq, qrip, virus hepatiti, bruselloz, ağ ciyər vərəmindən şübhələnmişlər. Bəzi müalicə tədbirləri effekt vermədiyi üçün xəstə qospitalizə edilmişdir. Diaqnoz dəqiqləşdirildikdən sonra infeksion mononukleoza görə apardığımız patogenetik müalicənin 2-ci günündən qızdırma, tərləmə, iştahasızlıq, zəiflik aradan qalxmış və sonrakı 2 həftə ərzində hematoloji göstəricilər də normallaşmışdır.

Səhvən bruselloz diaqnozu qoyulmuş xəstələr arasında kəskin sepsis də az rast gəlmir. 32 yaşlı qadın çox ağır angina xəstəliyinə tutulmuş, ev şəraitində müxtəlif dərman preparatları və qarqara qəbul etdikdən sonra vəziyyəti yaxşılaşmışdır. Xəstə təkrarən angina ilə xəstələndiyindən 5 il əvvəl tonzilloektomiya olunmuşdur. Anginanın bu dəfəki kəskinləşməsindən 10-12 gün keçmiş titrətmədən sonra qızdırma 39-40°C-ə qalxmış, boğazında az ağrı hiss etmişdir. Təkrar üşütmə, qızdırma, çoxlu tərləmə bir həftə davam etdikdən sonra stasionara göndərilmişdir. Obyektiv müayinədə yumşaq damaq və udlağın selikli qişası az hiperemiyalıdır, ərp görünmür. Periferik limfa düyünləri, oynaqlar dəyişilməyib. Dalağın kənarı 2 sm əllənir, bir qədər bərk və ağrılıdır. Poliklinikada bruselloza görə JgM 15.4 olsa da, "Xroniki tonzillitin kəskinləşməsi və sepsislə ağırlaşma" müəyyən edilmiş və bu diaqnoza görə müalicə 3 gün ərzində yaxşı effekt vermişdir. Sonrakı bir ay müddətində qızdırma və heç bir şikayət olmamışdır.

Brusellozun səhv diaqnozu infeksion xəstəliklərdən xroniki toksoplazmozunda – 2, infeksion mononukleozda isə - 5 xəstədə müəyyən edilmişdir. Toksoplazmozda gözün, infeksion mononukleozda isə - damaq badamcıqlarının zədələnməsi və qanın xarakter dəyişiklikləri fərqli əlamətlər kimi əsas götürülmüşdür.

Sero-immunoloji reaksiyaların göstəricilərinə və qızdırma, oynaq ağrıları, limfa vəziləri, qaraciyər və dalağın böyüməsi kimi qeyri-spesifik kliniki əlamətlərə görə bruselloz müəyyən edilmiş xəstələr arasında onkoloji xəstəliklər də aşkar edilir. Qaraciyərin birincili xərçənginin bud sümüyünə, diz oynağına metastazı nəticəsində sümüyün spontan sınmasını müşahidə etdiyimiz bir xəstə subfebril qızdırma, oynaq-sümük ağrıları, az tərləmə, hepatomeqaliya və Rayt reaksiyasının 1:200 titrinə görə bruselloz diaqnozu ilə qospitalizə olunmuşdur. Digər bir xəstə subfebril qızdırma, zəiflik, zəif titrdə aqqlütinasiya reaksiyasına əsasən 3 ay ərzində bruselloza görə müalicə alsa da, qızdırma yüksək dərəcələrə qalxmış, arıqlama, iştahasız getdikcə artmış və kompyuter tomoqrafiyada bronxogen xərçəng aşkar edilmişdir.

Tireotoksikozun kliniki əlamətlərindən subfebril qızdırma, tərləmə, həyacanlılıq, oynaq ağrıları bəzən brusellozun təzahürləri kimi qəbul edilir. Hətta strumektomiyadan sonra da diaqnoz dəyişdirilmir. Halbuki tireoksikoza xas ekzoftalm, qanda qalxanabənzər vəz hormonlarının artması, qaraciyər və dalağın, limfa vəzilərinin böyüməməsi, təkrar müayinədə aqqlütinasiya reaksiyasının titrinin artmaması brusellozu inkar etməyə əsas verə bilər.

Revmatizm və revmatoid artritlərin də xarakterik təzahürləri brusellozu inkar etmək üçün kifayət qədər tutarlı olur. Belə ki, revmatizm çox vaxt udlaq badamcıqlarının növbəti müxtəlif dərəcədə iltihabından 10-15 gün sonra inkişaf edir, adətən əvvəlcə oynaqlardan birinin şişməsi, çox ağrılı olması, hərəkətlərinin xeyli məhdudlaşması, üzərində dərinin qızarması ilə üzünü göstərir. Bundan az sonra iltihab prosesinin digər bir oynağa keçməsi əlamətdar hesab edilir. Eyni zamanda bədən temperaturunun yüksəlməsi, taxikardiya, ürək nahiyəsində ağrı, iştahasızlıq, yuxu pozğunluğu kimi əlamətlər də qoşulur. Antibiotikoterapiya, qeyri-steroid iltihabəleyhinə preparatlar, steroid hormonlar revmatizmdə iltihab əlamətlərini tez aradan qaldırır. Revmatoid artrit isə kiçik oynaqların iltihabı, deformasiyası ilə özünü göstərdiyindən və bruselloza xas limfadenopatiya, hepatosplenomeqaliya, cinsiyyət üzvlərinin zədələnməsini vermədiyindən asanlıqla inkar oluna bilər.

Beləliklə, brusellozun diaqnozu ancaq klinik anamnez məlumatlarının, müayinə üsullarının və diferensial diaqnozun kompleks şəklində tətbiqi nəticəsində dəqiq müəyyən edilə bilər.

ƏDƏBİYYAT

1. İsayev C.P. Brusellozun maqnitoterapiyası. B., 2003
2. Kərimova C.İ. Brusellozun sero-immunoloji diaqnostikası. B., 2007
3. Vəliyev Ə.H. İnfeksion xəstəliklər, erkən differensial diaqnozu, müalicəsi. B., 2009, 768s.
4. Vəliyev Ə.H. Bruselloz, İnfeksion xəstəliklər. Dərslik. B., 2013
5. Оракбай Л.Ж., Черепанова Л.Ю., Денисова Т.Г. Современные аспекты эпидемического процесса бруцеллеза // Современные проблемы науки и образования, 2015, № 6
6.Ляпина Е.П., Шульдяков А.А., Софьина А.В. и др. Хронический бруцеллез: совершенствование терапии // Инфекционные болезни, 2019, N3, с.39-46

Резюме

О дифференциальной диагностике бруцеллеза с некоторыми инфекционными и неинфекционными заболеваниями

А.Г.Велиев, И.П.Байрамов, В.Н.Джавадзаде, У.М.Меджидова, Н.О.Мамедова

Из 86 пациентов, госпитализированных с бруцеллезом, только у 15 (18,6%) больных был подтвержден диагноз. Основными причинами ошибочного диагноза были некоторые из симптомов, характерных для бруцеллеза - лихорадка, боль в суставах и слабое титрование серологических реакций. Однако у этих пациентов не было обнаружено никаких классических проявлений бруцеллеза: лимфоаденопатия, гепатолиенальный синдром, поражение половых органов, нервно-психические изменения, а также при повторных серо-иммунологических реакциях титры реакции не были увеличены. С помощью соответствующих специалистов можно отличить бруцеллез от других инфекционных и неинфекционных заболеваний и защитить пациентов с бруцеллезом, особенно беременных, от ненужного лечения и, следовательно, от осложнений.

Summary

About differential diagnosis of brucellosis with some infectious and non-infectious diseases

A.G. Veliyev, I.P. Bayramov, V.N. Javadzade, U.M. Mejidova, N.O. Mamedova

From 86 patients hospitalized with brucellosis, only 15 (18.6%) patients were diagnosed. The main causes of the erroneous diagnosis were some of the symptoms characteristic of brucellosis - fever, joint pain, and poor titration of serological reactions. However, no classical manifestations of brucellosis were detected in these patients: lymphadenopathy, hepatolienal syndrome, genital lesions, neuropsychic changes, and also during repeated sero-immunological reactions, the reaction titers were not increased. With the help of appropriate specialists, it is possible to distinguish brucellosis from other infectious and non-infectious diseases and protect patients with brucellosis, especially pregnant women, from unnecessary treatment and, therefore, from complications.

Daxil olub:28.08.2019

Vərəm xəstəliyinin erkən aşkarlanmasının uşaq, yeniyetmə və gənclər arasında vərəmə yoluxmaya təsiri

Y.Ş.Şıxəliyev, İ.Ə.Qasımov, M.A.Şıxlinskaya, L.H.Kazımova, X.S.Bədəlova, C.C.İsmayılov

Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutu; Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu, Bakı

Açar sözlər: vərəm, erkən aşkar edilmə, uaşqlar, yeniyetmələr, gənclər

Ключевые слова: туберкулез, раннее выявление, дети, подростки, молодежь

Key words: tuberculosis, early detection, children, adolescents, youth

Son illər dünyada vərəm xəstəliyinin epidemioloji vəziyyəti gərginləşir. Bu gərginlik əsasən dərmanlara davamlı formalarının artması ilə izah olunsada yoluxucu xəstələrin ambulator şəraitdə müalicə almasının da rolu danılmazdır [1,2,3,4,5]. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) məlumatına görə bir yoluxucu xəstə ildə 10-15 yeni fəal vərəm xəstəsi yaratmaqla yanaşı, 150-200 insanı vərəmə yoluxdurur. Vərəmə yoluxmanın baş verməsində infeksiya mənbəyi ilə təmasda olma müddəti və məkan amili əsas rol oynayır. Belə hesab olunur ki, uşaq və yeniyetmələr arasında 1% baş verən yoluxma 100 min nəfər əhaliyə 50 turşuya davamlı mikobakteriya (TDM) ifraz edən və 50-60 TDM ifraz etməyən xəstənin olduğunu göstərir. [9]. Başqa sözlə xəstələnmənin (100 min nəfərə) 100-120 səviyyəsində olduğunun göstəricisi sayıla bilər. Sözsüz, kütləvi tuberkulin diaqnostika aparılmayan regionlarda bu göstəricinin təyini qeyri mümkündür. Lakin, aparılan elmi araşdırmalar göstərir ki, epidemioloji əminaman regionlarda 0-6 yaş uşaqlar arasında yoluxma riski orta hesabla 0.3%, məktəb yaşlı uşaqlar arasında 1.3%, yeniyetmələr arasında 2.4% səviyyəsindədir [6]. ÜST-nın uşaq və yeniyetmələr arasında vərəmin profilaktikasına aid tövsiyyə etdiyi strategiyasında 1-15 yaş uşaqlar vərəmə görə risk qrupu sayılırlar və onlar ildə bir dəfə Mantu 2TV tuberkulin diaqnostikasına cəlb olunmalıdırlar. Digər tərəfdən xəstələrin təmaslarına isə ildə iki dəfə bu müayinəyə məruz qalırlar və nəticələr əsasında əlavə bakterioloji, şüa diaqnostikası və kliniki müayinələr aparılmalıdır [7]. ÜST-nın "vərəmin müalicəsi" üçün təklif etdiyi strategiya xəstələrin ambulator müalicə olunmasına imkan yaratmışdır. Xəstələr 10 gündən bir ərazi vərəm dispanserlərinə müraciət edərək spesifik dərmanları kliniki protokola uyğun alırlar. Başqa sözlə birbaşa nəzarət altında müalicə prinsipi pozulur. Bu ciddi çatmamazlığın əsas səbəbi isə xəstələrin sosial yardım almamalarıdır. Onlar yola çəkilən xərcləri, işsiz olmaların əsas gətirərək gündəlik nəzarət altında müalicədən imtina edirlər [8,9] Son nəticədə ölkədə uşaqlar arasında ağır kliniki formaların rast gəlmə tezliyi yüksəlir, uşaq və yeniyetmələr arasında vərəmin dərmana çox və geniş yayılmış formaları artır. Yoluxucu vərəm xəstələri yaşıyan evlər - vərəm ocaqları yüksək yoluxma riski olan zona (YYRZ) sayılanlar, hansı ki, ÜST-nın strategiyaasında bu məsələyə münasibət yoxdur.

Uşaq və yeniyetmələr arasında vərəmlə xəstələnməy görə risk qrupları müxtəlifdir. Bu qruplara spesifik epidemioloji, tibbi bioloji, kliniki-diaqnostik, genetik və qeyri-spesifik - yaş-cins, qeyri-spesifik yanaşı xəstəliklər, sosial (vərəm ocağında narkamanların, alkoqoliklərin, məhbusluqdan azad olanların yaşaması, məcburi köçkün və qaçqın ailələr, miqrantlar, az təminatlı çoxsaylı ailələrdə yaşayan təmaslar) və s. aiddir [10]. Bu baxımdan vərəm ocaqlarının düzgün qruplaşdırılması üçün önəmli olan bakterioloji

passiv aşkarlanmanın keyfiyyəti və səviyyəsi çox önəmlidir. Təmaslar arasında yoluxma əleyhinə aparılan profilaktik tədbirlərin düzgün və keyfiyyətli həyata keçirilməsi baxımından onların vaksinlə əhatə və onun keyfiyyətindən asılı olaraq (çapıq yoxdur, çapığın ölçüsü 1-3 mm, 4-10mm, ≥10mm) yoluxuma riski yüksək olanların müəyyənləşdirilməsi, tuberkulin diaqnostika və onun nəticələrinə görə infeksion allergiyanın təyini və kimyəvi profilaktikanın aparılması, genetik- təmasların xəstə qohumlarla əlaqəsi- xüsusən dərmana davamlı xəstələrlə təmas məsələləri yoluxma riskinin yüksək olmasının təyini üçün çox önəmlidir [7,11]. Elmi araşdırma göstərir ki, yoluxma baş vermədikdə vərəm xəstəliyinin yaranma ehtimalı çox aşağıdır.

Beləliklə, uşaq, yeniyetmə və hətta gənclər arasında vərəmə yoluxmanın müəyyənləşdirilməsi və yoluxma əleyhinə ÜST-nın təlimatları əsasında profilaktik tədbirlərin həyata keçirilməsi məsələləri öz aktuallığını saxlayır.

Tədqiqatın məqsədi vərəmin aşkarlanma səviyyəsinin uşaq, yeniyetmələr və gənclər arasında vərəmə yoluxmaya təsirinin müəyyənləşdirilməsidir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur.

1.Bakı şəhərinin xəstələnmənin intensiv səviyyəsi ≤30 olan iki regionunda (Nəsimi və Yasamal) uşaq, yeniyetmə və gənclər arasında vərəmlə xəstələnmənin və onun keyfiyyət göstəricilərinin dinamikasının son 5 ildə (2011-2015) müqayisəli təhlili.

2.Göstərilən ərazidə 2016-2018-ci illərdə vərəmin aşkarı və buna uyğun uşaq, yeniyetmə və gənclər arasında vərəmə yoluxmanın səviyyəsində baş verən dəyişikliklərin öyrənilməsi.

3.Tuberkulin diaqnostikanın nəticələrinə uyğun aparılan kimyəvi profilaktikanın effektliyinin qiymətləndirilməsi.

Tədqiqatın material və metodları. Azərbaycan Dövlət Statistika Komitəsinin 30.01.2012-ci il tarixli 6/09 N-li qərarları ilə təsdiq edilmiş 8 saylı "vərəm haqqında" rəsmi statistik hesabat forması əsasında Bakı şəhərində xəstələnmə səviyyəsi ≤30 olan iki regionda (Yasamal və Nəsimi rayonları, yerli əhali 446200, ümumi əhali 449300) son 5 ildə (2011-2015) xəstələnmənin intensiv səviyyəsi uşaq, yeniyetmə və yaşlılar üzrə ayrı-ayrılıqda öyrənilmişdir. Aşkar edilmiş xəstələrin kliniki strukturası və buna müvafiq TDM tapılma səviyyəsi, destruksiya mərhələsində aşkarlanma və bu iki göstəricinin nisbət indeksi təyin edilmişdir (ÜST-na görə optimal hədd 1.2 qəbul olunur). İlkin xəstələr arasında ağciyər və ağciyərdən kənar üzvlərin vərəminin ÇDD və CDD formalarının xüsusi çəkisində baş verən dəyişiklik təhlil edilmişdir. Vərəmə yoluxmanın səviyyəsinin öyrənilməsi üçün 2016-cı ildə əhali arasında xəstələnmənin yaş qrupları üzrə (1-4, 5-14, 15-18, 19-29, 30-39, 40-49, 50-59, 60-69, ≥70) xüsusi çəkisi təyin edilmişdir. Uşaq, yeniyetmə və gənclər arasında aparılan tuberkulin miqdarına və tuberkulinin nəticələri müsbət olanların miqdarına görə infeksion allergiyanın "ötən ilə nisbətən nəticələrin artması, viraj və hiperergiya" formaları təyin edilməsidir. Əhali arasında vərəmin aşkar edilməsi üçün ilkin tibbi yardım müəssisələrində (İTYM) sosial yönümlü risk qruplarının registrı yaradılmış və onlar ciddi nəzarət altında məqsədli müayinələrə cəlb olunmuşlar. Bu zaman 2016-cı ilin nəticələri nəzarət qrupu kimi götürülmüşdür. Xəstələnmənin 2016-2018-ci illər üzrə səviyyəsi müqayisə edilmişdir. Eyni zamanda 2017-2018-ci illərdə uşaq, yeniyetmə və gənclərə aid risk qrupları arasında aparılan Mantu 2TV tuberkulin diaqnostikasının nəticəsində infeksion allergiyada baş verən dəyişikliklər təhlil edilmişdir. Əldə olunan nəticələrin hədləri arasında dürüstlük əmsalı Styudentin variosion statistikası ilə təyin edilmişdir.

Tədqiqatın müzakirəsi və nəticələri: Xəstələnmə səviyyəsi ≤30 olan Bakı şəhərinin iki regionunda (Yasamal və Nəsimi) son 5 ildə (2011-2015) vərəmlə xəstələnmənin uşaq, yeniyetmə və yaşlılar arasında səviyyəsi öyrənilmiş və nəticələr diaqramma 1-də verilmişdir.



Şək. 1. Son 5 ildə (2011-2015) Bakı şəhərinin Yasamal və Nəsimi rayonlarında uşaq, yeniyetmə və yaşlı əhali arasında xəstələnmənin intensiv səviyyəsi

Şəkil 1-dən görünür ki, hər iki regionda xəstələnmənin səviyyəsi son 5 ildə dəyişməmişdir. Lakin uşaqlar arasında bu göstərici 25% azalmış, yeniyetmələr arasında 46.9% artmış, yaşlılar arasında isə eyni səviyyədə qalmışdır. Son 5 ildə ilkin vərəm hadisələrinin kliniki formalarının ekstensiv səviyyəsi cədvəl 1-də verilmişdir.

Diaqramma 1-in və cədvəl 1-in təhlili göstərir ki, bu iki rayonda vərəmlə xəstələnmənin səviyyəsi inkişaf etmiş ölkələrin (Yaponiya, Norveç, Kanada, Avropanın bir sıra ölkələri və s.) səviyyəsindədir. Lakin, kliniki formaların səviyyəsi bu ölkələrin göstəricilərinə uyğun deyil. Belə ki, Kanada və Norveçdə ağciyər vərəmi ilə ağciyərdən kənar üzvlərin vərəminin rast gəlmə tezliyi 1:1 nisbətində olduğu halda bu iki rayonda bu mütənasiblik 2011-2015-ci illərdə 3:1 olmuşdur.

Cədvəl 1

Son 5 ildə Yasamal və Nəsimi rayonlarında aşkar edilmiş ilkin vərəm hadisələrinin kliniki formalarının rast gəlmə tezliyi

Xəstəliyin kliniki formaları	2011		2012		2013		2014		2015	
	müt. r	%	müt.r	%	müt.r	%	müt. r	%	müt. r	%
Cəmi fəal xəstələr	109	100	104	100	86	100	111	100	113	100
Onlardan ağciyər vərəmi	84	77.1	74	71.2	67	77.9	82	73.9	83	73.5
O cümlədən: Ocaqlı	10	11.9	12	16.2	7	10.4	12	14.6	10	12.0
İnfiltrativ	74	88.1	61	82.4	60	89.6	70	85.4	71	85.6
Səpələnmiş	-	-	1	1.4	-	-	-	-	2	2.4
Fibroz-kavernoz	-	-	-	-	-	-	-	-	-	-
Dağılma mərhələsi	27	32.1	29	39.2	20	29.9	23	28.0	29	34.9
Ağciyərdən kənar üzvlərin vərəmi	25	22.9	30	28.8	19	22.1	29	26.1	30	26.5
O cümlədən: Döş daxili limfa vəzilərinin vərəmi	4	16.0	-	-	2	10.5	2	6.9	6	20.0
Sümük-oynaq vərəmi	4	16.0	4	13.3	5	26.3	3	10.3	7	23.3
Plevrit	15	60.0	20	66.8	8	42.2	16	55.2	12	40.0
Sidik-cinsiyyət üzvlərin vərəmi	1	4.0	1	3.3	2	10.5	2	6.9	4	13.3
Limfoadenitlər	-	-	1	3.3	2	10.5	4	13.8	-	-
Digər üzvlərin vərəmi	1	4.0	4	13.3	-	-	2	6.9	1	33.3
Uşaq və yeniyetmələr	7	8.3	7	9.5	4	6.0	12	14.6	5	6.0
Cəmi mikobakteriya ifraz edənlər	55	65.5	49	66.2	45	67.2	47	57.3	50	60.2

Cədvəl 1-dən görünür ki, ilkin xəstələr arasında 2011-2015-ci illərdə ocaqlı vərəm 10%-12% olduğu halda, dağılma mərhələsi 32.1-34.9% səviyyəsində müşahidə olunmuşdur. İlkin hadisələr arasında TDM-in tapılma səviyyəsi 65.5%-60.2%, TDM-in dağılma mərhələsinin nisbət indeksi isə 2.0-1.7 olmuşdur (optimal həddi 1.2). Uşaq və yeniyetmələr arasında ilkin ağciyər və ağciyərdən kənar üzvlərin vərəmi arasında ağır kliniki formalar (fibroz-kavernoz vərəm, vərəm meninqoensofalomieliti) qeydə alınmamışdır. Kliniki formalar arasında infiltrativ vərəm 80%-dən yuxarı olması, ocaqlı vərəm isə optimal səviyyədən 4-6 dəfə az olması və TDM/CV indeksi 2.0-1.7 olması xəstələrin müayinələrdə rentgenoloji hipodiaqnostikanın mövcud olması ilə yanaşı xəstələrin erkən aşkarlanmasında İTYM-in fəaliyyətinin zəifliyini göstərir. Ona görə də epidemioloji əminamanlığın əsas göstəricisi sayılan xəstələnmənin intensiv səviyyəsi 24.5 olan bu iki regionda xəstələnmənin yaş qrupları və cinsə görə vəziyyəti və vərəmə yoluxmanın səviyyəsi aydınlaşdırılmışdır. Diaqramma 2-də 2015-ci ildə vərəmlə xəstələnmənin cins və yaş qrupu üzrə xüsusi çəkisi göstərilir.



Şək. 2. 2015-ci ildə vərəmlə xəstələnmənin cins və yaş qrupu üzrə xüsusi çəkisi

Şəkil 2-dən görünür ki, kişilər 70.9% halda xəstələnərək qadınları 2.4 dəfə üstələyir. Yaş qrupuna gəldikdə isə ən yüksək xəstələnmə hadisələri 19-29 yaşda müşahidə olunur. Bu yaş qrupunda kişilər 24.8% təşkil edərək qadınlardan 2.8 dəfə çox xəstələnirlər. Göstərilən yaş qrupu xəstələnməyə görə risk qrupu sayılır. Görünür bu qrupda oğlanlar hərbi çağırışla əlaqədar məcburi müayinə olunduqları üçün vərəm hadisələri onlar arasında çox aşkarlanır. Qızların isə məcburi müayinə olunmamadıqları üçün vərəm hadisələri az aşkarlanır və vərəmə görə yüksək riskə malik qrup sayılırlar. Belə bir nəticəyə gəlmək olar ki, kütləvi diaqnostik müayinələr aparılmayan son 5 ildə xəstələnmənin intensiv səviyyəsi kəskin azalır. Başqa sözlə əhali arasında vərəm əleyhinə müəssisələrə məlum olmayan infeksiya mənbələri çoxalır. Bu məqsədlə 2016-cı ildə uşaq, yeniyetmə və yaşlılar arasında vərəmin aşkarını yaxşılaşdırmaq məqsədi ilə İTYM-də xəstəlik daha çox aşkarlanan sosial risk qruplarına (evdar qadınlar, təqaüdçülər, ölkə daxili miqrasiya edənlər, assosial həyat tərzi keçirənlər-alkoqolik, narkomaniya, həbsxanada vərəmə görə müalicə olunmayıb əhv olunanlar) aid əhalinin və eləcə də, uşaq, yeniyetmə və gənclərə aid vərəmə görə risk qruplarının registri yaradılmış və bunun əsasında 2017-2018-ci illərdə ciddi nəzarət altında məqsədli müayinələr (aktiv-passiv və immunodiaqnostika) aparılmışdır.

Cədvəl 2

Yasamal və Nəsimi rayonlarında 2016-cı ildə uşaq, yeniyetmə və gənclər arasında aparılan immunodiaqnostikanın nəticələri

Yaş qrupları	Tuberkulin diaqnostika aparılıb		Tuberkulin diaqnostikanın nəticələri				Postvaksinal allergiya	
			Mənfi	Şübhəli	Müsbət			
	müt	%	%	%	müt	%	müt	%
1-6	3449	8.4	46	5	1690	49	300	17.7
7-14	9984	16	54	6	3994	40	320	8
15-18	2961	15.1	52	4	1303	44	39	3
19-24	880	2.3	48	3	431	49	11	2.6
Cəmi	17274	10.6	51.8	5.2	7418	43	670	9

Cədvəl 2-in ardı

Yaş qrupları	Ötən ilə görə nəticə dəyişməyib		İnfeksion allergiya					
			Ötən ilə nisbətən nəticə artıb		Viraj		Hiperergik reaksiya	
	müt	%	müt.	%	müt	%	müt	%
1-6	507	30	572	33.9	107	6.3	204	12.1
7-14	959	24	2032	50.9	284	7.1	399	10
15-18	397	30.5	620	47.6	90	6.9	157	12
19-24	138	32	211	49	28	6.4	43	10
Cəmi	1637	27	3435	46.3	509	6.9	801	10.8

Təhlil göstərir ki, 2016-cı ildə 152 fəal vərəm xəstəsi qeydiyyata alınmış və 100 min əhaliyə xəstələnmə 33.8 olaraq 2015-ci ilə nisbətən 35.8% atmışdır. ($p \geq 0.05$) İlkin hadisələr arasında TDM ifraz edənlər 46.7% təşkil etmişdir. Onlar arasında mono-poli rezistent formaların 26.7%, çox dərmana davamlı formalar 13.3%olmuşdur. Məqsədli müayinələr aparılan uşaq, yeniyetmə və gənclər arasında 2016-cı ildə immunodiaqnostika üçün 17274 nəfər risk qrupu kimi seçilmişdir ki, bu göstəricilər kontingentin 10.6% (161443) hissəsini təşkil edir. Yaş qrupu üzrə 1-6 yaş 8.4% (3449 nəfər), 7-14 yaş 16% (9984 nəfər), 15-18 yaş 15.1% (2961 nəfər), 19-24 yaş 2.3% (880 nəfər) təşkil etmişdir. İmmunodiaqnostikanın nəticələri və onlar arasında infeksion allergiyanın səviyyəsi cədvəl 2-də göstərilmişdir.

Cədvəl 2-dən görünür ki, aparılan tuberkulin sınağının sayına görə infeksion allergiyanın "ötən ilə nisbətən nəticələrin artması, viraj və hiperergik" formaları 1-6 yaşda uyğun olaraq 16.6%, 3.1% və 5.9% olmuşdur. İnfeksion allergiyanın bu formaları tuberkulin nəticələri müsbət olanlara görə uyğun olaraq 33.8%, 6.3% və 12.1% olmuşdur. İnfeksion allergiyanın müvafiq göstəriciləri 7-14 yaşda aparılan tuberkulin sayına görə 20.4%, 2.8% və 4%, tuberkulin müsbətlərə görə isə 57.8%, 7.1% və 10% səviyyəsində müşahidə olunur. Müvafiq göstəricilər yeniyetmələr arsında uyğun olaraq aparılan tuberkulin miqdarına görə 20.9%, 3.0% və 5.3%, tuberkulin müsbətlərə görə isə 47.6%, 6.9% və 12% səviyyəsində olmuşdur. Yüksək xəstələnmə səviyyəsinə malik 19-29 yaş qrupundan 19-24 yaşda olan gənclər arasında aparılan tuberkulin reaksiyasının sayına görə müvafiq göstəricilər uyğun olaraq 24.0%, 3.2% və 4.9%, tuberkulin müsbət olanlara görə isə 48.9%, 6.5% və 9.9% olmuşdur. Ümumilikdə 1-24 yaş arasında aparılan tuberkulin reaksiyalarının sayına görə infeksion allergiyanın "ötən ilə nisbətən nəticələrin artması" 19.9%, "viraj" 2.9%, "hiperergik" forması isə 4.6% səviyyəsində olmuşdur. Tuberkulin müsbət olanlara görə müvafiq göstəricilər uyğun olaraq 46.3%, 6.9% və 10.8% olmuşdur.

Göstəricilər uşaq, yeniyetmələr və gənclər arasında yoluxmanın həddən artıq yüksək səviyyəsini göstərir. Başqa sözlə göstəricilər əhali arasında infeksiyanı yayan və müalicəyə cəlb olunmayan çoxsaylı vərəm xəstələrinin olduğunu göstərir. Bu göstəricilər 2015-ci ildə xəstələnmənin intensiv səviyyəsinin 24.5 olduğunu təsdiq etmir. Ona görə də ilk növbədə vərəmin aşkarlanma ehtimalı yüksək olan əhali arasında ciddi təmas yarada bilən sosial yönümlü risk qruplarına daxil olanların – təqaüdçülər, evdar qadınlar, zehni əməklə məşğul olanlar, miqrasiya edənlər, həbsxanada vərəmə görə müalicə olunmayıb əhv olunanların və 19-29 yaş qrupuna daxil olanların ciddi nəzarət altında registr əsasında 2017-2018 – ci illərdə məqsədli müayinələrə cəlbi təşkil olunmuşdur. Nəticədə məlum olmuşdur ki, ölkə daxili miqrasiya edənlər arasında infeksiya mənbəyi sayılan çox saylı ali təhsil müəssisələrinə daxil olan tələbələr var. Sosial risk qrupları sayılan təqaüdçülər, evdar qadınlar isə ciddi nəzarət altında istər aktiv, istərsə də passiv məqsədli müayinələrə cəlbinin səviyyəsi çox aşağıdır. Həbsxanada vərəmə görə müalicə olunmayıb əhv olunanlar arasında TDM ifraz edənlər, hətta çox və geniş dərmana davamlı formalar movcuddur.

Beləliklə, təşkil olunmuş registr əsasında ciddi nəzarət altında risk qrupları arasında aparılan məqsədli müayinələr nəticəsində 2017-ci ildə 167, 2018-ci ildə 259 fəal vərəm xəstəsi aşkar olunmuş və xəstələnmənin intensiv səviyyəsi uyğun olaraq 37.2 və 57.6 olmuşdur. ($p \geq 0.05$). Başqa sözlə 2016-cı illə müqayisədə 2018-ci ildə xəstələnmə 41.3%, başqa sözlə 1.7 dəfə artmışdır. İlkin hadisələr arasında TDM ifraz edənlər 42.1% olmuşdur. Onlardan mono-poli davamlı formalar 2016-cı illə müqayisədə 2.9 dəfə azalaraq 9.2%, ÇDD formalar isə eyni səviyyədə qalaraq 13.8% olmuşdur. Kliniki formalar arasında ocaqlı vərəmin xüsusi çəkisi 3.2 dəfə artmışdır. Beləliklə, aşkarlanmanın uşaq, yeniyetmə və gənclər arasında vərəmə yoluxmaya təsirinin öyrənilməsi üçün 2018-ci ildə aparılan tuberkulin diaqnostikanın səviyyəsi cədvəl 3-də verilmişdir.

Cədvəl 3

Bakı şəhərinin Yasamal və Nəsimi rayonlarında 2018-ci ildə vərəmə yoluxmanın təyini üçün aparılan Mantu 2TV reaksiyasının səviyyəsi

Yaş qrupları	Tuberkulin diaqnostika üçün nəzərdə tutulan kontingent	risk qrupu kimi dəyərləndirilən kontingent			risk qrupu kimi müayinə olunanlar		
	müt.r	müt.r	%	±m	müt.r	%	±m
1-6	34860	4880	14,0	0,8	4343	89,0	0,1
7-14	46100	9957	21,6	0,7	9160	92,0	0,1
15-18	13700	3836	28,0	0,7	3682	96,0	0,03
19-24	35100	6634	18,9	0,8	6150	92,7	0,05
Cəmi	129760	25307	19,5	0,1	23335	92,2	0,06

Cədvəl 3-dən görünür ki, 2018-ci ildə 1-6 yaşda olan 34860 uşağın 14.0% hissəsi risk qrupu kimi dəyərləndirilmiş və onlar 89% halda, 7-14 yaşda olan 46100 uşağın 21.6% hissəsi risk qrupu kimi dəyərləndirilir və 92% halda, yeniyetmə yaşda olan 137100 nəfərin 28% hissəsi risk qrupu kimi dəyərləndirilmiş, onlar 96% halda, 19-24 yaşda olan 35100 nəfərin 18.9% hissəsi risk qrupu kimi dəyərləndirilmiş və onların 92.7% halda immunodiaqnostikaya cəlb olunmuşdur. Ümumilikdə 1-24 yaşda olan 129700 nəfər əhalinin 19.5% hissəsi risk qrupu kimi dəyərləndirilmiş onların 92.2% hissəsi müayinəyə cəlb olunmuşdur. Aparılan tuberkulin diaqnostikanın nəticələri cədvəl 4-də verilmişdir. Cədvəldən görünür ki, 2018-ci ildə çoxsaylı ilkin fəal vərəm hadisələrin aşkarlanması infeksion allergiyanın "ötən ilə nisbətən tuberkulinin nəticəsi artanlar, viraj və hiperergiya" olanların sayında ciddi dəyişikliklər baş vermişdir. Belə ki, aparılan tuberkulin sınağına sayına görə infeksion allergiyanın göstərilən formalara uyğun olaraq 1-6 yaş 10.7%, 18.2%, 4.0%; 7-14 yaşda müvafiq göstərici 19.3%, 1.9%, 3.6%; 15-18 yaşda 19.4%, 1.7%, 3.2%; 19-24 yaşda 17.7%, 1.7%, 8.3% olmuşdur.

Cədvəl 4

Bakı şəhərinin Yasamal və Nəsimi rayonlarında 2018-ci ildə 1-24 yaşda olan risk qrupları arasında aparılan Mantu 2TV tuberkulin reaksiyasının nəticələri

Uşaq, yeniyetmə və gənclər	Tuberkulin diaqnostikanın nəticələri				Postvaksinal allergiya		Ötən ilə görə nəticə dəyişməyib	
	mənfi	şübhəli	müsbət					
	%	%	müt.r	%	müt.r	%	müt.r	%
4. Mc.Cluggage W. Recent developments in non-hpv-related adenocarcinomas of the lower female genital tract and their precurcors // Advances in anatomic pathology. 2016, v.23(1), p.58-69

5. Гланц С.Т. Медико-биологическая статистика: Перевод с английского языка / Под ред. Н.Е. Бузикашвили и Д.В.Самойлова. М.: Практика,1999, 200с.

6. Шадлинский В.Б., Гусейнова Г.А. Морфологические характеристики железистого аппарата мочевого пузыря на разных этапах постнатального онтогенеза // Морфология. 2011, №1, с.68-73

7. Аллахвердиев М.К. Структурно-функциональная характеристика и закономерности морфогенеза железистого и лимфоидного аппаратов внепеченочных желчевыводящих путей человека в постнатальном онтогенезе: Автореф. дисс... докт. мед. наук., Баку, 2007, 40с.

8. Гусейнов Б.М. Морфологические особенности желез и лимфоидных структур трахеи и главных бронхов у человека в постнатальном онтогенезе и в эксперименте у крыс при воздействии водных процедур с разным солевым составом: Автореф. дисс.....докт. наук в мед., Баку,2011,40с.

9. Гусейнова Г.А. Структурно-функциональная характеристика и особенности морфогенеза желез и лимфоидных образований мочевого пузыря в постнатальном онтогенезе в норме и в эксперименте: Автореф. дисс.....докт. наук в мед., Баку, 2013, 40с.

10. Никитюк Д.Б., Колесников Л.Л., Шадлинский В.Б. и др. Многоклеточные железы стенок пищеварительной и дыхательной систем (вопросы функциональной морфологии). Воронеж: Издательско-полиграфический центр «Научная книга», 2017, 279с.

Xülasə

Uşaqlıq yolu dəhlizinin kiçik vəzilərinin başlanğıc şobələrinin kəmiyyət göstəricilərinin postnatal ontogenezdə yaş xüsusiyyətləri

S.V.Shadlinskaya

Məlum olduğu kimi, uşaqlıq yolunun adenogen xərçənginin mənbəyi uşaqlıq yolunun kiçik vəzilərin epitelidir. Buna baxmayaraq, uşaqlıq yolu dəhlizinin kiçik vəziləri morfoloji cəhətdən araşdırılmamış qalır. Aparılmış tədqiqatda müxtəlif yaşda olan qadınların uşaqlıq yolu dəhlizi vəzilərinin başlanğıc şöbələrinin sayını aydınlaşdırmağı qarşıya məqsəd qoymuşuq. Tədqiqatın obyekti müxtəlif yaşda olan 35 qadının meyitindən götürülmüş uşaqlıq yolu dəhlizi divarlarının vəziləri olmuşdur. Uşaqlıq yolu dəhlizi vəziləri total preparatlarda R.D. Sinelnikov metodu ilə tədqiq olunmuşdur. Hər yaş qrupunda uşaqlıq yolu dəhlizinin vəzilərinin başlanğıc şöbələrinin sayı hesablanmışdır. Tədqiqatın nəticələri göstərmişdir ki, yenidoğulmuş qızlarda bir başlanğıc şöbəyə malik olan vəzilər üstünlük təşkil edir. 22-35 yaşlarında bir başlanğıc şöbəsi olan vəzilərin miqdarı azalır, üç və daha çox başlanğıc şöbəyə malik olan vəzilərin sayı, əksinə artır. 2-ci yetkinlik yaş dövründən başlayaraq, bir başlanğıc şöbəsi olan uşaqlıq yolu dəhlizi kiçik vəzilərinin sayında artım müşahidə olunur.

Summary

Age-related features of quantitative indicators of the initial parts of the small glands of the vaginal vestibule in postnatal ontogenesis

S.V.Shadlinskaya

As you know, the source of adenogenic vaginal cancer is the epithelium of the small glands of the vagina. Despite this, from the morphological point of view, the small glands of the vestibule of the vagina remain unexplored. Based on the foregoing, in our study, we set a goal - to clarify the number of initial parts of the glands of the vaginal vestibule of women different ages. The object of the study was the glands and lymphoid structures of the walls of the vaginal vestibule, obtained from the corpses of 35 women of different ages. The glands of the vestibule are examined on total preparations of this organ according to the method by R.D. Sinelnikov. The number of initial parts (percentage) of the glands of the vaginal in each age group was calculated. The results of the study showed that glands with one initial part

predominate in newborn girls. At 22-35 years of age, the percentage of the number of glands with one initial part decreases, while the glands with three or more initial parts, on the contrary, increase. Starting from the 2nd period of adulthood, an increase in the number of small glands of the vaginal vestibule with one initial part is observed.

Daxil olub: 08.07.2019

Heriatrik yaş qrupunda astenik sindrom və ürək ritminin pozuntuları

S.K. Şahbazbəyova, İ.T. Rəsul, K.M. Salihova, N.H.Həsənova
Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: qoca və ahıl yaş, ürək ritm və keçiricilik pozğunluqları, ürək və serebrovaskulyar çatışmamazlıq, qocalıq asteniyası sindromu
Ключевые слова: пожилой и старческий возраст, нарушения сердечного ритма и проводимости, сердечная и цереброваскулярная недостаточность, синдром страческий астении
Keywords: fatigue and headache, irritability, rhythm and convulsions, heartburn and cerebrovascular malnutrition, syndrome stroke

Ahıl və qoca yaşlarda sıx rast gələn anemiyalar bir sıra klinik xüsusiyyətlərə sahibdirlər [1]. Çoxsaylı klinik tədqiqatlar göstərmişdir ki, 70 yaşında olan insanla- rın 50-70%-da müəyyən edilən aritmiyalar, ürəyin struktur dəyişiklikləri olan xəstələrdə ölüm səbəbi olması nadir deyil. Ürəyin ritm və keçiricilik pozuntuları ahıl və qocalarda əhəmiyyətli fəsadlara səbəb olurlar və ölüm riskinin iki qat artmasına gətirirlər [2]. Eləcə də insult riskinin beş qat artması gözlənilir [3]. Qeyd etmək lazımdır ki, ahıl və qoca xəstələrdə aritmiyaların yaşla əlaqədar xüsusiyyətlərinin və klinik təzahürlərinin öyrənilməsi aktual məsələ hesab edilir.

Tədqiqatın məqsədi. Ahıl və qoca xəstələrdə ürəyin ritm və keçiricilik pozuntularının xüsusiyyətləri və klinik təzahürlərinin hazırkı vəziyyətinin təhlili və ailə həkimin təcrübəsində tətbiqidir.

Tədqiqatın material və metodları. Tətbiq olunan məsələ açar sözləri geriatrik xəstələr də ritm və keçiricilik pozuntuları olan elmi mənbələr əsasında araşdırılmışdı.

Nəticələr. Geriatrik xəstələrdə aritmiyaların artması orqanizmdə yaşla bağlı bir sıra dəyişikliklərlə əlaqədardır: sinus düyününün avtomatizminin azalması, miokard keçiriciliyinin pisləşməsi, ürək boşluqlarının genişlənməsi, koronar qan təhcizatının zəifləməsi, periferik mikrosirkulyasiyanın pozulması,toxuma hipoksiya sı, miokardın katexolaminlərə qarşı həssaslığın artması, miokardda hüceyrədaxili kalium səviyyəsinin enməsi, enerji mübadiləsinin azalması və pozulmuş metaboliz ma ocaqlarının meydana gəlməsi və s. [4]. Diqqətə layiqdir ki, 75 yaş və yuxarı yaşda olan insanlarda sinus düyünündə fəaliyyət göstərən hüceyrələrin yalnız 10%-i fəaliyyətini saxlayır. 60 yaşdan yuxarı insanlarda aritmiya daha sıx koronar, ürək və serebrovaskulyar çatışmazlığı ilə müşayiət edilir. Müasir tədqiqatçılar beyin natriuretik peptidlərinə yalnız xronik ürək çatışmazlığının deyil, həm də ahıl və qocalarda ritm pozuntularının prediktorları kimi böyük diqqət yetirirlər [5]. Bir çox tədqiqatçı ürəyin işemik xəstəliyi və supraventrikulyar aritmiyası olan ahıl xəstələrdə sol mədəcik miokardının boşalmasında əhəmiyyəti pozuntularının olmasını qeyd edirlər ki, bu da diastolik disfunksiyanın varlığını göstərir.

Heriatrik xəstələr ilə çalışdıqda ailə həkimləri nəzərə almalıdırlar ki, bu xəstələrin şikayətləri ürəkdöyünmə yaxud ürək fəaliyyətində nizamsızlıqdan daha çox insanlar tərəfindən yaxlılığın təzahürü kimi qəbul edilən zəiflik, halsızlıq, narahatlıq, başgicəllənmə kimi aritmiyanı müşayiət edən digər ümumi əlamətlərdəndir. Ahıl insanlarda lənggedişli patoloji proseslərin meyillilik olur. Son məlumatlara görə, xəstələr uyuşma, qaşınma, yanma, soyuqluq, tənginəfəslik, ürək nahiyyəsində sıxılma hissindən şikayətçi olb, miokard infarktının inkişaf etməsindən təlaşlanırlar. Bu məlumatlar ümumi təcrübə həkimi tərəfindən xəstələrin ilkin müayinəsi zamanı aritmiya diaqnozunun qoyulmasında çətinliklər törədir (6). Aritmiyası olan geriatrik xəstələrin fiziki müayinəsi zamanı beyin damarlarının funksional vəziyyətini araşdırmaq lazımdır. Bu, ahıl insanlarda ürəyin atım həcminin və qan təzyiqinin azalması səbəbindən aritmiyaların ürək və beyin qan dövranının çatışmazlığı ilə müşayiət olunması ilə əlaqədardır. Ahıllarda aritmiyalar keçici xarakter daşıyırlar.

Düzgün diaqnoz qoymaq üçün EKQ-nın gündəlik monitorinqi aparılmalıdır [7]. Ahıl insanlarda təhlükəli hesab edilən aritmiya formalarını müəyyən etmək lazımdır:

1) mədəcik fibrilyasiyası və asistoliyası kimi mərkəzi və periferik qan dövranının ağır pozuntularına səbəb olan aritmiyalar;

2) postinfakt kardioskleroz, xroniki ürək anevrizması, hipertrofik və dilatasion kardiyomiyopatiyası olan xəstələrdə kollaps və ya kəskin ürək çatışmazlığına götürə bilən ventrikulyar paroksizmal taxikardiya, qulaqcıqların titrəməsi və səyirməsinin taxisistolik forması kimi aritmiyalar [8].

Stenokardiya tutmalarına və miokard infarktının inkişafına səbəbkar aritmiyalar ayrıca təhlükəli qrupa aid edilməlidirlər.

Qeyd etmək lazımdır ki, ahıl insanlarda aritmiyalar həm ritm pozulması, həm də normallaşması zamanında tromboz və ya tromboemboliyanın yaranmasına gətirir və müalicə seçərkən bu mütləq nəzərə alınmalıdır.

Ailə həkimlərinə nəzərə almalıdırlar ki ahıl xəstələrdə aritmiyalar dissirku- lator ensefalopatiyaya səbəb olur və ya onun gedişatının ağırlaşdırırlar ki, bu ya beyin damarlarında trombemboliya ya da ürək-beyin sindromu ilə əlaqədardır. Bu sindromun ən çox görülən təzahürü qısamüddətli şüurun itməsi, hərəkət zamanı koordinasiyanın pozulması və düşmələrdir [9]. Senkopal vəziyyətlərin meydana gəlməsinə ən sıx sinoatrial blokada ilə sinus düyününün zəifliyi sindromu və II-III dərəcəli atrioventrikulyar blokada ilə Morqani-Adams-Stoks tutmaları səbəb olurlar [10].

Yuxarıda yazılanlardan belə nəticə çıxartmaq olar ki, ümumi təcrübə həkimi ahıl xəstələri ürək-damar patologiyasının aşkarlanması üçün müalicə etməkdən əlavə digər xəstəliklər zamanı da uzunmüddətli manitorinq aparmalı və zəruri hallarda ixtisaslaşdırılmış mütəxəssisləri cəlb etməlidir.

Qocalıq astensiyası sindromuna bu əlamətlər daxildir: yerişin pozulması, əzələ kütləsinin azalması, koqnitiv pozuntularının inkişafı, motivasiyanın azalması, həyat maraqları itirilməsi, hərəkət fəaliyyətinin aşağı səviyyəsi və s. [11]. Ahıl və qoca insanlarda aritmiyalar müşahidə edilərsə bu sindrom və onun diaqnostikası ayrıca nəzərə alınmalıdır; belə xəstələrdə anamnezlərində aritmiyanın olması qeyd edilir. Qocalıq estoniya sindromunun meydana gəlməsi yaşlı orqanizmdə ehtiyat potensialının azalması ilə əlaqədardır, bu da mövcud ritm və keçiricilik pozuntularının kəskinləşməsinə səbəb olur. Atrial fibrilasiyanın paroksismal forması qocalıq asteniya sindromu olan insanlarda ən çox rast gəlinən aritmiya formasıdır.

Yekun. Təqdim olunan ümumiləşdirilmiş məlumatlar gerontoloji xəstələrdə aritmiyanın ümumi simptomların üstünlüyü, lənggedişatlı patoloji proseslərə meylilik, aritmiyaların keçici xarakterli olması, ensefalopatiyanın təzahürlərində artışın müşahidə edilməsi kimi klinik xüsusiyyətlərə malik olduğunu göstərir. Beləliklə, ürək və beyin qan dövranının çatışmazlığının varlığı keçici aritmiyaya dəlalət edir və bu kimi hallar ahıl xəstələrlə qarşılaşan ailə həkimləri tərəfindən nəzərə alınmalıdır [12]. Buna görə, bu şəxslərə şüurun itirilməsinə səbəb olan tromboemboliya və ya serebrovaskulyar çatışmazlığını aşkar etmək üçün zamanında beyin damarlarını müayinə etməyi məsləhət görürük. Paralel olaraq, aritmiyanın növünü təyin etmək üçün gündəlik EKQ-nın monitorinqinə ehtiyac vardır. Gerontoloji xəstələrin ailə həkimi tərəfindən aparılması taktikası ritm və keçiricilik pozuntularının səbəblərinin müəyyənləşdirilməsindən və qocalıq astensiyasının vaxtında diaqnostikasından asılı olacaqdır [13,14].

ƏDƏBİYYAT

1. Salihov M.S. Ailə təbabəti. Dərslik, B., 2011
2. Mirza M., Strunets A., Shen W.K. et al. Mechanisms of arrhythmias and conduction disorders in older adults // Clin Geriatr Med., 2012, v.28, p.555-573.
3. Jahangir A., Sagar S., Terzic A. Aging and cardioprotection // J Appl Physiol., 2007, v.103, p.2120-2128.
4. Chen R.L., Balami J.S., Esiri M.M. et al. İschemic stroke in the elderly: an overview of evidence // Nat Rev Neurol., 2010, v.6(5), p.256-65.
5. Коршун Е.И., Сотников К.А. К проблеме тактики ведения и особенностей медикаментозной терапии нарушений ритма и проводимости у гериатрических пациентов // Фундаментальные исследования, 2014,№10-4, с.776-781
6. Cugini P., Lucia P., Di Palma L. et al. Effect of aging on circadian rhythm of atrial natriuretic peptide, plasma renin activity, and plasma aldosterone // J Gerontol., 1992, v.47(6), B214-9.
7. Curtis A.B., Karki R., Hattoum A., Sharma U.C. Arrhythmias in Patients ≥80 Years of Age Pathophysiology, Management, and Outcomes // J Am Coll Cardiol., 2018, v.71(18), p.2041-2057
8. Kantelip J-P., Sage E., Duchene-Marullaz P. Findings on Ambulatory Electrocardiographic Monitoring in Subjects Older Than 80 Years // Am J Cardiol., 1986, v.57, p.398-401.
9. Dun W., Boyden P.A. Aged atria: electrical remodeling conducive to atrial fibrillation // J Interv Card Electrophysiol., 2009, v.25, p.9-18.

10.Faddis M.N., Rich M.W. Pacing interventions for falls and syncope in the elderly // Clin Geriatr Med., 2002, v.18 (2), p.279-94.

11.Dobrzynski H., Boyett M.R., Anderson R.H. New insights into pacemaker activity: promoting understanding of sick sinus syndrome // Circulation, 2007, v.115, p.1921-1932.

12.Myakotnykh V.S., Ostapchuk E.S., Postovalova V.L. The main diseases and syndromes identified in patients of elderly and senile age, hospitalized in the hospitals of a different profile // Advances in Gerontolog, 2018, v.31(2), p.250-259.

13.Gregoratos G. Permanent pacemakers in older persons // J Am Geriatr Soc., 1999, v.47(9), p.1125-35.

14.Chodzko-Zajko W.J., Proctor D.N., Fiatarone Singh M.A. et al. Exercise and Physical Activity for Older Adults. Medicine & Sciene in Sports & exercise // Official Journal of the American College of Sports Medicine. Med Sci Sports Exerc., 2009, v.41(7), p.1510-1530.

Резюме

Астенический синдром и нарушения сердечного ритма в возрастной группе

С.К. Шахбазбекова, И.Т. Расул, К.М. Салихова, Н.Х.Хасанова

В статье освещается современный подход к характеристикам нарушений сердечного ритма и проводимости у пожилых людей. У пожилых пациентов нарушения сердечного ритма и периферические нарушения сопровождаются сердечной и церебральной недостаточностью. Эти симптомы также сопровождают синдромом старческой астении. Роль врача общей практики очень важна в выявлении этих случаев.

Summary

Asthenic syndrome and nervous system rhythm in stroke group

S.K. Shahbazbeyova, I.T. Rasul, K.M. Salihova, N.H. Hasanova

There is a modern approach to the character's mischievous pathetic rhythm and provocation. In patients with anxiety disorders, cardiac rhythm and peripheral nausea are suppressed by cerebral palsy and cerebral palsy. Symptoms of the cerebral palsy are associated with the syndrome of primary asthenia. The role of physician in practice is very important, and in his commitment to ethics.

Daxil olub: 11.06.2019

Dölün bətndaxili inkişaf ləngiməsi sindromu haqqında müasir təsəvvürlər

N.M.Kamilova, Ş.M.Xəlilova, İ.A.Sultanova

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: hamiləlik, bətndaxili inkişaf ləngiməsi, piylənmə, bədən kütləsi çatışmazlığı (DMT), ultrasəs müayinə, fetometriya, dopplerometrik tədqiqat

Ключевые слова: беременность, синдром задержки развития плода (СЗРП), ожирение, дефицит массы тела (ДМТ), ультразвуковые исследования, фетометрия, допплерометрическое исследование

Key words: pregnancy, fetal growth retardation syndrome (FDS), obesity, body mass deficiency (DMT), ultrasound, fetometry, dopplerometric study

Dölün bətndaxili inkişaf ləngiməsi müstəqil bir nozologiya deyildir. Bu dölün müəyyən hestasiya müddətinə lazımi kütlə-boy parametrlərinə çata bilməməsi vəziyyətində fetoplasentar kompleksdə mübadilə proseslərinin dəyişməsi nəticəsində döldə baş verən pozuntulardan ibarətdir [1,2]. Dölün bətndaxili inkişaf ləngiməsi sindromu (DBLS) perinatal və xəstələnməyə, qəfil uşaq ölümünə səbəb olaraq, səhiyyə üçün ümumlikdə problem kəsb edir [3]. ÜST göstəricilərinə uyğun olaraq dölün bətndaxili inkişaf ləngiməsi sindromu (DBİLS) Mərkəzi Asiyada 31,3%, Avropada 6,5% təşkil edir. ABŞ-da doğuşlar zamanı 10-15% halda aşkar edilir, bu zaman perinatal hipoksiya 30% uşaqlarda aşkar edilir. DBİLS vaxtından əvvəl doğuşdan sonra ikinci yeri tutur. DBİLS olan uşaqların 30,1%-i vaxtından əvvəl doğulmuş uşaqlardır. 23% halda çox aşağı bədən kütləsi, 38% halda ekstremal az bədən kütləsi olan uşaqlar dünyaya gəlir [4].

Perinatal itkilər strukturunda 20%-ə qədəri aydınlaşdırılmış hallar təşkil edir [4]. Dölün inkişafının müxtəlif mərhələlərində ağırlaşmaların baş verməsi ehtimalı olduğu üçün bu problem daha aktualdır. Vaxtından əvvəl doğulmuş uşaqlarda erkən neonatal dövrdə çox zaman respirator distess sindrom, sepsis,

bronxial-ağciyər displaziyası, intraventrikulyar qansızmalar aşkar edilir [3]. Koqnitiv funksiyaların ləngiməsi qeydə alınır [5]. 60% halda uşaqların fiziki inkişaf ləngiməsi, 80% halda ahəngin pozulması, 42% halda psixomotor inkişafın ləngiməsi müəyyən edilir. Uşaq serebral paraliçi, şiddətlənən hidrosefaliya, oliqofreniya kimi MSS-in davamlı ağır pozuntuları 12% halda qeydə alınır [2]. MSS və parenximatoz orqanların funksiyasının, neonatal dövrün pozulma dərəcəsini təyin edən əsas paramterlərdən biri DBİL-in ağırlıq dərəcəsi hesab edilir [6].

Beləliklə, bətndaxili daxili əlverişsiz amillərin uzun müddət təsiri nəticəsində ümumi inkişafın və sonrakı keyfiyyətində pozulmalar baş verir. Müəyyən edilmişdir ki, DBİL olan uşaqlarda 10-17 yaşlarında fiziki və cinsi inkişafda nəzərəçarpan dəyişikliklər baş verir. Daha çox skelet quruluşunda qüsurlar, boyun ləngiməsi, çanaq ölçülərinin dəyişməsi, eləcə də cinsiyyət sisteminin inkişafdan qalması, cinsi inkişafın ardıcıllığının pozulması təyin edilir. BDİL ilə doğulmuş uşaqlarda aybaşı funksiyası pozuntuları populyasiyaya nisbətən daha çox aşkar edilir. Müvafiq olaraq, BDİL perinatal patologiyanın ən geniş yayılmış formalarından biri hesab olunur, 5-7% uşaqlarda aşkar edilir [7].

Son illər yaşlı nəslin xəstəliklərində "fetal mənşə nəzəriyyəsi" geniş tətbiq edilərək tədqiqatlar aparılır [8]. Müəyyən edilmişdir ki, doğuş zamanı və erkən yaşlarda bədən kütləsinin aşağı olması yaşlı əhalidə ürək-damar xəstəlikləri, atreoskleroz, ürəyin işemik xəstyəliyi, hipertoniya xəstəliyi, miokard infarktı, qlükoazaya qarşı tolerantlığın pozulması, tip II şəkərli diabet, metabolik sindrom riskinon yüksək olması ilə assosiasiya olunur [9].

2013-cü ildə A. Seghal tədqiqatlarında ürək funksiyası və arterial biofiziki pozuntuları dölün bətndaxili inkişaf ləngiməsi olan uşaqlarda hestasiya vaxtına uyğun vaxtda doğulan uşaqlara nisbətən daha çox aşkar edilir [1].

Hazırda DBİLS etiologiyası haqqında kifayət qədər informasiya toplanmış, onun risk faktorları təyin edilmişdir: ekstragenital və mamalıq patologiyaları, bətndaxili infeksiya, ekoloji faktorlar, siqaret çəkmə, alkohollu içiklərin, narkotiklərin qəbulu, dərman preparatların əlverişsiz təsiri [2,4]. Lakin indiyə qədər bu faktorlar sistemləşdirilməmiş, rastgəlmə tezliyi və bətndaxili inkişaf ləngiməsində onların hər birinin orta çəkisi müəyyən edilmir ki, bu da həmin patologiyanın erkən diaqnostikanın effektivliyini aşağı salır. Şübhəsiz ki, dölün kütləsinin az olması və morfoloji yetişkənliyin ləngiməsinin əsasını təkcə metabolizm dəyişiklikləri deyil, həm də hamilə qadın və döldə baş verən dəyişikliklər təşki edir, lakin onların sindromun patogenezində rolu sona qədər müəyyən edilməmişdir [10].

DBİL-in bütün səbəbləri iki qrupa ayrılır: 1)anada yerli və ümumi patologiyalar və "ana-cift" sistemində pozuntular; 2)dölün və fetoplassentra sistemnin zədələnməsi. Bu sidnromun etioloji faktorlarının topoqrafik əlamətlər üzrə qruplaşdırılmasında aşağıdakı risk faktorları ayrılır: plasentaönü və ana (ekstragenital xəstəliklər, hestozlar, xronik intoksikasiya, ağırlaşmış mamalıq-ginekologiya anamnezi və s.), plasentar (trombozlar, cift infarktları, göbək ciyəsində bir arteriya, plasentit, birləşmə anomaliyaları) və postplasentar və ya döl (çoxdöllük, irsi faktorlar, inkişafın anadangəlmə faktorları, generalizə olunmu. bətndaxili infeksiyalar) [11].

INTERGROWTH-21 Project proqram üzrə aparılan tədqiqatlar əsasında fakrorlar ranqlara ayrılmışdır. Birinci ranqda reproduktiv sağlamlığı göstərən faktorlar yerləşmişdir, bu zaman əsas yeri qarşıda duran doğuşlar, uşaqlıq boynu xəstəlikləri, özbaşına düşüklər və abortlar, uşaqlıq və uşaqlıq artımlarının iltihabi xəstəlikləri təşkil edir.

Sosial faktorlar- ailədə əlverişsiz sosial-iqtisadi vəziyyət, ailənin tam olmaması, zərərli vərdişlər (siqaret, alkhol), qadının yaşının 30-dan yuxarı olması ikinci ranqda yer almışdır.

Üçüncü yerdə hamiləlik zaman baş verən faktorlar yer almışdır. Bu zaman I və II trimsetrlərdə hamiləlik düşüyü təhlükəsi, anemiya, kolpitlərin orta çəkisi yüksək olmuşdur.

Dördüncü ranqı qadının somatik sağlamlığını xarakterizə edən faktorlar qrupu təşkil edirş bunların arasında xronik infeksiyalar, sidik-cinsiyyət sistemi xəstəlikiləri, hipotenziv sindrom və bətən çəkisinin 25%-dən az defisiti üstünlük təşkil edir.

Beşinci yeri dl tərəfindən faktorlar təşkil edir – hipoksiya, çoxmayelik, bəntdaxili infeksiya. bütün bunlar bətndaxili inkişaf üçün yüksək risk dərəcəsi təşkil etmişdir (4 bal). Bu faktorların orqan və sistemlərə təsiri spesifik deyildir. Onların təsiri, ilk növbədə ciftdə mikrosikulysiyanın pozulmasına, onun strukturunun dəyişməsinə, nəqli, endokrin və metabolik funksiyalarının pozulmasına və nəticədəxrpnik cft çatışmazlığının inkişaf etməsinə gətirib çıxarır. Bu da "ana-cit-döl" sistemində hemodinamikanın pozulmasına və döldə hipoksiyaya gətirib çıxarır, onun fonunda da bətndaxili inkişaf ləngiməsi baş verir. Beləliklə, bu sindrom ananın orqanizmində müxtəlif pozuntulara qarşı döl və ciftin yanaşı reaksiyası nəticəsində baş verir.

Son illər aparılna epidemioloji tədqiqatalrdan məlum olmuşdur ki, keyfiyyətli və zəngin olmayan qidalanma ilə genetik faktorların və kimyvə i və infeksion teratogenlərin rolunun qarşı-qarşıya qoymaq

olar. Lakin qidalanma problemi genetik, toksikoloji və hətta infeksiona monitorinq problemlərinə nisbətən potensial olaraq daha yaxşı həll və idarə edilir. Tədqiqatların gedişatında hestasion proses ilə qidalanma xarakteri arasında birbaşa əlaqə aşkar edilmişdir [12]. Aşkar edilmişdir ki, BDİL-in yüksək tezliyinin səbəbi vitamin və mikroelement defisitidir. Hamilələr arasında piylənmə və bədən kütləsi çatışmazlığı zamanı daha çox qidalanma pozuntusu qeyd edilir.

Bəzi müəlliflər tərəfindən müəyyən edilmişdir ki, piylənmə və bədən kütləsi çatışmazlığı hamiləliyin gedişatına mənfi təsir göstərir, lakin BDİL-in inkişaf səbəbləri haqqında ədəbiyyatın geniş icmalında bu faktorlar hətta qeyd edilir [13]. Yalnız az sayda tədqiqatlarda göstərilmişdir ki, piylənmə və bədən kütlə çatışmazlığı zamanı özbaşına abortların sayı, anemiyanın, hestozların, dölyan mayenin vaxtından əvvəl açılmasının və başqa ağırlaşmaların tezliyi artır [8,10]. Yerli və xarici müəlliflərin fikrincə, DBİL konkret döl ilə hestasiya müddətinə uyğun orta statistik dölün bədən kütləsi əsas götürülərək müqayisə edilir. Xarici nəşrlərdə bu təyinatlardan istifadə edilir: small forgestation age (SGA) –hamiləlik dövrü üşün aşağı bədən çəkisi olan döl (10 persentildən aşağı), appropriate forgestation age (AGA) – dölün bədən çəkisi hamiləlik dövrünə uyğundur (10 və 9-cu persentillər arasında), large forgestation age (LGA) – hamiləlik dövrünə görə yuxarı bədən çəkisi (90 persentildən yuxarı).

Qeyd etmək lazımdır ki, «small forgestation age» və «dölün hipertrofiyası» anlayışlarını sinonim hesab etmək olmaz. Hər il SGA dölün boyunun patoloji ləngiməsi olmur, hər hansı bir konkret döl konstitusional az bədən kütləsinə malik ola bilər, yəni aşağı bədən kütləsi ilə tam sağlam olmaq mümkündür [11]. BDİL-in təyin edilməsi üçün xarici ədəbiyyatda «intrauterine growth restriction» (IUGR) terminindən istifadə edilir [2,7]. Xarici tədqiqatçıların göstəricilərinə əsasən hestasiya dövrünə görə 10 persentildən az bədən kütləsinə malik olan yenidoğulmuşların 70%-i konstitusional az bədən çəkisi ilə olmuş, 30%-ə BDİL diaqnozu qoyulmuşdur [8].

Xəstəliklərin 10-cu Beynəlxalq təsnifatına uyğun olaraq (XBT-10) böyun ləngiməsi və qida çatışmazlığı ilə əlaqədar olaraq aşağıdakı pozuntular fərqləndirilir (P05-P08):

- P05.0. Hestasiya müddəti üçün azçəkili döl.
- P05.1. Hestasiya yaşı üçün dölün kiçik ölçüsü.
- P05.2. Hestasiya müddəti üçün dölün qida çatışmazlığı və kiçik ölçüsü.

Boyun ləngiməsi və qida çatışmazlığı ilə bağlı olaraq patologiyanın terminoloji təyin edilməsinin unifikasiyası üçün XBT-10-a uyğun olaraq aşağıdakı təyinatalar məqsədəuyğun hesab edilir: müəyyən hestasiya müddətinə uyğun azçəkili döl üçün boyun ləngimə sindromunun (BLS) asimmetrik forması (P05.0), müəyyən hestasiya müddətinə uyğun azçəkili döl üçün BLS simmetrik forması (P05.1), qidalanma çatışmazlığı ilə dölün hipertrofiyası (P05.2).

Hesab edilir ki, DBİL-in inkişafın iki tipinin əsasını (simmetrik və asimmetrik) müxtəlif patogenetik mexanizmlər təşkil edir.

Belə ki, simmetrik forma, bir qayda olaraq, irsi patologiya, eləcə də xromosom aberrasiyaları, dölün inkişaf anomaliyaları və anada persistə edən infeksiyalar ilə bağlıdır. Əsas yerdə enterovirus və herpes virusu [14], sitomeqolavirus və qızılca virusu [15] durur. Müəyyən edilmişdir ki, iltihabönü sitokinlərin produksiyası endotolisitlər tərəfindən prostasiklin, trombomodulin, C proteinin produksiyasını buraxaraq, uşaqlıq-cift hövzəsində koaqulyasiya homeostazında pozuntulara, ana və döl arasında immun, hormonal və metabolik qarşılıqlı münasibətlərin pozulmasına gətirib çıxarır.

DİL-in 90% hallarında dölün inkişafının asimmetrik inkişafının aparıcı patogenetik faktoru uşaqlıq-cift qan dövranı pozuntusu fonunda döldə xronik hipoksiya və metabolik pozuntular inkişaf etməklə cift çatışnazlığı olur [16].

Dölün boyunun ləngiməsi sindromu cift çatışmazlığının təzahürü hesab edilir. Bunu nəzərə alaraq, dölün vəziyyətinə dinamik nəzarət, dölün fütometrik profilinin qiymətləndirilməsi, döl və uşaqlıq-cift qan dövranın dopplerometriyası çox böyük əhəmiyyət kəsb edir. BDİLS-in diaqnostikasının "qızıl standartı" indiyə qədər ultras müyinə hesab edilir [15]. Qadınlara 6 dəfə USM keçək tövsiyə edilir: 14-18, 19-23, 24-28, 29-33, 34-38 və 39-42 həftərələrdə, alınan göstəricilər əsasında antropometrik protokollar hazırlanır və DBİL diaqnozu qoyulur. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, dölün hipertrofiyası diaqnozunun dəqiqliyi 91,8%, spesifikliyi 91,4%, həssaslıq 92,4% təşkil etmişdir. I dərəcəli döl hipertrofiyası 32%, II dərəcəli 6% hallarda təyin edilmişdir [17]. Lakin antropometrik xüsusiyyətlər hər bir millət üçün müxtəlifdir, ona görə də təklif edilən protokollar hər bir ölkə üçün fərdi işlənir [5].

Həmçinin dlün inkişaf ləngiməsinin dərəcəsinin qiymətləndirilməsi sistemində də ziddiyyətli firikilər vardır. DBİL-in diaqnostikası üçün bir neşə göstəricidən istifadə etmək olar [7].

Adətən mamalıq müayinlərinin gedişatında dölün bətndaxili ləngiməsi olan hamilələr tez ayrılır. DBİL-in təyin edilməsində birinci addım ümumi çəkinin və hestasiya müddətinin təyin edilməsidir. Əvvəllər yalnız biparietal ölçü götürülürdü. Hadlock F.R., et al. Dölün çəkisini bir neçə fetometrik

parametr əsasında təyin edirdilər: başın, belin və çanağın çevrəsi, bu zaman dölün çəkisi ±15% (2 standart kənaraçıxma) ilə bərabərləşdirilirdi. Bu metodların köməkliyilə hamiləlik dövrünə uyğun olaraq dölün bədən çəkisi 10 prosentildən az olarsa, BDİL təyin edilir. Son qərar üçün dinamik nəzarətin aparılması zəruridir. Əgər müayinə zamanı göstəricilərin normal tempi aşkar edilirsə, dölün əlverişli inkişafı haqqında qərar qəbul edilir və BDİL diaqnozu istisna edilir. Əks halda göstəricilərin tempinin aşağı düşməsi dölün patoloji inkişaf ləngiməsi kimi qeyd edilir [18].

Populyasiyada dölün inkişaf ləngiməsinin bərmənalı olmadığını nəzərə alaraq USM zamanı ürək fəaliyyəti, hərəkət aktivliyi, tənəffüs hərəkətləri, dölün əzələ tonusu, dölyanı mayenin həcmi və ciftin vəziyyəti təyin edilir. Əsas fetometrik parametrlərə aiddir: dölün başının biparietal ölçüsü, qarnın və çanağın çevrəsi; dölün genişlənmə parametrlərinə aiddir: başın çevrəsi, baş ilə qarnını çevəsinin nisbəti, çanağın uzunluğu ilə qarnın çevrəsinin nisbəti [19]. Ultrasəs müayinə zamanı əlverişsiz əlamət hesab edilir: cift gəlişi və aşağı plasentasiya, ciftin hiper- və hipoplaziyası, onun vaxtından əvvəl yetişməsi, liflərarası mühitin genişlənməsi, infarktlar, çoxsaylı kalsinatlar, azmayelik və çoxmayelik. Bir çox xarici müəlliflər DBİL-in əsas əlaməti olaraq azmayeliyi qəbul edirlər.

Hamiləliyin I trimestrində BDİL-in baş verməsi haqqında sonrakı exoqrafik göstəricilər də dolayısı olaraq xəbər verə bilər. Bu da əsasın ekzoselom (erkən azmayelik) nəticəsində döl yumurtasının həcminin azalması hesab edilir [20]. Döl yumurtasının və maniotik boşluğun həcminin eyni zamanda azalması ilə yanaşı sarı kisənin anomaliyaları BDİL-in 74% halda inkişaf etdiyini göstərir. II və III trimestrlərdə ultrasəs müayinə 4 əas paramerə əsaslanır: biparietal ölçü, başən çevrəsi, boruvarı sümüklərin uzunluğu, qarçının çevrəsi və həmin göstəricilərin korrelyasiyası. Diaqnostikanı hamiləliyin 14-cü həftəsindən aparmaq lazımdır [9]. Başın ölçüsünə və boruvari sümüklərin uzunluğuna görə 50% halda BDİL diaqnozunu qoymaq olar, çünki bu parametrlər dölün qidalanmasından birbaşa asılı deyildir, çünki qidalanma düzgün olmadıqda belə onların ölçüsü dəyişilməz qalır. Daha informativ göstərici qrı çevrəsidir, kifayət qidalanma olmadıqda qarnın ölçüsü dəyişir, çünki əsasən qaraciyərdə toplantılar ilə təyin edilir, bu da öz növbəsində qlikogenin toplanmasından asılıdır. Cift çatışmazlığı olduqda qlikogen ehtiyatları BDİL-in asimmetrik inkişaf riski baş verir. Qarnın çevrəsinə uyğun diaqnostik göstəricilərin dürüstlüyü 73% təşkil edir. Mütənasibliyin pozulmasının kəskinliyinin təyin edilməsi üçün başın cevrə uzunluğu ilə qarnın çevrə uzunluğunun nisbəti təyin edilir. Məsələn, başın çevrə və budarn çevrə uzunluğu nisbəti normadan azdırsa, DBİL-in asimmerik forması göstərilir. Daha çox ölçülərdən kombinə edilmiş şəkildə istifadə edilməsi 90% halda diaqnostikanın dürüstlütünü artırır [19].

Fetometriyanın nəticələrinə əsasən dölün boy ləngiməsinin dərəcəsini təyin etmək mümkündür, bu da, bir qayda olaraq, cift çatışmazlığının ağırlıq dərəcəsi ilə mütənasib olur: I dərəcə- dölün 2 həftə ləmgiməsi, II dərəcə- 3-4 həftə ləgiməsi, III dərəcə 4 həftə və daha çox ləngiməsi [21].

DBİL olan döln müayinəsi üçün doppler ultrasəs müyinəsinin müasir protokolları bir neçə vacib zəruri damarda qan axını sürət əyrisini qiymtələndirməyə imkan verir.

Beləliklə, müasir ultrasəs müayinənin aktual istiqamətlərindən biri DBİL və cift çatışmazlığı, eləcə də piylənmə və dölün bədən kütlə defisiti üzrə yüksək risk qrupuna aid edilən hamilələrdə dölün vəziyyətinin prenatal diaqnostikası hesab edilir. Hamiləliyin gedişatı və doğuşun sonluğu ilə bağlı problemlərin öyrənilməsi ilə bağlı olaraq aparılan tədqiqat işləri də məqsədəuyğundur. Müasir diaqnostika, profilaktika və müalicə metodlarının təkmilləşdirilməsi piylənmə və bədən kütlə defisiti olan hamilələrdə hestasiya dövrünün bir çox aspektlərinin təyin etməyə imkan verir. Lakin bu istiqamətdə öz həllini tampayan bir çox probelmlər vardır. Müxtəlif çəki kateqoriyalarında olan hamilələrdə cift çatışmazlığı və DBİL zamanı ultrasəs semiotikanın dəqiqləşdirilməsi və tamamlanması vacibdir. Həm plasentar çatışmazlıq zamanı, həm də dölün bətndaxili inkişaf ləngiməsi zamanı fetoplasentar çatışmazlıqda fetaplasentar sistemin exoqrafik və morfoloji variantlarının müqayisə edilməsi tələb olunur. Həmin kateqoriyadan olan hamilələrdə fetoplasentar disfunkiyasının ultrasəs əlamətləri zamanı genişlənidirilmiş ultrasəs protokollarını işləyib hazırlamaq lazımdır.

ƏDƏBİYYAT

1. Беляева И.А., Окунева М.В., Бомбардирова Е.П. Физическое развитие и состав тела недоношенных младенцев на первом году жизни: связь потенциалов внутриутробного и постнатального роста // Российский педиатрический журнал, 2018, №3, с.132-138
2. Джаманкулова Ф.С., Мусуралиев М.С., Сорокин А.А. Оценка факторов риска у беременных женщин и прогнозирование развития врожденных пороков плода // Казанский медицинский журнал, 2018, №5, с.748-753
3. Захарова С.Ю., Левина Л.Г. Гуморальные маркеры дисфункции эндотелия у детей первого года жизни, родившихся с синдромом задержки внутриутробного развития // Российский вестник перинатологии и педиатрии, 2019, №6, с.57-61

4. Забанова Е.А., Кузнецова Н.Б., Шкурат Т.П., Бутенко Е.В. МикроРНК регуляция в генезе задержки роста плода // Акушерство и гинекология, 2019, №12, с.5-10.

5. Друккер Н.А., Авруцкая В.В., Селютина С.Н. и др. Биохимические факторы задержки роста плода // Российский вестник акушера-гинеколога, 2019, № 6, с.11-15

6. Миронов П.И., Ильина Э.З., Саубанова Т.В., Грешилов А.А. Факторы риска развития тяжелой дыхательной недостаточности у новорожденных с гестационным возрастом 37 недель // Вестник анестезиологии и реаниматологии, 2019, №4, с.19-23

7. Shand A.W., Hornbuckle J., Nathan E. et al. Small for gestational age preterm infants and relationship of abnormal umbilical artery Doppler blood flow to perinatal mortality and neurodevelopmental outcomes // Aust N Z J Obstet Gynaecol., 2009, v.49, p.52-58.

8. Родионова А., Игнатко И. Перинатальные исходы у беременных с фетальной аритмией и малыми аномалиями развития сердца плода // Врач, 2019, №5, с.77-78

9. Акрамова Х.А., Ахмедова Д.И. Характерные особенности плацентарного фактора роста при задержке внутриутробного развития плода // Педиатрия, 2014, №3-4, с.29-31

10. Ломова Н.А., Кан Н.Е., Донников А.Е. и др. Клинические и молекулярногенетические предикторы реализации врождѐ нной инфекции у новорожденных с задержкой внутриутробного развития // Акушерство и гинекология, 2013, №8. с.35-39 3.

11. Долгушина Н.В., Казанцева Е.В., Пивоварова А.В. Влияние антропогенных химических веществ на массу тела новорожденных // Акушерство и гинекология, 2013, №12, с.58-64

12. Насирова У.Ф. Постгипоксическая адаптация центральной нервной системы у новорожденных с задержкой внутриутробного развития // Педиатрия, 2012, №1-2.

13. Умарова Л.Н., Ишниязова Н.Д., Назлымова А.М. Энерготропная терапия у детей с задержкой внутриутробного развития // Педиатрия, 2013, №3-4, с.18-20.

14. Умарова Л.Н. Особенности периода адаптации и физического здоровья детей, рожденных с задержкой внутриутробного развития / Журнал теоретической и клинической медицины, 2011, №4, с. 29-31

15. Lestari H., As'ad S., Yusuf I. et al. Developmental performance in small for gestational age children with and without catch-up growth // Paediatr. Indones., 2015, v.55, p.199-202

16. Салихова К.Ш. Оценка динамики органных поражений у новорожденных, родившихся с низкой массой тела // Журнал теоретической и клинической медицины, 2011, № 4, с. 27-29

17. Фадеева Т.Ю. Клинико-функциональные особенности развития плода и новорожденного с задержкой внутриутробного развития: Автореф. дис. ... канд. мед. наук. Владивосток, 2012, 21с.

18. Ugwuja E.I., Ejikeme B., Obuna J.A. Impacts of elevated prenatal blood lead on trace element status and pregnancy outcomes in occupationally non-exposed women // Int. J. Occup. Environ. Med., 2011, v.2 (3), p. 143-56

19. Chauhan S.P., Lavery J.A., Ananth C.V. Small for gestational age: reassessment of birthweight percentile linked with neonatal mortality in the United States // American Journal of Obstetrics & Gynecology Suppl., 2016, v.321

20. Rai S., Kaur S., Hamid A. Changes in serum calcium and serum glucose levels in asphyxiated SGA // Journal of Evolution of Medical and Dental Sciences, 2015, v.4(77), p.13411-13416.

21. Белоусова Т.В., Андрюшина И.В. Задержка внутриутробного развития и ее влияние на состояние здоровья детей в последующие периоды жизни. Возможности нутритивной коррекции // Вопросы современной педиатрии, 2015, v.14 (1), p.23-30

22. Ковтун О.П. Преждевременное рождение и программирование заболеваний. Вклад интенсивной терапии // Вопросы современной педиатрии, 2014, №5, с.26-30

Резюме

Современные представления о синдроме радержки внтуриутробного развития плода

Н.М.Камилова, Ш.М.Халилова, И.А.Султанова

Синдром задержки роста плода (СЗРП) является причиной перинатальной заболеваемости и смертности, риска внезапной младенческой смертности во всем мире, представляя проблему для здравоохранения в целом. Синдром задержки роста плода считается проявлением плацентарной недостаточности. Необходимо уточнение и дополнение ультразвуковой семиотики изменений при ПН и СЗРП у беременных с различными весовыми категориями. Требует сопоставление и сравнение эхографических и морфологических вариантов особенностей фето-плацентарной системы как при плацентарной недостаточности, так и при синдроме задержки развития плода у данных беременных. Разработать расширенные ультразвуковые протоколы заключений при ультразвуковых признаках плацентарной дисфункции у данной категории пациенток.

Summary

Modern ideas about the syndrome of intrauterine developmental fetal development

N.M. Kamilova, Sh.M. Khalilova, I.A. Sultanova

Fetal growth retardation syndrome (FDS) is the cause of perinatal morbidity and mortality, a risk of sudden infant mortality worldwide, representing a public health problem. Fetal growth retardation syndrome is considered a manifestation of placental insufficiency. It is necessary to clarify and supplement the ultrasonic semiotics of changes in PN and SZRP in pregnant women with different weight categories. It requires a comparison and comparison of echographic and morphological variants of the features of the feto-placental system both in placental insufficiency and in the syndrome of fetal development retardation in these pregnant women. To develop extended ultrasound protocols of conclusions for ultrasonic signs of placental dysfunction in this category of patients.

Daxil olub: 10.06.2019

PRAKTİK HƏKİMƏ KÖMƏK-ПОМОЩЬ ПРАКТИЧЕСКОМУ ВРАЧУ

Parazitozların müalicə və profilaktikası

V.N.Cavadzadə
Azərbaycan Tibb Universiteti,

Açar sözlər: parazitlər, helmint, patoloji proses
Ключевые слова: паразиты, гельминты, патологические процессы
Keywords: parasites, helminths, pathological processes

Parazitozlar insan, heyvan və bitkilərdə müxtəlif xəstəliklər törədirlər. Parazitozlar yer kürəsində geniş şəkildə yayılmışdır. Dünya əhalisinin təxminən bir milyardı müxtəlif parazitozlarla xəstələnir [1,2]. Helmintlərin 250-ə qədər növü insanlarda xəstəlik törədirlər.Tibbi əhəmiyyəti olan helmintlər əsasən 3 sinifə bölünür - girdə qurdlar, lentvari qurdlar və sorucu qurdlar. Parazitozlara isə eyni zamanda Blantidioz və Lyamblioz daxildir [4]. İnsan çiy, yarıbişmiş ət, balıq, yuyulmamış meyvə-tərəvəz yedikdə helmint yumurta və sürfələri orqanizmə düşür və nəticədə helmintozlarla xəstələnmə baş verir. İnsanlar parazitozlara yoluxdurma amilləri vasitəsilə yoluxur.

Ətraf mühit amilləri – torpaq, su, meyvə - tərəvəz, mətbəx avadanlıqları, uşaq oyuncaqları helmintozların yumurtaları və sürfələri ilə çirklənir.

Helmintlər bağırsağdan qida maddələrinin, ferment, vitamin və mikroelementlərin sovrulması çətinləşdirir, immun sistemin fəaliyyətini zəiflədir və nəticədə kolit, enterit, xolesistit, pankreatit, disbakterioz və s. kimi patoloji proseslərin inkişafına səbəb olur [5].

Parazitozlar əsasən mədə-bağırsaq sisteminin ayrı-ayrı şöbələrində lokalizasiya olunaraq müxtəlif patoloji proseslər törədirlər. Parazitozlar orqanizmə toksiki, allergik, mexaniki, fermentativ və s. kimi mənfi təsir göstərirlər.

Helmintlər orqanizmdə alimentar çatışmazlıq törədir, insanın fiziki və əqli inkişafını və əmək qabiliyyətini pozur.

Parazitozıların nümayəndəsi olan askarida girdə qurdlara aid olub, dişi və erkək fərddən ibarətdir. Askarida geohelmintdir. Onun son sahibi və xəstəliyk mənbəyi insandır. Askarida nazik bağırsaqda parazitlik edir. Askaridozun kilnik mənzərəsi çox müxtəlif olub, xəstələr halsızlıqdan, baş ağrısından, yuxu pozğunluğundan, dəri səpgisindən, ağız sulanmasından və s. kimi əlamətlərdən şikayyət edirlər [7].

Trixosefaloz (tükbaş qurd) – dispeptik pozğunluqlar, baş ağrısı, baş gicəllənmə, yuxu pozğunluğu, bayılma və uşaqlarda qıcolmalarla gedən parazitar xəstəlikdir.Trixosefalozun törədicisi – Trichocephalus trichiurus-dur. Erkək və dişi fərdlərdən ibarətdir. Qurd geohelmintoz, antroponozdur. Son sahibi və invaziya ocağı insandır. Helmintlər yoğun, əksəriyyəti isə kor bağırsağda parazitlik edir və yumurta qoyur.İnsan çirkli meyvə-tərəvəz yeyərkən, su içərkən və çirkli əllər vastəsilə yoluxur. Xəstəliyin əsas simptomları mədə-bağırsaq sisteminin zədələnməsindən ibarətdir [8,9].

Strongiloidoz dəri səpgisi, asmatik bronxit, ağ ciyərlərdə eozinofil infiltratlarla özünü göstərən xroniki gedişə meyilli parazitar xəstəlikdir. Parazit dişi və erkək fərddən ibarətdir. Nəcislə xarici mühütə sürfələr aktiv ifraz olunur. Srtongiloidozun mənbəyi xəstə insan və itlərdir. Insan süfrə ilə çirklənmiş torpağa toxunduqda, su və ərzaq məhsullarından istifadə etdikdə yoluxur. Klinik gedişinə görə strangiloidozun kəskin və xroniki dövrləri aid edilir. Kəskin dövr zamanı qızdırma, dəri səpgiləri, bronxit, qarın ağrısı və mədə xorası əlamətləri müşayyət edilir.

Lyamblioz əsasən lyambliya gəzdirmə, bəzən isə mədə-bağırsaq pozğunluğu verən protozoa xəstəliyidir. Lyambliozun mənbəyi sist gəzdirən insanlardır. Yoluxmaya sistlə çirklənmiş əllər, ərzaq, su, məişət əşyaları səbəb olur. Xəstələrdə adətən nazik bağırsaq funksiyasının pozulması, kəskin qastro-enterit əlamətləri inkişaf edir. Bəzi xəstələrdə arıqlama, baş ağrısı, yorğunluq rast gəlinir.

Blantidioz ümumi intoksikasiya, yoğun bağırsaqda xoraların əmələ gəlməsi ilə gedən zoonoz xəstəlikdir. Törədicisi - blantidia coli olub, sist və vegetativ formalarından ibarətdir. Xəstəliyin mənbəyi donuzlar, it, siçovul, nadir hallarda isə insan olur. Blantidioz kəskin, xroniki və subklinik formalarda rast gəlinir. Kəskin forma özünü intoksikasiya və kolit sindromları ilə göstərir. Xəstələrdə yüksək qızdırma,zəiflik, baş ağrısı, ürəkbulanma və qusma qeyd edilir. Blantidiaz çox vaxt bağırsaq qanaxması, yoğun bağırsağın deşilməsi nəticəsində peritoinit verir [11,12].

Parazitozların müalicəsində bitki tərkibli preparatlarla yanaşı uzun illərdir ki, kimyəvi preparatlardan da geniş istifadə edilir. Helmintozların müalicəsi dehelmintləşdirmə adlanır. Dehelmintləşdirmə həm də qurd xəstəliklərinin yayılmasının qarşısını alır.

Parazitozların nümayəndələri olan askaridozun, trixosefalyozun və strongolidozun kompleks müalicəsində Mebendazol preparatı geniş tətbiq edilir. Mebendazol (vermox, helmintox) 200 və 400 mq dozada istehsal olunub, yüksək effektli qurd əlehinə preparatdır. Preparat eyni zamanda digər parazitlərə angilostomidoz və tenoz üçün də olduqca effektlidir.

Askaridoz, trixosefalyoz və strongiloidoz zamanı preparat səhər və axşam 200-400 mq olmaqla 3 gün müddətində daxilə qəbul edilir. Preparatlar 2 həftə sonra eyni qəbul qaydası ilə təkrar qəbul edilir [13,14].

Parazitozların - blantidioz və lyamblioz müalicəsində Metronidazol (kleon, metrogil) geniş istifadə edilir. Metronidozol 5-nitroimidozol törəməsi olub antiprotozoy və antimikrob təsirə malikdir.

Preparatın biomənimsənilməsi 75-80%-dir.Yüksək nüfuz etmə qabiliyyətinə malik olub, orqanizmin əksər toxuma və mayelərində yüksək konsentrasiya yaradır. Maksimal konsentrasiyanın yaranma müddəti 1-3 saatdır. Plazma zülalları ilə birləşməsi 10-20%-dir.

Lyamblioz zamanı böyüklərə günlük 500-1000 mq olmaqla daxilə qəbul edilir. 2-5 yaşlı uşaqlara 250 mq/gün, 6-10 yaşlı uşaqlara isə 500 mq/gün dozada təyin edilir. Kurs müalicə 5-10 gün müddətində aparılır. Müalicədən bir neçə gün sonra nəcis təkrar olaraq müayinə edilir. 4-6 həftə müalicə əvvəlki qəbul dozası ilə təkrar edilir.

Metronidozol böyüklərə blantidiaz zamanı 500 mq/gün dozada daxilə təyin edilir. Kurs müalicə 5-10 gündür. Preparat eyni zamanda 250-500 mq olmaqla vena daxilində yeridilə bilər. Preparat daxilə qəbul edildikdə xəstələrdə ürəkbulanma, qusma, qarında ağrılar, ishal, baş ağrısı, dəri səpgiləri və s. kimi əlavə təsirlər baş verə bilər.

Parazit dərmanlar təyin edildikdən sonra xəstələrə müxtəlif qrup polivitaminlər (çenturum,virtus,tri-vita), həzm preparatları (menzim-forte, festal, pankreatin və s.) immunomodulyatorlar (immunomax, immunofan, immunal və s.), probiotiklər (bifidobakterin, laktobakterin), prebiotiklər (hepatolak, dyufalak, laktol, enterolak) və ya simbiotiklər (lieviflor, probiocsin, colifagina) və s. kimi preparatlar təyin edilməlidir.

Parazitozlara qarşı aparılan profilaktik tədbirlərə helmint yumurta və sürfələri ilə çirklənməsinə qarşı aparılan kompleks tədbirlər və sanitar-baytarlıq tədbirləri daxildir.

Helmint yumurtalarına daha çox çirkab tullantılarda və torpaqda rast gəlinir. Çirkab tullantılar kompaslama tədbirləri ilə zərərsizləşdirilir. Bu zaman çirkab tullantılar kompas daxilində 45-50^{0}C hərarətlə helment yumurta və sürfələrindən tam təmizlənir. Eyni zamanda çirkab tullantılar sönməmiş əhəng ilə (8 q tullantıya 200-300 qram əhəng) zərərizləşdirilir. Helmint yumurta və sürfələri həmcinin qaynar suda və ya xlorlu əhəngdə də tələf olur. Torpağın helment yumurtalarından tam təmizlənməsi çox çətin və mürəkkəb bir prosesdir.

Son illər torpaqların helmint yumurtaları ilə çirklənməsi güman edilən ərazilərin təmizlənməsi məqsədilə quru xlorlu əhəngdən geniş şəkildə istifadə edilir.

Helmintlərin yumurta və sürfələrini kiçik torpaq sahələrində zərərsizləşdirmək məqsədilə qaynar su və ya xörək duzunun (1kq duz 1m^2) tətbiqi yüksək profilaktik effekt yaradır. Çirklənmiş torpaq sahələri 50%-li xlorlu əhəng, 3-4% kükürdlü tenol 1m^2 torpaq sahəsinə işlətməklə helmint yumurtalarından tam təmizləmək mümkündür.

Sanitar-baytarlıq tətbirləri helmintozlar ilə mübarizədə böyük əhəmiyyət kəsb edir. Baytar həkimləri ət kombinatı və sallaqxanalarda heyvanların kəsilməsinə ciddi nəzarət etməlidirlər. Sallaqxanalarda xəstə heyvanları kəsərkən onların daxili orqanlarının ətraf mühitə atılması, torpaq və suyun helmint yumurtları ilə intensiv çirklənməsinə və xəstəliyin geniş yayılmasına səbəb olur.

Parazitozlarla mübarizədə əhali arasında sanitar-maarif işlərinin aparılması əsas və effektiv tədbirlərdən biridir.

Kiçik və böyük yaşlı şəxslərdə daima nəcisin mikro və makroskopik müayinəsinin aparılması, helmint yumurta və sürfələri aşkar edilən şəxslərin müalicəyə cəlb edilməsi, parazitozlarla mübarizədə vacib profilaktik tətbirlərdən biri hesab edilir.

Askaridoz aşkar edilən endemik ocaqlarda sanitar-abadlıq tədbirləri aparılmalı, xüsusən rayon yerlərində tikilən ayaqyolları su mənbələrindən kənarda yerləşməli, mütamadi olaraq mütəlif dezinfeksiyaedici məhlullarla dezinfeksiya edilməlidir.

Risk qrupuna daxil olan əhali arasında strongiloidoza görə nəzarəti artırmaq məqsədi ilə, nəcisi Bermon üsulu ilə mütamadi müayinədən kecirmək zəruri profilaktik tədbirlərdəndir.

Torpağın strongiloidoz sürfələri ilə çirklənməsinin qarşısını almaq məqsədi ilə, nəcisin müxtəlif dezinfeksiya edici məhlullarla işlənilməsi aparılmalıdır.

Blantidioza və Lyamblioza qarşı aparılan profilaktik tədbirlərə fərdi gigiyena qaydalarına ciddi əməl edilməsindən, xəstələrin vaxtında aşkar edilib müalicə olunmasından ibarətdir.

Parazitozlara qarşı mübarizə məqsədilə böyük yaş qrupuna daxil olan şəxslərə profilaktik olaraq ildə 1-2 dəfə Mebendazol (200-400 mq/gün), Albendazol (200-400 mq/gün), Dekaris (150 mq/gün) və Metronidazol (500 mq/gün) verilməsi (5-7 gün) məqsədə uyğundur.

Helmintozlara qarşı aparılan profilaktik tədbirlərin effektli olması üçün onların üzərində sanitar nəzarətin təşkil edilməsi vacib əhəmiyyət kəsb edir [15,16].

Nəticə. Parazitozların müalicəsində Metronidazol və Mebendazol yüksək müalicə effekti yaradır. Bu preparatların tətbiqi nəticəsində xəstələrin laborator göstəricilərində qısa zaman ərzində müsbət dinamika müşahidə edilmişdir. Eyni zamanda xəstələrin ümumi vəziyyətləri qısa zaman ərzində yaxşılaşmış, əmək qabiliyyətləri tez bərpa olmuşdur.

ƏDƏBİYYAT

1. Макеев О.Г., Буханцев В.А., Кабонина О.И. и др. Учебно-методическое пособие к практическим занятиям для студентов 1 курса. Основы медицинской паразитологии. Екатеринбург, 2015, 96с.
2. Токарев А.Н. Гельминтозы крупного рогатого скота: моногр. М.: РИОР, 2017, 514 с.
3. Потемкина В.А. Гельминтозы домашних птиц. М.: РГГУ, 2012, 170 с
4. Маннапова Р., Ильясова З. Гельминтозы кобыл: моногр. М.: LAP Lambert Academic Publishing, 2014, 188 с.
5. Лейкина,Е.С. Важнейшие гельминтозы человека Государственное издательство медицинской литературы, 2014, 208 с.
6. Ятусевич А.И., Стасюкевич С.И., Синяков М.П., Петрукович В.В. Диагностика, терапия и профилактика паразитарных болезней лошадей. УМП для студентов по специальности ветеринарная медицина и слушателей ФПК. Витебск, ВГАВМ, 2014, 60 с.
Bağırsaqların aktivliyinə təsir göstərən digər avtonom reflekslər. Duodenokolitik, qastrokolitik, qastroileal, enteroqastral və defekasiya reflekslərindən başqa, bağırsaqların ümumi aktivlik dərəcəsinə təsir göstərən bir neçə digər mühüm reflekslərdə vardır. Bunlara periton – babırsaq, böyrək – bağırsaq və sidik kisəsi – bağırsaq reflekslər aiddir.

Periton – bağırsaq refleksi peritonun qıcıqlanması nəticəsində yaranır; o enteral sinir sisteminin oyanmasını davamlı ləngidir və bunun ardınca, bağırsaq iflicinə səbəb olur. Bu hal daha çox peritoniti olan pasientlərdə müşahidə olunur. Böyrək – bağırsaq və kisə – bağırsaq reflekslər böyrək və sidik kisəsinin qıcıqlanması nəticəsində yaranır və bağırsaq aktivliyini süstləşdirir.

ƏDƏBİYYAT

1. Adelson D.W., Million M. Tracking the moveable feast: sonomicrometry and qastrointestinal motility. //New physiol Sci., 2004, v.19, p.27
2. De Giorgio R., Guerrini S., Barbara G. et al. Inflammatory of small and intestines and related sphincrers // Physiol Rev., 1987, v.67, p.902
3. Hall K.E. Aging and neural control of the G1 tract. II.Neural control of the aging gut: can an old dog learn new tricks? //Am J. Physiol Gastrointest Liver Physiol., 2002, v.283, p.G827
4. Hansen M.B. Neurohumorl control of qastrointestinal motility // Physiol Res., 2003, v.52
5. Jensen R.T. Involvement of cholecystokinin/gastrin related pepdides and their reseptors in clinical qastrointestinal disorders // Pharmacol Toxicol., 2002. v.91, p.333
6. Kirkup A.J., Brunsden A.M., Grundy D. Reseptors and transmission in the brain-gut axis: potential for novel therapies. I.Receptors on visceral afferents // Am.J. Physiol Gastrointest Liver Physiol., 2001, v.280, G787
7. Rao S.S. Pathophysiokogy of adult fecal incontinence // Gastroenterology, 2004, v.126(1 Suppl 1), S14
8. Timmons S., Liston R., Moriarty K.J. Functional dyspepsia: motor abnormalities, sensory disfunction and therapeutic options // Am J. Gastroenterol., 2004, v.99, p.739

Резюме

Современный взгляд на двигательную функцию желудочно-кишечного тракта

Ф.М. Абдуллаев, А.А. Вердиев, Л.А. Хидаятова С.А.Алиева

Многие заболевания пищеварительной системы обусловлены нарушениями двигательной функции желудочно-кишечного тракта. Несомненно, сложные механизмы, вовлеченные в регулирование двигательной активности, должны быть уточнены, чтобы выбрать подходящее лечение этих заболеваний (патологий). Авторы проанализировали двигательную функцию желудочно-кишечного тракта на основе современных литературных источников.

Summary

A modern view of the motor function of the gastrointestinal tract

F.M. Abdullayev, A.A. Verdiyev, L.A. Hidayatova S.A.Aliyeva

Many diseases of the digestive system are caused by impaired motor function of the gastrointestinal tract. Undoubtedly, the complex mechanisms involved in the regulation of motor activity must be clarified in order to choose the appropriate treatment for these diseases (pathologies). The authors analyzed the motor function of the gastrointestinal tract based on modern literature.

Daxil olub: 03.06.2019

Erkən yaşı uşaqlarda nadir 4p xromosom xəstəliyi (klinik müşahidə)

E.C.Bağırova

Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Bakı

Açar sözlər: xromosom, uşaq, genetik xəstəliklər

Ключевые слова: хромосом, ребенок, генетические болезни

Key words: chromosom, child, genetic diseases

Xromosom xəstəlikləri anadangəlmə irsi xəstəliklərin böyük bir qrupunu təşkil edir. Bu xəstəliklərin əsasında xromosom və ya qenom mutasiyası durur.Qısaca olaraq bu 2 mutasiya xromosom anomaliyası adlandırılır.Xromosom anomaliyaların 1000-n çox tipi var. Onlardan 100 dəqiq klinik şəklə malik olduğundan klinik sindromlar adlandırılır. Xromosom mutasiyaların insanda bütün tipləri vardır: delesiya, duplikasiya, inversiya, translokasiya.

Kliniki sitogenetik nöqteyi-nəzərdən delesiya-homoloji xromosomlardan birində hər hanı bir sahənin çatışmazlığıdır.Buna hissəvi monosomiya da deyilir. Müasir molekulyar sitogenetik metodlar gen səviyyəsində kiçik delesiyaları aşkar etməyə imkan verir. Bu da gen və xromosom patologiyaları arasında

sərhədi götürür. Baxmayaraq ki, xromosom xəstəlikləri klinik və sitogenetik yaxşı öyrənilib, lakin patogenezi tam aydın deyildir [1,3,4].

Bütün tip xromosom xəstəliklər üçün- müxtəlif orqan və sistemlərin çoxlu zədələnmələri səciyyəvidir. Buna kəllə-üz, dizmorfiyaları, daxili orqanların inkişaf qüsurları, bətndaxili və postnatal inkişaf geriliyi, psixi inkişaf geriliyi, sinir sistemi, immun sistemin funksiyasının pozulması aiddir. Hər bir xromosom xəstəliklərində 30-80 normadan kənara çıxma hallar olur.Bəzi xromosom xəstəlikləri yalnız inkişafdan kənara çıxma meyilliyi halları vardır, amma spesifik qüsurları olmur. Bu da klinik və patoloji-anotomik differensasiyaya kömək edir. Xromosom xəstəliklərin patogenezi bətndaxili dövrdən başlayır və postnatal dövrdə davam edir. Çoxlu anadangəlmə qüsurlar əsas fenotipik əlamətlər kimi erkən embriogenezdə formalaşır, ona görə bu əlamətlər postnatal dövrdə aşkar nəzərə çarpır [3,5,6].

Xromosm anomaliyaların fenotipik əlamətləri aşağıdakı faktorlardan asılıdır: xromosom və ya onun sahəsinin fərdliyi (xüsusi gen yığımı), anomalyanın tipi (trisomia, monosomiya, tam, hissəvi), artıq və ya çatmayan materialın ölçüsündən, orqanizmin aberrant hüseyrələrində mozaiklik dərəcəsi, orqanizmin genotipi, mühitdən.

Xromosom patologiyaların təsnifatı 3 prinsipə əsaslanır.

1. Xromosom və ya genom mutasiyaları aşkar etmək. Xromosom patologiyasının formasını bir tərəfdən xromosom və ya genom mutaiyası digər tərədən fərdi xromosom təyin edir. Xromosom patologiyasının nazoloji bölünməsi etioloji və patogenetik prinsipə əsaslanır. Hər bir xromosomda hansı struktur prosesə cəlb olunub - xromosom və ya seqment? Həmçinin genetik pozulmanın səbəbi nədir? Xromosom materiallarının əksikliyi və ya artıqlığı. Ümumiyyətlə klinik xromosom patologiyasının differensasiya etmək əhəmiyyətli deyildir.

2. Prinsip- mutasiya baş verən hüceyrəni təyin etməkdir. Qamet mutasiyalar xromosom xəstəliklərinin tam formalaşmasına səbəb olur. Əgər xromosom anomaliyaları ziqotda və ya bölünmənin erkən mərhələlərində əmələ gəlirsə belə mutasiyalar somatik , xromosom xəstəlikləri mozaik adlanır. Mozaik formanın əmələ gəlməsi üçün 10 % anomal yığımın olması vacibdir.

3.Prinsip- hansı nəsildə mutasiya əmələ gəlməsini təyin etməkdir. Sağlam valideyn qametində yenidən mutasiya əmələ gəlibmi və ya valideynlər artıq bu anomaliyaya malikdirlər. Xromosom xəstəliiklərinin irsi olması o vaxt qəbul olunur ki, mutasiya valideynlərin hüceyrəsində artıq vardır.

Beləliklə xromosom xəstəliklərinin diaqnostikası üçün :

1. Mutasiyanın tipi
2. Prosesə cəlb olunan xromosom
3. Forması
4.Xəstəliyin növü təyin edilməliidir. Bu müayinələri yalnız sitogenetik üsulla təyin etmək mümkündür [4,5,6].

Haqqında danışacağımız xromosom anomaliyalarından biri 4xromosomun qısa çiyninin delesiyasıdır. 4-cü xromosom 23 autosom xromosomdan biridir. Bu xromosomda 70-1100 gen yerləşir. P çiynində - CRMPİ; 4/SOD3 yerləşir. Xromosomun qısa çiyninin delesiyası 90% de novo, 10% validenlərdə translokasiya nəticəsidə əmələ gəlir. Çox nadir hallarda xəstələrin genomunda translokasiya ilə yanaşı həlqəvi xromosomlar da olur.

Klinik olaraq xəstələrdə fiziki, əqli, psixomotor inkişaf geriliyi müşahidə olunur. Həmçinin belə xəstələrdə ürək qüsuru, böyrək qüsuru da müşahidə olunur. Doğularkən uşaqların çəkisi 2 kq-a qədər olur. Xarici əlamətlərə gəldikdə mikrosefaliya, hiperteleorizm, dimdiyə bənzər burun, qulaq seyvanının müxtəlif anomaliyaları,periarkulyar büküşlər hipospadiya,hipotoniya,ətrafa reaksiyanın azalması müşahidə olunur. Mənbələrə əsasən 90% xəstələrdə epilepsiya müşahidə olunur ki, bu da 10 yaşa qədər keçib kedir. Praktiki bütün xəstələrdə mitoxondrial disfunksiya müşahidə olunur, onlara təyin olunan valprieno preparatı əks göstəriş hesab olunur. Xəstələrin immun sistemi çox zəif olur hətta bronxit onların ölümünə səbəb ola bilər Xəstələr üçün damaq və dodaq yarığı, ayaq deformasiyası, göz almasınını anomaliyaları epikant, balaca, kənarları sallanmış ağız, qulaq seyvanının önündə sallanmış dəri büküşü, əyripəncəlik, yastı valqus pəncə, dəridə hemangioma müşahidə oluna bilər. Belə doğulan uşaqların yaşama müddəti az olur [1,2].

Klinik müşahidə: Xəstə A.Ü.1 yaş, 01.05.2019-cu il tarixdə 6 saylı UKx-a daxil olmuşdur. Anamnezə əsasən ananın II-ci hamiləliyi, II-ci doğuşundandır. Doğuş riskli qanaxma ilə olduğu üçün Qeysəriyyə kəsiyi ilə doğulmuşdur. Uşaq 1700 qram çəki ilə ağır asfiksiya ilə doğulmuşdur. İnkişafı zəif olmuşdur. Xarici görünüşündə ilk günlərdən bəzi stiqmlər olmuşdur. Göz həkimi və nevroloqun ilk günlərdən nəzarətindədir.

Obyektiv müayinədə ümumi vəziyyəti ağırdır. Xarici görünüşündə hiperteleorizm, epikant, burun filtirinin uzun olması, ağız bucaqları sallanmış, qulaq göz səviyyəsindən aşağı, mikrokornea, mikroftalm,

çəpgözlük müşahidə olunur. Ətrafa reaksiyası yoxdur. Oturmur, səsi zəifdir. Daxili orqanları tərəfdən nəzərə çarpacaq dəyişiklik müşahidə olunmadı.

Laborator müayinələr qanın, sidiyin ümümi müayinəsi patologiyasızıdr. Biokimyəvi müayinələrdə ümumi zülal- 54 q/L, xolestrin-3.1 mmol/l, ALT- 34.2U/L, AST-42.5 U/L, kreatinin- 72.0; kalsium- 2.16; fosfor- 1.20 mmol/l, qanda şəkər-3.6 mmo/l aşkar olundu. Daxili orqanların USM, EXOKq-da patoloji dəyişiklik nəzərə çarpmadı. Xəstəyə aparılan genetik müayinə zamanı 4p xromosom patologiyası aşkar edilmişdir.

Təsvir etdiyimiz klink hadisə müşahidəmiz altındadır. Ailəyə bu xəstə üçün sitogenetik müayinənin aparılması gələcək proqnoz üçün vacibdir. Belə ki, valideynlərin müayinəsi prenatal diaqnostika ilə sağlam uşaq dünyaya gətirilməsi üçün çox əhəmiyyətlidir.

ƏDƏBİYYAT

1. Бочков Н.П. Клиническая генетика. М.:Медицина, 1997.
2. Гинтер Е.К.Медицинская генетика. М.:Медицина,2003, 448с.
3. Жимулев И.Ф.Общая и молекулярная генетика. Новосибирск: Сиб.унив.изд-ство, 2002, 459 с
4. Марри Р.,ГреннерД.,Мейес П,Родуэлл В. Биохимия человека. М.: Мир, 1993, 415 с.
5. Тоцкий В.М.Генетика. Одесса: Астропринт, 2002.
6. Шевченко В.А Генетика человека. М.: ВЛАДОС, 2002

Резюме

Редкая болезнь 4p хромосомы у маленьких детей (клиническое наблюдение)

Е. Багирова

В статье описывается одно из редких заболеваний хромосомов. Многочисленные дефекты, дефекты развития, внешние стигмы и лабораторные исследования дает возможности диагностировать заболевание.

Summary

Rare 4p chromosome disease in young children (clinical observation)

E. Bagirova

One of the rare ccchromosome diseases is depicted in the article. Numerous defects, developmental defects, external stiqmas, and laboratory examinations allow you to diaqnose the disease.

Daxil olub: 01.07.2019

Cutix laxa ilə yanaşı gedən şəkərli diabet xəstəliyi

İ.V. Bəhməni, Z.V.Kazımzadə, S.A. Əliyeva
6 saylı Uşaq klinik xəstəxanası, Bakı

Açar sözlər: şəkərli diabet, cutis laxa, uşaqlar
Ключевые слова: сахарный диабет, cutis laxa, дети
Keys vords: diabetes mellitus, cutis laxa, children.

Cutix laxa xəstəliyi irsi elastinpatiyalara daxildir. Cutix laxa xəstəliyini eyni zamanda dermatomeqaliya və ya Elastolizis də adlandırırlar. Xəstəlik elastinin metabolizminin pozulması nəticəsində elastin liflərinin zədələnməsi və dərinin elastikliyinin azalması ilə müşahidə olunur. Cutix laxa sindromuna ayrılıqda nazoloji xəstəlik kimi baxmaq olmaz. Bu termin birləşdirirci toxumanın nadir genetik və klinik xəstəliklərini birləşdirir [1,4,5].

Cədvəl 1

Cutix laxanın təsnifatı

Adı	tipi	Genlər
Hipermobillik	3 tip	COL3A , TNXB
Klassik	2 tip	COL5A1, 5A2, COL1A1
Damar	4tip	COL3A1
Kifoskolioz	6 tip	PLOD1
Artroxalaziya	7A və B	I tip kollagen zədələnir, çox nadirdir
Dermatocpaksis	7C	ADAM TS 2

1997-ci ildən başlayaraq tədqiqatcılar xəstəliyin sadə təsnifatını təklif etdilər. Bu təsnifata əsasən xəstəliyin əsasən 6 tipi vardır, lakin bundan başqa da tiplər də vardır (cədvəl 1). Ancaq onların sayı azdır və ya yaxşı xarakterizə olunmamaışdır.

Ümumiyyətlə Elastolizis irsi və qazanılma olur. Qazanılma formaları əsasən yaşlı insanlarda rast gəlir. Etioloji səbəbi dəqiq bilinmir-autoimmun və ya infeksiya ola bilər. İrsi formanın yaranmasında xəstəliyə səbəb olan gen 14q, 321,7 q 11.2 xromosomda yerləşmişdir. Mutasiya elastin genində (ELN, 130160) baş verir. Rastgəlmə tezliyi 1: 2000 000. İrsi forma əsasən 3 variantda rast gəlinir:

I.Doğulan kimi və ya gec, ağciyər zədələnməsi ilə müaşhidə olunur, letal sonluq ilə bitir.

II. Cinsi yetişkənlik dövründə əmələ gəlir, proqressivləşir, daxili orqanlar prosesə qoşulur. III. Sümüklərin distrofik dəyişməsi ilə asosasiya olunur. İlk 2 variant autosom-dominanat, 3-cü variant autosom-ressesiv yolla ötürülür.Bu saydığımız variantlarla yanaşı xəstəliyin X-ressesiv ilişikli forması da vardır. Əgər mutasiya Fibulin-5 genində (FBLN5; 604580) baş verirsə, bu həm autosom-dominant həm də autosom-resessiv formanın yaranmasına səbəb olur [2,3,4].

Klinik Cutix laxanın universal və məhdud variantları ayırd edilir. Universal formada xəstəliyin ötürülməsi həm autosom-ressesiv həm də autosom-dominant yolla ola bilər. Əlamətlər uşaq doğulan kimi özünü büruzə verə bilər, lakin uşaqların fiziki inkişafı pozulmur. Belə xəstələrdə emfizema, yırtıq, sümük distrofiyası yarana bilər. Məhdud dermatolizis əsasən dərinin müəyyən nahiyələrində xüsusilə üz, boyun, cinsi orqanlarda dərinin sallanması və qırışması ilə müşahidə olunur. Bu varianta ən çox göz qapağının prosesə qoşulması –blefaroxalazis və Aşet sindromu aiddir.

İrsi formalarda dərinin sallanması uşaq doğulan gundən və ya sonra müşahidə olunur. Qırışlı dəri büküşlərdə və üzdə daha çox nəzərə çarpır.

Yenidoğulma dövrundən bu uşaqlarda çəki və boy göstəriciləri aşağı olur, oynaqlarda çoxhərəkətlilik, böyük əmgəyin vaxtından əvvəl bağlanması kimi əlamətlərlə özünü büruzə verir. Belə uşaqların motor və əqli inkişafı geri qalır. Autosom-dominant forma daha yumşaq tip hesab olunur və bəzən yalnız dəri simptomları ilə özünü büruzə verir. Autosom-ressesiv forma digər formalara nisbətən daha çox yayılmışdır. Resessiv formaların bəziləri ürək-damar, tənəffüs, mədə-bağırsaq sistemi tərəfindən ölümlə nəticələnən ağırlaşmalara səbəb olur. Bəziləri isə dərinin generalizə olunmuş zədələnməsi ilə müşahidə olunur. Əsasən 2 yarımtipi vardır. ARCL-1; ARCL-2.

I və II tiplər biri-birinə çox oxşayır, lakin fenotipik əlamətləri I-ci tipdə daha çox üstünlük təşkil edir,belə ki, sistemlər prosesə dahaçox cəlb olunur. Autosom-ressesiv formanın klinik 2 şəkil vardır:

1.Xəstələrdə yırtıq, mədə-bağırsaq,sidik-cinsiyyət sistemində divertikullar, emfizema, pnevmotoraks, ağciyər arteriyasının stenozu, aorta dilatasiyası kimi kardiopulmonar sistemlərdə olan dəyişikliklərlə müşahidə olunur, xəstələrin yaşam müddəti qısadır.

2.Böyümə geriliyi, ətrafların zəfliyi, qalça cıxığı, yıtıq və divertikullarla səciyyələnir. Bu formanın klinik əlamətlərini daha cox Elers-Danlos sindromuna bənzədirlər 9".

Biz klinikada Cutix-laxa sindromu ilə ilə bir-neçə xəstəyə rast gəlmişik.Lakin rast gəldiyimiz klinik hadisənin maraqlı cəhəti ondan ibarətdir ki, bu xəstədə yanaşı şəkərli diabet xəstəlyi də vardı. Klinik müşahidəmizdə rast gəldiyimiz xəstəni təsvir edirik:

A.S.A. O.L. 12 yaş 6 ay. 6 saylı Uşaq Klinik Xəstəxanasının endokrinologiya şöbəsinə poliuriya, polidipsiya, çəkinin itirilməsi, qanda şəkərin yüksək olması şikayətləri ilə daxil olmuşdur.

Anamnezə əsasən ananın I-ci hamiləliyi, I-ci doğuşundandır. Bu uşağa hamiləlik, doğuş normal keçmişdir. Uşaq 3200 cəki ilə doğulmuşdur. Doğulan gündən dəridə sallanma, qırışlar müşahidə olunmuşdur, lakin inkişafı normal olmuşdur. Valideynləri qohumdur, nəsildə bu patologiya ilə xəstələr vardır. Ailədə kiçik bacıda anadangəlmə dərinin inkişaf qüsuru- cutix laxa ilə xəstədir.

Daxil olarkən ümumi vəziyyət**i** orta ağırdır. Xarici görünüşündə: dəri sallandığı üçün üzü yaşlı adamın üzünü xatırladır. Dərisi qurudur, təmizdir,tünd rəngdə , qırışlı, elastiki, çox dartılır. Dərinin qat-qat olması bədənin bütün sahələrində xüsusilə qollar, qarında daha çox müşahidə olunur. Dili təmizdir, qurudur, dodaqları qurudur. İntoksikasiya, polidipsiya və poliuriya əlamətləri güclüdür. Gözlərinin altı kölgəlidir. Huşu aydındır. Düzgün bədən quruluşludur. Qidalanması kafidir. Fiziki inkişafı: Çəki- 47 kq, boy-160 sm, yaşına uyğundur. Selikli qişalar təmizdir. Əsnəyi sakitdir. Sümük sistemi tərəfindən patoloji dəyişiklik müşahidə olunmur.

Tənəffüs sistemi: ağ ciyərlərdə perkutor və auskultativ dəyişiklik yoxdur. Ürək-damar sistemi: Zirvədə sistolik küy eşidilir. Tonlar karlaşmışdır, nəbzi ritmik,orta dolğunluqdadır, sayı 100 , A/T 100/60 mm.c.süt.

Tez yorulur. Qarnı yumşaqdır, ağrısızdır.Palpasiyada qaraciyər, dalaq əllənmir.Pasternatski simptomu hər iki tərəfdə mənfidir. Sidik ifrazı tezləşşdir. M.S.S: Psixi inkişafı yaşına uyğundur.

Qanın ümumi müayinəsi: Hb- 112 q/l, eritrositlər- 4.8 $x10^{12}$ /l, leykositlər – 6.8 $x10^{9}$/l, trombosit - 219, limfositlər- 27%, neytrofil-68%, monositlər-bazofileoz - 4%, eritrositlərin çökmə sürəti - 13 mm/s.

Qanın biokimyəvi müayinəsi: ümumi zülal- 64 q/L, ALT- 14.3; AST-17.2 U/l, Ca-2.09 mmol/l,P-1.23mmol/l; QF-347 U/l; Sidik cövhəri-4.1 mmol/l, kreatinin-58.2 mkmol/l. xolesterin- 4.5 mmol/l. Hb A1C- 11.2%. İnsulin- 2.0 mkBv/ml, C-peptid- 1.8nq/ml. Qanda şəkər-17.7;11.4; 10.8 mmol/l. EXO KQ- I dərəcəli trikuspid, I dərəcə aortal çatmamazlığı aşkar olunmuşdur. USM-də qaraciyər- sağ payı 153,2 mm (150 mm), sol pay 120.5 mm, parenximanın exostrukturu homogendir, mədəaltı vəz ölçüləri və exogenliyi normaldır, dalaq, böyrəklər, sidik kisəsində dəyişiklik müşahidə olunmur.

Sidiyin ümumi müayinəsi: qəbul zamanı şəkər-2%, keton izi vardır, təkrari müayinədə şəkər ,keton, zülal yoxdur. Oksalat Ca duzları az miqdarda. Nəcisin ümumi müayinəsi: enteroboz verm.qurdları aşkar edilmişdir.

Xəstəyə klinik anamnestik və laborator müayinələrinə əsasən "Şəkərli diabet I tip, Ailəvi Cutix laxa. Üctaylı qapağın çatışmazlığı. Aortal çatmamazlıq I dərəcə. Enterobioz" diaqnozu qoyuldu. Stasionarda xəstəyə insulinterapiya, diabet təlimi keçirildi. Qanda şəkər tənzimləndi: 5.0-6.0 mmol/l, xəstə endokrinoloqun, genetikin nəzarəti ilə evə yazıldı.

Ümumiyyətlə karbohidrat mübadləsiin pozulması ilə bir yerdə müşahidə olunan bir çox genetik sindromlar vardır. Belə genetik sindromlarla daha çox Şəkərli diabet xəstəliyi ilə birgə rast gəlinir. Bu da karbohidrat mübadiləsində olan polimorfizmi göstərir.

Təqdim etdiyimiz klinik müşahidəyə praktikamızda ilk dəfədir ki, rast gəlirik. Araşdırdığımız məqalələrdən yalnız birində Elers-Danlos və şəkərli diabet xəstəliyinə bir yerdə rast gəldik, ədəbiyyatda da bu mövzuda məlumatlar yox idi.

Alimlər belə hesab edirlər ki, kollagenin sintezinin pozulmasına səbəb olan mutasiya, birləşdirici toxumanın bütün sistemlərdə o cümlədən mədəaltı vəzdə insulinin sekresiyasının pozulmasına da səbəb ola bilər.

ƏDƏBİYYAT

1.Berk D.R., Bentley D.D., Bayliss S.J. et al. Cutis laxa: A review // Journal of the American Academy of Dermatology, 2012, v.66(5)

2. Hbibi M., Abourazzak S., Idrissi M., et al. Cutis Laxa syndrome: a case report // Pan Afr Med J., 2015, v.20, p.3

3. Chavan S.D., Deshmukh A.C., Gulanikar A.D. et al. Autosomal recessive cutis laxa type-1 with complex systemic manifestations // İndian Journal of dermatology pedait., 2018, v.19, p.274-276

4. Mohamed M., Kouwenberg D., Gardeitchik T. et al. Metabolic cutis laxa syndromes // J Inherit Metab Dis., 2011, v.34, p.907-916

5.Morava, É, Guillard, M., Lefeber, D. J., Wevers, R. A. Autosomal recessive cutis laxa syndrome revisited // European Journal of Human Genetics, 2009, *v.17*(9), p.1099-1110

6.Uitto J., Li Q., Urban Z. The complexity of elastic fiber biogenesis in the skin – a perspective to the clinical heterogeneity of cutis laxa // Exp Dermatol., 2014, v.22, p.88-92

7.Dimopoulou A., Fischer B., Gardeitchik T. et al. Genotype-phenotype spectrum of PYCR1-related autosomal recessive cutis laxa // Mol Genet Metab., 2013, v.110, p.352-361.

Резюме

Сахарный диабет в сочетании с Cutix laxa

И.В.Бахмани, З.В.Казимзаде, С.А.Алиева

В статье описывается девочка с синдромом Cutix Laxa в сочетании с сахарным диабетом. Ребенок болен с рождения. Cutix laxa в сочетании с диабетом встречается крайне редко. Авторы описывают это явления, с которым сталкиваются в первые в своей практике. Анализированы и изучены клинико-лабораторные данные этого больного. Описан анамнез, также семейный анамнез девочки.

Summary

Diabetes mellitus in combination with Cutis laxa

I.V. Bakhmani, Z.V. Kazimzade, S.A. Aliyev

The article describes a girl with Cutix Laxa syndrome in combination with diabetes. The child is sick from birth. Cutix laxa in combination with diabetes is extremely rare. The authors describe this phenomenon, which they first encountered in their practice. The clinical and laboratory data of this patient were analyzed and studied. An anamnesis is described, also a family anamnesis of the girl.

Daxil olub: 27.06.2019

Autoimmun hepatitlərin gedişi və növləri

T.A.Hacıyeva, M.Z.Ömərova, T.L.Borodayeva, A.C.Ağamaliyeva, Y.K.Rüstəmova, G.Z.Cavadova
Azərbaycan Tibb Universitet, Yoluxucu xəstəliklər və şüa terapiyası kafedrası, Bakı

Açar sözlər: autoimmun hepatit, immunqlobulinlər, limfositlər
Ключевые слова: аутоиммунные гепатиты, иммуноглобулины, лимфоциты
Key words: autoimmune hepatitis, immunoglobulins, lymphocytes

XXI əsr təbabətin aktual problemlərndən biri autoimmun hepatitlərin artımıdır. Bu artım tibbin əsas qlobal problemlərindən biri sayılır. Xüsusən orta yaşlı, yeniyetmə və kiçik yaşlı uşaqlar arasında 40% artımı, dünya hepatoloqlarını narahat edir. Şüa diaqnostikası, histoloji, seroloji və biokimyəvi-laborator göstəricilərə əsasən orqanizmin orqan və toxumalarında, xüsusən qaraciyərində CD4-T-limfositlərin miqdarı 3 dəfə artmış olur. 1mkl qanda 2000-2500 CD4 hüceyrəsi var. Bu artım qanda və qaraciyərdə NK hüceyrələrinin (normal killerlərin) azalmasına təsir göstərən əsas amillərdəndir. Normada sağlam şəxslərin qanında və qaraciyər hüceyrələrində CD4/CD8-2, CD8-T-limfositlərin miqdarı isə 1000-12000-ə bərabərdir. CD8-T hüceyrələrin artımı orqanizmin anadan verilən immunitetinin, əsasən interferonların tənziminə və işinə nəzarət edən hüceyrələrdir. Yanaşı olaraq sitokinlər də sintez etmiş olur [1,2,3]. Ona görə də uşaqlarda humoral immunitet göstəriciləri (IgA, IgA_2, $IgG_{1,2}$, və α-interferonlar) sintez edilmir, anadan verilir. Xroniki hepatitlərdə orqanizmdə CD8-T-hüceyrələrin azalması və CD4 hüceyrələrinin (4 dəfə) artımı spesifik anticismlərin çoxalmasına səbəb olur. Bu da hepatositlərin antimitoxondrial zülallarının 5-6 dəfə artımına təsir edir. Qanda anticisim yadlığı artmış olur. Yanaşı olaraq qanda və qaraciyərdə NK hüceyrələrin (killerlər) miqdarı 2-3% enmiş olur. Normada sağlam əhalidə bu hüceyrələrin miqdarı 15-20% təşkil edir. Ona görə də əhalinin aktiv immunitet göstəriciləri yüksək olur. Sağlam əhalidə makrofaqlardan sintez edilən lizosimin fraksiyası artmır və orqanizmdə litik proseslər sürətlənmiş olur. Xəstələrdə yad anticisimlər qaraciyərdə sintez olunan lektinin, mannozanın və C-reaktiv zülalın azalmasına səbəb olur [4,5]. Göstərilən bu 3 komponent; qaraciyərdə bakteriyaların, virusların və göbələklərin aşkarlanmasında və zərərsizləşdirilməsində əsas zülallar sayılır. Bu zülallar azaldıqda hepatositlərdə öd əmələ gəlmə funksiyası da pozulmuş olur və autoimmun hepatitlər formalaşır.

Autoimmun hepatitlərin hal-hazırda 3 növü mövcuddur:

Autoimmun hepatitlər (4-8 il müddətində əmələ gəlir)

Birincili sklerozlaşmış xolangit (3-5 il müddətində əmələ gəlir)

Birincili sirrozlaşma, qaraciyərin onkoloji gedişatı (7-10 il müddətində formalaşır).

Tədqiqatın material və metodları. Bakı şəhərinin 1 və 3 saylı klinik xəstəxanasında müalicə olunan 20 xəstə müayinəyə cəlb edilmişdir. Xəstələrin yaş hüdudu 20-45 yaş olmaqla, 20 xəstənin 14-ü kişi, 6-sı isə qadınlardır. Ağırlaşmaların əsas faktoru kimi alkoqolizm öz plana çıxır. Xəstələrin əksəriyyətində aminotransferazanın (ALT-AST, timol) nisbi artımı ilə yanaşı dalaq və qaraciyər konsistensiyasının bərkiməsi, böyüməsi müşahidə olunmuşdur (6 qadında). Qaraciyər toxumasında qranulomaların çoxalması, fibrozlaşma prosesinin sürətlənməsini göstərir. Qanda immun qlobulinlərin $İgG_1$-G_2, İgM-in 70% artımı yanaşı sərbəst bilirubinin orta dərəcəli artımı ilə müşahidə edilmişdir. Bu göstəricilərin artımı xəstələrdə, nisbi sağalma əlamətlərinin olunmasına baxmayaraq, xəstəliyin dərinləşmə prosesini, xüsusən qaraciyərin fermentativ aktivliyinin zəifləməsi, lizosin fermentinin, α-interferon fraksiyalarının azalmasına səbəb olur. Qanda $İgG_2$-G_3 2 dəfə azalması müşahidə edilir. Bu azalma Kupfer hüceyrələrində 7-10 il müddətində fibrozlaşma və onkoloji gedişata səbəb olur. Bu göstəricilər ləng gedişatlı hepatitlərə xas olan göstəricilərdir.

Tədqiqatın nəticələri və onların müzakirəsi. NK hüceyrələrin azalması killerlərin sintez etdiyi İL-4 zülalının qanda tam azalmasına səbəb olur. Bu azalma qaraciyər hüceyrələrində HBV, HCV-HGV viruslarının fibrozlaşma prosesində iştirakına şərait yaratmış olur. İL-4 zülalının artımı: virusların, mikrorqanizmlərin aktivliyini azaldan və monositlərin, bu viruslara qarşı faqositoz prosesinin sürətlənməsində iştirak edən H-fibrolizin zülalının faqositozda iştirak edən əsas faktorudur. Bu 3 zülal amilləri olmadıqda qaraciyər hepatositlərində törədicilər aktivləşir və hüceyrə patologiyalarını aktivləşdirirlər. Xəstələrin qaraciyər punktatında CD4-T- limfositlərin, infiltrativ mayedə miqdarının 5-6 dəfə artımı aşkarlanır. Bu artım zamanı orqanizmin mədə bağırsaq sistemində limfositoz 70% artmış olur, yanaşı qəbizlik əlamətləri formalaşır. Normal bağırsaq möhtəviyyatı azalmış olur. Bağırsaqlarda fbroz möhtəviyyat artmış olur.

Qəbizlik zamanı; nazikvə yoğun bağırsaqda müdafiə amilləri züsusən mononuklear sistem toxuma makrofaqlarında, qranulomatoz gedişat formalaşır. Bu da birbaşa nazik bağırsaqda hüceyrə divarında yerləşəm CD8-limfositlərin miqdarı 2,5-3,0% enmiş olur. Bağırsaqda 2, 3, 4 İL-in miqdarca azalmasına səbəb bağırsağın həm mikroflorasına, həm də müdafiə hüceyrələrinə (makrofaqların, CD8-limfositlərin

miqdarca azalmasına və bağırsaq möhtəviyyatı fermentlərinin-lipaza, amilaza, laktoza, mannozanın) və təsir aktivliyinin azalmasına birbaşa təsir etmiş olur. Bu azalma bağırsaq florasının kəmiyyət və keyfiyyət göstəricilərinə birbaşa təsir etmiş olur. Orqanizmin müdafiə amillərinin ümumi göstəricisi 55% təşkil edir. Autoimmun hepatitlərdə isə bu göstərici 5-10% bağırsaq sistemində təşkil edir. Autoimmun hepatitlərdə isə bu gözstəricilər hər dəfə 4% azamış olur.

Əksər xəstələrn qanında; leykopeniya, trombositopeniya ön plana çıxmış olur. Xəstələrdə əsas klinik əlamətlər; yüngül gedişatlı sarılıq, qaşınma, ümumi halsızlıq, visseral hemorragik əlamətlər (qansızmalar), qarında ağrı, qaraciyərin və dalağın böyməsi, ödemləşməsi, assit, dəridə qara piqmentlərin əmələ gəlməsi, anemiya, autoimmun hepatitlərdə əsas əlamətlər sayılır. Bu hepatitlərdə daha çox plastik anemiya, aqranulositoz iltihab, periferik nevropatiya, qlomerulonefropatiya (A/T-artımı və əksər xəstələrdə 70% qaraciyərin simptomsuz əlamətlərinin artımı) v hepatoselulyar karsinomanın formalaşması olur.

Birincili serrozlaşan xolangitlərin gedişatında isə ağırlaşma I-li biliar sirrozu yaratmış olur. Birincili biliar sirroz zamanı öd yollarında və öd adacıqlarında qranulomatoz iltihabi proses sürətlənmiş olur. Hepatasitlərdə misin miqdarı artmış olur, xüsusən epitelial mis artımı üstünlük təşkil edir. Xəstələrdə 50% simptomsuz gedişat formalaşır, yanaşı qanda 75% bilirubin artımı, 90% İgM artımı, 90% antimitoxondrial antigenlər artmış olur. Belə xəstələrin yaşam müddəti 10-15 il davam edir. Xəstələrdə əsas kliniki əlamətlər: yüngül sarılıq, qaşınma, öd qusma, bağırsaq peristaltikasının sürətlənməsi və dizenteriyaya bənzər əlamətlər xəstələri daha tez-tez narahat edir. Bu hal II-III dehidratasiyaya səbə olur (asidoz formalaşır). Hepatoselulyar karsinomadan xəstələr ani olaraq tələf olur.

Nəticə: Qarciyər hepatositlərinin metabolizm prosesində, toksiki maddələrin zərərsizləşdirilməsi prosesi zəifləyir və Kupfer hüceyrələrin faqositoz qabiliyyəti itmiş olur. Orqanizmdə, xüsusən qanda İgG, İgM miqdarı 70% artmış olur ki, bu artım qanın qeyri-spesifik immun cavabını ləngidir, yəni qanda $İgG_1$, $İgG_2$, $İgA_1$, $İgA_2$ fraksiyaların artımı serroz iltihab yaradır.

Qanda və qaraciyərdə normal killerlər 15-20% olduğu halda, göstərilən xəstələrdə bu göstərici 5-8%ə enmiş olur. Bu da qanın və qaraciyərin faqositoz prosesinin azalmasına təsir edən əsas amillərdir.

Xəstələrin qanında leykopeniya, eritrositopeniya, trombositopeniya ilə yanaşı limfositoz müşahidə olunur ki, bu göstəricilər qaraciyər toxumasının degenerativ fibrozlaşmasına gətirib çıxardır.

Qaraciyərin generativ fibrozlaşması zamanı hepatositlərdə və Kupfer hüceyrələrində qranulomalar (düyünlər) əmələ gəlir ki, bu xəstələrin orqanlarında, xüsusən qaraciyərin funksiyasının kəskin çatışmazlığı ölümlə nəticələnir.

ƏDƏBİYYAT

1. Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология: Учебник . 2-е изд. М.: ГЭОТАР-Медиа, 2007, 816 с.

2. Волчек И.В., Сологуб Т.В., Нестеров Н.Н. и др. Индивидуализированная терапия хронического гепатита С // Terra Medica nova (Лабораторная диагностика) 2003, №1, с.9-11.

3. Бондаренко А. Индукция уровня а-интерферона циклофероном // Врач, 2003 №6, с.55-56

4. Жмуровская Л.С. Клинико-иммунологические особенности и исходы гепатитов В, С и В+С у больных наркоманией: Автореф. дис. ... канд. мед. наук. СПб, 2001, 23с.

5. Schafer M., Schmidt F., Amann B. et al. Adding low-dose antidepressants to interferon alpha treatment for chronic hepatitis C improved psychiatric tolerability in a patient with schizoaffective psychosis 1 // Neuropsychobiology, 2000, v.42, Suppl 1, p.43-45

Резюме

Течение и виды аутоимунного гепатита

Т.А. Гаджиева, З.М. Омарова, Т.Л.Бородаева, А.Д. Агамалиева, Я.К.Рустамова, Г.З.Джавадова

Авторы статьи изучали изменение аутоиммунные процессы в организме больных гепатитом. Особенно изменение этого процесса отмечался при хронических заболеваниях печени. При аутоиммунном процессе происходит изменения как в клеточном, также в гуморальном иммунитете. Так, Т-NK клетки были уменьшены на 3%, а клетки CD_4 увеличены в 4 раза. Это указывает на снижение гуморального иммунитета (IgA_1, IgG_1, IgG_2).

Summary

The course foud types of autoimmune hepatitis

T.A.Hacıyeva, M.Z.Omarova, T.L.Borodayeva, A.J.Agamalıyeva, Y.K.Rustamova, G.Z.Cavadov

Authors have researched autoimmuneprocesses in human organism. Especially in chronic diseases of liver autoimmune alteratias occur, bath humoral and cellular immune indicators chauge the Number of

natural ailler decrease by 3 times cehile the amount of CD_4 increase by 4 times. İn Couclusion this reduces humoral immune indicators of the organism (IgA, IgG, IgG_2)

Daxil olub: 15.07.2019

XRONİKA- ХРОНИКА

Təbrik edirik

Müasir Azərbaycan tibb elminin tanınmış simalarından biri görkəmli alim, böyük təcrübəyə malik cərrah, onlarla tədqiqatçılıq işinin rəhbəri və qiymətli elmi əsərlərin müəllifi Rauf Maqsud oğlu Ağayevdir.

R.M.Agayev 1959-cu ildə Bakı şəhərində anadan olmnuşdur. 1982-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunu cərrah ixtisası alaraq bitirmişdir.

1986-cı ildə Ümumittifaq Elmi Cərrahiyyə Mərkəzinə (Moskva şəhəri) məqsədli aspiranturaya daxil olmuş və 1989-cu ildə "Öd yollarının zədələnməsi ilə kəskin xolesistit ilə olan xəstələrin cərrahi müalicəsinin taktikası" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

2003-cü ildə B.Petrovski adına Rusiya Elmi Cərrahiyyə Mərkəzinin İxtisaslaşdırılmış elmi şurasında "Öd yollarının zədələnməsi ilə müşahidə olunan qaraciyər exinokokkozu" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Həmin ildə R.Ağayevə Rusiya Federasiyasının tibb elmləri doktoru elmi adı verilmişdir və 2004-cü ildən verilən diplom Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən nostrifikasiya olunmuş və təsdiq edilmişdir.

2003-cü ilə ATU-un II cərrahi xəstəliklər kafedrasına dosent, 2007-ci ildə isə professor vəzifəsinə seçilmişdir.

2005-ci ildən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kadrlar, Elm və Təhsil şöbəsinə müdir müavini vəzifəsinə təyin edilmişdir. Səhiyyə Nazirliyində işlədiyi dövrdə dəfələrlə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən xarici ölkələrdə keçirilən toplantılar və konfranslarda iştirak edib, mühazirə və təqdimatlarla çıxışlar etmişdir.

2012-2016-cı illər Respublika Müalicə Diaqnostika Mərkəzinə baş həkim vəzifəsində fəaliyyət göstərmişdir. 2016-cı ilin noyabr ayından ATU-un Tədris Cərrahiyyə Klinikasının direktorunun müalicə üzrə müavini – baş həki vəzifəsinə təyin edilmişdir. 2018-ci ilin may ayına qədər bu vəzifədə çalışmışdır.

2018-ci ilin may ayından Səhiyyə Nazirinin əmri ilə akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinə direktor təyin edilmişdir.

301 elmi işin, 11 səmərələşdirici təklifin müəllifidir. Onun rəhbərliyi altında 4 namizədlik və 1 doktorluq dissertasiyası müdafiə edilmişdir. Hazırda daha 3 elmlər doktoru və 3 fəlsəfə doktorluq elmi dərəcəsinin alınması üzrə dissertasiya işlərinə elmi rəhbərlik edir.

Azərbaycan Cərrah və Qastroenteroloqlar cəmiyyətinin sədri, Avrasiya Cərrah və Qastroenteroloji Dərrnəyinin Beynəlxalq elmi komitəsinin məsul katibidir. Azərbaycan Cərrah və Qastroenteroloqlar cəmiyyəti tərəfindən dərc olunan "Cərrahiyyə" jurnalının 2005-2018-ci illərdə məsul katibi, 2018-ci ildən baş redaktorudur. "Euorasiya Journal və Gastroenterology" (Hindistan, Yaponiya)," "Hepatogastroenterology" (Almaniya), "MN Daxili Tip Bilimləri" (Türkiyə), "Вестник экстренной медицины" (Özbəkistan), «Актуальные вопросы медицины» (Rusiya) jurnallarının redaksiya heyətlərinin üzvüdür. "Azərbaycan təbabətinin müasir nailiyyətləri" jurnalının (Azərbaycan) redaktor müavinidir.

1997, 2003, 2006, 2008, 2011 və 2013-cü illərdə Bakıda keçirilən Beynəlxalq Avrasiya Cərrah və Qastroenteroloqlar Konqreslərinin məsul katibi olmuşdur. 2000-ci ildə İtaliyanın Pisa şəhərində Avropa Cərrahlar Cəmiyyətinin IV konqresinə təqdim etdiyi elmi işinə görə xüsusi mükafatla təltif edilmişdir.

2014-cü ildə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Səhiyyə Əlaçısı" döş nişanı ilə təltif olunmuşdur. 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əməkdar həkim" fəxri adına layıq görülmüşdür.

Həkimlik məktəbinin layiqli nümayəndəsi, elmin və təcürbənin çətin yollarını şərəflə keçən Böyük alim, görkəmli pedaqoq professor Rauf Ağayevi jurnalımızın yaradıcı kollektivi adından təbrik edirik. Vətənimizin adını uca tutan, fəaliyyəti ilə gənc nəsillərə örnək olan alimə uğurlar, yaradıcılıq səadəti arzu edirik.

MÜNDƏRİCAT

İCMALLAR- ОБЗОРЫ

Потенциальные источники инфекции при холере
М.К.Мамедов, А.Э.Дадашева, Р.И.Исмаилова.....3
Hipobarik hipoksiya zamanıendokrin orqanların patomorfoloji xarakteristikası
S.M.Yaqubova.....7
Коморбидность и ее клиническое значение
Р.Р. Абдуллаева, Р.Ф. Абдуллаев, А.Д. Кулиева, Н.Ф.Сафарова.....13
К проблеме патологии щитовидной железы в пародонтологии
Л.А.Алиева..... 18
Некоторые особенности выявления латентной туберкулезной инфекции
З.Ш.Кадымова.....24
Reproduktiv yaşlı qadınlarda xroniki endometritin müalicəsinə yanaşmalar haqqında
A.Ə. Bədəlova, S.Ə.Əkpərbəyova..... 38

ORİJİNAL MƏQALƏLƏR-ОРИГИНАЛЬНЫЕ СТАТЬИ

Иммунологические показатели, отражающие состояние противоинфекционной резистентности у молодых здоровых жителей Азербайджана
А.А.Кадырова, Г.М.Мамедов, А.А.Гулиева, Н.О.Гудратов, И.Н.Ахмедова.....35
Результаты применения противовирусных препаратов для лечения хронического гепатита В у онкологических больных
Ю.А.Ахмедов, С.Р.Гиясбейли, Р.С.Зейналов, М.К.Мамедов, С.Э.Рагимзаде, А.А.Рагимов.....37
Спондилоартриты и болезнь крона: проблемы диагностики и лечения
Г.Г. Бабаева 40
Prenatal ontogenezdə səthi incik sinirinin struktur xüsusiyyətləri
G.A.Hüseynova.....46
Eksperimentdə arterial hipertenziya modelində qanın biokimyəvi göstəriciləri və lizosomal fermentlərin fəallığı, aparılan antihipertenziv müalicənin effektivliyi
N.R.Azayeva 50
Azərbaycan Respublikasının Muğan düzünə daxil olan rayonlarda malyariya xəstəliyinin eliminasiyadan əvvəl və eliminasiya dövründə qeydiyyatının dinamikası
N.M.Zeynalova..... 54
Xronik tonzillitin törədicilərinin faqositozun mexanizmlərinə davamlılığının xarakteristikası
A.Ə.Əzizov..... 59
Apikal periodontda iltihabı dəyişikliklərin xarakterindən asılı olaraq periodontitli xəstələrdə optimal müalicə metodunun tədbiqi
B.F. Əliyev, Q.İ.Qurbanəliyeva 62
Baş beyin infarktı və kəskin miokard infarktının birgə gedişi zamanı diaqnostik tədbirlər
İ.S.Babaxanov..... 66
Clinical case of Mastocytosis
F.R. Makhmudov, M.A. Obeidat, S.A.Mizher……70
Atopik dermatit olan uşaqlarda sitokinlərin dinamik dəyişiklikləri
G.Ə.Cəfərova 73
Blastosistozun əhali arasında yayılması və epidemioloji xüsusiyyətləri
N.O.Məmmədova..... 76
Böyüklərdə sitomeqalovirus infeksiyasinin risk amilləri
Z.N.Hüseynova..... 79
İlanbaşı (Dracocephalum L.) bitkilərinin fitokimyəvi tədqiqi və tibbdə istifadəsi
G.S. Cəfərova, C.İ.İsayev..... 82
Состояние пародонта под влиянием препарата «Метеонат» у пациентов с гастроэзофагеальной рефлюксной болезнью
А.Ч. Пашаев, Р.Я.Гурбанов, К.Б. Шахбазов, М.Э .Кулиев, Р.С. Фараджев, Х.А.Алекперова.....87
Yuvenil artritlər və həyat keyfiyyəti anlayışı
Z.U.Məmmədova..... 92
Əhalinin virus əleyhinə dərman vasitələri haqqında informasiya təminatının öyrənilməsi
E.Z.Abdullayev..... 95
Ürəyin işemik xəstəliyinin müxtəlif formalarının klinik gedişinin ağırlaşmalarının və kəskinləşmələrinin əmələ gəlməsində
meteoroloji amillərin və geomaqnit aktivliyin rolunun öyrənilməsi
N.K. Rüstəmova, E.Z.Ələkbərov.....97

Bakı şəhəri apteklərində merçandayzinq prinsip və qaydalarının tətbiqi səviyyəsinin öyrənilməsi
E.A.Quliyeva, N.S.Zülfüqarova.....102
Реактивно-дистрофические аспекты ортопедического стоматологического лечения
Г.М.Архмамедова... 105
Qida borusunun əməliyyatsonrakı anastomoz daralmalarının müalicəsində endoskopik stentləşmə üsulunun tədbiqi
H.N.Həsənova. 109
Qadın sonzsuzluğuna müasir yanaşma
F.R.Hacıyeva, G.M.Əliyeva..... 113
Хронический легочный аспергиллез как осложнение легочного туберкулеза
Р.М.Гусейнов..... 116
Ağciyərlərin bulyoz dəyişiklikləri və onun ağırlaşması ilə xəstələrin cərrahi müalicəsinin aspektləri
R.B. Kərimov, B.İ. Bayramov, F.F. Ağayev, R.K. Bədəlov, M.V.Nəsirli.....120
Ürəyin işemik xəstəliyi olan xəstələrdə miokard infarktı zamanı aorta daxili nasosun tədbiqinin öyrənilməsi
K.Musayev, R. İbrahimov. B.Əliyev.....125
Kəskin pankreatitlər zamanı orqanizmin sistem iltihabi cavab reaksiyası parametrlərinin dəyişməsinin diaqnostik və proqnostik əhəmiyyəti
E.A. İskəndərov, F.S. İdrisov, E.A. Əliyeva, R.Z.Eminov.....131
Kəskin pankreatitlər zamanı orqanizmin sistem iltihabi cavab reaksiyası parametrlərinin dəyişməsinin diaqnostik və proqnostik əhəmiyyəti
E.A. İskəndərov, F.S. İdrisov, E.A. Əliyeva, R.Z.Eminov 135
Sümük şişlərinin maqnit-rezonans tomoqrafik semiotikası
A.R. Hüseynova..... 139
Şəkərli diabet xəstəliyi zamanı miokardda, ürəyin sinir aparatında və tac damarlarda meydana çıxan patomorfoloji dəyişikliklər
M.B. Əliyev, R.P. Həsənov, T.N. Mirzəyeva, E.Ç.Əkbərov 145
Mebel istehsalında əmək şəraitinin işçilərin həyat keyfiyyətinə və sağlamlıq vəziyyətinə təsiri
M.Y.Nəbiyeva, C.Y.Salihova..... 149
Naftalan nefti və bitki ekstraktı əsasında iltihabəleyhinə məlhəmin hazırlanma texnologiyası
S.C. Mehralıyeva, E.A. Quliyeva, R.Ə.Atakişiyeva 152
Raman spektroskopiyasinin tibbdə istifadəsinin müasir imkanları
F.R.Hacıyeva..... 158
Дисплазия соединительной ткани как фактор риска развития пролапса гениталия
И.Г.Кафаров..... 162
Xronik generalizə olunmuş parodontitli xəstələrin müalicə nəticələrin xüsusiyyətlərinin müzakirəsi
S.V. Puri-zahidan, G.H. Əliyeva, S.T. Hüseynova, N.K. Kərimli, H.İ. İsmayılova, X.A.Ələkbərova 167
Erkən reproduktiv dövrdə yeniyetmə qızlarda ümumi infantilizmin klinik-diaqnostik xüsusiyyətlərinin müasir aspektləri
G.Q. Həsənli, E.M. Əliyeva, N.E. Axundova.....171
Общая оценка структуры причин смерти детского населения
У.С.Микаилов, А.А.Ханмамедова, А.Б.Мевлиев, О.А.Мирзоев……..……174
Xora mənşəli qastroduodenal qanaxmaların müasir diaqnostika və müalicəsinin xüsusiyyətləri
İ.L. Kazımov, E.A. İskəndərov, M.S.Əfəndiyev…..……178
Eksudativ orta otit müalicəsində şuntlamanin effektivliyi
N.Ə.Muradova, V.M.Pənahian…….....184
Пробиотические средства в комплексном лечении воспалительных заболеваний пародонта
Садыгова Н.Н., Мамедов Ф.Ю., В.М.Гасанов……..……188
Helicobacter pylori ilə əlaqəli qastroduodenal patologiyalarda seroloji müayinələrin nəticələrinin müqayisəli qiymətləndirilməsi
M.Ç.Qasımova…….....193
Lazer şualanmasının M.tuberculosis-ə mutagen təsiri
R.K. Bədəlov, R.M. Abuzərov, F.F. Ağayev, M.N.Seyfəddinova……..197
Хирургическое лечение младенцев с критическим аортальным стенозом
Э.Иманов, А.И.Плиска, В.В.Лазоришинец.....201
Клинико-иммунологические проявления локально инфекционно-воспалительные заболевания у детей грудного возраста на фоне дисбактериоза
Г.А. Курбанов, С.Г.Магеррамова…….....207
Анализ эффективности программы психоэдюкации при лечении больных шизофренией
А.Р.Расулов..... 212
Qanaxma ilə ağırlaşmış onikibarmaq xorası zamanı xəstələrin diaqnostika və cərrahi müalicəsinin müasir vəziyyəti

A.Q.Mehdiyev, İ.L.Kazımov..... ……219
Təşviş-qorxu pozuntuları müxtəlif səviyyələrdə olan parodontitli xəstələrin ağız suyunda kortizol hormonu və iltihabli zülalların tədqiqi
R.N.Soltanov, A.R.Əliyev, G.K.Haciyeva..... 225
Tiroid düyünlərinin diaqnostiksında elastoqrafiya və Doppler sonoqrafiya müayinələrinin müqayisəli təhlili
L.Z.Ağabəyli..... 228
Brusellozun bəzi infeksion və qeyri-infeksion xəstəliklərdə differensial diaqnozu haqqında
Ə.H.Vəliyev, İ.P.Bayramov, V.N.Cavadzadə, Ü.M.Məcidova, N.O.Məmmədova…….....…..231
Vərəm xəstəliyinin erkən aşkarlanmasının uşaq, yeniyetmə və gənclər arasında vərəmə yoluxmaya təsiri
Y.Ş.Şıxəliyev, İ.Ə.Qasımov, M.A.Şıxlinskaya, L.H.Kazımova, X.S.Bədəlova, C.C.İsmayılov.....233
Şəkərli diabet və hamiləlik
P.İ.Əliyeva, L.H.Bağırova, .A.Babayeva, R.Ş.Vəzirova…….……...241
Редкий случай врожденного нарушения гликолизирования III типа (CDG2L): трудности диагностики
Э.В.Гурбанова..... 244
Состояние сердечно-сосудистой системы при нарушении функции щитовидной железы
М.Ф. Исаева..... 248
Фармакологически активная флора Азербайджана
Д.А. Гасанова, С.Т.Гулиева..... 253
Влияние нитрата свинца на неспецифические показатели иммунитета и циркулирующие иммунные комплексов белых крыс
Д.М. Рзакулиева, З.Я. Велиева, Ю.Б. Исмайылов, Т.А. Салимли, Г.Я. Гаджиева, М.Г.Алекперова ...256
Трехлетние клинические результаты монолитных циркониевых реставраций, установленных на премоляры и моляры
С.С.Алиева.. 259
Роль и возможности современных малоинвазивных технологий в комплексном лечении варикозной болезни вен нижних конечностей (реальность и перспективы)
С.С. Манафов, М.М.Керимов, Х.М. Хагвердиева.....264
Исследование биохимического состава видов рода Sambucus L
М.Б.Зульфугарова…..….269
Возрастные особенности количества начальных отделов малых желез преддверия влагалища женщин в постнатальном онтогенезе
С.В.Шадлинская…….....……272
Heriatrik yaş qrupunda astenik sindrom və ürək ritminin pozuntuları
S.K. Şahbazbəyova, İ.T. Rəsul, K.M. Salihova, N.H.Həsənova ……..……..……277
Dölün bətndaxili inkişaf ləngiməsi sindromu haqqında müasir təsəvvürlər
N.M.Kamilova, Ş.M.Xəlilova, İ.A.Sultanova…….....279

PRAKTİK HƏKİMƏ KÖMƏK-ПОМОЩЬ ПРАКТИЧЕСКОМУ ВРАЧУ

Parazitozların müalicə və profilaktikası
V.N.Cavadzadə…..……..285
Современные проблемы диагностики билиарных дискинезий
М.Р.Ибрагимов…….....……288
Mədə-bağırsaq traktının hərəki fəaliyyətinə müasir baxış
F.M. Abdullayev, A.A.Verdiyev, L.Ə. Hidayətova, S.Ə. Əliyeva…….294
Erkən yaşı uşaqlarda nadir 4p xromosom xəstəliyi (klinik müşahidə)
E.C.Bağırova…….....298
Cutix laxa ilə yanaşı gedən şəkərli diabet xəstəliyi
İ.V. Bəhməni, Z.V.Kazımzadə, S.A. Əliyeva …..……300
Autoimmun hepatitlərin gedişi və növləri
T.A.Hacıyeva, M.Z.Ömərova, T.L.Borodayeva, A.C.Ağamaliyeva, Y.K.Rüstəmova, G.Z.Cavadova…303.

XRONİKA- ХРОНИКА

Təbrik edirik. 306